

**RUHƏNGİZ ƏLİYEVA**

Naxçıvan şəhərində anadan olub. Təhsilin bakalavr, magistratura, doktorantura pillələri-ni bitirib. 2003-cü ildə “Həsrət çiçəyi”, 2005-ci ildə “Dərsliklərdəki bədii nü munələrdə tərbi-yə məsələləri”, 2008-ci ildə “ Tərbiyə ruhun özü lü dü r”, 2012-ci ildə “Poeziya, səni aparaca- ğam”, 2018-ci ildə “Səssizliyin səsi” adlı kitab- ları işıq ü zü görü b. Məqalələri dövri mətbuat-da və xaricdə dərc olunub. 32 elmi, 123 publi-sistik məqalənin mü əllifidir.

“Qızıl Qələm” və Azərbaycan Kü tləvi İ`nfor-masiya Vasitələri Həmkarlar İ`ttifaqının “Azər-baycan bayrağı” mü kafatlarına layiq görü lü b.

Azərbaycan Yazıçılar Birliyinin və Naxçıvan Yazıçılar Birliyinin ü zvü dü r.

Ailəlidir, ü ç övladı var.

# MßMMßD SßİD ORDUBADİNİN
# MAARİF×İ GÞRÖØLßRİ

RÜHƏNGİZ ƏLİYEVA

# MßMMßD SßİD ORDUBADİNİN

# MAARİF×İ GÞRÖØLßRİ

RÜHƏNGİZ ƏLİYEVA

**RÜHƏNGİZ ƏLİYEVA**

# MƏMMƏD SƏİD ORDUBADİNİN MAARİFÇİ GÖRÜŞLƏRİ

**BAKI-2019**

**Elmi redaktor:** **İsa Həbibbəyli,**
*akademik, AMEA-nın həqiqi üzvü*

**Rəyçi:** **Elbrus İsayev,**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Rühəngiz Əliyeva.**
**“Məmməd Səid Ordubadinin maarifçi görüşləri”.**
Bakı, “Adiloglu” nəşriyyatı, 2019, 208 səh

*Kitabda Azərbaycan yazıçısı və maarifpərvər Məmməd Səid Ordubadinin ədəbi-bədii yaradıcılığı, məktəb təhsili və müəllimləri, ictimai-siyasi fəaliyyəti, vətənpərvərlik baxışları, Azərbaycanda maarifçilik hərəkatındakı rolu ilə bağlı dəyərli məlumatlar verilmişdir.*

*Kitab pedaqoji yönlü ali məktəblərərin bakalavr və magistrləri, doktorant və müəllimləri, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**ISBN 978-9952-37-225-0**

© R.Əliyeva, 2019

# GİRİŞ

Poetik təfəkkürə, yüksək əxlaqi keyfiyyətlərə və həssas mənəvi aləmə malik olan Azərbaycan xalqının çoxəsrlik tarixi boyunca gənc nəslin tərbiyəsi ilə bağlı zəngin pedaqoji fikirlər yaranmışdır. Bu mənəvi əxlaqi-pedaqoji sərvətləri öyrənmək, onları pedaqoji təfəkkür süzgəcindən keçirib müasir gəncliyin tərbiyəsində istifadə etmək və məktəb təcrübəsinə gətirmək tədqiqatçıları düşündürən əsas problemlərdən biridir. Çünki, yeni pedaqoji fikir keçmişin mütərəqqi irsi ilə orijinal fikirlərin sintezindən yarana bilər. Elə buna görə də, ölkəmizdə təlim və tərbiyənin yeni konsepsiyasını, inkişaf tendensiyalarını müəyyənləşdirməyə çalışan tədqiqatçılar Azərbaycan pedaqoji irsindəki qabaqcıl ideya və təcrübələrin, ayrı-ayrı şəxslərin təlim-tərbiyə ilə bağlı fikirlərinin tədqiq edilib öyrənilməsinə xüsusi diqqət yetirmişlər. XIX-XX əsrlərdə yaşayıb-yaratmış bir çox maarifpərvər ziyalılarımızın, o cümlədən M.Ş.Vazeh, A.Bakıxanov, M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, A.O.Çernyayevski, M.Mahmudbəyov, M.T.Sidqi, C.Məmmədquluzadə, F.Köçərli, M.Ə.Sabir, A.Şaiq, F.Ağazadə, A.Səhhət, S.S.Axundov, Ü.Hacıbəyov, Hüseyn Cavid, Bəxtiyar Vahabzadə kimi görkəmli yazıçı-pedaqoqların Azərbaycan məktəbinə, təlim-tərbiyəyə dair görüşləri geniş şəkildə araşdırılmışdır. Lakin, xalqımızın görkəmli maarifçi simalarının heç də hamısının pedaqoji irsi layiqincə

araşdırılmamışdır. Faktdır ki, Azərbaycan pedaqoji fikrinin inkişaf tarixindən bəhs edən elmi ədəbiyyatların əksəriyyətində Məmməd Səid Ordubadinin pedaqoji ideyalarından ya ümumiyyətlə söz açılmamış, ya da təsadüfən böyük maarifçi qələm sahibinin təxəllüsü digər maarifpərvər ziyalıların adları ilə eyni sırada çəkilmişdir. Halbuki, xalqımızın mənəviyyat pasportuna çevrilən Məmməd Səid Ordubadinin ömür və sənət yolunu Azərbaycan maarifçilik hərəkatından ayrı təsəvvür etmək qeyri-mümkündür. Ulu Öndər Heydər Əliyev Məmməd Səid Ordubadinin ictimai-siyasi görüşlərini səciyyələndirərək demişdir: "Məmməd Səid Ordubadi XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Məmməd Səid Ordubadi Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Məmməd Səid Ordubadinin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Məmməd Səid Ordubadinin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur" ( s.31-34).

Görkəmli Azərbaycan yazıçısı və maarifpərvəri Məmməd Səid Ordubadinin ədəbi-bədii yaradıcılığı, ictimai-siyasi fəaliyyəti ilə bağlı dəyərli araşdırmalar aparılmış olsa da, lakin indiyə qədər onun zəngin pedaqoji irsi, maarif, məktəb, təlim-tərbiyə,

qadın təhsili, ana dili və s. ilə bağlı fikirləri sistemli şəkildə tədqiqata cəlb olunmamışdır. Halbuki, yazıçının pedaqoji irsi və maarifçi ideyaları bu gün də böyüyən nəslin təlim-tərbiyəsində mühüm rol oynayır. M.S.Ordubadinin Azərbaycanın pedaqoji fikir tarixində xüsusi yeri və mövqeyi vardır. Məhz elə buna görə də, Məmməd Səid Ordubadi yaradıcılığındakı pedaqoji ideyaların üzə çıxarılmasını, müqayisəli şəkildə təhlil olunmasını və sistemləşdirilməsini qarşımıza məqsəd qoymuşuq.

Ümummilli liderimiz Heydər Əliyevin aşağıdakı fikirləri sübut edir ki, Məmməd Səid Ordubadinin maarifçilik fəaliyyəti öyrənilməli və öyrədilməlidir. Ulu Öndər M.S.Ordubadi yaradıcılığının tədqiqi və öyrənilməsi ilə bağlı demişdir Ulu Öndər Heydər Əliyev Məmməd Səid Ordubadinin Azərbaycan elmi-estetik fikir tarixində xidmətlərini səciyyələndirərək demişdir: *“Məmməd Səid Ordubadi Azərbaycan xalqının tarixinə ədəbiyyatın ən yaxşı təmsilçilərindən biri kimi daxil olmuşdur. O, öz ölməz romanları, povestləri, hekayələri və pyesləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmiş, bütün mədəniyyətin inkişafına böyük töhfə vermişdir.”*

Məmməd Səid Ordubadinin pedaqoji ideyalarının tədqiq edilib öyrənilməsi ona görə vacibdir ki:

1. Ömrünün sonuna kimi ədəbi yaradıcılıqla məşğul olan Məmməd Səid Ordubadi XX əsrin əvvəllərində ictimai-pedaqoji hərəkatın əsas simalarından biri olmaqla yanaşı, digər demokratik maarifçilərlə çiyin-çiyinə çalışmış, dövrünün mühüm

maarifçilik məsələlərini demokratik əsaslarla həll etmək uğrunda ciddi mübarizə aparmışdır.

2. Məmməd Səid Ordubadinin maarifçi-pedaqoji irsinin öyrənilməsi tək tarixilik nöqteyi-nəzərindən deyil, həm də bu gün üçün də faydalıdır. Çünki, onun təlim-tərbiyəyə aid fikirləri müasir məktəblərimiz üçün, gənc nəsli nəcib əxlaqi keyfiyyətlər ruhunda tərbiyələndirmək işində xüsusi əhəmiyyətə malikdir.

3. Yüksək mədəniyyətə malik, vətənpərvər, humanist, dərin düşüncəli yazıçı və maarifçi, görkəmli ictimai və mədəniyyət xadimi Məmməd Səid Ordubadinin həyat yolu gənclərə bariz nümunədir.

# THE ENLIGHTENER VIEWS OF MAMMAD SAID ORDUBADI

## Introduction

The rich pedagogical thoughts were created relating to education of young generation throughout many centenary histories of Azerbaijan people having poetic thinking, high ethical qualities and sensitive moral characters. The studying of this moral ethical-pedagogical resources, to use them as a pedagogical thinking filter and to use it in the upbringing of modern youth and bringing to school experience is one of the serious problems that researchers thinking. Because a new pedagogical idea can arise from the synthesis of original ideas with the progressive heritage of the past. Therefore, in our country researchers who are trying to identify the new concept of training, upbringing and development tendency have paid special attention advanced idea and experiments, studying and researching of thoughts related individual persons in Azerbaijan pedagogical heritage. The thoughts widely investigated concerning Azerbaijan school, training and education of our many educated intellectuals, including outstanding writer-pedagogues as M.S.Vazeh, A.Bakixanov, M.F.Axundzade, S.A.Shirvani, H.Zerdabi, A.O.Chernyayevski, M.Mahmudbeyov, M.T.Sidgi, C.Mammadguluzadeh, F.Kocharli, M.A.Sabir, A.Shaig, F.Agazadeh, A.Sahhat, S.S.Akhundov, U.Hacıbeyov, Huseyn Cavid,

Bakhtiyar Vahabzadeh who lived and created in the XIX-XX centuries.

Not all pedagogical heritage of the outstanding enlightenment images of our people have been properly investigated. It is a fact, in most of the scientific literature on the history of the development of the pedagogical idea of Azerbaijan, Mammad Said Ordubadi's pedagogical ideas either, had not mentioned or incidentally the pseudonym of the great enlightener penholder was in the same order as the names of other educated intellectuals. However, it is impossible to imagine the life and art way of Mammad Said Ordubadi apart from the Azerbaijani enlightenment movement, which has become a moral passport of our people.

However, valuable research has done on the literary-artistic, social-political activity of prominent Azerbaijani writer and educator Mammad Said Ordubadi but until now his rich pedagogical heritage, thoughts about education, school, training, woman education, mother tongue and so on has not been systematically involved in research. Although, today pedagogical heritage and enlightenment ideas of the writer play an important role in the upbringing of the growing generation. M.S.Ordubadi has a special place and position in pedagogical thought history of Azerbaijan. That is why we aimed at revealing, comparative analysis and systematization of pedagogical ideas in the creativity of Mammad Said Ordubadi. First of all the urgency of the topic proves the following thoughts of our national leader Heydar Aliyev.

Studying and researching of pedagogical ideas of Mammad Said Ordubadi is important because of that:

1. Mammad Said Ordubadi, who was engaged in literary creativity by the end of his life at the beginning of the twentieth century, besides being one of the main images of the social-pedagogical movement, he worked hard against other democratic

educators and struggled to solve important educational problems of the time on a democratic basis.

2. The studying of the educational-pedagogical heritage of Mammad Said Ordubadi is not only from the point of view of history, but also important for today. Because his thoughts about education and upbringing are particular importance for our modern schools, for upbringing the younger generation in the spirit of noble moral qualities.

3. A highly educated, patriotic, humanist, deep-minded writer and educator, prominent public and cultural figure Mammad Said Ordubadi's life way is an example for young people.

I FƏSİL

# GÖRKƏMLİ MAARİFÇİ ƏDİB MƏMMƏD SƏİD ORDUBADİ HAQQINDA



## 1.1. Məmməd Səid Ordubadinin həyatı və yaradıcılığı

Azərbaycan ədəbiyyatı və maarifçilik hərəkatı tarixində həyatı, əsərləri, eləcə də ictimai-siyasi fəaliyyəti ilə özünəməxsus yer tutan görkəmli yaradıcı ziyayılarımızdan biri də Məmməd Səid Ordubadidir. Qeyd-şərtsiz, Məmməd Səid Ordubadinin həyatı və yaradıcılığını öyrənmək XIX əsrin ikinci yarısından XX əsrin ikinci yarısına qədərki bir dövrdə ölkəmizin ictimai-siyasi həyatında, ədəbiyyat tariximizdə, həmçinin məktəb hərəkatında gedən proseslərə nəzər yetirmək, həmin proseslərin mahiyyətini aydınlaşdırmaq deməkdir. Əlbəttə ki, Azərbaycan elmi fikrinin bu böyük şəxsiyyətin həyat və yaradıcılığına tam biganə qaldığını söyləmək həqiqətdən uzaq olar. Bununla belə, mövcud tədqiqatların kifayətləndiriciliyini iddia etmək də doğru deyil. Məmmədsəidşünaslıqdakı real vəziyyəti "Böyük ədəbiyyat nəhəngi" kitabında akademik İsa Həbibbəyli belə dəyərləndirmişdir: "Son yüz ildə Azərbaycan ordubadişünaslığı əsasən tanınmış ədəbiyyatşünaslardan Yavuz Axundlu, Fəridə Vəzirova, Tofiq Rüstəmov, Əkbər Məftun, Bəxtiyar Əsgərov, Nuridə Bağırovanın və başqalarının tədqiqatlarından ibarətdir. Həmin araşdırmaların isə əksəriyyəti kril əlifbası ilə kitab halında nəşr olunduğundan və keçmiş sovet ideologiyası dövrünə təsadüf etdiyindən demək olar ki, hazırda elmi dövriyyədən müəyyən dərəcədə kənarda qalmışdır." (35, s. 13)

Məmmdə Səid Ordubadinin ömür və sənət yolunu maarifçilik, məktəbdarlıq hərəkatımızdan ayrı təsəvvür etmək qeyri-

mümkündür. Ölməz əsərləri ilə milli düşüncəmizin tərəqqisinə xidmət edən bu qüdrətli qələm sahibi 1872-ci ildə maarifçi bir ailədə - "Əncüməni-şüəra" ədəbi məclisinin ən fəal üzvlərindən biri, eləcə də Ordubadda yeni üsullu məktəb açmış şair Hacıağa Fəqir Ordubadinin ailəsində dünyaya gəlmişdir. Hələ gənc yaşlarından ərəb və fars dillərini kamil bilən Hacıağa Fəqir Ordubadi klassik Şərq ədəbiyyatına dair mükəmməl bilgilərə sahib olmuş, şeirlərindəki mütərəqqi fikirlərə görə davamlı təqiblərə də məruz qalmışdır. Professor Əsgər Qədimov "XIX əsr Ordubad ədəbi mühiti" adlı irihəcmli monoqrafiyasında yazır: "Təqiblərə və yoxsulluğa məruz qalan Fəqir doğma vətəni Ordubadı tərk edərək bir müddət Türküstan və İranda yaşamağa məcbur olur. Bu illərdə "Əncüməni-şüəra"nın üzvlərindən olan görkəmli maarifpərvər şair M.T.Sidqi də Ordubadı tərk etmişdi. Hər iki şairin Ordubaddan uzaqlaşması "Əncüməni-şüəra" ədəbi məclisinin zəifləməsinə və pərakəndə hala düşməsinə səbəb olmuşdu. Odur ki, vətəndən xaricdə M.T.Sidqi ilə görüşən Fəqir onun təkidi ilə yenidən Ordubada qayıdır və məclisə başçılıq etməklə bərabər, maarifçilik fəaliyyətini də davam etdirir. Bu vaxtlar Fəqir Ordubadda yeni üsullu məktəb açır. Bu məktəbdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu." (64, s. 61)

Şübhəsiz ki, Hacıağa Fəqirin əhatəsində olduğu ədəbi mühit Məmməd Sədi Ordubadi dünyagörüşünə də təsirsiz qalmamışdır. Hətta çox doğru olaraq elmi ədəbiyyatlarda M.S.Ordubadinin ilk müəlliminin məhz atası Hacıağa Fəqir Ordubadi olduğu göstərilməkdədir (Bax: 33, s. 50). Bununla belə, böyük yazıçı məşhur "Həyatım və mühitim" memuarında ilk müəllimləri kimi Şəhərbanıxanım və Mirzə Baxşıdan bəhs edir.

M.S.Ordubadinin tərcümeyi-halında 1892-1894-cü illər, yəni gələcək yazıçının tərəqqipərvər ziyalı Məhəmməd Tağı Sidqinin rəhbərliyi altında Ordubad şəhərində fəaliyyət göstərən "Əxtər" məktəbində təhsil aldığı 2 il ciddi bir fakt olaraq yer tutmaqdadır. Təsadüfi deyil ki, yazıçı "Həyatım və mühitim" əsərinin "Ordubadda yeni üsulda məktəb" başlıqlı bölməsində "Əxtər" məktəbi ilə bağlı xatirələrindən ayrıca söz açmışdır. Həmin xatirələr çağdaş Azərbaycan elmi ictimaiyyəti üçün bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi, XX əsr Azərbaycan sovet ədəbiyyatşünaslığı 1990-cı illərə qədər türk dünyasının görkəmli nümayəndəsi, Rusiya imperiyası sərhədləri daxilində yaşayan müsəlmanlar üçün yeni üsullu məktəb hərəkatının aparıcı siması İsmayıl bəy Qaspıralını adətən pantürkis damğası ilə düşmən obrazında tanıtmışdır. M.S.Ordubadinin xatirələrində isə İsmayıl bəy Qaspıralını yenilikçi kimi görürük. İkincisi, ötən yüzilə aid elmi mənbələrdə "Əxtər" məktəbi bir qayda olaraq Məhəmməd Tağı Sidqini adı ilə əlaqələndirilmişdir. "Həyatım və mühitim"də isə Ordubadda yeni üsullu ilk məktəbin yaradıcılları kimi xalqın digər maarifpərvər imkanlılarının fəaliyyəti aşağıdakı şəkildə dəyərləndirilir: "İsmayıl bəy Qasprinski Baxçasarayda yeni məktəb kitabları çap edirdi. "Üsuli-cədid" deyilən təzə üsulda məktəb açılmasına başlanmışdı. Ordubad tərəqqipərvər ziyalıları, xüsusən varlılardan bəziləri Ordubadda bu kimi məktəbin açılmasınsa çalışırdılar. İşin başında Hüseyn Soltan Kəngərlinski idi. Hüseyn Soltan varlı mülkədar idi. Dizə kəndinin və Dəstə kəndinin çox hissəsi Hüseyn Soltanın əlində idi. Bundan əlavə, ticarət edər və pul müamiləyə verərdi. Hüseyn

Soltan ətrafına ziyalılardan və xırda varlılardan bir çoxunu toplamışdı. Kupes Əhməd İsmayılov, Hüseyn Mirzə Xəlil Salehzadə, Soltan Hacıbəyzadə, Əsgər Hüseynzadə və başqaları məktəbin rəhbərləri sayılırdı." (100, s. 23)

Ümumiyyətlə, M.S.Ordubadi 1918-ci ilə qədər son dərəcədə gərgin və ağır bir həyat yaşamışdır. Əlbəttə ki, bu gərginlik ilk növbədə ailə mühiti ilə əlaqəli olmuşdur. Prinsipcə gələcək yazıçının atası tərəfindən qəbul edilmiş "Fəqir" təxəllüsü ailənin vəziyyətinə tamamilə müvafiq idi. Həyat şəraitinin ağırlığı, hədsiz ehtiyac səbəbindən o, 14 yaşından etibarən əmək fəaliyyətinə başlamış, ilin altı ayını məktəbə, altı ayını isə az maaşla ipək zavodunda işləməyə getmişdir. Atasının bir şair olaraq daim yoxsulluq içərisində yaşadığını görən M.S.Ordubadi bəzi vaxtlarda ədəbiyyata küskün mövqe nümayiş etdirsə də, öz duyğularını daim yazıya almaq vərdişindən, əslində nəslən ona çatan yazıçılıq sənətindən əl çəkə bilməmişdir. Maraqlıdır ki, "Həyatım və mühitim" memuarının "Birinci və axırıncı sevgim" bölməsində müəllif Ordubadda Babayevin ipək zavodunda işləməsinindən söz açmaqla bərabər, Varvara adlı bir qızın ona məhəbbət bəsləməsini, eyni zamanda bu erməni qızının varlı biri ilə evlənməsini də qələmə almışdır. Hər halda M.S.Ordubadi türkcə ilk şeirini bəşəri humanizmə istinadən məhz Varvaraya yazdığını da gizlətmir. Oxucu isə Varvaranın öz sevgisində səbatsızlığını gördükdən sonra bir daha inanır ki, ermənilər üçün ali sevgi məfhumu yoxdur.

M.S.Ordubadinin 1890-cı illərə dair tərcümeyi-halı "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" kitabında qısa şəkildə belə səciyyələndirilmişdir: "1892-1894-cü illər – M.T.Sidqinin Ordubadda açdığı "Əxtər" məktəbində oxumuşdur.

90-cı illərin ikinci yarısı – Ordubadda ipək fabrikində fəhləlik etmişdir. Şeir yazmış, açıqfikirli olduğu üçün təqib edilmiş, evində axtarış aparılmışdır. C.Məmmədquluzadə ilə görüşmüşdür (Nehrəm kəndi, 1895-ci il).” (40, s. 50)

Maraqlıdır ki, XIX əsrin sonlarında, həmçinin XX əsrin əvvəllərində biz, ümumiyyətlə, M.S.Ordubadini gərgin situasiyalı hadisələrin mərkəzində görürük. Məsələn, ədibin xatirələrindən məlum olur ki, hələ 1901-ci ildə Rzayevin zavodunda iş şəraitinin ağırlığı haqqında şeir yazmış, bu barədə zavod işçiləri ilə söhbətlər aparmışdır. Hər halda o dövrdə yazıldığı göstərilən şeir M.S.Ordubadi dünyagörüşündə şərə qarşı mübarizənin artıq qərarlaşdığını göstərməkdədir:

Qorxuruq küləkdən, qorxuruq yeldən,
Ruzumuz asılmış incə bir teldən.
İşə çağırırlar ulduz batmamış,
İşdən buraxmazlar şəhər yatmamış. (7, s. 33)

Şübhəsiz, bu misraları birbaşa kəskin etiraz kimi dəyərləndirmək doğru olmaz. Bununla belə, inkar etmək olmaz ki, M.S.Ordubadi öz şeiri ilə Azərbaycan zəhmətkeşinin dözülməz şəraitdə çalışmasını, onun əməyinin Rzayev kimi sahibkarlar tərəfindən bütünlüklə, həm də insafsızcasına mənimsənilməsini son dərəcədə dəqiqliklə ifadə edə bilmişdir. Faktlar deməyə əsas verir ki, XX əsrin əvvəllərini M.S.Ordubadi həyatının ilkin mübarizələr dövrü kimi də səciyyələndirmək mümkündür. Daha doğrusu, Rzayevə məxsus fabrikin həyatində “Şərqi-Rus”

qəzeti oxuduğuna görə ustabaşı Nağı tərəfindən töhmətləndirilən gənc yazar ilk şeirini bu mətbu orqanda çap etdirdikdən sonra işdən qovulmuşdur. Əkbər Məftunun "Məmməd Səid Ordubadi" kitabında yazıçının ilk mətbu əsəri bir tərcümeyi-hal göstəricisi kimi belə təhlil olunmuşdur: "Tiflisdə "Şərqi-Rus"-un 13 iyul 1903-cu il tarixli 31-ci nömrəsində "Kərbəlayi Məhəmməd Hacıağazadə, təxəllüs Səid Ordubadi" imzası ilə dərc edilən ilk şeri onun hörmət və şöhrətini artırdığı halda, fabrikdə vəziyyətini daha da ağırlaşdırdı. Şair yazırdı:

Gözüm dur xabi-rəflətdən, çıxıb gün aşkar oldu,
Bəhəmdülla, şəbi-yelda, gedib nisfünnahar oldu.
Dolubdur sefheyi-aləm şüayi-"Şərqi-Rus"ilə,
Qaranlıq gönlümün zülmət sərasi zərnikar oldu.

Mətbuata böyük ümidlər bəsləyən, vicdan və söz azadlığı uğrunda mübariz şəxsiyyətlərin yolunu davam etdirməyə can atan M.S.Ordubadi "Şərqi-Rus" qəzetini alqışlamaq istəyirdi. Lakin o, həyatda baş verən hadisələri, inqilabi mübarizəni hələ dərindən dərk edə bilmirdi. Bununla belə, şairin işıqlı günləri, aydın səhərə olan sonsuz marağı get-gedə çoxalır, yaradıcılıq ilhamı coşurdu...

Mətbuatda çıxış edən gənc şairin haqq səsi yerli baqqal və tacirləri, mülkədarları, fabrik-zavod sahiblərini çox narahat edirdi. Buna görə də sahibkar-ərbab Rzayev, Ordubadini və onun fəhlə dostu Yusifi işdən qovmuşdu." (23, s. 15)

Qəti şəkildə demək mümkündür ki, təqiblərə və hədə-qorxulara baxmayaraq ictimai ədalət uğrunda mübarizəni özünün

həyat amalına çevirən M.S.Ordubadi yenə də "Kimdir günahkar?" sualına cavab axtarmış, iş yeri olaraq Rzayevin, Fərəcovun, Ərəbovun, Hacı İsmayıl Nağıyevin ipək zavodlarında çalışarkən ictimai zülmün hər yerdə daha amansızlıqla hökmranlıq etməsi qənaətinə gələn gənc maarifçi xilas yolunu cəmiyyət üzvlərini qəflət yuxusundan ayıltmaqda görmüş, "Qəflət" adlı ilk kitabını 1906-cı ildə Tiflisdə fəaliyyət göstərən "Qeyrət" mətbəəsində nəşr etdirmişdir. Əlbəttə ki, M.S.Ordubadinin çox çətinliklə əldə etdiyi hər bir uğur onun düşmənlərinin daha qəti hucumu ilə nəticələnmiş, Ordubadda hüzr yerlərinə buraxılmayan gənc ədib "Qəflət" kitabının nəşrindən sonra bəhayi olmaqda günahlandırılmış, dinsiz elan edilmişdir.

Düşündürücüdür ki, "Qəflət" kitabı XX əsrin əvvəllərində nəşr olunmasına baxmayaraq, bu kitab haqqında obyektiv və dolğun elmi təhlillərlə XXI əsr Azərbaycan ədəbiyyatşünaslığında qarşılaşırıq. Fikrimizcə, Azərbaycan ədəbiyyatında qəflət mövzusunun tədqiqi bolşeviklərin ideoloji maraqlarına uyğun gəlmədiyindən bu kitabın ideya-bədii xüsusiyyətlərinin aydınlaşdırılması sovetlər dönəmində də məqsədəuyğun sayılmamışdır. Eyni səbəbdən akademik İsa Həbibbəylinin "Böyük ədəbiyyat nəhəngi" əsərində "Qəflət" kitabının forma və məzmununun, ümumiyyətlə, Azərbaycan ədəbiyyatı fonunda dəyərləndirildiyini, həm də bu kitabın tamamilə yeni hadisə səviyyəsində qiymətləndirildiyini görürük: "Qəflət" kitabı 32 səhifədən ibarət olub, "Bismillah-tala" müqəddiməsindən başqa, "Xabi-qəflət" adlı 362 misralıq mənzum bir əsər əsasında hazırlanmışdır. "Bismillah-tala" müqəddiməsi orta əsr klassik Şərq və Azər-

baycan poeması ənənəsindən gəlmə bir meylin ifadəsi kimi daha çox poemaların başlanğıcındakı "əsərin yazılma səbəbi" bəndinin funksiyasını daşıyır. Bu, "Xabi-qəflət" əsərinin yığcam və mənalı bir müqəddiməsidir. "Xabi-qəflət" əsəri isə heç də indiyə qədər yazıldığı kimi şeir yox, XX əsrin əvvəllərində ön mövqeyə çıxan ictimai-fəlsəfi poemadır. Məhəmməd Hadinin "Əlvahi-intibah" poeması bu janrda yazılan əsərlərin zirvəsini təşkil edir. "Əlvahi-intibah"dan təxminən 12 il əvvəl yazılmış "Xabi-qəflət" poeması Məmməd Səid Ordubadinin ilk əsərlərindən olmasına baxmayaraq, ideya-məzmun və sənətkarlıq cəhətdən Azərbaycan ədəbiyyatındakı mükəmməl ictimai-fəlsəfi poemalardan biridir. Konkret bir süjet xəttinə və surətlərə malik olmayan ictimai-fəlsəfi poemalarda müəyyən olunmuş mətləbin mahiyyətinin poetik baxımdan açılması və mənalandırılması əsasında dərin və əsaslandırılmış ümumiləşdirmələrin aparılması nəzərdə tutulur. Məmməd Səid Ordubadinin "Qəflət" poemasında da əsərin adında ifadə edilən ictimai-mədəni geriliyin səbəbləri, acı təzahürləri, yaratdığı bötyük çətinliklərin doğurduğu kədərli vəziyyətlər və müəyyən qurtuluş yolları poetik baxımdan olduğu kimi, ictimai cəhətdən də əsaslı şəkildə ifadə olunmuşdur." (101, s. 9)

Məlumdur ki, bolşevizm ideologiyası çar Rusiyası ilə əlaqəli nə varsa pisləmək yolunu tutmuş, köhnə cəmiyyətin təmsil edən hər bir məmur yeni nəsillərə düşmən surətində tanıtdırılmışdır. M.S.Ordubadinin "Həyatım və mühitim" əsərində isə tamamilə yeni mənzərə ilə qarşılaşırıq. Daha doğrusu, həyatının 1906-cı ili ilə bağlı hadisələrini qələmə alan müəllif Ordubad

şəhərində təşkil etdikləri qiraətxana – cəmiyyətdən də söz açır, bu işdə cəmiyyət üzvlərinə köməklik göstərən pristav Terpelovskinin fəaliyyətini məxsusi dəyərləndirir. Maraqlıdır ki, M.S.Ordubadi o dövrdə cəmiyyət üzvlərindən heç birinin deyil, məhz pristav Terpelovskinin sosialist olduğunu vurğulayır, hətta həbs olunmaq təhlükəsi zamanı Terpelovskinin xüsusi məharətlə onu xilas etməsini belə yad edir: "Bu zamanlar mənzum olaraq "İnqilabi-pərişan" adlı bir əsər yazdım. Faiq əfəndi (Ömər Faiq Nemanzadə – R.Ə.) vasitəsilə təb olunmaq üçün Tiflisə göndərdim. Senzor müavini Mirzə Yəhya Şərifzadə alıb yandırdı. Mən bunun təsiri ilə "Vətən və hürriyyət" adlı mənzum əsərimi yazmağa başlamışdım. Əsər 1907-ci ildə Tiflisdə "Qeyrət" mətbəəsində təb edildi. Senzor mane olmadı. Sonradan jandarm potmistri Pepel Ordubada gəlib, evimizi axtardı və məni həbsə aldı. Lakin bu həbsim evimdən aparılan kağızları gözdən keçirib qurtarana qədər davam etdi. Jandarm evi axtarmaq üçün gəldikdə pristav Terpelovskini də özü ilə bərabər almışdı. Onlar içəri girən kimi sandığın dalında revolver və İran inqilabına dair intibahnamələr olduğunu pristav Terpelovskiyə işarə etdim. Ona görə də pristav həmin sandığın üstündə oturub axtarış qurtarana qədər ayağa qalxmadı." ( 100, s. 31)

Əlbəttə ki, nə qaragüruh kütlənin qəzəbi və təziqləri, nə də imperiyanın bütöv bir sistem vasitəsilə təqibləri M.S.Ordubadini doğma xalqının yüksəlişinə xidmət etmək yolundan döndərə bilməmiş, gənc mübariz Ordubaddan Culfaya köçmüş, Baxşəli ağa Şahtaxtlı, Nəsrulla Şeyxov, Nağı İsmayılov, Ağa Məhəmmədhüseyn Hacıyev, Əliqulu Qəmküsar kimi tərəqqipərvər zi-

yalıların "silahdaşına" çevrilmişdir. M.S.Ordubadi həyatının Culfa dövrünə dair avtobioqrafik göstəricilərdən bəlli olur ki, "İki çocuğun Avropaya səyahəti" adlı ilk romanı (1908), "Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngməab" əsəri (1909), "Baği-şah və yaxud Tehran faciəsi" dramı (1909), "Qanlı sənələr" ədəbi-publisistik əsəri məhz Culfada yazılmışdır. O da var ki, M.S.Ordubadi bu əsərlərin hər biri ilə Azərbaycan ədəbiyyatında müəyyən yeniliklərə imza atsa da, həmin əsərlərin ədəbi fakt olaraq elmi dövriyyədə geniş təhlilləri məhz müstəqillik dövrü ədəbiyyatşünaslığında aparılmışdır. Professor Yavuz Axundlu "Məmməd Səid Ordubadi" monoqrafiyasında yazır: "M.S.Ordubadinin ilk irihəcmli nəsr əsəri olan "İki çocuğun Avropaya səhayəti" romanı 1907-ci ildə yazılmış, 1908-ci ildə Bakıda Haşımbəy Vəzirovun redaktorluğu ilə çıxan "Tazə həyat" qəzetinin 4-21 mart saylarında dərc olunmuşdur. Bu vaxta qədər M.S.Ordubadi yaradıcılığından danışanlar, eləcə də XX əsrin əvvəllərində yaranan bədii nəsr nümunələrimizi tədqiqata cəlb edənlər "İki çocuğun Avropaya səhayəti" haqqında söz açmamış, yaxud da qısa qeydlərlə kifayətlənmişlər. Yalnız mərhum ədəbiyyatşünas F.Vəzirova bu əsərə azacıq da olsa diqqət yetirmiş, 1970-ci ildə çapdan çıxmış "Məmməd Səid Ordubadi" adlı monoqrafiyasında adıçəkilən romanın təhlilinə təxminən bir səhifə ayırmış, yığcam şəkildə əsərin ideya-bədii qiymətini verməyə çalışmışdır." (7, s. 182)

"İki çocuğun Avropaya səhayəti" əsəri ilə tanışlıq, eləcə də bu əsər haqqında Azərbaycan ədəbiyyatşünaslığındakı mövcud elmi təhlillər deməyə əsas verir ki, müəllifin maariçi ideyalarının

tərənnümü baxımından "İki çocuğun Avropaya səhayəti" xüsusi əhəmiyyət kəsb edən sənət nümunələrindən biridir. (Bax: 101, s. 277-307; 6, s. 182-190; 55, s. 123-130) Bu əsərində tamamilə maarifçilik hərəkatı nümayəndəsi mövqeyindən çıxış edən M.S.Ordubadi Avropa ölkələrinin ictimai-siyasi, sosial-mədəni həyatındakı tərəqqini qələmə almaqla bərabər, yeri gəldikcə Şərq ölkələrindəki tənəzzüldən də söz açmış, çıxış yolunu elmsizliyin aradan qaldırılmasında, ağıl kultunun təntənəsində görmüşdür. Prinsip etibarilə, "İki çocuğun Avropaya səhayəti" əsəri türk-müsəlman dünyasında hökm sürən geriliyin, ətalətin, despotizmin səbəblərini göstərmək məqsədilə qələmə alınmışdır. Təəssüf ki, Azərbaycan maarifçiliyinin bir çox məsələlərinə aydınlıq gətirəcək bu qiymətli əsər, çağdaş ordubadişünasların da qeyd etdikləri kimi, müəyyən mənada elmi fikrin diqqətindən kənarda qalmışdır. Halbuki akademik İsa Həbibbəyli "Böyük ədəbiyyat nəhəngi" əsərində çox doğru olaraq "İki çocuğun Avropaya səhayəti"nin həm M.S.Ordubadi yaradıcılığında, həm də Azərbaycan maarifçi-realist ədəbiyyatında mühüm yer tutması ideyasından çıxış edərək yazır: "İki çocuğun Avropaya səhayəti" əsəri Şərq-Qərb müqayisəsinin, Avrasiya düşüncəsinin reallıqlarını da meydana qoyur. Bu əsər Azərbaycan ədəbiyyatına Avrasiya düşüncəsini gətirən ilk genişhəcmli bədii əsərdir.

...Mövzu və ideya etibarilə "İki çocuğun Avropaya səhayəti" əsəri "Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngiməab" romanının müqəddiməsi təsiri bağışlayır. "İki çocuğun Avropaya səhayəti"ni gənc Rzaquluxanın səyahətnaməsi kimi də təsəvvür etmək olar. Bu əsərlə dərin daxili qatları etibarilə İran coğrafiyasından bəhs etmək mənasında Məmməd Səid Ordubadi-

nin "Dumanlı Təbriz" romanı arasında da müəyyən yaxınlığın, bağlılığın mövcudluğunu da müşahidə etmək mümkündür. Ona görə də "İki çocuğun Avropaya səhayəti" əsəri Məmməd Səid Ordubadi romançılığının, yazıçının bədii nəsrinin mənalı bir proloqudur." (35, s. 17-18)

M.S.Ordubadi hansı şəhərdə yaşamasına baxmayaraq, ədəbi və ictimai-siyasi fəaliyyətini paralel şəkildə davam etdirmişdir. Yazıçı Culfada yaşayanda da həm Səttarxan hərəkatı ilə əlaqə saxlamış, həm də "Baği-şah və yaxud Tehran faciəsi" dramını yazaraq bir daha köhnə dünyaya qarşı barışmaz mövqedə dayandığını təsdiqləmişdir. Bu əsər haqqında professor Y.Axundlu yazır: "İki pərdə, dörd şəkildən ibarət olan "Tehran faciəsi"ndə cəmi üç iştirakçı var: Məmmədəli şah, Əmir Bahadiri-cəng Hüseyn paşa xan, polkovnik Lyaxov. Qeyd edək ki, onların hər üçü tarixi şəxsiyyətdir.

Hadisələr İran şahının iqamətgahında cərəyan edir. Pyesin qısa şərhi bir cümlə ilə belə ifadə oluna bilər: Məmmədəli şah məşrutəçilərə qarşı cəza tədbiri hazırlayır...

Xaraktercə qorxaq və simasız olan, tez-tez fikrini dəyişən Məmmədəli şaha bu işdə vəziri Hüseyn paşa xan yaxından kömək edir. Bu hiyləgər və qəddar vəzir müxtəlif tədbirlərə əl atır, siyasi yollarla məqsədinə nail olmadıqda qan tökməkdən də çəkinmir.

Müəllif çar qoşunlarının başçısı polkovnik Lyaxovu da qəddar, istilaçı, təbiətcə zalım və müstəbid kimi təqdim etmişdir." (7, s. 118-119)

1911-ci ildə M.S.Ordubadinin "Qanlı sənələr" əsəri kitab halında çap olunmuşdur. Bu əsərdə yazıçı dövrə münasibətini

bildirməklə yanaşı, erməni vəhşiliklərinin real təsvirini vermiş, eləcə də rus müstəmləkəçilk siyasətinin iç üzünü açmışdır.

Bəli, həyatının Culfa dövründə M.S.Ordubadini sözün həqiqi mənasında ictimai-siyasi hadisələrin mərkəzində dayanan mücahidlər sırasında görürük. İran inqilabçıları ilə yaxından əlaqə saxlamağı, Cənubi Azərbaycanın müxtəlif şəhər və kəndlərinə səfərləri onun xalq həyatına daha yaxından bələd olması ilə nəticələnmişdir. Əslində M.S.Ordubadi öz görüşləri və fəaliyyəti ilə daima Rusiya imperiyasının işğalçılıq siyasətinə qarşı çıxmış, bu səbəbdən 1913-cü ildə həbs olunmuş, canişin Vorontsov-Daşkovun əmri ilə 1914-cü ildə müharibə qurtarana qədər Qafqazdan Rusiyanın içərilərinə, daha doğrusu Saritsına sürgün edilmişdir. M.S.Ordubadi sürgün edildiyi şəhərə öz xərci ilə getməyə səy göstərsə də, buna icazə verilməmiş, beləliklə, köçürülmə zamanı o, İrəvan, Tiflis, Bakı, Rostov və Novoçerkassk həbsxanalarında olmuş, həbsxanalarda hökm sürən zülmün ağrılarını yaşamaq məcburiyyətində qalmışdır. Budur, M.S.Ordubadinin çar həbsxanaları haqqında ilkin qeydləri: "Çox yorğun idim. Həyəcanımdan nə edəcəyimi də bilmirdim. Çarpayını divardan buraxdım. Kəsif də olsa, üstündə uzandım. Uzun və ağır açar ilə qapının dəmir pəncərəsinə şiddətlə vurdular. Diksinib qalxdım.

– Qalx! Gündüz yatmaq olmaz! – dedilər. Bunun səbəbi aydın idi. Çünki çar həbsxanası rahatlıq üçün qayrılmamışdır. Burada insanın yaşaması üçün lazım olan hər bir vasitə ya qısaldılmış, yaxud başqa bir rəngə salınmışdır ki, bununla da insan nə ölən kimi ölür, nə də insan kimi yaşamağı bacarır. Məsələn, dəmir peçlər hər gün yanır, lakin yenə də soyuqdan odalarda oturmaq, yatmaq mümkün olmurdu." (100, s. 79)

M.S.Ordubadinin Naxçıvan, Tiflis, Bakı həbsxanaları ilə bağlı xatirələri həyatın daha ağır tərəfləri haqqında məlumat verməklə yanaşı, artıq gənc yazıçının kifayət qədər tanındığını, tərəqqipərvər insanlar tərəfindən dəstəkləndiyini də təsdiqləməkdədir. Xüsusən də Bakının Bayıl həbsxanasında məşhur qoçulardan Kəblə Ağakərim və Teymur bəy Aşurbəyovla bağlı yazılanlar o dövrə dair bəzi həqiqətlərin bugünkü nəslə çatdırılması baxımından mühüm əhəmiyyət daşımaqdadır. Məsələ ondadır ki, sovetlər dönəmində yazılmış ədəbiyyatlarda Bakı qoçuları bir qayda olaraq mənəviyyatdan uzaq, əzazil, sorğu-sualsız baş kəsən insanlar kimi tanıtdırılmışlar. M.S.Ordubadinin xatirələrində bolşevizmin bu prinsipi gözlənilsə də, ədib ədalət naminə Bakı qoçularının müsbət keyfiyyətlərini də qələmə almışdır. Hər halda məhz Bakı qoçularının diqqəti səbəbindən Bayıl həbsxanasında M.S.Ordubadi üçün həyat xeyli asanlaşmış, hətta yazıçı xatirələrini səliqəyə salmaq qərarına gəlmişdir. Ümumiyyətlə, "Həyatım və mühitim"də yazılanlar Bakı qoçuları ilə bağlı təsəvvürlərimizi dəyişməkdədir: "Mən Bakıya qədər həbsxana xatiratını yazmışdım. Bakı həbsxanasında tərtibə salmağa başladım. Qoçular bununla çox maraqlanırdılar. Mən onlara parça-parça oxuyurdum. Onlar hər gün nahardan sonra məni oxumağa məcbur edirdilər. Onlar Naxçıvan və Tiflis həbsxanasındakı xatiratı eşitdikdə mənim bu işlər ilə nə üçün maraqlandığımı soruşdular. Mən isə:

– Bir vaxt bu xatiratı kitab şəklində çap etdirəcəyəm. Bunu hər kəs oxuyub çar hökumətinin nə qədər həyasız və zalım bir hökumət olduğunu anlayacaqdır, – dedim. Ağakərim bir az düşündü:

– Hərgah bu cür şeyləri çap etdirməyə qoymasalar, necə olacaq? – dedi.

– İndi qoymasalar da, bir vaxt imkan tapılar – dedim. Teymur bəy güldü:

– Mirzə! Demək, bizim də adımız kitaba düşəcəkdir, – deyərək əlini çiynimə vurdu.

– Əlbəttə, düşəcəkdir. Sizin mənə qarşı olan hörmətinizi unutmuş olsam, xəyanət etmiş olaram, – söylədim. Bunu təsdiq etmək üçün Ağakərim:

– Bir yaxşılıq, bir də yamanlıq yaddan çıxmaz, – deməklə biz söhbəti dəyişdik." ( 100, s. 118)

M.S.Ordubadi ömrünün 1915-1916-cı illərini Saritsında sürgündə keçirmişdir. Orada Taisiya Vasilyevna Titova ilə ailə həyatı quran yazıçı eyni zamanda Azərbaycan mətbuatı, o cümlədən "Babayi-əmir", "Tuti" məcmuələri ilə əmakdaşlıq etmişdir.

M.S.Ordubadinin Saritsındakı sürgün həyatını əks etdirən ən mötəbər mənbə, təbii ki, yazıçının "Həyatım və mühitim" memuarıdır. Bu memuar həm 1996-cı ildə "Azərnəşr" tərəfindən, həm də 2012-ci ildə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi nərəfindən oxuculara təqdim edilməsinə baxmayaraq tədqiqat əsərlərində yazıçının tərcümeyi-halının Saritsın dövrünə müəyyən qədər az yer ayrıldığını görürük. Daha doğrusu, professor Y.Axundlu özünün "Məmməd Səid Ordubadi" monoqrafiyasında fədakar maarifçinin əsasən Saritsındə yaşadığı hadisələrdən də müəyyən söz açmışdır. Fikrimizcə, M.S.Ordubadinin Saritsın xatirələri bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi, yaxıçının Saritsın həyatı bir daha təsdiqləyir ki, Rusiya

imperiyasında xalqların azadlığı və tərəqqisi uğrunda mübarizə aparan hər kəs hədsiz təqib və təzyiqlərə məruz qalmış, dönə-dönə ölümlə üzləşməli olmuşdur. Əlbəttə, imperiyanın yeganə istinad nöqtəsi olan zülmlə idarəetmə hökümət strukturlarının daxilən çürüməsi ilə nəticələnmişdir. Eyni səbəbdən polis idarələrində rüşvət almayan şəxsə rast gəlmək qeyri-mümkündür. Budur, M.S.Ordubadiyə qardaşının göndərdiyi 25 manat pul özü görünməyən pristav tərəfindən mənimsənilsə də, sürgün həyatı yaşayacaq insanın harada gecələyəcəyi heç kəsi maraqlandırmır. Pristavın müavini bir gündən sonra 10 manat almaq şərti ilə ona 8 manat verməyə razı olur. Sürgünə gəlmişlərə mehmanxanalarda yer vermirlər. Yalnız bir manat alan qaradovoyun işə qarışması nəticəsində M.S.Ordubadi mehmanxanada gecələyə bilir. Yazıçının Saritsın xatirələri çörək pulu qazanmaq məqdəsdilə Rusiya şəhərlərinə üz tutan azərbaycanlıların əksəriyyətlə ruslaşmasından da xəbər verməkdədir: “Bir neçə gün Saritsında qaldıqdan sonra burada olan müsəlmanların hamısının rus adı qəbul etdiyini anladıq.

...Mənim Balakişi ilə tanışlığım buradan başladı. Bütün vaxtımı onun dükanında keçirirdim. Onun hər bir işində yardım göstərirdim. O, böyük tacir idi. Komisyon ilə mal satırdı. 1914-cü ilin axırında bir milıyon iki yüz min abarotu olmuşdu.

...Balakişi Karyagin mahalından idi. Onun əmisi oğlanları da öz ailələri ilə bərabər orada yaşayırdılar. Balakişidən başqa, hamısı adlarını dəyişdirmişdi.” (100, 139-140).

M.S.Ordubadinin sürgün xatirələri deməyə əsas verir ki, Rusiya imperiyasında yalnız idarəetmə strukturları çürüməmiş,

eyni zamanda imperiyanın yeritdiyi siyasətin sonucu olaraq ölkə mənəvi aşılanmaya sürüklənmişdir. Məsələn, xatirələrdən məlum olur ki, M.S.Ordubadinin çox sevdiyi Raya həbs edilmiş, əsəb xəstəliyi tapmış, dəlixanaya salınmış və xəstə vəziyyətdə də dünyasını dəyişmişdir. Bütün bunlara səbəb isə odur ki, Raya polkovnik Ştraubenin sevgisinə rədd cavabı vermişdir. Yaxud, həbsxana müdirinin müavini Aleksandr Vasilyeviç müəyyən qədər də hörmət edərək M.S.Ordubadini öz evində işləməyə göndərir. Evdə isə istər onun qadını Serafima, istərsə də qızları Susanna və Lyuba üçün heç bir əxlaq kodeksi yoxdur. Qadınların hər biri M.S.Ordubadini özünə aşiq etməyə çalışır. Bəli, M.S.Ordubadinin yazdıqları oxucunu bir daha belə bir qənaətə gətirir ki, Rusiya imperiyasının dağılmaqdan başqa yolu qalmamışdır: "Saritsın şəhəri işçi şəhəridir. Burada taxta zavodları, mıx zavodu, dəmirəridən zavod, top zavodu, çuqun zavodu və s. vardır. Mən burada olduğum vaxt işçilərin həyatı ilə çox maraqlanırdım. İşçiləri yaxından görmək üçün fransuzski zavoda gedirdim. Bu zavod "Russki-fransuzski" adlı bir şirkətin idi. Top zavodu bundan bir az yuxarı idi. Bu iki zavodun ətrafında otuz minə qədər işçi ailəsi yaşayırdı. Bu ailələr çılım-çılpaq və dilənçi halında idilər. Ehtiyac bunları əxlaq pozğunluğunun ən yuxarı dərəcəsinə qədər vardırmışdı. Saritsın pasajında xəmirsatan Annıçka adlı qadın ev qulluqçusu lazım olan adamlara həmin ailələrin qızlarından satardı. Ara-sıra ailə başçıları da gəlib öz qızlarını təklif edərdilər. Müharibə zamanı əxlaqsızlıq və səfalət daha artdı. Kəndli qızları da işçi qızlara və işçi qadınlara qoşuldu. Hökumət bu kimi işlərin qarşısını almır,

əksinə, əxlaqsızlığı müntəzəm bir şəklə salmağa çalışırdı.” (100, s. 144)

Həyatının sürgün dövrü çətin vəziyyətlərdə və çox zaman mənəvi əzab içərisində yaşamasına baxmayaraq M.S.Ordubadi qələmi yerə qoymamış, bir maarifçi ziyalı olaraq köhnə dünyaya qarşı mübarizəsini davam etdirmişdir. Faktdır ki, yazıçı hələ Saritsında sürgün həyatı yaşayarkən onun “Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngiməab” romanı 1914-cü ildə Bakıda çapdan çıxmış, oxucuların ixtiyarına verilmişdir. Bu romanı ilə də yazıçı Azərbaycan ədəbiyyatında yeni bir uğura imza atmışdır. “Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngiməab” romanının Azərbaycan ədəbiyyatında yeri akademik İsa Həbibbəyli tərəfindən xüsusi elmi dəqiqliklə, həm də birbaşa maarifçi ədəbiyyatla bağlı şəkildə belə dəyərləndirilmişdir: “Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngiməab” (1909) keçən əsrin əvvəllərində meydana çıxmış “kiçik roman” formatındakı Azərbaycan romanının böyük nümunəsidir. Bu əsər Azərbaycan ədəbiyyatında artıq Şərq tipli gedişatın mümkünsüzlüyünü, qərbləşmə meyillərinin çətinliklərini, bütövlükdə yeniləşmə proseslərinin zəruriliyini meydana qoyan ilk romandır. Mirzə Fətəli Axundovun “Kəmalüddövlə məktubları”nda və “Aldanmış kəvakib” əsərində zamanına görə dərin qatlarda ifadə olunan məntiqi gerçəklik XX əsrin əvvəllərində zəmanənin yaratdığı şəraitə əsasən Məmməd Səid Ordubadinin “Bədbəxt milyonçu” romanında xeyli dərəcədə açıq ifadə olunmuşdur.” ( 35, s. 48-49)

Əlbəttə ki, Rusiyada inqilabın baş verməsi və hakimiyyətin dəyişilməsi M.S.Ordubadinin həyatına təsirsiz qalmamışdır.

1918-ci ildə Zaqafqaziya Müsəlman İşləri Komissarlığının nəşriyyat şöbəsində işləmək üçün Həştərxana çağırılan şair-yazıçı burada “Hümmət” qəzetinin müdir müavini vəzifəsində çalışmış, ağır şəkildə xəstələnmiş və N.Nərimanovun nəzarəti altında müalicə olunmuşdur. Yazıçı hələ Saritsında sürgündə yaşayarkən yazdığı və hissə-hissə Bakıda çıxan “Hümmət” qəzetində çap etdirdiyi “Bolşevizm və aləmi-islam” başlıqlı məqalələrinin Həştərxanda kitab şəklində 15 min nüsxə həcmində nəşrinə nail olmuşdur.

1920-ci ildən ailəsi ilə birlikdə Bakıya köçən M.S.Ordubadi həyatını böyük əksəriyyətlə mətbuat və ədəbiyyata bağlamışdır. İlk əvvəl “Əxbar” qəzetinin redaktor müavini təyin olunan yazıçı (1920) sonradan “Əxbar”ın da birləşdirildiyi “Kommunist” qəzetinin redaktor müavini vəzifəsində, “Molla Nəsrəddin” idarəsinin rəisi vəzifəsində çalışmışdır. Yazıçı 1925-1928-ci illərdə “Yeni yol” qəzetinin redaktoru vəzifəsini böyük məsuliyyətlə yerinə yetirmişdir. Belə demək mümkündür ki, M.S.Ordubadi digər icra etdiyi vəzifələrə yazıçılıq sənətinin tərkib hissəsi kimi baxmışdır. Əslində “böyük ədəbiyyat nəhəngi” 1920-ci ildən sonra ömrünü əsasən ədəbiyyata və mətbuata həsr etmişdir. Budur, yazıçının o illərə dair tərcümeyi-halının ən qısa göstəriciləri: “1922-ci il – “Dinçilər” dramı Bakıda tamaşaya qoyulmuşdur.

20-ci illərin əvvəlləri – “Azərbaycanda inqilab”, “Millətlər”, “Sevgililər” dramlarını yazmışdır. “Şeirlər”, “Analıq” kitabları çapdan çıxmışdır.

20-ci illərin ikinci yarısı – “Köhnə adamlar”, “Mənim şeirlərim”, “Kənd alverçisi” şeirlər kitabçası çap olunmuşdur. “Dumanlı Təbriz” romanı üzərində işə başlamışdır (1927-ci ildən).

"Molla Nəsrəddin" idarəsinin rəisi vəzifəsində çalışmışdır.

1933-cü il – "Dumanlı Təbriz" tarixi romanının birinci hissəsi Bakıda kitab halında nəşr olunmuşdur. "Gizli Bakı" romanını yazmışdır.

1936-cı il – "Dumanlı Təbriz" romanının ikinci hissəsi çapdan çıxmışdır.

1938-ci il – "Dumanlı Təbriz" romanının üçüncü kitabı nəşr olunmuşdur. "Döyüşən şəhər" romanı çapdan çıxmışdır. Gəncə zəhmətkeşləri tərəfindən Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə libretto mətni M.S.Ordubadi tərəfindən yazılmış "Koroğlu" (Ü.Hacıbəyov) və "Nərgiz" (M.Maqomayev) operaları uğurla nümayiş etdirilmişdir." (40, s. 52) .

O da var ki, ictimai həyatda və ədəbiyyat dünyasında qazandığı uğurlar istər-istəməz M.S.Ordubadini repressiya tərəfdarları ilə qarşı-qarşıya qoymuşdur. Yazıçı əsərlərində ifadə etmək istədiyi fikirləri dönə-dönə nəzərdən keçirmiş, düşüncələrini dövrün və bolşevizmin prinsiplərinə uyğunlaşdırmaq məcburiyyərində qalmışdır. Y.Axundlunun "Məmməd Səid Ordubadi" kitabından öyrənirik ki, yeni cəmiyyət uğrunda mübarizədə dəhşətli təqiblərə məruz qalan yazıçı özünü yeni cəmiyyətin "qəhrəmanlarından" qorumaq üçün hətta Əlyazmaları Fondunun xahişi ilə qələmə aldığı xatirələrində müəyyən dəyişikliklər etmişdir. (7, s. 69) Qətiyyətlə söyləmək mümkündür ki, repressiyadan xilası M.S.Ordubadiyə gərgin mənəvi sarsıntılar hesabına başa gəlmişdir. "Məmməd Səid Ordubadi" kitabında öz əksini tapan bir-iki fakt həmin mənəvi sarsıntıların cüzi məqamlarından xəbər ver-

məkdədir: "Hələ 1934-cü ildə M.S.Ordubadi müalicəyə getmək üçün Yazıçılar İttifaqına ərizə vermişdi. Müzakirə zamanı S.Rüstəm deyib ki, o, bizdən nə istəyir? Qızıllarını satıb müalicəyə getsin. Bu sözü eşidən M.S.Ordubadi çox narahat olur.

...M.S.Ordubadinin 16 iyun 1940-cı ildə Azərbaycan K(b)P MK-nın I katibi M.S.Bağırovun adına göndərdiyi iki səhifəlik ərizə də yazıçıya olan mənfi münasibəti aydınlaşdırmaq baxımından maraq doğurur. Ərizədən məlum olur ki, onun "Beş manatlıq gəlin" adlı ilk Azərbaycan operettası Yaqubovun ( o dövrdə MK katibi və Daxili İşlər Naziti idi – Y.A.) göstərişi ilə repertuardan çıxarılıb. Bundan çox mütəəssir olan ədib yazır ki, "mən indiyə qədər öz şəxsi işimdən ötrü heç bir kəsə və heç bir yerdə müraciət etməmişəm, bundan sonra da etməyəcəyəm." Daha sonra o, davam edrək yazır: "Sizin qurultaydakı çıxışınızdan sonra (M.C.Bağırov bu çıxışda M.S.Ordubadini tənqid etmişdi) Azərnəşrin də mənə qarşı olan əlaqəsi dəyişmişdir. "Dumanlı Təbriz" haqqında rus və Azərbaycan oxucuları tərəfindən mənə yüzlərlə məktublar gəldiyinə baxmayaraq, Azərnəşr mənimlə bağladığı müqaviləni ləğv etdi. Romanın dördüncü cildini qəbul etmək üçün müqavilə bağlamadı" (IV kitab on il sonra – 1948-ci ildə çap edilib. –Y.A.). (7, s. 74)

Əlbəttə, çar Rusiyasının həbsxanalarında hər cür əzaba mərdliklə sinə gərən M.S.Ordubadini bolşeviklər Rusiyasında qırğınlara hesablanmış repressiya da doğma xalqına xidmət yolundan döndərə bilməmişdir. 1938-ci ildə Azərbaycan SSR əməkdar incəsənət xadimi fəxri adına layiq görülən yazıçı əsərlərini əsasən tarixi mövzularda yazmış, beləliklə, repressiya

tərəfindən bütövlüklə "düşmən" elan edilən xalqının şanlı keçmişini qələmə almaqla cəmiyyətin məcburən sürükləndiyi mənəvi deqredesiyaya qalib gəlməyin yollarını göstərmişdir. Məsələn, 1940-cı ildə tamamladığı "Qılınc və qələm" tarixi romanı ilə M.S.Ordubadi zahirən ölkəsinin intibah dövrünü canlandırmış, bununla belə, şair Nizaminin sözləri ilə Azərbaycanı yeni bir formada özünə tabe edən bolşeviklər Rusiyasının iç üzünü də açmışdır. Budur, böyük şair Nizaminin söylədikləri: "Mən zənn edirəm ki, təzə xanədan Azərbaycan xalqının nə uğrunda mübarizə apardığını təyin etdikdən və xalqın sevmədiyi hakimləri Azərbaycandan rədd etdikdən sonra biət məsələsini Azərbaycan xalqının qarşısında qoya bilər. Biz böyük bir mədəniyyəti saxlamaq, Azərbaycanı azad bir məmləkət kimi yaşatmaq, sənətin və ədəbiyyatın boğulmamasına imkan verməmək üçün əlimizdən gəldiyi qədər çalışmalıyıq." ( 98, s. 195-196)

Göründüyü kimi, "Qılınc və qələm" əsərindən alınmış bu sözlər prinsipcə 40-cı illərin əvvəllərində M.S.Ordubadinin ictimai-siyasi hadisələrə münasibətini ifadə etməkdədir. Bu mənada yazıçının 1942-ci ildə yazdığı "Səttarxan", "Tarix və qələbə" məqalələri, 1943-cü ildə çapdan çıxmış "Vaqif bir dövlət adamı kimi" kitabı yaradıcı insan və mühit probleminə aydınlıq gətirəcək qiymətli mənbələrdir. M.S.Ordubadinin həyatı və yaradıcılığı doğma xalqı tərəfindən daim milli sərvəti səviyyəsində dəyərləndirilmişdir. 1942-ci ildə ədibin anadan olmasının 70 illiyi, 1947-ci ildə 75 illiyi təntənəli surətdə qeyd edilmişdir. 1950-ci ildə vəfat edən M.S.Ordubadi Fəxri xiyabanda dəfn olunmuşdur. Akademik İsa Həbibbəylinin aşağıdakı söz-

ləri bir maarifçi qələm sahibi, bir fədakar ziyalı olan M.S.Ordubadi dühasını mükəmməlliklə səciyyələndirməkdədir: "Görüntüdə keçmiş sovet rejiminin Azərbaycandakı rəhbərləri ilə münasibətləri haqqında rəvayətlər yaşayan Məmməd Səid Ordubadi idealının ədəbiyyatdakı ifadəsi milli-mənəvi bütövlüyə, tarixi yaddaşın yaşadılmasına xidmətin nümunəsi kimi ədəbiyyatı tarixi əhəmiyyətli işə çevirməyin gerçəkliyini canlı və real şəkildə əks etdirir. Bu gün böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadini öyrənməyin və öyrətməyin zəruriliyi həmişə olduğundan daha aydın görünür." (35, s. 89)

## 1.2. M.S.Ordubadinin ictimai-siyasi görüşləri

M.S.Ordubadinin ictimai-siyasi görüşləri həm valideynlərinin, xüsusən də Ordubaddakı "Əncüməni-şüəra" ədəbi məclisinin fəal üzvlərindən olan atası Hacıağa Fəqir Ordubadinin, həm müəllimlərinin, həm oxuduğu ədəbiyyatların, həm də birbaşa həyatın təsiri altında formalaşmışdır. Faktlar deməyə əsas verir ki, M.S.Ordubadinin hələ uşaq ikən yaşadığı ailə və mühit ona ilk növbədə yoxsulluğun, imkansızlığın, kasıblığın nə demək olduğunu öyrətmişdir. Balaca Məhəmməd Səid, bəlkə də, mahiyətinə varmadan görmüşdür ki, pulun, var-dövlətin hökmranlıq etdiyi mühitdə yaradıcı insana, sərbəst düşüncəyə, böyük sənətə, xəyallar dünyasında at çapmağa yer yoxdur. Atası Hacıağa Fəqir Ordubadinin yaşadığı həyat onda belə bir təəssürat doğurmuşdur ki, zülmün hökmranlıq etdiyi, insanın insan tərəfindən istismar olunduğu cəmiyyətdə istedadlı olmaq, şairlikdə ad çı-

xarmaq hələ heç nə demək deyil. Başqa sözlə, Hacıağa Fəqir Ordubadinin yoxsulluq səbəbindən düşdüyü çətinliklər, çəkdiyi mənəvi əzablar, şübhəsiz ki, istər-istəməz M.S.Ordubadidə zülmə qarşı mübarizə hissi doğurmuşdur. Hər halda Hacıağa Fəqir Ordubadinin böyük ədəbiyyat yaratmaq əvəzinə ac qalmamaq naminə şeirdən, sənətdən xəbərsiz imkanlıları mədh etməsi, bununla belə, yenə də ehtiyac içərisində ömür sürməsi M.S.Ordubadinin dünyagörüşünə təsirsiz qalmamışdır.

Hacıağa Fəqirin yazdığı bəzi şeirlər deməyə əsas verir ki, kapitalizmin cəmiyyət həyatına və insan mənəviyyatına amansızcasına müdaxiləsi və yırtıcı hökmranlığı ədəbiyyatda hətta mədhnamələrin şikayətnamə xarakterli "yalvarışnamələrlə" əvəzlənməsi ilə nəticələnmişdir. Digər tərəfdən, məlumdur ki, M.S.Ordubadinin atası Hacıağa Fəqir də maarifpərvər bir qələm sahibi olmuş, Ordubaddakı məktəbdarlıq hərəkatında fəallığı ilə fərqlənmiş, ictimai-sosial həyata münasibətdə yenilikçi, zülmə qarşı etirazçı mövqeyində dayanmışdır. Əlbəttə, maarifpərvərliyi, yenilikçiliyi, etirazçılığı öz növbəsində Fəqirin daim çətinliklərlə qarşılaşması ilə nəticələnmişdir. Fəqirin ömür yolundakı həmin çətinliklərdən bəhs edən professor Əsgər Qədimov "XIX əsr Ordubad ədəbi mühiti" kitabında yazır: "Həyatının bu cür ağır və sarsıntılı vaxtlarında da qaragüruhçu din xadimləri və bir qrup varlı şəxslər Fəqiri təqib edir, onu nüfuzdan salmağa çalışırdılar. Çox çəkmir ki, onların hiyləsi nəticəsində komissarın və knyazın əmi ilə şairin atasını və əmisini həbs edirlər. Bu hadisə Fəqirə çox ağır təsir edir. O, hökumətin idarələrinə şikayət edirsə də, heç bir səmərə vermir. Nəticədə Fəqir Naxçıvan xanlarından olan Kalbalı xana bu xüsusda:

İlahi, günbəgün artsın cəlali-Kalbalı xan,
Bahari-şövkətinə əsməsin səmumi-xəzan.

-beyti ilə başlayan mənzum xahişnamə ilə müraciət edərək ondan kömək istəyir.” (64, s. 62)

Atasının simasında zülm dünyası imtiyazlılarının, imkanlılarının şeirə, sənətə biganə münasibəti M.S.Ordubadini ədəbiyyatdan küsdürsə də, gələcək ədibin dünyagörüşü ədalətsizliklər mühitinə nifrət ruhunda formalaşırdı. Əlbəttə ki, M.S.Ordubadinin tamamilə Hacıağa Fəqir yaradıcılığı təsirinə düşdüyünü söyləmək doğru olmaz. Bununla belə, Fəqir şeirlərindəki ədalət axtarıcılığı, yaxud mühitin əsasən şeytan xislətli insanlardan ibarət olmasına etiraz M.S.Ordubadinin ictimai-siyasi görüşlərində dərin izlər buraxmışdır.

M.S.Ordubadinin ictimai-siyasi görüşlərinə təsir baxımından Mirzə Baxış məktəbinin rolu məxsusi dəyərləndirilməlidir. “Həyatım və mühitim” əsərində yer tutan aşağıdakı qeydlər deməyə əsas verir ki, bu məktəbdə şagirdlərin orta əsrlər fars və Azərbaycan şairlərinin mərsiyə yaradıcılığı haqqında biliklər alımasına xüsusi diqqət göstərilmişdir: “Mən 15 yaşında ikən Sədinin “Bustan”ını tamamilə əzbərləmişdim.

...Mən şeir yazmağa və yazıçı olmağa heç də həvəslənmirdim. Atamın yazdığı şeirlərin palçıq içinə atılması heç də yadımdan çıxmırdı. Bir çox zamanlar anam da buna mane olurdu. Çünki atamın şeir sənətindən nə kimi fəlakətlər çəkdiyi onun gözünün qabağında idi. Lakin məktəb və şeirləşmə işi özüm hiss etmədiyim bir surətdə məni yazmağa öyrətdi. Əvvəldən yazdı-

ğım şeirlərin bir çoxu farsca idi. Türkcə şeir yazmağa heç də rəğbətim yox idi. Çünki oxuduğumuz dərslərin hamısı farsca idi. Şəhərdə türkcə məktub yazmağı belə heç kəs bacarmırdı. Türkcə kitab da yox idi. İrandan gələn kitablar içərisində türkcə kitablar var idi. Lakin bunlar mərsiyə kitabları idi. Raci, Dəxil, Pürqəm, Dilsuz və başqalarının türkcə şeirləri də var idi.” (100, s. 13-14)

Göründüyü kimi, sovetlər dönəmində uzun müddət tədqiqi, təbliği, oxunması qadağan edilən mərsiyə ədəbiyyatı M.S.Ordubadinin türkcə oxuduğu ilk mənbələr sırasında dayanmış və təbii ki, Raci, Dəxil, Dilsuz şeirlərindəki zülmə qarşı nifrət hissinin ifadəsi prinsipcə Hacıağa Fəqir oğlunun həyat yolunu müəyyənləşdirmişdir.

“Şərqi-Rus” qəzetinin 13 iyun 1903-cü il tarixli 31-ci sayında “Kərbəlayi Məhəmməd Hacızadə, təxəllüs “Səid Ordubadi” imzası ilə oxuculara təqdim edilən ilk mətbu şeiri müəllifin ictimai-siyasi görüşlərini əks etdirmək baxımından xüsusi əhəmiyyətə malik qiymətli bir müraciətnamə təsiri bağışlayır. Bu səbəbdən maarifpərvər yazıçının həyat və yaradıcılığından söz açan əksər mənbələrdə həmin şeirin yada salındığını görürük. Eyni zamanda qeyd etməyə ehtiyac vardır ki, bir qayda olaraq ordubadişünaslar haqqında danışılan əsərin “Şərqi-Rus”da nəşrindən sonra M.S.Ordubadi üçün həyatın daha da çətinləşdiyini, şairin mühafizəkar qüvvələr tərəfindən ardıcıl təqib olunduğunu vurğulamağı məqsədəuyğun saymış, şeirin aşağıdakı 4 misrasını diqqət mərkəzinə çəkmişlər:

Gözüm, dur xabi-qəflətdən, çıxıb gün aşikar oldu,
Bəhəmdülla şəbi-yelda gedib nisfü nahar oldu.

Dolubdu səfheyi-aləm şüai "Şərqi-Rus" ilə,
Qaranlıq könlümün zülmət sərası zərnigar oldu.
(Bax: 7, s. 33)

M.S.Ordubadiyə aid tədqiqat əsərlərində bu şeirin müxtəlif baxış bucaqlarından təhlil edildiyini görürük. Hətta Əkbər Məftun bu əsərlə bağlı açıqlamalarında müəllifi inqilabi mübarizə yolu tutmamaqda günahlandıraraq yazmışdır: "Mətbuata böyük ümidlər bəsləyən, vicdan və söz azadlığı uğrunda mübariz şəxsiyyətlərin yolunu davam etdirməyə can atan M.S.Ordubadi "Şərqi-Rus" qəzetini alqışlamaq istəyirdi. Lakin o, həyatda baş verən hadisələri, inqilabi mübarizəni hələ dərindən dərk edə bilmirdi. Bununla belə, şairin işıqlı günlərə, aydın səhərə olan sonsuz marağı get-gedə çoxalır, yaradıcılıq ilhamı coşurdu." (23, s. 15)

Əlbəttə, "qəflət yuxusu" mövzusu Şərq ədəbiyyatı üçün yeni deyildi. M.S.Ordubadinin mükəmməl şəkildə mənimsədiyi Sədi Şirazi (1184-1291) yaradıcılığında, xüsusən də böyük şairin "Gülüstan" əsərində bu məsələdən, yəni Yer kürəsinin Şərq deyilən qütbündə insanların öz ömürlərini qəflət yuxusunda keçirmələrindən danışıldığını görürük. (Bax: 107) Lakin M.S.Ordubadi eyni ifadəyə tamamilə yeni məna qazandırmış, "Şərqi-Rus" qəzetinin 14 dekabr 1903-cü il tarixli 109-cu sayında çap etdirdiyi "Xabi-qəflət" başlıqlı əsərində "qəflət yuxusu" ifadəsinə aydınlıq gətirərək qeyd etmişdir ki, mövcud cəmiyyətdə qəflətdə yaşamağa, daha doğrusu, ictimai zülmə biganə halında, azadlığın nə olduğunu bilmədən, səfalət içərisində yaşamağa aludəçilik artıq həyat tərzinə çevrilmişdir. Müəllifin fikrincə, insanların

qəflət yuxusunda qalmasına hakim təbəqə nümayəndələri son dərəcədə maraqlıdırlar. Çünki qəflət yuxusu cəmiyyət üzvlərinin ictimai zülmlə barışmalarını şərtləndirməkdədir.

"Xabi-qəflət" başlıqlı əsər deməyə əsas verir ki, artıq XX əsrin əvvəllərində M.S.Ordubadi ictimai ədalət, azad cəmiyyət axtarışlarında olmuş, bu qənaətə gəlmişdir ki, bir varlıq kimi kamilləşmədən, elmsizliyə son qoymadan insanın ədalətli və azad bir cəmiyyət qurması qeyri-mümkündür. Bu qənaətin təsdiqi üçün aşağıdkı misralara diqqət yetirmək kifayətdir:

Dur, ey qafil yatan könlüm, oyan bu xabi qəflətdən,
Sənə yoxdur səmər hərgiz bu bica istirahətdən!
...Ülüləbsar olan sübh olmamış bidar olur bişək,
Deyil insani-kamil durmayan xabi-cəhalətdən.
Gözün var isə hürriyyət ziyasından götür hissə,
Yaşa insanca, insanlartək azad ol əsarətdən!
...Demə mən şir idim, həm mən şücaətdə arslan idim,
Tökərlər başına elm ilə bu xaki məzəllətdən. (57, s. 199)

Eyni ideyaların M.S.Ordubadinin "Qəflət" və "Vətən və hürriyyət" kitablarında bir qədər də təkmilləşdirildiyini, aydınlandırıldığını, bir çox istiqamətlərdən mənalandırıldığını görürük. Məlum olduğu kimi, "Qəflət" kitabı 1906-cı ildə, "Vətən və hürriyyət" isə 1907-ci ildə Tiflisdə Cəlil Məmmədquluzadəyə məxsus "Qeyrət" mətbəəsində nəşr olunmuşdur. Əlbəttə ki, "Qəflət" kitabında tərənnüm olunan ideyalarla müəllifin ictimai-siyasi həyata daha ciddi şəkildə təsir göstərəcəyi yazıçının müasirləri tərəfindən də təqdir edilmişdir. M.S.Ordubadinin

əqidə və məslək dostu Ömər Faiq Nemanzadə (1872-1937) kitabın belə bir əlavə – ön sözlə ictimaiyyətə çatdırılmasını məqsədəuyğun saymışdır: “Bugünkü halımızda camaatı oxumağa həvəsləndirməyin ən gödək yolu, bizcə, açıq dil ilə yazılan kiçik-kiçik faydalı kitablardır. Bu cür kitabları camaat arasında nəşr etmək üçün qonşu millətlərin hamısında məxsus cəmiyyətlər, çapxanalar, kitabxanalar vardır.

... “Qəflət” nəşri-savad qəsdilə çıxardığımız əsərlərin əvvəlincisidir. Ümid edirik ki, bundan sonra əhəmiyyətli yazıçılarımızın, tacirlərimizin köməyi ilə bu kimi əsərlərin çoxlu nəşrinə müvəffəq olaq.” (101, s. 309)

Maraqlıdır ki, “Qəflət” kitabından bəhs edən tədqiqatçılar da sanki ənənəvi qaydada bu kitabdan qısa şəkildə söz açmağa üstünlük vermiş, kitabın mövzu məhdudiyyəti, sənətkarlıq qüsurları ilə səciyyələnməsi mövqeyindən çıxış etmişlər. Düşünürük ki, kitaba tənqidi münasibət bəsləyən ədəbiyyatşünaslar XX əsrin əvvəllərindəki mövcud ədəbi normaları deyil, XX əsrin sonu və XXI əsrin əvvəlləri üçün keçərli olan elmi meyarları nəzərə almışlar. Bu səbəbdən bəzi elmi mənbələrdə “Qəflət” müəllifi hələ ictimai proseslərə tamamilə nüfuz edə bilməməkdə təqsirləndirilmişdir. Məsələn, Əkbər Məftunun “Məmməd Səid Ordubadi” əsərindən oxuyuruq: “Şair xalqının qabaqcıl övladı kimi onun geriliyinə ürəkdən acıyır, başqa millətlərin tərəqqi və təkamülünü nümunə göstərirdi. Ancaq o, xalqını zülm və istismar şəraitində saxlayan, onu cəhalətə sürükləyən başlıca səbəbləri aydın görüb dərk edə bilmir, uzun-uzadı moizəçiliyə keçərək, oxucusuna “əxlaq dərsi” verirdi.” (23, s. 17)

Fikrimizcə, bu müddəalar müəyyən qədər mövzuya subyektiv yanaşma nəticəsində irəli sürülmüşdür. M.S.Ordubadinin "Qəflət", eləcə də "Vətən və hürriyyət" kitabları nəşr olana qədər Ordubad və Culfada yaşaması, əsasən Şərq ölkələrdən gətirilən əsərlərlə tanışlığı müqabilində gənc yazıçının ictimai-siyasi məsələlərə nə qədər tərəqqipərvərcəsinə nüfuz etməsi ancaq və ancaq insanda heyrət doğurur. "Qəflət" kitabının ədəbi-ictimai fikir tariximizdə yerini dəqiq müəyyənləşdirən akademik İsa Həbibbəyli bu kitabla Azərbaycan ədəbiyyatına qazandırılan yenilikləri belə dəyərləndirmişdir: "Qəflət" kitabı 32 səhifədən ibarət olub, "Bismillah-tala" müqəddiməsindən başqa, "Xabi-qəflət" adlı 362 misralıq mənzum bir əsər əsasında hazırlanmışdır. "Xabi-qəflət" əsəri ... heç də indiyə qədər yazıldığı kimi şeir yox, XX əsrin əvvəllərində ön mövqeyə çıxan ictimai-fəlsəfi poemadır. ...Məmməd Səid Ordubadinin "Qəflət" poemasında da əsərin adında ifadə edilən ictimai-mədəni geriliyin səbəbləri, acı təzahürləri, yaratdığı böyük çətinliklərin doğurduğu kədərli vəziyyətlər və müəyyən qurtuluş yolları poetik baxımdan olduğu kimi, ictimai cəhətdən də əsaslı şəkildə ifadə olunmuşdur. İlk kitabı olmasına baxmayaraq, Məmməd Səid Ordubadi "Qəflət" kitabı ilə yetkin və geniş dünyagörüşə və kamil poetik təcrübəyə malik qələm sahibi olduğunu isbat etmişdir. ... Poemanın indiyədək "Xabi-qəflət" adı ilə şeir şəklində cəmi 22 misrası çap olunmuş birinci hissəsindəki 84 misranın hamısı xabi-qəflətin, dadi-qəflətin ictimai-fəlsəfi dərkinin şeirlə sərrast ifadəsindən ibarətdir. Əsərin 60 misradan təşkil olunan ikinci, 90 misralıq üçüncü hissəsində elmsizlik və maarifdən uzaq düşmək qəfləti yaradan, cəhaləti doğuran əsas amillər kimi

nəzərə çarpdırılmış, Avropa maarifçiliyindən nümunə götürmək tövsiyyə olunmuşdur.” ( 35, s. 25-26 )

Məmməd Səid Ordubadinin ictimai-siyası görüşlərini ifadə etmək baxımından yazıçının felyetonları xüsusi dəyərə malik publisistika nümunələri olmaqla diqqəti cəlb etməkdədir. Ümumiyyətlə, M.S.Ordubadi yaradıcılığında felyeton janrı mühüm yer tutmaqdadır. Şübhəsiz ki, yazıçının bu janrda qiymətli örnəklər yaratmasında “Molla Nəsrəddin” jurnalının təsiri məxsusi vurğulanmalıdır. Bu gün mübariz mollanəsrəddinçilər sırasında M.S.Ordubadi adının qeyd-şərtsiz çəkilməsi təsadüfi deyil. Yazıçı məcmuənin nəşrinin ilk ilindən başlayaraq jurnalla müntəzəm surətdə əməkdaşlıq etmiş, “Hərdəmxəyal” imzası ilə “Molla Nəsrəddin” ədəbi cəbhəsinin fəal nümayəndəsinə, mübariz “müridinə” çevrilmişdir. M.S.Ordubadinin “Molla Nəsrəddin”də çap olunmuş felyetonları deməyə əsas verir ki, böyük Mirzə Cəlil kimi, o da əsasən ictimai-siyasi həyatın “qan iyi gələn” problemlərindən söz açmış, prinsip etibarilə qələmini cəsarət tələb edən mövzularda sınamışdır. Professor E.S.Maqsudov maarifpərvər yazıçı M.S.Ordubadinin “Molla Nəsrəddin” ədəbi cəbhəsindəki məxsusi dəyərləndirərək yazmışdır: “Molla Nəsrəddin” jurnalını vərəqlədikcə görürsən ki, “Hərdəmxəyal” dövrünün cəhalət dərdinə, millətin taleyinə heç vaxt biganə qalmamışdır. Felyetonlarının mövzu dairəsi olduqca rəngarəngdir. Yazdıqlarının hamısı millətin ən vacib, ən aktual problemlərinə həsr edilmişdir.” (68, s. 56)

M.S.Ordubadi yardıcılığına üz tutan tədqiqatçılar da bu fikirdə olmuşlar ki, yazıçı hər bir felyetonunda ictimai-siyasi həyatın son dərəcədə aktuallıq kəsb edən mühüm bir problemindən söz

açmışdır. Şübhəsiz ki, cəmiyyət həyatının hansı sahəsini qələmə almasına baxmayaraq, ilk növbədə yazıçını həmvətənlərinin geriliyi, cəhalət, mövhumat, xurafat pəncəsində əzab çəkmələri, doğma məmləkətin Rusiya imperiyası tərəfindən məhvə sürüklənməsi, azadlıq uğrunda mübarizə aparanların xaincəsinə susdurulması düşündürmüşdür. M.S.Ordubadi felyetonlarında müəllif ideyalarının bu qədər dolğunluqla ifadə olunması, təbii ki, mollanəsrəddinşünasların diqqətindən yayınmamışdır. Budur, F.Hüseynov "Molla Nəsrəddin" və mollanəsrəddinçilər" kitabında yazır: "Onun (M.S.Ordubadinin – R.Ə.) inqilabdan əvvəlki satirik şeir və felyeonlarında özünəməxsus zəriflik, incəlik, məzəlilik vardır. "Molla Nəsrəddin" jurnalının mövzu dairəsini təşkil edən inqilab, məişət, qadın azadlığı, ana dili və əlifba, mövhumat, Şərq ətaləti və s. M.S.Ordubadinin də satira yaradıcılığında əsas yer tutur. Onun felyetonları qısalığı, yığcamlığı, ictimai məzmunu, sadə dil və üslubu, məzəliliyi, düşündürücülüyü ilə seçilir. Gerilik, nadanlıq, mövhumat və cəhalət islam zehniyyətinin bəhrəsi kimi onun bədii gülüşünə hədəf olur." (46, s. 218)

M.S.Ordubadinin ictimai-siyasi görüşlərindəki yeniləşmələri izləmək baxımından "Molla Nəsrəddin" jurnalının 2 iyun 1906-cı il tarixli 9-cu sayında "Hərdəmxəyal" imzası ilə çap olunmuş "Politika aləmindən ("Plov" cəzairi-müstəmiəsinin əhvali-coğrafiyyə və bəsirəti-siyasiyyəsi)" adlı felyetona diqqət yetirmək kifayətdir. Zahirən heç bir ölkə və dövlətdən danışılmayan felyetonda hakimiyyət dilənçi kralı və dərvişlər knyazının əlində olsa da, əsas söz sahibi ağbaşlar hökumətidir. Yəni satirik publisistikanın bu maraqlı nümunəsi tamamilə alleqorik üslubda yazılmışıdr. Bununla belə, əsərin ilkin oxunuşundan

aydın olur ki, söhbət İran ölkəsinin səfalət içərisində qalmasından və İngiltərə dövləti tərəfindən hissə-hissə mənimsənilməsindən gedir: "Vaqeədə plov qitəsi coğrafiyyun indində çox əhəmiyyətli bir qitə imiş. Belə ki, bu qitədə çox böyük adalar vardır, o cümlədən birisi xətti-istivanın üstündə vaqe nimçə adasıdır, bu adada cövhəriyyat, nəbatat, mədəniyyət, meyvəcat qismindən hər dürlü şeylər mövcuddur. Başlıca, bu adada düyü namında bir uca dağ da vardır. Məzkur dağda ağbaşlar hökumətindən bir neçə mühəndislər mədən axtarırlar. Mühəndislərin verdiyi məlumata görə, düyü dağını hər tərəfdən qazanda yağ çıxır və dağın şimal tərəflərində səbzi qovurma namında bir yeməli şeylər çıxmış.... Nimçə adasının qərb tərəfində xətti-istivanın şimal-qərbində məntəqeyi-baridədə vaqe bir kiçik ada vardır, haman ada iranca boşqab adlanır. Boşqab adasında sarı rəngdə halva namında bir məcun tapılmış. Haman ada ağbaşlar hökumətinin icarəsindədir. Boşqab adasının qərbi-cənubunda qəndab gölünə yavıq silsileyi-cibalına yapışmış nəlbəki ismində kiçik bir ada vardır. O adada mürəbbe namında dürlü yemişlər var, hansı ki, ağbaşlar höküməti işğal eləmişdir. Ondan sonra nəməkdan və pənir namında bir neçə kiçik adalar vardır, onlara ağbaş höküməti baxmayıb dilənçi kralına və dərvişlər knyazına vagüzar ediblər." (88, s. 83)

Göründüyü kimi, ilk felyetonlarından başlayaraq M.S.Ordubadi Şərq ölkələrinin getdikcə tənəzzülə uğramasını qələmə almaqla bərabər, beynəlxalq müstəmləkəçiliyə qarşı çıxmışdır. Yazıçı bu fikirdə olmuşdur ki, hər hansı bir ölkənin qüdrətini ifadə edən göstəricilərdən biri də həmin ölkədə insanların həyat səviy-

yəsidir. Əgər dövlət başçısı ölkə vətəndaşlarını səfalət içərisində yaşamağa məhkum etmişdirsə, belə bir ölkənin hökmdarı yalnız dilənçilər kralı adlandırıla bilər və o ölkəyə məxsus var-dövlətin daha güclü dövlətlər tərəfindən mənimsənilməsi labüddür.

M.S.Ordubadinin fikrincə, zülmün insanları mütiləşdirdiyi cəmiyyətdə tərəqqidən, inkişafdan, azadlıqdan, hürriyyətdən söz açmağın heç bir əhəmiyyəti yoxdur. Yazıçı qətiyyətlə mütiliyin əleyhinə çıxmış, əsərlərində belə bir mövqedən çıxış etmişdir ki, ictimai həyatın müsbət istiqamətdə dəyişməsindən ötrü ilk növbədə insanlar öz hüquqlarını bilməli, eyni zamanda öz hüquqlarını müdafiə etmək qabiliyyətində olmalıdırlar. Mövcud cəmiyyətdə isə nədənsə şikayət etməyi sanki insanlar özləri özlərinə yasaqlamışlar. Maarifpərvər mollanəsrəddinçinin "Qeyrət" başlıqlı miniatür yazısında da tənqid hədəfi məhz insanların mütiliklə barışığıdır. "Molla Nəsrəddin" jurnalının 21 iyun 1906-cı il tarixli 16-cı sayında getmiş "Qeyrət" başlıqlı və "Hərdəmxəyal" imzalı miniatür yazıda Məşədi Heydərin, Kərbəlayı Qasıməlinin, Mirzə Şaftalının, Mirzə Hüseynağanın adı çəkilsə də tənqid hədəfi, ümumiyyətlə, insanların təfəkküründə ictimai zülmlə barışığın qərarlaşmasıdır. Düşünürük ki, müəllif bilərəkdən öz yazısını "Qeyrət" adlandırmışdır. Başqa sözlə, M.S.Ordubadi bu qənaətə gəlmişdir ki, insanlar əsrlərlə onlara təbliğ edilən köləlik psixologiyasından xilas olmaq üçün qeyrət göstərməlidirlər. Real vəziyyət isə "Qeyrət" miniatür felyetonunda belə qələmə allınmışdır: "– Məşədi Heydər, gəl gedək, uyezdni naçalnikə şikayət edək.

– Qoy mən bir aftaba gətirim gəlim.

– Kərbəlayı Qasıməli, buyur sən gəl gedək.

– Ay flankəs, papiros qutum qalıb hamamda, gedim gətirim gəlim.

– Ay Mirzə Şaftalı ağa, buyur sən gəl gedək.

– Bu saat verim usta Zülfüqar dişimi çəksin gəlim.

– Ay Mirzə Hüseynağa, barı siz buyurun gedək.

– Nökər bizim oğlanı gətirib bazara, verim dəllək başını vursun, gəlim.

– Hacı, sən allah siz təşrif gətirin gedək.

– Aydə, sən allah insaf elə, mən gedim murdar urusun birilə ağız-ağıza verim?..” ( 88, s. 142)

M.S.Ordubadi felyetonlarında dünyanın güclülər və zəiflər, varlılar və yoxsullar, zalımlar və məzlumlar olmaqla ikiyə bölünməsini dönə-dönə nəzər nöqtəsinə çəkdiyi kimi, islam ölkələrinin gündən-günə tənəzzül etməsi, müsəlmanların bütün dünyada əzilməsini də eyni ciddiyyətlə qələmə alınmışdır. Bu baxımdan yazıçının “Qəlbim tutulmuşdu” felyetonu məxsusi dəyərləndirilməlidir. Felyeton nəsr və nəzm olmaqla iki hissədən ibarətdir. Nəsr hissədə müəllifin adı çəkilməyən molla dostu ilə söhbətindən danışılır. Adı çəkilməyən molla digər dini liderlər kimi dünya ölkələrindən, müsəlmanların yaşadığı dövlətlərdən xəbərsizdir. Bununla belə, dünyada gedən proseslər, xüsusən də müsəlman dövlətlərinin müstəqil olub-olmaması bu biganə mollanı da düşündürməkdədir. Mollanın islam ölkələrindəki dövlət quruluşları ilə bağlı suallarına cavab olaraq Hərdəmxəyal məşhur “Asudə bizik, bizləri görcək sitəm ağlar” misrası ilə başlayan mürəbbesini oxuyur. Əlbəttə, bu əsərdə də müəllifi

düşündürən əsas məsələ dünya işlərindən bixəbər müsəlmanların mövhumat içərisində yaşamaları, qeyri-müsəlmanlar tərəfindən gülüş hədəfinə çevrilmələridir:

Qoyma yerə boş gülməyi aləm sənə gülsə,
Get işrətə, gər başına min qüssə tökülsə,
Fikr eyləmə bir zərrəcə qəddin də bükülsə,
Kafir də səni görsə xudaya qəsəm ağlar.

Üstün yana əl vurmayıb et bircə təvəkkül,
Sel gəlsə, durub qaçma əgər olsa da müşkül,
Hər nə desələr bax, özünü eyləmə yüngül,
İslam adı yazdıqca əlimdə qələm ağlar. ( 88, s. 190)

M.S.Ordubadinin ictimai-siyasi görüşləri aydınlaşdırılarkən yazıçının dinə münasibəti məsələsinə xüsusi diqqət yetirilməlidir. Maraqlıdır ki, ədib dinə münasibətində də əsasən maarifçilik mövqeyindən çıxış etmiş, inqilabi dəyişikliyə deyil, islahatçılıq yoluna üstünlük vermişdir. Yazıçı "Qəflət" poemasında, eləcə də "İki çocuğun Avropaya səyahəti" əsərində aydın şəkildə bildirmişdir ki, müsəlman ölkələri günü-gündən həqiqi islam elmi və tarixindən ayrı düşmələri səbəbindən Qərb dövlətlərinin təzyiqlərinə məruz qalmaqdadırlar. M.S.Ordubadi heç cür barışa bilmir ki, şanlı islam tarixi yalançı mollaların qeyri-real rəvayətləri içərisində itib-batmaqdadır. Ədibin 1907-ci ildə "Molla Nəsrəddin" jurnalının 18-ci sayında çap etdirdiyi "Qayırma hədislər" felyetonunda da islam aləmində din nümayəndələrinin, eləcə də cəmiyyət üzvlərinin elmdən xəbərsizliyi tənqid obyektinə çevrilmişdir. Felyetonun əvvəlində müsəlman qardaşların

din tarixinə biganəliyi belə qələmə alınmışdır: "Hərdənbir mənim xəyalıma belə şey gəlir: Gah vaxt olur ki, bir rus, ya qeyri bir millət məndən soruşur ki, peyğəmbəriniz nə vaxt təvəllüd tapıb? Deyirəm, vallah bunu bilmirəm.

Rəfiqim çox təəccüblə genə soruşur ki, çox yaxşı, bunu bilmədin, bəs nə vaxt vəfat edib? Deyirəm, vallah bunu da bilmirəm.

Rəfiqim deyir: – Bəs sən necə müsəlmansan?

Deyirəm: – Bunu bilməyən tək mən deyiləm. Bunu bütün islam aləmi hələ bilmir.

Həqiqətən, peyğəmbərimiz nə vaxt dünyaya gəlib və nə vaxt vəfat edib? Biri deyir, rəbiəl əvvəlin 12-sində dünyaya gəlib, biri deyir, rəbiəl əvvəlin 17-sində dünyaya gəlib. Biri deyir, səfərin 28-ində vəfat edib, biri deyir, rəbiəl əvvlin 12-sində vəfat edib.

Demək ki, peyğəmbərimizin təvəllüd və vəfatı kimi böyük və aşikar vüquatı, bir belə əhəmiyyətli tarixi biz bilmirik." (88, s. 133)

Prinsip etibarilə, "Qayırma hədislər" felyetonu heç də islamı inkar etmir, əksinə, savadsız din nümayəndələrini islamla bağlı elmi həqiqətləri öyrənməyə səsləyir, beləliklə, cəmiyyətdə hökm sürən mövhumat və cəhalətə qarşı həqiqi elm qoyulur. Maraqlıdır ki, hətta inqilabdan sonra da M.S.Ordubadi din nümayəndələrinin məhv edilməsi fikrində olmamış, milli təfəkkürdə dinə münasibəti dəyişməklə cəmiyyəti yeniləşdirmək ideyasından çıxış etmişdir. Bu baxımdan "Molla Nəsrəddin" jurnalının 18 aprel 1925-ci il tarixli 16-cı sayında getmiş "İncimək nə lazım?" felyetonu bir çox mühüm məsələlərə aydınlıq gətirməkdədir.

"İncimək nə lazım?" felyetonunda Hərdəmxəyalı qane edir ki, "Molla Nəsrəddin" in 20 illik mücadiləsindən sonra qulaqlar

doğru sözü eşitməyə həvəs göstərirlər. M.S.Ordubadi aydın şəkildə bildirir ki, molla və rövzəxanlar artıq yeni cəmiyyətin prinsipləri ilə ayaqlaşmalı, özlərini digər zəhmətkeşlərdən ayırmadan halal əməkləri hesabına yaşamaq yolunu tutmalıdırlar. Əslində "İncimək nə lazım?" felyetonunu M.S.Ordubadinin öz din qardaşlarına ciddi bir mesajı kimi də dəyərləndirmək mümkündür. Yazıçı bu publisist əsəri ilə mollanəsrəddinçilərin bolşeviklərdən fərqli mövqedə dayandığını bildirir, bolşevizmin məhvedici təhlükəsini də xatırladır. Maarifpərvər ədibin fikrincə, insan faktoruna gəldikdə "Molla Nəsrəddin" nə ölüm fitvaları verən mollaların, nə də süngülərin dilində danışan bolşeviklərin tərəfindədir. Bu əsəri ilə bir daha fikir mübadiləsinin gərəkliyi iddiasından çıxış edən böyük ədib yazır: "Bizim hücum ilə, küfrə fitva vermək, ölüm təhdidləri hazırlamaq ilə işimiz yoxdur... Ciddi surətdə, bütün tənqid və məzhəkənin xaricində olaraq deyirik ki, "Molla Nəsrəddin" məcmuəsi Şeyx Qəninin küçədə bihörmət olmasına və söyülüb-döyülməsinə də tərəfdar deyildir. Bu cür işlər, doğrudan da vəhşilikdir. Bizim mollalar ilə, Şeyx ilə heç bir ədavətimiz yoxdur. Ancaq gördüyümüzü demək borcumuzdur. Onlar da desinlər. Hətta biz Şeyx Qəninin iranlılar məscidindən qovulmasına da tərəfdar deyiliz. Biz ondan razı olarıq ki, onu qovandan sonra yerinə başqasını çağırmasınlar. Müxtəsəri, bu cür işlərdən incimək lazım deyildir.

Çünki bu işlərin hamısını eləyən zaman və məkanın şəraitidir." (91, s. 185)

Müxtəlif əsərlərində ictimai proseslərin mahiyyətinə aydınlıq gətirmək istəyən M.S.Ordubadi cəmiyyətləri dəyişəcək, təfəkkürləri yeniləşdirəcək bir qüvvə kimi məhz elmi tərənnüm

etmiş, hətta sanki böyük Nizaminin fikirlərini modernləşdirərək elmli hökmdar axtarışında olmuşdur. Fikrimizcə, yazıçının ictimai-siyasi görüşləri əsərdən-əsərə və zaman-zaman təkmilləşsə də, qüdrətli ədib daim təfəkkürləri elmlə silahlandırmaq yoluna üstünlük vermişdir. Məsələn, "Sevgilər" əsərində cəmiyyətin eybəcərliklərini qələmə alan müəllif Yusifin dili ilə insanın insan tərəfindən qul halına salınmasını məhz ictimai quruluşla əlaqələndirir, yeni dünyanın üstün ağıl sahibləri olan dahilə tərəfindən qurulacağını bildirir. Bəli, "Sevgilər" əsərində müəllif bu fikirdədir ki, ölkə hökmdarı yeni cəmiyyət yaratmaqdan ötrü öz ətrafına dahiləri yığmalı, təcrübə, elm və idrakın birliyi ilə yeni mədəniyyətə nail olmalıdır. Hökmdar xalqa xidməti həyat amalına çevirməli, elmin gücünə güvənərək ölkəsini yüksəltməlidir:

İstərsən əgər olmayasan fəqrə giriftar,
Hər xidmətin öz əhlini tap, amilin axtar.
Mənsəb daşımaq, şanlı riyasətdə bulunmaq,
Bifayidədir işləməsən xalq üçün ancaq.
Hərgiz edəməm, şəxsim üçün xalqa xəyanət,
Əfv eylə, deyil ruhuma uyğun bu rəyasət.
Az bilgi böyük xidməti təmin edəməzkən,
Yüksəlməyəcək məmləkət onda nə edim mən?
Mən mənsəbə aldanmayıram, ölkə mənimdir,
İğfal edəməm, çünki bu yer öz vətənimdir. (97, s. 74)

Hər halda "Sevgilər"də M.S.Ordubadinin mövqeyi belədir və qətiyyətlə demək olar ki, ədib ömrünün sonuna kimi eyni ideyalarla yaşamışdır.

Azərbaycan maarifçiləri bu fikirdə olmuşlar ki, ictimai zülm cəmiyyətdə bir sıra daha ciddi nöqsanları şərtləndirir. Bu kimi

ciddi nöqsanlardan biri də zülmün təfəkkürləri kütləşdirməsi, ədalətsizliklərə rəvac verməsidir. Bu səbəbdən Azərbaycan maarifçiləri də Avropa maarifçiləri kimi insanları bütün ruhları ilə köhnə dünyaya, köhnə düşüncə tərzinə bağlayan mütləq hakimlərə qarşı çıxmışlar. M.S.Ordubadi “Miyanə” adlı miniatür felyetonunda (“Molla Nəsrəddin”, 4 yanvar 1909, №1) yenidən eyni mövzuya qayıtmış, məsələni belə qoymuşdur ki, azadlıq hərəkatını ilk öncə milli təfəkkürdə aparmaq lazımdır. Əks halda cəmiyyət dostu ilə düşməninə fərq qoymaz, xalqı ətalətə, cəhalətə sürükləyənlər elə xalq tərəfindən də dəstəklənərlər: “...Miyanə İranın Azərbaycan ilə Tehran arasında vaqe məşhur qədim bir şəhərdir. İki qitənin ortasında vaqe olduğuna cəhət adını qoyublar Miyanə, yəni ortalıq... Ələlxüsus, bu şəhərin çox arif, çox həlim və xoş adamları vardır ki, hər kəsin üzünə baxıb o saatda bilirlər ki, nə hörmətə layiqdir və nə karın sahibidir. Belə ki, Mirzə Həsən ağa (əstəğfürullah, Təbriz müctəhidi) Təbrizdən qaçan vaxt ki, istəyir Tehrana getsin, lazım olur ki, haman Miyanə şəhərinin içindən keçsin. Miyanə ürəfa və danişməndləri baxəbər olaraq o saatda fəhm edirlər bu cənab nə tövr adamdır. Binaən əleyh çünki ağa müsibətli və qüssəli sayılır və Təbriz acısı hənuz damağındadır, lazım bilirlər ki ağanı şadyanalıq ilə pişvaz etsinlər. O saatda xəbər verirlər cəmi dünbək və balaban çalanlara, kəmali-ehtiram ilə ağanı pişvaz edirlər. Vaqeən də Miyanə camaatı çox arif adamlardır ki, hər kəsi öz şəninə layiq pişvaz edirlər.” (89, s. 447)

M.S.Ordubadi o fikirdə olmuşdur ki, idarəetməsi zülmə, cəhalətə, ictimai ədalətsizliyə, xurafata, elmsizliyə əsaslanan cəmiyyətin məhvi labüddür.

Bəli, M.S.Ordubadinin ictimai-siyasi görüşləri deməyə im-

kan verir ki, böyük ədib bütün ömrü boyu məhz maarifçi demokrat mövqeyindən xalqına xidmət göstərmiş, hələ gənc yaşlarından qələmə aldığı əsərlərdə ictimai zülmə nifrətini açıq şəkildə bildirmiş, mövcud cəmiyyəti dəyişəcək, qəflət yuxusunda uyuyan təfəkkürləri oyadacaq güc olaraq mətbuata ümid bağlamış, belə hesab etmişdir ki, milli təfəkkürün yeniləşdirilməsi yolu ilə ictimai-sosial münasibətləri kökündən dəyişmək mümkündür. Digər maaifçi ziyalı dostları kimi, M.S.Ordubadi də cəmiyyətdə qarşılaşdığı ədalətsizliklərin, haqsızlıqların, cəhalət və nadanlığın səbəblərini axtararkən günahı elmsizlikdə görmüşdür. Qüdrətli ədib vətəninin və həmvətənlərinin gündən-günə tənəzzülə uğramasından ürək ağrısı ilə söz açmış, bu işdə labüd olaraq beynəlxalq imperializmi də günahlandırmışdır. Prinsipcə yazıçı ictimai-siyasi proseslərə məhz Azərbacan maarifçilik hərəkatının nümayəndəsi olaraq müdaxilə etmişdir.

II FƏSİL

# MƏMMƏD SƏİD ORDUBADİ VƏ MƏKTƏB



## 2.1. Məmməd Səid Ordubadinin məktəb təhsili və müəllimləri

Təbii ki, düşüncəsi və əməli fəaliyyəti ilə bir ömür boyu Azərbaycan maarifçilik hərəkatına bağlılığında M.S.Ordubadinin aldığı təhsil mühüm rol oynamışdır. İnsan həyatında təhsilə böyük əhəmiyyət verən yazıçı "Həyatım və mühitim" adlı memuarında ilk müəllimlərindən, eləcə də Ordubadda fəaliyyət göstərən məktəblərdən ayrıca söz açmışdır.

Şübhəsiz ki, atası Hacıağa Fəqirin əhatəsində olduğu ədəbi mühit Məmməd Sədi Ordubadi dünyagörüşünə də təsirsiz qalmamışdır. Hətta çox doğru olaraq elmi ədəbiyyatlarda M.S.Ordubadinin ilk müəllimlərindən birinin məhz atası Hacıağa Fəqir Ordubadi olduğu göstərilməkdədir. Bununla belə, böyük yazıçı məşhur "Həyatım və mühitim" memuarında ilk müəllimləri kimi Şəhərbanıxanım və Mirzə Baxşıdan bəhs edir. Başqa sözlə, xatırlatdığımız memuarda M.S.Ordubadi əvvəlcə axund Şəhrəbanının, daha sonra Mirzə Baxşının məktəbinə getdiyini bildirir. O da var ki, əlaqədar ədəbiyyatlarda axund Şəhrəbanının kim olması, öz şagirlərinə hansı elmləri öyrətməsi haqqında məlumatlara rast gəlinmir. Bununla belə, akademik İsa Həbibbəylinin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyasından aydın olur ki, XIX əsrdə Şərq ölkələrində, o cümlədən Azərbaycanda dini təlim iki pillədə gerçəkləşmiş, ibtidai dini təlimin birinci pilləsində müsəlman uşaqlarına ərəb əlifbası və şəriətə dair ilkin zəruri bilgilər, Quran oxumaq qay-

daları öyrədilmişdir. (Bax: 37, s. 53) Çox güman ki, M.S.Ordubadi də axund Şəhrəbanının məktəbində dini təlimin məhz bu mərhələsini keçmişdir.

M.S.Ordubadi "Həyatım və mühitim" əsərində müəllimi Mirzə Baxşıdan müəyyən qədər "geniş" söz açmışdır. Məhz yeganə mənbə olaraq "Həyatım və mühitim"dən öyrənirik ki, bir şeir maraqlısı kimi də şagirdlərinin hörmətini qazanmış Mirzə Baxşının adına Ordubadda həm məktəb, həm də məscid fəaliyyət göstərmişdir. Daha doğrusu, M.S.Ordubadi həm Ordubad şəhərindəki məktəblərdən, həm də kiçik məscidlərdən bəhs edərkən Mirzə Baxşının adını çəkmişdir. Eləcə də haqqında danışdığımız mənbəyə əsasən deyə bilərik ki, Mirzə Baxşı sıradan biri deyil, söz sənətinə dair dərin biliyi ilə də seçilən ziyalılardan olmuşdur. Ümumiyyətlə, XX əsrin 30-80-ci illərində yazılmış elmi ədəbiyyatlarda XIX əsrdə fəaliyyət göstərən molla məktəbləri müəyyən mənada geriliyi təbliğ edən, insanları mövhumat və cəhalətə sürükləyən təhsil ocaqları kimi səciyyələndirilmişdir. V.Rzayevin "XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr" kitabı isə qeyd edilən təhsil ocaqları haqqında təsəvvürlərimizi tamamilə dəyişir və müəllif rus mənbələrinə əsasən göstərir ki, məscid məktəbləri və mədrəsələrdə üç istiqamət üzrə aşağıdakı elmlər öyrədilmişdir: "A) Əl-ərəbiyyat, xüsusi ədəbiyyatdır ki, özündə iyirmidən artıq bilik sahəsini birləşdirir: 1) Dilçilik; 2) Etimologiya; 3) Sintaksis; 4), 5) və 6) Ritorikanın üç hissəsi; 7), 8), 9) və 10) Ərəb dilinin uzun və qısa, vurğulu və vurğusuz tələffüz üsulları; 11) Tarix və onun müxtəlif sahələri; 12) Quranın oxunması (elmül-qiraət).

B) Əl-şəriət, ilahiyyat və ümumən İslam hüquqşünaslığı. Buraya altı bölmə aiddir: 1) Quranın şərhi (elmül-təsvir); 2) Elmül-hədis; 3) Praktik ilahiyyat (hüquqşünaslığa aid olan fiqh elmi); 4) Sxolastik ilahiyyat (elmül-kəlam); Mirası bölmək qaydaları (elmül-fərz); 6) Üsulül-fiqh məzhəblərin qanunçuluğunun müxtəlif şöbələrinin əsasları.

C) Əl-kimya, Fəlsəfə, beş hissədən ibarətdir: 1) Məntiq; 2) Riyaziyyat; 3) Coğrafiya və astronomiya (nücum); 4) Tibb və təbiət elmləri; 5) Nəzəri fəlsəfə." (105, s. 27-28)

Fikrimizcə, M.S.Ordubadinin "Həyatım və mühitim" əsərində ədibin ilk müəllimlərindən biri kimi haqqında danışılan axund Mirzə Baxşı mükəmməl bilik sahibi olmuşdur. Hər halda gələcək yazıçının Sədi Şirazi "Bustan"ını bütünlüklə əzbərləməsi Mirzə Baxşı məktəbində oxuduğu dövrlə üst-üstə düşür. Ədibin xatirələrindən məlum olur ki, axund Mirzə Baxşı öz şagirdlərinə o dövrün təhsil sistemində nəzərdə tutulan bilikləri mənimsətməklə yanaşı, məktəbdə müntəzəm surətdə şeirləşmə məclisləri də təşkil etmiş, bu yolla şagirdlərin əqli qabiliyyətlərinin daha da təkmilləşdirilməsi istiqamətində sistemli iş aparmışdır. Sübutdur ki, M.S.Ordubadi ilk beytini Mirzə Baxşı məktəbində şeirləşərkən bədahətən demişdir. "Həyatım və mühitim"dən oxuyuruq: "Mən şeirləşdiyim müddətdə bir kərə müşkülat qarşısında qaldım. Bir sıra baş hərfi "z", axır hərfi "t" ilə qurtaran şeirləri oxuyurduq. Şeirləşmə axşam saat 6-ya qədər çəkdi. Mən Nisab, Sədi və başqa kitablardan öyrəndiyim bütün şeirləri oxuyub qurtarmışdım. Əvvəli "z", axırı "t" hərfi ilə qurtaran beyt tapa bilmədim. Burada birinci olaraq farsca bir şeir inşa etdim:

Zənbəq məşam ruye tu dərbər neşidəst,
Nəqqaş nəqşe-surətət əzbər keşidəst.

Uşaqlar etiraz etdilər. Şeirin hansı kitabda olduğunu göstərməyi tələb edirdilər. Mirzə Baxşı axund bu etirazları qəbul etməyərək dedi: "Madam ki, şeirdə məzmun vardır, madam ki, qafiyə, ölçü vardır, madam ki, şeirə bədii şəkil verə bilmişdir, o halda şeirin bir kitabda olub-olmamasının əhəmiyyəti yoxdur", - sözlərindən sonra mən qalib gəldim." ( 101, s. 29-30)

Yeri gəlmişkən qeyd edək ki, M.S.Ordubadinin 1996-cı ildə "Azərnəşr" tərəfindən oxuculara təqdim olunan "Həyatım və mühitim" əsərində yuxarıdakı beyt bir qədər məzmunsuz tərcümə olunmuşdur. Daha doğrusu, həmin beyt aşağıdakı kimi tərcümə olunmuşdur ki, bu tərcüməyə əsasən Mirzə Baxşı məktəbindəki digər şagirdlərə haqq qazandırmalıyıq:

Sənin zanbağa oxşar üzünə qonmuşdur,
Nəqqaş sənin surətinin rəsmini əzbər çəkmişdir. (100, s. 13)

Düşünürük ki, M.S.Ordubadiyə məxsus ilk beytin daha uğurlu tərcüməsi Əkbər Məftuna məxsusdur. Başqa sözlə, Hacıağa Fəqir övladına yaraşan da elə Əkbər Məftunun tərcüməsidir:

Zanbaq sənin gözəl iyini ağuşuna çəkdi,
Nəqqaş isə sənin surətini əzbərdən çəkdi. (23, s. 11)

Müşahidələr deməyə əsas verir ki, bir müəllim olaraq Mirzə Baxşı və onun məktəbi M.S.Ordubadi mənəviyyatında ciddi izlər qoymuşdur. Məsələn, "Molla Nəsrəddin" jurnalının 13 iyun 1925-

ci il tarixli 24-cü sayında "Yalançı" imzası və "Sözləşmək-beytləşmək" başlığı ilə çap olunmuş felyetonda məhz Mirzə Baxşı məktəbinin yada salındığını görürük: "Qədim məktəblərdə bir üsul var idi. Çox da gözəl üsul idi. Soltan bəy demişkən, orada ikitərəfli mənfəət vardı. Cümə axşamları müəllim hər uşaqdan iki qəpik beyt pulu alardı, uşaqlar iki tərəfə ayrılardı, beytləşərdi. Həm axund nəfə yetişərdi, həm də uşaq şeir oxumağı öyrənərdi. Bu gün möhtərəm mütəşairlər də haman beytləşmənin yadigarıdır.

İndi yeni məktəblərdə daha beytləşmək yoxdur. Haman adət bizim məcmuəyə düşübdür." (91, s. 283)

Qeyd etdiyimiz kimi, "Sözləşmək-beytləşmək" felyetonu oxuculara "Yalançı" imzası ilə təqdim edilmişdir. Bu imza ilə əlaqədar Qulam Məmmədlinin "İmzalar" kitabında aşağıdakı şərhlər öz əksini tapmışdır: "Yalançı – Ələbbas Mütəllibzadə. "Zənbur", 1909.

Yalançı – Üzeyir Hacıbəyli. "Molla Nəsrəddin", 1925. (76, s. 53)

Q.Məmmədli. "Üzeyir Hacıbəyov. 1885-1948. Həyat və yaradıcılığının salnaməsi" adlı kitabında isə göstərir ki, görkəmli ədib-musiqiçi bu imzadan 1924-cü ildə istifadə etmişdir. (Bax: 78, s. 460 )

Əslində "Molla Nəsrəddin" jurnalının 1925-ci ilə aid nəşrlərindəki "Yalançı" imzalı heç bir publisistik əsər Ü.Hacıbəyliyə aid deyil. Həmin əsərlər, o cümlədən "Sözləşmək-beytləşmək" felyetonu M.S.Ordubadi tərəfindən yazılmışdır. Bu fikri aşağıdakı amillərlə təsdiqləmək mümkündür. Birincisi, 1922-ci ildən sonra Ü.Hacıbəyli həyatını əsasən Azərbaycan musiqisinə

həsr etmişdir. "Sözləşmək-beytləşmək" felyetonunda isə o zaman qüdrətli bəstəkarı düşündürməyəcək bir mövzudan – "Molla Nəsrəddin" jurnalına bölgələrdən göndərilən məktublarda müəyyən hadisələrin həm təsdiq, həm də təkzib edilməsindən danışılır. İkincisi, 1925-ci ildə "Molla Nəsrəddin" jurnalında çap olunmuş "Yalançı" imzalı yazıların mətni deməyə imkan verir ki, müəllif məcmuənin idarəsində qəti söz demək hüququna malik şəxsdir. 1925-ci ildə isə "Molla Nəsrəddin" idarəsi adından ya Cəlil Məmmədquluzadə, ya da Məmməd Səid Ordubadi danışa bilərdi. Beləliklə, "Sözləşmək-beytləşmək" felyetonunda müəllif ad çəkmədən müəllimi Mirzə Baxşı ilə bağlı xatirələrini publisistik dillə qələmə almış, hörmətli müəlliminə etiramını bir daha təsdiqləmişdir.

Mirzə Baxşı məktəbindən sonra M.S. Ordubadi atası Hacıağa Fəqirin açdığı məktəbdə təhsil almışdır. Əlaqədar ədəbiyyatlarda yazıçının bu təhsil ocağında nə kimi biliklər öyrənməsinə dair geniş məlumatlara rast gəlmirik. Lakin Azərbaycanın tanınmış pedaqoqu, ədəbiyyatşünas alim Lətif Hüseynzadənin "Görüşlərim" adlı yazısından aydın olur ki, yeni nəsillərin, o cümlədən M.S.Ordubadinin vətənsevər gənc olaraq formalaşmasında Fəqir məktəbi müstəsna rol oynamışdır. Budur, L.Hüseynzadənin xatirələri: "1935-36-cı tədris ili idi, yay kursları Ordubadda təşkil olunmuşdu. Xoşbəxtlikdən həmin il sevimli ədibimiz M.S.Ordubadi də istirahət üçün buraya gəlmişdi. ...Ədiblə görüşdük. O rəngarəng kaşilərlə bəzədilmiş, Şərq – Azərbaycan memarlığı üslubunda tikilmiş bir qədim abidənin qapısı qarşısında dayandı. Dedi: "Baxın, memarlarımız nələr

yaratmışdır. Bura atamın dərs dediyi və mənim ilk təhsil və tərbiyə aldığım mədrəsədir."

Mədrəsənin həyatinə daxil olduq. M.S.Ordubadi xarabəliyə çevrilmiş o gözəl mədrəsənin hücrələrinə, həyətə – səkkizgüşəli hovuza dərin bir həsrətlə baxıb, "Mənim də gəncliyim burada mədfundur sanki" – və bir az sonra, – "Bilsəydim ömrüm belə tez gəlib keçəcək, mən onu qənaətlə sərf edərdim" – dedi. Yuxarıdan hücrələri birləşdirən tacın üzərindəki yazını göstərib: "Hübbül – vətən minəliman!" sözlərini oxudu və tərcümə elədi ki, yəni iman vətəni sevmək deməkdir. "Əsil iman vətən sevgisidir" sözlərini də əlavə etdi". (48)

Bu sətirlər deməyə əsas verir ki, M.S Ordubadi "Vətən və hürriyyət"i həm də Hacıağa Fəqir məktəbinin təsirilə qələmə almışdır.

Qəti şəkildə demək mümkündür ki, M.S.Ordubadi öz müəllimlərinə sonsuz dərəcədə hörmət bəsləmiş, yeri gəldikcə müxtəlif əsərlərində müəllimlərini yada salmaqla bu böyük ziyalıların Azərbaycan maarifçilk hərəkatında xidmətlərini obyektiv şəkildə qiymətləndirmişdir. Faktdır ki, M.S.Ordubadinin "Əski və yeni şeir məktəbləri" məqalələr silsiləsindəki ikinci yazı birbaşa Hacıağa Fəqir haqqındadır və yazıçının bu məqaləsi Azərbaycan elmi ictimaiyyəti üçün bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi, müəllif gələcək tədqiqatçılardan XIX əsr Azərbaycan ədəbiyyatına xüsusi həssaslıqla yanaşmağı tələb edir, göstərirdi ki, bu əsrdə söz sənətimizdə bir çox müəlliflər öz yaradıcılıqlarında klassik ənənələrə əsaslansalar da, bədii-fəlsəfi fikirdə artıq yeniləşmə gedirdi. M.S.Ordubadi çox doğru

olaraq XIX əsrdə əksər şairlərin məhz Sədi, Hafiz sənətindən təsirləndiklərini xatırlatmaqla yanaşı, bəzi qələm sahiblərinin yeni məzmunlu ədəbiyyat yaratmaq istiqamətindəki səylərini də dəyərləndirir, Seyid Əzim Şirvaninin müasirləri olan Fəqirin və M.T.Sidqinin yeni məktəb yaratmalarını məxsusi vurğulayırdı.

İkincisi, M.S.Ordubadinin Fəqir haqqında yazdıqları təsdiqləyir ki, yazıçı elmi məqalələrində tamamilə obyektiv mövqedə dayanmış, hətta atası olmasına baxmayaraq Hacıağa Fəqir yaradıcılığının zəif cəhətlərini də qeyd etməyi lazım bilmişdir. "Əski və yeni şeir məktəbləri" məqalələr silsiləsində müəllif çox doğru olaraq Fəqirin əsərlərini təqlidçilik və novatorluq baxımından fərqləndirmiş, şairin Şərq klassik ədəbiyyatı ilə bağlılığına belə aydınlıq gətirmişdir: "Seyid Əzim ilə müasir olan Fəqir və Məhəmməd Tağı Sidqinin bir çox əsərləri bu gün oxunursa, onların hər ikisinin yeni məktəb şairləri olduqları meydana çıxar.

Fəqət onların farsca əsərlərinə baxıldıqda yenə ya Sədi, ya Hafiz və ya Məsnəvi məktəbləri dairəsində dolandıqları məlum olur.

Əvvəlcə götürəlim ordubadlı Fəqiri.

Bu şairin təb olunmamış bir çox əsərləri vardır ki, indi tapılıb meydana çıxır. Bu şairdəki nəzirəçilk və müsabiqəçilk ondakı qayət nazik sənətə nöqsan yetirmişdir. Zira nəzirə və müsabiqə üsulu başqasının yaratdığı sənətdən istifadə eləmək deməkdir ki, bu günün şairləri də o mühitdən çıxammamışlardır.

Türkcə, farsca qayət məharət göstərmiş Fəqir öz əsərindəki qəzəliyyatı Hafiz məktəbi ilə açır, Hafizə nəzirə, yaxud müsabiqə olaraq yazır." (99, s. 324-325)

Bu açıqlamalar Fəqir Ordubadinin Şərq klassik ədəbiyyatına dərindən bələdliyini təsdiqləməklə bərabər, M.S.Ordubadinin poeziya sənətinə mükəmməl bir ədəbiyyatşünas səviyyəsində vaqif olduğunu da göstərməkdədir. İnkaredilməz faktdır ki, yazıçı zaman-zaman Şərq, eləcə də Azərbaycan ədəbiyyatı üçün səciyyəvi olan proseslərə əsl ədəbiyyatşünas mövqeyindən yanaşmış, dövr və mühit nəzərə alınmaqla hər bir şairin yaradıcılığının düzgün qiymətləndirilməsini vacib və gərəkli saymışdır. M.S.Ordubadi öz məqaləsi ilə belə bir həqiqəti bir daha elmi ictimaiyyətin nəzər-diqqətinə çatdırmışdır ki, Fəqir kimi Şərq ədəbiyyatını dərindən bilən şairlərin yaradıcılığını təsir baxımından bir klassikin ədəbi irsi ilə əlaqələndirmək doğru deyil.

"Əski və yeni şeir məktəbləri" başlıqlı məqalələr silsiləsi əslində bugünkü elmi meyarlara da cavab verməkdədir və həmin elmi meyarlara görə hər bir poetik nümunənin ümumdünya ədəbiyyatı fonunda sözbəsöz incələnməsinə ehtiyac vardır. Bu meyara uyğun olaraq M.S.Ordubadi atası Hacıağa Fəqirin bəzi şeirlərində Ömər Xəyyam təsirinin duyulduğunu da qeyd edərək yazmışdır: "Farsca əsərlərində Hafiz və Sədiləri təqib edən bu şair (Fəqir – R.Ə.), türkcə yazılarında tamamilə Ömər Xəyyam məfkurəsinə təqlid etmiş və onu tamamilə dinləmişdir.

Şeirlərinin birisində:

> Yox deyən zahidə meyxanəyə gəl, pak elə dil,
> Tərk qıl məscidi axır, nə o viranədə var?" (99, s. 325)

M.S.Ordubadinin fikrincə, Fəqir mollaları tənqid edərkən ilk əvvəl məhz Ömər Xəyyam üsulundan bəhrələnmiş, orta əsrlər

poeziyasında olduğu kimi, xərabatı məscidə qarşı qoymuş, ürəklərin meyxanədə paklandığını, məscidin viranə təsiri bağışladığını, oraya insanların zor ilə cəlb olunduğunu yazmışdır. Diqqət edilərsə, görərik ki, Fəqirin Ömər Xəyyam təsiri ilə yazdığı şeirlərdə poetik deyimlər klassik modelə uyğun gəlsə də, əslində şair məhz yaşadığı dövrü qələmə almış, hədəf olara məscidləri viranələrə çevirən, həqiqi islam tarixi əvəzinə yalançı əfsanələrlə din qardaşlarını tənəzzülə sürükləyən mollaları seçmişdir. Bütün hallarda M.S.Ordubadinin "Əski və yeni şeir məktəbləri" məqalələr silsiləsində atası Fəqir Ordubadi yaradıcılığından seçdiyi nümunələr oxucunun gözü qarşısında mübariz bir ziyalı surəti canlandırır:

"Digər bir şeirində:

Saqi, bəni ol badeyi-gülnar aparıbdır,
Əqlim dağılıb, xərqeyi huşyar aparıbdır.
Bihudə edər əhli –xərabata şəmatət,
Bax zahidə kim, məscidə zünnar aparıbdır.

Başqa bir şeirində:

Cahanda məskəni-xoş görmədim meyxanədən qeyri,
Daha mən əhdi-peyman etmərəm peymanədən qeyri.
Girib meyxananı abad, əhlin şad gördüm mən,
Nə məscidtək ki, yoxdur bir əsər viranədən qeyri.
Gözüm, bu əqli şaşmış vaizə aldanma, əlbəttə,
Ki, ol nadan şaşıb bir söz deməz əfsanədən qeyri.

Fəqirdəki yenilik, Nəbati və Sabirlərdə olduğu kimi, yazdığı həzliyatında tənqidlər və gülgülərlə başlamış olur." (99, s. 325)

Bu təhlillər həm də deməyə əsas verir ki, Azərbaycan maarifçilik hərəkatının ideya mənbələri olaraq təkcə Avropa ədəbiyyatı və fəlsəfəsindən deyil, həm də Şərq müdriklərinin əsərlərindən söz açılmalıdır. Başqa sözlə, Azərbaycan maarifçiləri Şərq klassiklərinin əsrlər boyu ictimai nöqsanlara qarşı etirazlarını yeni tarixi şəraitdə davam və inkişaf etdirib əməli və fikri hərəkat səviyyəsinə qaldırmışlar.

Əlbəttə, 1923-cü ildə M.S.Ordubadinin öz atası Fəqir Ordubadidən Azərbaycan maarifçilik hərəkatının nümayəndəsi kimi danışması qeyri-mümkün idi. Ən azı ona görə ki, XX əsrin 20-ci illərində bizdə, ümumiyyətlə, maarifçilk hərəkatı öyrənilməmişdi. Doğrudur, "Əski və yeni şeir məktəbləri" məqalələr silsiləsində artıq Fəqir Ordubadi Azərbaycanda yeni ədəbiyyatın yaradıcılarından biri olaraq təqdim edilir. Akademik İsa Həbibbəyli "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyasında Fəqir yaradıcılığı timsalında bu yeni ədəbiyyatın əsas xüsusiyyətlərinə bir qədər də geniş aydınlıq gətirərək yazır: "...Fəqirin yaradıcılığında lirikanın romantik örtüyü öz yerini tədricən həyat həqiqətlərinin bədii ifadəsinə verməkdədir. Şairin "Əttara məzəmmət" şeirində deyildiyi kimi, bu, "şüəra qisminin təzə tərpənişi" idi. Onun mənzum məktub formasına ardıcıl müraciət etməsi də tərcümeyi-halla bağlı mətləbləri ifadə etməkdən çox şeirlərindəki xəlqiləşmə prosesinin nəticəsidir. Mənzum məktublarda zəmanənin gedişatına, müsirlərinin imkan və vəziyyətinə, özünün ərzi-halına, hətta sənətə və sənətkara real qiymət verilir. Doğrudur, Fəqirin vəzifəli şəxsələrə yazdığı mənzum məktublarda klassik mədhiyyələrdən gəlmə təntənə əlamətləri də müşahidə olunmaqdadır. Lakin bunlar mənzum

məktubların "girizgah" – giriş hissəsini təşkil edir, bədii müqəddimə funksiyası daşıyır. Məktubların əsas hissəsi isə ictimai və fərdi xarakterli real mətləblərdən yoğrulmuşdur. Fəqirin mənzum məktublarında "bu dövlət bisəxavət, haqq üçün, bihudə xoşbəxtdir", "yetişdi zülm göyə", "zindəganlıq xeyli müşküldür bizə bu hal ilə" qəbilindən olan dövrandan şikayət motivli bədii ümumiləşdirmələr çoxdur." ( 36, s. 232)

Məlumdur ki, Hacıağa Fəqirin qələmə aldığı "Kürdün çul satması" şeiri yazıldığı dövrdən etibarən böyük ək-səda doğurmuş, XIX əsrin II yarısında maarifçilik hərəkatına xidmət edən gənc ziyalılar bu şeiri əzbər bilmişlər. Bu "ictimai satira" Mirzə Cəlil tərəfindən məxsusi dəyərləndirilmiş, böyük ədib şeiri "Molla Nəsrəddin"in oxucusuna təqdim etməyi də məqsədəuyğun saymış, beləliklə, "Kürdün çul satması" şeiri məcmuənin 10 sentyabr 1907-ci il tarixli 34-cü sayında çap olunmuşdur. Nəticədə jurnal İrəvan qubernatoru Tizenqauzen tərəfindən məhkəməyə verilmiş, həmin əsərin Tizenqauzenə ünvanlanaraq yazılmadığına dair Cəlil Məmmədquluzadə hətta mətbuat vasitəsilə izahat işi aparmaq məcburiyyətində qalmışdır. Xatırladaq ki, "Kürdün çul satması" Hacıağa Fəqirin "Molla Nəsrəddin" vasitəsilə oxuculara çatdırılan yeganə şeiri deyil. Belə ki, Fəqirə məxsus "Dünya əhlinə məzəmmət" satirasının maarifçilik ideyalarına tamamilə uyğun gəlməsi M.S.Ordubadinin diqqətindən yayınmamış, ədib "Molla Nəsrəddin" jurnalının 29 noyabr 1924-cü il tarixli 25-ci sayında "Köhnə dinsiz şairlər" başlıqlı balaca bir müqəddimədən sonra "Hərdəmxəyal" imzası ilə "Dünya əhlinə məzəmmət" satirasını bütünlüklə çap etdir-

mişdir. Bu qiymətli satiranın mətni ilə yazıçının "Həyatım və mühitim" əsərində də qarşılaşırıq. Lakin eyni əsərlə bağlı M.S.Ordubadinin "Molla Nəsrəddin"dəki şərh-müqəddiməsi şeirin nə qədər qiymətli nümunə olduğunu təsdiqləməkdədi. "Köhnə dinsiz şairlər" başlıqlı müqəddimədə Hərdəmxəyal yazır: "Yetmiş il bundan qabaq gəlib-getmiş şairlərin kitablarını o bucaq-bu bucaqda tapıb oxuyanda görürsən ki, onların da hərdən ağlı qaçırmış. Bəziləri elə sözlər yazıblar ki, indi biz onları yazsaq deyəcəklər ki, dinsizdirlər.

Dünən görürəm baqqal pendiri çəkib bir dəstə köhnə əlyazısının içindən bir vərəq götürüb pendiri sarıyıb verdi mənə. Əl yazısı olduğu üçün iki şahı verib onları aldım. Gətirib oxudum, gördüm ki, yetmiş il bundan qabaq Fəqir adlı bir şairin yazdığı hədərən-pədərəndir. Öz-özümə dedim ki, bu da şair imiş, rəhmətlik Qümri, Dəxil, Dilsuz, "Şükufə"ni yazan da şair imiş. İndi haman bu kafir olmuş Fəqirin şeirlərindən yazacağam ki, bütün Bakı varlıları – hacı, məşədi, kərbəlayıları gedib məsciddə namaz qılanda ona lənət eləsinlər. Amma onu da deyirəm ki, mən bunları oxuyan kimi acığımdan o saat yandırdım." ( 90, s. 834)

Müqayisəli təhlil əsasında belə demək mümkündür ki, müəllimi Fəqirin yeni məzmunlu şeirləri, o cümlədən "Əzəl şikayətim ol çərxi bivəfadəndir" misrası ilə başlayan satirası M.S.Ordubadinin maarifçilk ideyalarına tamamilə uyğun gəlmişdir. Görkəmli yazıçının fikrincə, nə qədər ki, ictimai təfəkkür yeniləşməyib, nə qədər ki, yalançı din nümayəndələrinin hakimiyyətinə son qoyulmayıb maarifçilik hərəkatı öz aktuallığını saxlayacaqdır.

Maraqlıdır ki, prinsip etibarilə M.S.Ordubadi maarifpərvər şair Hacıağa Fəqirin ədəbi irsinə bütün ömrü boyu mənən bağlı olmuşdur. Bu baxımdan "Qılınc və qələm" romanında qələmə alınmış Nizami surəti ilə əlaqədar ədəbiyyatşünas Y.Axundlunun aşağıdakı açıqlaması xüsusi maraq doğurur: "Romanda bir neçə yerdə parçaları verilən: "Fəqirəm, bəxtiyaram, sanmayın kim, tirə bəxtim var, məhəbbət mülkünün soltanıyam, öz tac-taxtım var", - beyti də Nizaminin həyat idealını ifadə edir. Yeri gəlmişkən qeyrd edək ki, bu qəzəl əslində M.S.Ordubadinin atası Fəqirə məxsusdur". (7, s. 340)

Yəqinliklə, Azərbaycan maarifçilik hərəkatının fədakar nümayəndələrindən olan Hacıağa Fəqiri qüdrətli yazıçı M.S.Ordubadi üçün ustad müəllim və şair səviyyəsində dəyərləndirmişdir.

## 2.2. Məmməd Səid Ordubadi və Məhəmməd Tağı Sidqi

M.S.Ordubadinin tərcümeyi-halında dövrünün görkəmli ziyalısı Məhəmməd Tağı Sidqinin dərs dediyi Ordubad şəhərindəki "Əxtər" məktəbində təhsil alması məxsusi qeyd edilməkdədir və bu təsadüfi deyildir. Düşünürük ki, "Əxtər" məktəbinin əsas müəllimi Məhəmməd Tağı Sidqi təbliğ etdiyi maarifçilik ideyaları ilə M.S.Ordubadi dünyagörüşünə əsaslı şəkildə təsir göstərmişdir. Bu səbəbdən yazıçı "Həyatım və mühitim" memuarında Sidqi məktəbindən bir qədər də genişliklə bəhs etmişdir.

"Həyatım və mühitim" memuarında ilk növbədə M.T.Sidqinin "Əxtər" məktəbinə cəlbindən söz açan müəllif, eyni za-

manda öz müəlliminin yüksək intellektə sahib olmasını, hələ "Əxtər"dən əvvəl də onun öz mühitində ziyalılığı ilə fərqləndiyini də ayrıca vurğulamışdır. Belə demək mümkündür ki, M.S.Ordubadinin fikrincə, M.T.Sidqinin "Əxtər" məktəminə müəllim təyin edilməsi təsadüfi deyildi, cəmiyyətdə gedən yeniləşmənin məntiqi nəticəsi idi: "Birinci kərə Ordubad məktəbli çocuqları 1892-ci ildə skamya üstündə oturub dərs oxudular. Məktəb üçün müəllim axtarırdılar. O vaxtlar Ordubad şairlərindən Məhəmməd Tağı Sidqinin çayçı dükanı var idi. O gənc vaxtından İran səyahətində bulunduğu, hətta Səbzivar şəhərində yaşadığından farsca, ərəbcə, türkcə savadlı idi. Bütün şairlər onun dükanında toplaşırdı. Məhəmməd Tağı Sidqi məktəbə müəllim təyin edildi." (100, s. 23)

Maraqlıdır ki, M.T.Sidqi öz ustad pedaqoqluğu, şagirdlərinin fərdi keyfiyyətlərini nəzərə alması, diqqətcilliyi ilə M.S.Ordubadinin yaddaşında əbədi yer tutmuşdur. Yazıçı öz xatirələrində "Əxtər" məktəbinə nə kimi kitabların gətirilməsini də qeyd etmiş, məktəbin daim dövlət nəzarətində saxlanılmasını xüsusilə nəzər nöqtəsinə çəkmişdir. Yəni "Həyatım və mühitim" belə bir həqiqəti yenidən təsdiqləyir ki, M.T.Sidqi Ordubad şəhərindəki məktəbdarlıq fəaliyyətində də çoxsaylı müqavimətlərlə qarşılaşmış, daim mühafizəkar qüvvələrin həmlələrini nəzərə almaq məcburiyyətində qalmışdır. M.S.Ordubadinin xatirələrinə görə, əzabkeş müəllim-pedaqoq yeni üsullu məktəbin davamlılığı naminə bütün vasitələrdən, hətta iti yaddaşa malik şagirdlərdən faydalanmağı da gərəkli saymışdır: "İbrahim Əbilov ilə mən birinci sırada otururduq. Sidqi bizə çox əhə-

miyyət verirdi. İmtahanlarda, yaxud məktəbi görməyə gələnlər yanında oxumaq üçün əvvəlcə bizə söz verilirdi. Hər ayda bir neçə dəfə pristav məktəbə tamaşa etmək bəhanəsi ilə gəlib oradakı vəziyyəti öyrənməyə çalışırdı. Ara-sıra Naxçıvan uyezd naçalniki də öz mütərcimi Mirzə Əliqulu ilə bərabər məktəbə gələrdi. Xüsusən mollalar məktəblə çox mübarizə aparırdı. Mübarizə aparanların başında Hacı Mirmahmud dururdu. Onlar təzə üsulla açılan və dərsləri türkcə gedən məktəbin mədrəsədə yaramadığını söyləyib, binanı təmizləməyi tələb edirdilər. Məktəbin müəssisi Hüseyn Soltan isə buna heç əhəmiyyət vermirdi. O, mollaların hər bir təşəbbüsünü rəddə edirdi." (100, s. 24)

M.S.Ordubadinin xatirələrinə əsaslansaq, M.T.Sidqi nəinki sadəcə bir müəllim, eyni zamanda bütün varlığı ilə Azərbaycan maarifçilik hərəkatına bağlı şair kimi şagirdlərinin mənəvi dünyasında yer tutmuşdur. Elmi ədəbiyyatlardan da bəlli olduğu kimi, "Əxtər"in unudulmaz müəllimi sadəcə müəllim-öyrədən funksiyasını yerinə yetirməmiş, eyni zamanda uşaq ədəbiyyatı sahəsində ehtiyacları nəzərə alaraq şagirdlər üçün yeni əsərlər yazmışdır. Bu yeni əsərlər birbaşa maarifçilik ideyaları daşımış, yeni nəsillərin təlim-tərbiyəsinə hesablanmışdır. Maraqlıdır ki, M.T.Sidqi yaradıcılığının bu məqamında avropalaşmağa meyil "Həyatım və mühitim"də belə qələmə alınmışdır: "Ordubad məktəbinin müəllimi, istərsə də onun rəhbərlərindən bir neçəsi dinçi deyildilər. Buna baxmayaraq dini dərsləri məktəbin proqramından çıxara bilmirdilər. Birinci olaraq ordubadda bu məktəbli uşaqlar şərqi oxuyurdular. Şərqilərdən birini Sidqi özü yazmışdı:

Əcəb xoşbəxt olur hər kəs, tuta məva bu məktəbdən,
Bir az vaxtda kamallana, olur dara bu məktəbdə”. ( 100, s. 25)

Belə demək mümkündür ki, M.S.Ordubadinin “Həyatım və mühitim” memuarında M.T.Sidqi ilə bağlı xatirələr müəyyən mənada bu böyük maarifçiyə məxsus ədəbi-pedaqoji irsin gələcəkdə hansı istiqamətlər üzrə öyrənilməsi məsələsinə də işıq salmışdır. Daha doğrusu, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının janrca yeniləşməsindən bəhs edən mütəxəssislər M.T.Sidqinin məktəblilər üçün yazdığı “şərqilər”i də nəzər nöqtəsinə çəkmişlər. Bu mövzudakı mülahizələri ümumiləşdirən H.Həşimli “Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı” monoqrafiyasında problemi belə yekunlaşdırır: “XIX əsrin sonları, XX əsrin başlarında M.T.Sidqi, M.Ə.Sabir, A.Şaiq və digər şairlər tərəfindən yazılan, müxtəlif məcmuələrdə, həmçinin dövri mətbuat səhifələrində işıq üzü görən maarifçi nəğmələr və şərqilər bir çox xüsusiyyətlərinə görə marşa yaxınlaşır. M.T.Sidqinin “Nəğmə dərslərində maarif şərqiləri” kimi istifadə etdiyi “Elmin şərafəti”, “Oğlan”, “Məktəbdə”, “Dərsə diqqət”, M.Ə.Sabirin 1907-ci ildə çap olunmuş “Məktəbə tərğib”, “Elmə tərğib” kimi şeirləri “marş janrının tələbləri ilə səsləşən” nümunələrdir”. (44, s. 93)

M.T.Sidqi maarifçiliyinə bağlılığı öz növbəsində xələf olaraq M.S.Ordubadi yaradıcılığında sevimli müəlliminə həsr edilmiş əsərlərin meydana çıxması ilə nəticələnmişdir. M.S.Ordubadinin müəllimi haqqındakı ilk əsəri M.T.Sidqini vəfatı münasibətilə yazdığı şeirdir. Məlumdur ki, M.T.Sidqi 1903-cü ilin dekabr ayında Qarabağlar kəndində qonaqlıqda olarkən dünyasını dəyiş-

mişdir. Azərbaycan ziyalı mühitində böyük əks-səda doğuran bu hadisə akademik İsa Həbibbəyli tərəfindən belə ümumiləşdirilmişdir: "Görkəmli ziyalılar bu vaxtsız, gözlənilməz acı itki üçün özlərinin dərin "izhari-təəssüflərini" bildirmişlər. O vaxt Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Şərqi-Rus" qəzetində Sidqinin vəfatına həsr olunmuş nekroloq, müxtəlif şeirlər, məqalə və məktublar dərc olunmuşdur. Başsağlığı xarakterli bu məqalələrdə "ədibü-şair, müəllimü-kamil" mərhum M.T.Sidqinin Azərbaycan ədədbiyyatı və pedoqoji fikri tarixindəki dürlü xidmətləri ehtiramla yad edilmişdir. M.S.Ordubadi və Hüseyn Rasizadənin həmin münasibətlə "Şərqi-Rus"da verilmiş şeir və məqalələrində ədəbiyyat və maarif adamı kimi M.S.Sidqiyə bəslənilən ümumxalq ehtiramı öz əksini tapmışdır. M.S.Ordubadi maarifçi şairin şəxsiyyəti və xidmətlərini "sədaqət kanı", "dəryayi-hikmət", "sərvi-mərifət", "məşhuri-vilayət" səviyyəsində ümumiləşdirmişdir. Əsgər Hacızadənin məqaləsində mərhumun ailəsinə maddi yardım göstərməsi məsələləri nəzərə çarpdırılmışdır. Cəlil Məmmədquluzadənin "vida sözü"ndə isə M.S.Sidqinin maarifçilik hərəkatındakı əvəzsiz xidmətləri ehtiramla yad olunmuş, ədəbi portreti canlandırılmışdır." (71, s. 27)

Elmi ədəbiyyatlarda M.S.Ordubadiyə məxsus "Maddeyi-tarixi-Məşədi Tağı Sidqi rəhmətulla" başlıqlı şeirin müxtəlif baxış bucaqlarından mənalandırıldığını da görürük (Bax: 64, s. 85-86; 65, s. 38). Bununla belə, qeyd etməyə ehtiyac vardır ki, şeirin bütöv mətni bir daha ilk nəşrindən 92 il sonra elmi ictimaiyyətə akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir (Bax: 70, s. 38). Bu isə "Maddeyi-tarixi-Məşədi Tağı Sidqi

rəhmətulla" əsəri haqqında tam söz deməyə imkan yaratmaqdadır. Maraqlıdır ki, şeirin ilk üç beytində bayramları kədərə döndərən bir faciədən danışılır. Şair bu faciəni rəzil fələyin həqiqətsevər insanlarla ədavəti kimi mənalandırır və göstərir ki, insanların gözləri ayrılıq zamanının gəlməsindən xəbər verir. Halbuki orucluq ayı çıxdığından hamı bayram etməli olduğu halda, insanlar matəm içərsindədi. Şair bildirir ki, yüz bayram olsa da, bu faciəni unutdura bilməz. Çünki ürəklərdən sevinc yox olmuş, güllər solmuş, bülbüllər uçub getmişlər. Artıq dərd əhlinin işi sadəcə ah-fəğan etməkdən ibarətdir.

Belə bir kədərli təsvirdən sonra şair həyatının Sidqi ilə keçən günlərini tərənnüm edir, bu böyük maarifçinin insanlığa xidmətlərini xatırladır. Sidqinin gəlişi ilə Ordubad mühitinin tamamilə elm nuruna büründüyünü bildirən M.S.Ordubadi müəlliminin məktəbdarlıq sahəsində çəkdiyi zəhmətləri də unutmayaraq yazır:

Əcəb xoş vaxt imiş, dünyada Sidqiylə keçən günlər,
Necə Sidqi, sədaqət kanıdır, dəryayi-hikmətdir.
Əzəl qıldı münəvvər, mərifət bəzmini elm ilə,
Günüm tar oldu, axır ağlım, bir künci-zülmətdir.
O gündən ki gedib Sidqi müqimi-Naxçıvan oldu,
Biz bu Ordubadın mülki billah dami-qəflətdir.
Açıb məktəb, çəkib bir məktəb üstə doqquz il zəhmət,
Nə məktəb, mətləbu-əslisi tərqimi-kitabətdir.
O sərvi-mərifət, ol qədr kim nəşvü-nüma qıldı,
Sözü dillərdə daim, elmi məşhuri-vilayətdir. (70, s. 38)

Təbii ki, M.T.Sidqinin qəfil ölümü müxtəlif söz-söhbətlərin meydana çıxmasına rəvac vermişdir. Hətta professor Ə.Qədimov "XIX əsr Ordubad ədəbi mühiti" monoqrafiyasında bu fədakar ziyalıya qarşı təşkil olunan sui-qəsdi iki ciddi arqumentlə əlaqələndirmiş, tamamilə əsaslı şəkildə M.T.Sidqinin ölümü ilə bağlı həm qaragüruh qüvvələri, həm də çarizmi günahlandırmışdır. M.S.Ordubadi "Maddeyi-tarixi-Məşədi Tağı Sidqi rəhmətulla" şeirində müəlliminin ölümü məsələsinə də toxunmuş, bu hadisəni birbaşa maarifçilik mövqeyindən açıqlayaraq göstərmişdir ki, bu faciəyə səbəb səbəb məhz Sidqinin elmi, maarifpərvərliyi, yenilikçiliyi olmuşdur. Müəllifin fikrincə, M.T.Sidqi kimi həmvətənlərinin tərəqqisi üçün çalışan zəka sahiblərinin ölümü heç də müfahizəkar qüvvələrin qələbəsi demək deyil. Çünki artıq insanlar elmin, zəkanın, məktəbin, təhsilin qeyrətini çəkmək qüdrətindədirlər:

Səni elm axır saldı səyyadı-əcəl damə,
Qarabağlar mülkü, ol qəribə cayi-rihlətdir.
Dəmi söhbətdə, əlhasil yetib peyki əcəl qafil,
Ki, ey Sidqi bura nə cayi-söhbət, vəqti-hicrətdir.
Gedəndə yar əhbab ilə əyləşmişdi faytona,
Gələndə təxteyi-tabut ona bir cayi-rahətdir.
Xəbərdar etdilər ol gün, bu işdən Naxçıvan əhlin,
Səni həqq bir təsəvvür eylə gör onda nə halətdir.
Çıxıbdır şəhərdən dişarə, cəmaət izdihamla,
Könül bir ləhzə fikir et, gör nə qeyrətli cəmaətdir. (70, s. 38)

"Maddeyi-tarixi-Məşədi Tağı Sidqi rəhmətulla" şeiri bütünlüklə kədərli notlardan ibarət olsa da, müəllif təxəllüsünə uyğun surətdə ("Səid" bəxtiyar, xoşbəxt deməkdir) həyatın müsbət məqamlarını görmək və göstərməyi də məqsədəuyğun saymışdır. Budur, şair Naxçıvan camaatının bu kədərə elliklə şərik olmasını məxsusi qələmə almışdır. M.S.Ordubadi həm də onunla təsəlli tapır ki, artıq naxçıvanlı ziyalılar üçün Sidqinin qəbri ziyarətgaha çevrilmişdir:

Çıxıb əflakə şivən, hər tərəf ətfali-məktəbdən,
Bu əhli-Naxçıvan yarəb, bu nə təmkini-himmətdir.
Qılıb məftun türbəti-nəşi-pakın ehtiram ilə,
Məzarı mərifət əhlinə bir cayi-ziyarətdir.
Səid-binəva daim yazar bu möhnət əfradın,
Deyin biçarə gündə elə bir kəlmə kifayətdir.
Yazın bu misrəyi qəbrinə tarixi vəfatından,
(Fələk, ey dil, amanım aldı, dərdim binəhayətdir.) (70, s. 38)

Ümumiyyətlə, M.S.Ordubadinin böyük ehtiramla yad etdiyi pedaqoq-şairlər arasında M.T.Sidqinin adı xüsusi yer tutmaqdadır. Hətta müəyyən mənada demək mümkündür ki, Azərbaycan elmi fikrində sidqişünaslığı yaradan ilk ziyalılardan biri də M.S.Ordubadidir. Əlbəttə, yazıçının M.T.Sidqi şəxsiyyətinə marağı heç də təsadüfi, yaxud şəxsi münasibətlərlə bağlı deyildi. Akademik İsa Həbibbəyli Azərbaycan maarifçilik hərəkatı tarixinə M.T.Sidqi tərəfindən qazandırılan uğurları belə qiymətləndirmişdir: "XIX əsrin 80-90-cı illərində Naxçıvan ədəbi mü-

hitinin ağsaqqalı və müəllimi olmuş Məhəmməd Tağı Sidqinin çoxcəhətli fəaliyyəti klassik maarifçilərlə yeni maarifçi nəsil arasında varislik körpüsü funksiyasını yerinə yetirmişdir. Əslində Abasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, İsmayil bəy Qutqaşınlı kimi ilk maarifçilərlə başlanan XIX əsrin milli maarifçi ideyaları Mirzə Fətəli Axundov və Seyid Əzim Şirvani tərəfindən bacarıqla davam etdirilmiş, Məmməd Tağı Sidqi ilə başa çatdırılmışdır”. (38, s. 124)

Məlumdur ki, XX əsrin 20-ci illərində Azərbaycan cəmiyyəti ciddi təkmilləşmələrə imza atırdı. İctimai-mədəni həyatın bütün sahələrində, o cümlədən ədəbiyyatda da forma və məzmunca yeniləşmə prosesi izlənilməkdə idi. İctimai-siyasi hadisələrin sürətlə dəyişdiyi bir vaxtda M.S.Ordubadi mətbuatda “Əski və yeni şeir məktəbləri” başlığı ilə silsilə məqalələrini çap etdirmiş, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan şeirinin keçdiyi inkişaf yolunu son dərəcədə yığcam şəkildə dəyərləndirməyə müvəffəq olmuşdur. 1967-ci ildə Azərnəşr tərəfindən oxuculara təqdim edilən M.S.Ordubadi əsərlərinin 8 cildliyinin 8-ci cildində yazıçının “Əski və yeni şeir məktəbləri” başlıqlı məqalələrinə dair aşağıdakı izahat da yer tutmaqdadır: “Kommunist” qəzetinin “Xalq ədəbiyyatı həyatdan doğar” adlı əlavəsində M.S.Ordubadi yeni ədəbiyyat, ədəbiyyatşünaslıq məsələlərinə həsr olunmuş əsərlərlə çıxış etmişdir ki, onlardan biri də dörd məqalədən ibarət olan həmin bu məqaləsidir. Aşağıdakı nömrələrdə dərc olunmuşdur:

1-ci məqalə – “Kommunist” qəzeti, 16 noyabr 1923-cü il, № 259, səh. 5;

2-ci məqalə – "Kommunist" qəzeti, 23 noyabr 1923-cü il, № 265, səh. 5;

3-cü məqalə – "Kommunist" qəzeti, 27 noyabr 1923-cü il, № 271, səh. 5;

4-cü məqalə – "Kommunist" qəzeti, 30 noyabr 1923-cü il, № 277, səh. 5." (99, s. 402)

"Əski və yeni şeir məktəbləri" başlıqlı məqalələri deməyə əsas verir ki, M.S.Ordubadi mənəvi cəhətdən bütün ömrü boyu müəllimi M.T.Sidqiyə bağlı olmuş, mübarizələrlə dolu həyat və sənət yolunda keçmiş müəllimini həmişə örnək olaraq yada salımışdır. Faktdır ki, 4 məqalədən ibarət "Əski və yeni şeir məktəbləri" əsərinin birinci məqaləsində klassik Şərq ədəbiyyatının səciyyəvi xüsusiyyətlərindən, ikincisində Fəqir Ordubadinin yaradıcılığından danışıldığı halda, sonrakı iki məqalə tamamilə M.T.Sidqi haqqındadır. O da var ki, Fəqir Ordubadidən bəhs etdiyi məqalədə də müəllif dönə-dönə M.T.Sidqidən söz açmış, Hacıağa Fəqir və M.T.Sidqi dostluğunun əqidə və məsləkə əsaslandığını nəzər nöqtəsinə çəkmiş, qeyd etmişdir ki, hər iki qələm sahibi sənətdə klassik Şərq ədəbiyyatından bəhrələnsələr də, Azərbaycan şeirini mövzu və ideyaca zənginləşdirmiş, yeni məktəb şairləri məqamına yüksəlmişlər. M.S.Ordubadi atası Hacıağa Fəqirin əsərlərinin ilk dəfə toplanması və yazıya alınması səbəbindən də M.T.Sidqiyə minnətdarlığını hətta mətbuat vasitəsilə belə bildirmişdir: "Tənqidlərinə görə xalq tərəfindən məhəbbət görməyən hər iki şair artıq məmləkəti buraxıb İrana, Türküstana köçürlər.

Şairlərin birinin digərindən ayrı yaşaması onları olduqları məktəb dairəsindən ayırıb, başqa cərəyanlara salmış olur. Bir

çox sənələr qürbətdə yaşadıqdan sonra Sidqi vətəninə qayıtdıqda öz yoldaşı Fəqiri həyatda bulursa da, onun gözləri kor olmuşdu.

Fəqirin gözləri olmadığı vaxtlar Sidqi onun dediklərini yazıb, dağınıq yazılarını bir yerə toplayır. Bu vaxt onların məktəblərinin şagirdi olan Bikəs və Nədim də Sidqiyə yardımda bulunur. Bu gün Fəqirin əldə olan əsərləri ancaq Sidqinin və Bikəsin topladığıdır". (99, s. 327)

Qeyd etdiyimiz kimi, "Əski və yeni şeir məktəbləri" məqalələr silsiləsindəki ikinci yazıda Fəqir Ordubadidən danışılır. Bununla belə, müəllif ümumi məsələlərdən bəhs edərkən Fəqirdən və M.T.Sidqidən birlikdə söz açır, hər iki şairi Seyid Əzim Şirvaninin müasirləri kimi tanıdır, hər iki qələm sahibinin yeni sənət məktəbi nümayəndəsi olmasını məxsusi vurğulayır. M.S.Ordubadi aydınlıq naminə Fəqir və Sidqi tərəfindən fars dilində yazılmış şeirlərdə Sədi, Hafiz, Məsnəvi (Cəlaləddin Rumi) təsirinin aydın duyulduğunu da gizlətmir.

"Əski və yeni şeir məktəbləri" silsiləsindən üçüncü yazı "Ordubadlı Məhəmməd Tağı Sidqi" adlanır. Yazının əvvəlində müəllif M.T.Sidqini şeir sənətində yeni məktəb yaradıcılarından biri olaraq təqdim etmiş, lakin bu zaman bu böyük pedaqoq-şairi heç də ədəbi mühitindən ayırmamış, M.T.Sidqi ilə bərabər onun Fəqir, Bikəs, Nədim Aşiq, Şəmi kimi qələm yoldaşlarını xatırlatmağı da lazım bilmişdir. Bununla belə, M.S.Ordubadi öz yazısında daha çox M.T.Sidqi yaradıcılığını səciyyələndirən özünəməxsusluqlardan bəhs etməyə üstünlük vermiş, müqayisəni Fəqir və M.T.Sidqi yaradıcılığı əsasında apararaq yaz-

mışdır: “Sidqi Fəqirdən ayrıldıqdan sonra onun mühiti və cərəyanı da ayrılmış olur. Sidqi ayrılığı əsnasında öz ədəbiyyatında bir Mollayi-Rumilik yaratmağa çalışır, ona müvəffəq də ola bilir. Bu gün onun tamam eləmədiyi bir “Məsnəviyyati-mədəniyyə” nam əsərini oxumuş olursaq, Sidqinin bu son iddiasında müvəffəq olduğunu görə biləriz.” (99, s. 328)

Göründüyü kimi, M.S.Ordubadi sevimli müəllimi M.T.Sidqi ilə bağlı yazısında tamamilə yeni məsələlərdən bəhs etmiş və öz fikirlərini əsasən konkret faktlarla təsdiqləmişdir. Müəllif XX əsr elmi ictimaiyyətinin diqqətini belə bir məqama yönəltmişdir ki, maarifçilk mövqeyində dayanması səbəbindən Fəqiri günahlandıranlar ruhanilər idilərsə, M.T.Sidqinin adı artıq hökumətin “şübhəlilər siyahısına” salınmışdı.

“Ordubadlı Məhəmməd Tağı Sidqi” məqaləsində müəllifi düşündürən məsələrdən biri də M.T.Sidqi əsərlərində siyasi proseslərə müdaxilədir. Öz fikirlərinin təsdiqi üçün M.S.Ordubadi ustad müəlliminin “Dostlardan birinə mədəniyyətin yayılması haqqında şeir”ini təhlil obyektinə çevirmiş, bu qənaətə gəlmişdir ki, siyasətlə məşğul olması Sidqi yaradıcılığında daha qiymətli ədəbi nümunələrin meydana çıxmasını əngəlləmişdir. Ümumiyyətlə, “Ordubadlı Məhəmməd Tağı Sidqi” məqaləsində M.S.Ordubadini mükəmməl bir ədəbiyyat tarixçisi məqamında görürük. Sübut üçün şair-yazıçının aşağıdakı təhlillərinə diqqət yetirmək kifayətdir: “Fəqət burasını da söyləyəlim ki, Sidqi kimi bir birək şairin siyasət ilə məşğul olması onu bir çoz ədəbi əsərlər vücuda gətirməkdən dalı qoydu. Şairlərdən birisinə yazdığı şeirdə deyir:

Məcali-şeirguluq qalmayıb biçarə millətdə,
Tökülmüş vacib işlər bir-bir üstünə qalaxlar tək.

Sidqi burada dəxi siyasəti buraxmayaraq deyir:

Əsiri cəhl olub əbnayi-millət dadrəs yoxdur,
Deyərsən bəs keçib alman nüfuzinə polyaklar tək.

Təbiidir ki, o vaxtlar demokratlıq məsləki üzərində çalışan Sidqi polyakların nemsə ayağı altında əziləcəyinə darıldığı kimi, bu gün həyatda olsaydı nemesləri də polyak müzaliminə qarşı müdafiə edəcək idi”. ( 99, s. 329)

“Ordubadlı Məhəmməd Tağı Sidqi” əsəri bir daha təsdiqləyir ki, M.S.Ordubadi öz müəlliminin yaradıcılığına kifayət qədər dərindən bələd olmuş, M.T.Sidqinin ədəbi-estetik görüşlərini gərəyincə mənimsəmişdir. Təqdirəlayiq haldır ki, 1923-cü ildə yazılmış məqalədə şair-pedaqoqun dünya ədəbiyyatı haqqında mülahizələrinə də yer verilmiş, məhz bu zəmində Sidqi sənətinin özünəməxsusluğu və təkrarsızlığı elan edilmişdir. Başqa sözlə, M.S.Ordubadi böyük sənəti qiymətləndirmək işində məhz müəlliminin üsulundan faydalanmışdır. Hər halda “Ordubadlı Məhəmməd Tağı Sidqi” məqaləsində Sidqidən gətirilən sitat hələ 1923-cü ildə ədəbiyyatsevərləri belə bir faktla qarşı-qarşıya qoyurdu ki, M.T.Sidqi nəinki Firdovsi, Sədi, Hafiz əsərləri, həmçinin Şekspir, Volter, Puşkin yaradıcılığı haqqında bir alim-şair səviyyəsində bilgilərə malik olmuş, eyni zamanda dünya ədəbiyyatında yer tutan bu böyük sənətkarların irsini obyektivliklə qiymətləndirə bilmişdir. Bu mənada

M.T.Sidqi ilə bağlı M.S.Ordubadinin müqayisəli dəyərləndirməsi çağdaş günümüzdə də öz əhəmiyyətini saxlamaqdadır: "Hənuz yarımçıq ömür eləmiş Sidqi öz mənsur əsərlərinin birisində gözəl bir cümlə yazmışdır. Burada eynən yazıram: "Ərəblərdə Ümrəülqeys, farslarda Firdovsi, Sədi, Hafiz, ingilislərdə Şekspir, fransızlarda Volter, ruslarda Puşkinlərdən sonra minlərcə ədib və şairlər gəlib getmiş və hazırda da var isə, təəssüf olsun ki, yuxarıdakıların misli hələlik gəlməmişdir". Onun kimi mən də söyləyirəm ki, harda bir çox ədib və şairlər var isə də, hənuz biz Sidqi kimi dahi şairləri onların içərisində görə bilməriz." (99, s. 329)

M.S.Ordubadi bu fikirdə olmuşdur ki, yaşadığı mühitdə baş verən prosesləri gərəyincə təhlil süzgəcindən keçirə bilən və ictimai nöqsanların tənqidini vacib sayan Sidqi Rusiya dövlətinin Qafqazda yaşayan xalqlara biganə münasibət bəsləməsindən narazı qalmış, məhz həmin biganəlik səbəbindən onun vətəninin xarabazarlığa çevrilməsini qitələrinin birində ürək ağrısı ilə qələmə almışdır. Razılıq doğuran cəhətdir ki, M.S.Ordubadinin təqdimatında oxucu M.T.Sidqini yalnız şair-pedaqoq kimi deyil, eynui zamanda həmvətənlərinin cəhalətdən xilası naminə yollar axtaran, Qafqaz xalqlarının oyanışı üçün İranda milli inqilabın reallaşmasını gərəkli sayan bir maarifpərvər ziyalı kimi tanıyır. Bəli, "Ordubadlı Məhəmməd Tağı Sidqi" məqaləsindən öyrənirik ki, M.T.Sidqi öz əsərləri ilə Cənubi Azərbaycanda milli təfəkkürü istiqlaliyyət ideyaları ilə zənginləşdirən, azadlıq hərəkatının reallaşmasına zəmin yaradan qələm sahiblərindən olmuşdur.

M.T.Sidqi və mətbuat məsələləri bugünkü ədəbiyyatşünaslıq elmini də məşğul etməkdədir (Bax: 64, s. 379-450; 65, s. 32-44). Bildiyimiz kimi, Ordubadda və daha sonra Naxçıvanda məkdəbdarlıqla məşğul olan şair-pedaqoq XIX əsrin sonları və XX əsrin əvvəllərində Qafqazda, Rusiyada, eləcə də xaricdə qəzet çap etdirən müsəlmanlarla yaxından əlaqə saxlamış, maarifçilk ideyalarının cəmiyyət üzvlərinə çatdırılmasında mətbuatın gücündən gərəyincə faydalanmışdır. Əslində mətbu bağlılıq Sidqi həyatının tərkib hissəsinə çevrilmişdir. Bu məqam M.S.Ordubadinin də diqqətindən yayınmamış, artıq sovetlər dönəmində ciddi söz sahiblərindən sayılan ədib öz müəllimi haqqında yazmışdır: "Sidqi xaricdə çıxan farsca qəzetlərin hamısında iştirak edib İran hökumətinə qarşı tənqidlər yazardı. Sidqinin çox iştirak elədiyi qəzetə Misirdə çıxan "Pərvəriş" qəzetəsi idi. Qəzetə Mirzə Əli Əsğər xan Atabəylərin hiyləsi ilə qapandıqdan sonra müdiri Mirzə Əli Məhəmməd vərəmləyərək ölür. Sidqi onun məzar daşına yadigar olaraq deyir:

Fəda be qəbri-to başəm, ey fədaye millət!

Sidqi bu qəzetə qapandıqdan sonra yenə Misirdə çıxan "Çöhrənüma", Kəlkətədə çıxan "Həblülmətin"də yazıb öz yoluna davam edir. Bununla da iktifa etməyərək Sidqi öz rəfiqi Mirzə Əliqulu xan Əxtər ilə Təbrizdə oturan Müzəfərrədin şaha qarşı "Şəbnameyi-bəsirət" adlı gizli qəzetə təb etdirirlər." (99, s. 330)

Belə demək mümkündür ki, M.S.Ordubadi hələ 1923-cü ildə Sidqi irsini öyrənəcək gələcək tədqiqatçılara müəyyən mənada ipucu vermiş, müəlliminin bir çox nəsr və nəzm əsərləri qələmə almasını xatırlatmış, eyni zamnada "Heykəli-insana bir nəzər" əsəri-

nin fəlsəfi və tənqidi xarakterdə olduğunu vurğulamış, Sidqinin məktəblə əlaqəli yazdıqlarını, nəsihətlərini də nəzər nöqtəsinə çəkmişdir. Son dərəcədə qısa qeydlərindən görünür ki, M.S.Ordubadi istər "Heykəli-insana bir nəzər" əsərinin, istərsə də Sidqinin nəsihətlərinin mahiyyətinə dərindən nüfuz etmişdir. Budur, "Ordubadlı Məhəmməd Tağı Sidqi" məqaləsindən oxuyuruq: "Sidqi bu qədər məşğuliyyətə baxmayaraq yenə bir çox mənzum və mənsur parçalar vücuda gətirir. "Heykəli-insana bir nəzər" adlı qayət fəlsəfi və tənqidi bir əsər yazır. Orada farsca yazmağa alışan və şiveyi-həzzə qapılmışları tənqid eləyir.

Sidqi gözəl natiq idi ki, onun oxuduğu elmi və tənqidi xitabələr bu gün hazırda durub onun səlasəti-lisanını bizə nişan verməkdədir.

Məktəbə dair yazdığı əsərlər, çocuqlara olan nəsihətnamələri bu gün yenə də öz ədəbi qiymətlərini artırmaqdadır ki, gələcək nömrələrdə onun bütün əsərlərindən yazıb bildirəcəyiz." (99, s. 330-331)

Ömür və sənət yolundan bəlli olur ki, məktəbdarlıq sahəsində yenilikçiliyi ilə seçilən M.T.Sidqi bütün varlığı ilə Rusiyadakı türk-müsəlmanların inkişafı üçün çalışan İsmayıl bəy Qaspıralı ilə daha çox əlaqə saxlamış, üsuli-cədid məktəbi yaradarkən dönə-dönə öz bağçasaraylı həmkarından məsləhətlər almışdır. Lakin sovet dövründə yazılmış elmi əsərlərdə İsmayıl bəy Qaspıralı əsasən panislamist, pantürkist "ittihamları" ilə günahlandırılmış, guya zərərli ideyalar təbliğ edən bir qələm sahibi olaraq diqqətdən kənarda saxlanılmışdır. Hətta Ə.Mirəhmədovun "Azərbaycan Molla Nəsrəddini" kitabında Əziz

Şərifə istinadən İsmayıl bəy Qaspıralı - Sidqi "qarşıdurmasının" diqqət mərkəzinə çəkilməsi də izlənilməkdədir: "Vaxtilə "Tərcüman"ın (1883-cü ildən Bağçasarayda nəşr olunan "Tərcüman" qəzetinin sahibi İsmayıl bəy Qaspıralı idi – R.Ə.) "hər bir sütununu şayani-təqdir" hesab edən Sidqi 1896-cı ilə aid məktublarından birində bu qəzetin artıq əhəmiyyət və nüfuzunu itirməkdə olduğunu aşkar yazırdı." (86, s. 125)

M.S.Ordubadinin "Ordubadlı Məhəmməd Tağı Sidqi" məqaləsində isə real gerçəklik daha dəqiqliklə ifadə edilmişdir. Konkret desək, müəllif bildirir ki, M.T.Sidqi Ordubadda yeni üsullu məktəb açarkən ilk növbədə İsmayıl bəy Qaspıralıya arxalanmışdır və bu təsadüfi deyildir. Keşmiş şagirdin yazdıqlarına görə, ordubadlı müəllim "Əxtər" məktəbinin fəaliyyətə başlamasından ötrü həmişə İsmayıl bəy Qaspıralı ilə məsləhətləşmiş, bağçasarıaylı həmkar isə var qüvvəsi ilə çalışmışdır ki, Sidqinin açdığı məktəb həm də yeni dərsliklərlə təmin olunsun. Beləlilkə, "Ordubadlı Məhəmməd Tağı Sidqi" məqaləsi hələ XX əsrin 20-ci illərində İsmayıl bəy Qaspıralı haqqında gerçək həqiqətlərin elmi ictimaiyyətə çatdırılması baxımından da qiymətli mənbədir. M.T.Sidqi-İsmayıl bəy Qaspıralı arasındakı məslək birliyinə zərrə qədər kölgə salmayan M.S.Ordubadi yazmışdır: "Sidqi və onun həmfikirləri Ordubad üləmasına qarşı mübarizə aparmaq və qaranlıqda qalmış xalqın gözünü açmaq məqsədi ilə əski bidət və əski məktəblərə zərbə vurmaq istəyirdilər, buna görə də Sidqi üsuli-cədid üzrə bir məktəb binası qoymaq üçün Bağçasarayda "Tərcüman" qəzetəsi müdiri İsmatyıl bəy Qaspirinski ilə müzakirəyə girişmişdi.

İsmayıl bəy bu yolda Sidqiyə ürək verir və hər dürlü mümaniyyətlərə qarşı mübarizə edəcəyini söyləyirdi. Məktəbi bina eləmək işlərində Sidqiyə mane olan çətinliklərdən birisi də məktəbə lazım olacaq kitabların olmaması idi. "Tərcüman" müdiri məktəbin kitabları xüsusunda yardımda bulunub, əski mövhumatı yeni məktəbə daxil etməmək üçün yeni əsərlər təb edib göndərirdi." (99, s. 331)

Müsbət cəhətdir ki, M.S.Ordubadinin "Ordubadlı Məhəmməd Tağı Sidqi" məqaləsi istənilən bir ideoloji təsirdən uzaq, tam elmi obyektivliklə yazılmışdır və bu gün belə öz elmi dəyərini saxlamaqdadır. Müəllif hətta maarifçilik hərəkatının öncül nümayəndələrindən olması səbəbindən Sidqinin çar məmurları tərəfindən təqib edilməsi faktını da unutmamış, bəzi şeirlərin hansı hadisələrə səbəb olması, yaxud nə kimi səbəblərdən yazılması məqamlarına da aydınlıq gətirmişdir. Məsələn, M.T.Sidqidən bəhs edən əksər tədqiqatçılar, o cümlədən M.S.Ordubadi də şair-müəlliminin "Gəzər baği-məarifdən xəbərsizlər ulaqlar tək" misrası ilə başlayan qəzəlindən az və ya çox dərəcədə söz açmışdır. "Ordubadlı Məhəmməd Tağı Sidqi" məqaləsinin sonunda diqqət yenidən həmin şeirə yönəldilmiş, sadəcə maarifçilik ideyalarını tərənnüm edən bu qəzələ görə müəllifin məhkəməyə verilməsi də yada salınmışdır: "Sidqi bu ağır mühitin təsirində öz gəncliyi və öz sənətinə olan şövqü sayəsində yaşayırdı. Sidqinin əsərləri və hər bir parça yazısı Rusiya çarının uyezdi naçalniki Slavaçenski tərəfindən tərcümə olunub təqib olunurdu. Sidqi şeirlərinin birisində:

Gəzər bağİ-məarifdən xəbərsizlər ulaqlar tək,
Odur ki, nəxli-daniş payimal olımuş alaxlar tək, –

dediyi üçün çarın uyezdni naçalniki tərəfindən məhkəməyə alınmışdı. Naxçıvan xalqları tərəfindən bir növ ilə naçalnik sakit olunmuşdu.” (99, s. 332)

Öz müəllimi M.T.Sidqi haqqında əsərləri, memuarları bir daha təsdiqləyir ki, Azərbaycan pedaqoji fikir tarixində özünəməxsus mövqe qazanmış M.S.Ordubadi məktəbdarlıq sahəsində M.T.Sidqi ideyalarını davam və inkişaf etdirmişdir.

## 2.3. M.S.Ordubadi və maarifçi ziyalılar

Bütün əsərləri ilə doğma xalqının milli düşüncəsinə və tərəqqisinə xidmət edən M.S.Ordubadinin Azərbaycan maarifçilik hərəkatı tarixində öxünəməxsus məqamı vardır və bu, təsadüfi deyil. Yəqinliklə söyləmək mümkündür ki, Hacıağa Fəqir oğlunun həyatının ilk 40 ili məhz maarifçi ziyalılar əhatəsində, Azərbaycan maarifçiliyinə ləyaqətlə xidmət göstərmiş görkəmli şəxsiyyətlər mühitində keçmişdir. Başqa sözlə, M.S.Ordubadi məhz maarifçilik cəbhəsində özünün fədakar əqidə dostlarını, məslək tərəfdaşlarını tapmışdır. Yazıçının əsasən maarifçilər əhatəsində yaşaması ordubadişünasların da diqqətindən yayınmamışdır. “M.S.Ordubadi” kitabında F.Vəzirova, təbii ki, ədibin öz xatirələrinə əsaslanaraq M.S.Ordubadi və maarifçi mühit məsələsindən qısaca belə bəhs etmişdir: “M.S.Ordubadi Culfada (1907-1913-cü illər – R.Ə.) Əliqulu Qəmküsar, Nəsrulla Şeyxov, Baxşalı ağa Şahtaxtlı və b. tərəqqipərvər həmvətənləri ilə birlikdə siyasi-ictimai işlərdə iştirak edirdi...

Culfada Ordubadi jurnalistlik fəaliyyəti üçün də əlverişli imkan tapmışdı. O, Bakıda nəşr olunan qəzet və jurnallara, Tiflisdə

çıxan "Molla Nəsrəddin" jurnalına yazılar göndərir, "İrşad", "Tərəqqi", Tazə həyat" və s. qəzetlərdə müxbir sifətilə müntəzəm əməkdaşlıq edirdi." (111, s. 8 )

M.S.Ordubadinin əhatəsində olduğu maarifçi ziyalılar sırasında Cəlil Məmmədquluzadənin, Əliqulu Qəmküsarın, Mirzə Cəlil Şurbinin adı məxsusi çəkilməlidir.

Azərbaycan ədəbiyyatı və mətbuatı, eləcə də pedaqoji fikir tarixində mühüm göstəricilərə imza atmış Cəlil Məmmədquluzadə ilə M.S.Ordubadinin tanışlığı XIX əsrin 90-cı illərindən, daha doğrusu, Mirzə Cəlilin Nehrəm kənd məktəbində müəllim işlədiyi dövrdən başlamışdır. Məlumdur ki, 1869-cu ildə Naxçıvan şəhərində anadan olan C.Məmmədquluzadə ilk əvvəl dini təlim almış, daha sonra üçsinifli şəhər məktəbində oxumuş, nəhayət, 1887-ci ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirərək ibtidai xalq məktəblərində müəllim adına layiq görülmüşdür. (Bax: 77, s. 19) Akademik İsa Həbibbəyli "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyasında böyük Mirzə Cəlilin Azərbaycan maarifçilk hərəkatındakı ilkin fəaliyyətinə belə aydınlıq gətirmişdir: "C.Məmmədquluzadə ictimai-ədəbi fikir meydanına ilk növbədə maarifçi kimi qədəm qoymuşdur. Hələ XIX əsrin səksəninci illərində geniş mənada maarifçilik onun üçün müəllimliklə, pedaqoji fəaliyətlə başlamışdır. C.Məmmədquluzadədən ötrü məktəb milli maarifçiliyin canını-cövhərini, müəllimlik əsas hərəkətverici qüvvəsini təşkil etmişdir. Teatr, mətbuat və ədəbiyyat isə məktəbdən, pedaqoji işdən doğan, onu tamamlayan maarifçi fəaliyyət sahələri idi". (36, s. 123)

Şübhəsiz ki, M.S.Ordubadinin maarifçilik hərəkatında daha qətiyyətlə fəaliyyət göstərməsində, yəni bütün ömrünü cəmiyyətin yeniləşməsi işinə həsr etməsində yazıçının ziyalı müasirlərinin təsiri məxsusi dəyərləndirilməlidir. Yəqinliklə, öz pedaqoji fəaliyyətində xalqçı müəllim missiyasını bütün göstəricilər üzrə ləyaqətlə yerinə yetirən C.Məmmədquluzadə ilə tanışlığı M.S.Ordubadinin yaddaşında dərin iz salmışdır. Axı Mirzə Cəlil vəzifəsini yalnız sinifdə şagirdlərə müəyyən biliklər mənimsətməklə məhdudlaşdırmamış, 8 qızın Nehrəm məktəbində təhsil almasına nail olmuş, kəndə dəmir kotan gətirilməsini gerçəkləşdirmiş, məktəb-diyarşünaslıq muzeyi təşkil etmiş, həmvətənlərinin dünya ədəbiyyatı, xüsusən də orta əsrlər Şərq ədəbiyyatı ilə tanışlığına xüsusi diqqət yetirmişdir. Bu mənada M.S.Ordubadi Nehrəm kəndində C.Məmmədquluzadə ilə ilk görüşünü "Böyük ədiblə görüş" məqaləsində tərcümeyi-hal göstəricisi olaraq belə qələmə almışdır: "Mən böyük ədibimiz Mirzə Cəlil Məmmədquluzadə ilə birinci dəfə Şürbi Mirzə Cəlilin vasitəsilə tanış oldum.

...Hacı Qənbərin məsnəvisini eşitmək istədiyimi Şurbi Mirzə Cəlilə dediyim zaman, o: "Sabah biz də Nehrəm kəndinə gedəcəyik. Səni orada Mirzə Cəlil Məmmədquluzadə ilə tanış edərəm" – dedi." ( 99, s. 296-297)

M.S.Ordubadinin "Böyük ədiblə görüş" məqaləsi bir xatirə olmaqla bərabər, müəllim Mirzə Cəlil Məmmədquluzadə haqqında təsəvvürləri genişləndirməkdədir. Həmin qeydlərdən məlum olur ki, gənc Mirzə Cəlil artıq bir xalqçı kimi Nehrəm kəndində kifayət qədər doğma insana çevrilmiş, hətta əhalinin han-

sı təriqətlərə meyilliyini də öyrənmişdir. Digər tərəfdən, M.S.Ordubadiyə görə, C.Məmmədquluzadə müəllim işləyərkən doğma xalqının, xüsusən də din nümayəndələrinin düşüncə tərzini öyrənmək işinə də maraq göstərmişdir ki, bu da yazıçının əsərlərində surətlərin daha canlı qələmə almasına səbəb olmuşdur. Şübhəsiz ki, köhnə dünyaya qarşı mübarizədə nikbin ruhu, elmin gücü ilə cəmiyyətin yeniləşdirilməsi ideyası böyük Mirzə Cəlillə maarifpərvər ziyalı M.S.Ordubadi arasında bir ömrə bəhs edəcək məslək dostluğunun yaranması ilə nəticələnmişdir. Yazıçı və maarifçi dostunun müşahidəçilik qabiliyyəti M.S.Ordubadi tərəfindən belə təsvir olunmuşdur: "Biz bir yerdə otururduq (söhbət Nehrəm kəndindəki Seyid Əqil ziyarətgahəndan gedir – R.Ə.). Hacı Qənbər məsnəvini başladı. Mən ancaq onun üzünə diqqət verirdim. Ucaboylu, yoğungövdəli bir adam idi. Əynində abı rəngində qiymətli bir mahut çuxası var idi, ayağına nazik və ağ bir tuman geymişdi. Başı olduqca yekə idi. Yaşı altmışdan artıq olmazdı. Mirzə Cəlil mənim ona diqqət verdiyimi hiss edincə qulağıma pıçıldadı:

– Onun başına yaxşı bax, üçillik dana başına oxşayır. Bu kənd, xalqı sofi təriqətinə dəvət edən həmin danabaşdır, – dedi." (99, s. 293)

Məlumdur ki, böyük Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalı vasitəsilə birbaşa Azərbaycan maarifçilik hərəkatına xidmət göstərmişdir. Fikrimizcə, XX əsrin 30-90-cı illərində C.Məmmədquluzadəni inqilabçı demokrat adlandıranlar müəyyən qədər ifrata varmışlar. Budur, qüdrətli yazıçı hətta inqilabdan sonra qələmə aldığı "İnqilab lazım" felyetonunda ("Molla Nəs-

rəddin", 19 noyabr 1922, № 3 ) inqilaba tərəddüdlə yanaşdığını açıq şəkildə etiraf etmişdir.

H.Əhmədovun "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kitabından oxuyuruq: "...Cəlil Məmmədquluzadə (Mirzə Cəlil) 1906-cı ildə Tiflis şəhərində, Cənubi Qafqazın inzibati və mədəni mərkəzində "Molla Nəsrəddin" adlı satirik jurnalın əsasını qoydu. Bu jurnal təkcə Azərbaycanda və Cənubi Qafqazda deyil, bütünlüklə Yaxın və Orta Şərqin mətbuat tarixində tamamilə yeni və mütərəqqi bir hadisə idi. "Molla Nəsrəddin" öz mündəricəsinə görə zəmanənin ən mütərəqqi, ən populyar, ən kütləvi və oxunaqlı bir jurnalı idi. Bütün bunlara görədir ki, bu jurnal tez bir zamanda nüfuz qazandı və geniş yayıldı.

Jurnalın qarşıya qoyduğu başlıca məsələlərdən biri zəhmətkeş kütlə içərisində maarifçilik ideyalarını yaymaq, geriliyi, nadanlığı, cəhaləti tənqid atəşinə turmaq idi". (21, s. 286)

"Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq edən M.S.Ordubadi digər tərəqqipərvər mollanəsrəddinçilərlə birlikdə elmsizliyə, vaxtı keçmiş həyat tərzinə, ictimai zülmə, ədalətsizliyə, cəhalət və mövhumata qarşı əsl fədai mücadiləsi aparmışdır. Prinsipcə "Molla Nəsrəddin" M.S.Ordubadini Azərbaycan maarifçiliyi tarixində "Qeyrət"çilərin fəal üzvünə çevirmişdir. Yazıçının "Böyük ədiblə görüş" məqaləsindən aydın olur ki, Mirzə Cəlil öz əqidə dostunun yaradıcılığına daim həssaslıqla yanaşmış, "Hərdəmxəyal" imzasını bir ədəbi tapıntı kimi yüksək dəyərlindirmiş, "Vətən və hürriyyət" əsərinin nəşrini məqsədəuyğun saymışdır.

Elmi ədəbiyyatlardan məlumdur ki, xalqın tərəqqisi naminə maarifçi ədəbi cəbhədə əzmkarlıqla dayanan C.Məmmədqulu-

zadə ilə M.S.Ordubadinin məslək dostluğu Mirzə Cəlilin ömrünün sonuna qədər davam etmişdir. Hətta M.S.Ordubadi böyük ədiblə vida görüşünü də maarifçi ziyalı mövqeyindən mənalandırmışdır: "Bəzən böyük ədib oturduğu yerdə, yainki küçədə getdiyi zaman heç bir səbəbi olmadan gülümsərdi. Bəziləri bu gülüşləri yersiz sayırdı, lakin bu yanlış fikir idi, çünki Mirzə Cəlil daim gülməli bir mövzu üzərində düşündüyü zaman bir oxucu kimi düşünər, əsərində göstərdiyi mənfi tiplərin üzərinə gülərdi. Diri ikən ikiüzlü ziyalılar, qarınqulu ruhanilər, həris, xəsis tacir və hacılara gülən Mirzə Cəlili ölürkən gördüm. O, ölümün də üzünə gülürdü." ( 99, s. 300)

Əslində M.S.Ordubadi dəqiq bilirdi ki, böyük Mirzə Cəlil yeni cəmiyyətdə də hakimiyyətin elmsizlər əlində olmasına, mövhumatın başqa formada zühur etməsinə, bolşevik məmurların var-dövlət hərisliyinə, rus şovinizminə xidmət edən bürokratların vətən sevgisindən uzaq düşməsinə gülür. Daha doğrusu, 4 yanvar 1932-ci il tarixdə gözünü dünyaya yuman Cəlil Məmmədquluzadə Azərbaycan maarifçiliyinin repressiyadan xəbərsizliyinə gülürdü.

M.S.Ordubadinin xüsusi ehtiram bəslədiyi maarifçi ziyalılardan biri də Əliqulu Qəmküsar idi. 1880-1919-cu illərdə yaşayıb-yaratmış Əliqulu Məşədi Ələkbər oğlu Nəcəfov öz ömrünü Azərbaycan maarifçilik hərəkatına həsr edən ziyalılardan olmuşdur.

1880-ci ildə Naxçıvanda anadan olan, əvvəlcə mollaxanada, sonra isə M.T.Sidqinin "Tərbiyə" məktəbində təhsil alan Əliqulu Qəmküsar müxtəlif vaxtlarda Naxçıvan, Culfa, İrəvan və Tiflis şəhərlərində yaşamasına baxmayaraq daim köhnə dünyaya, mühafizəkar qüvvələrə, biganəlik fəlsəfəsinə qarşı çıx-

mış, milli təfəkkürün yeniləşdirilməsi uğrunda mübarizəni özünün müqəddəs vəzifəsi bilmişdir. Həyatının mənasını maarifçilikdə görən Ə.Qəmküsar mübarizə üsulu kimi mətbuata və teatra daha çox dəyər vermişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin bu mübariz nümayəndəsi M.S.Ordubadinin müasirləri içərisində həm də Səttarxan hərəkatına bağlılığı ilə fərqlənmiş, prinsipcə bu cəbhədə də ordubadlı qələm yoldaşı ilə çiyin-çiyinə dayanmışıdr.

Belə demək mümkündür ki, islam dünyasını məhv olmaqdan qurtarmaq, elmi cəmiyyətə gətirmək, ictimai zülmlə mübarizə aparmaq, ziyalıları xalqa xidmət üçün səfərbər etmək, ölkə təhsilini avropalaşdırmaq, mətbuat vasitəsilə milli təfəkkürü yeniləşdirmək baxımıdan M.S.Ordubadi və Ə.Qəmküsar ideyaları, əsərləri bir-birini tamamlamaqdadır. Ə.Qəmküsarın mübariz maarifçiliyini məxsusi vurğulayan K.Camalov "Böyük mütəfəkkirlərin maarifçilik ideyaları" kitabında yazır: "O həmişə millətini, xalqını həddindən artıq sevən və millətinə həddindən artıq xidmət edən bir insan olmaqla yanaşı, həm də qorxmaz, döyüşkən bir mühərrir olmuşdur". (18, s. 114)

"Culfadan başlanan yol" məqaləsinin müəllifi Ə.Həşimovun fikrincə, M.S.Ordubadi və Ə.Qəmküsar bir əqidə və məslək uğrunda mübarizə aparan qələm sahibləri olmuşlar. Maraqlıdır ki, gənc ədəbiyyatşünas hər iki maarifçi ziyalının həyat və sənət yollarının Culfa dövründə müəyyən qədər eynilik görmüş, bu eyniliyi həm də mübarizə amallarının birliyi ilə əlaqələndirmişdir. Əslində M.S.Ordubadi və Ə.Qəmküsar birliyini maarifçilik, xalqçılıq ideyaları şərtləndirmişdir. "Culfadan başlanan

yol" məqaləsində həmin məslək birliyinə belə aydınlıq gətirilmişdir: "Culfada yaşadıqları dövrdə onlar (M.S.Ordubadi və Ə.Qəmküsar – R.Ə.) təkcə siyasi iş aparmamış, maarifləndirici təbliğat, eyni zamanda ədəbi fəaliyyətlə də məşğul olmuşlar. Təkcə bir fakta diqqət yetirməklə istər Ordubadinin, istərsə də Qəmküsarın bu dövrdə nə qədər məhsuldar çalışdıqlarını görə bilərik. Culfada işləyib fəaliyyət göstərdiyi dövrdə Məmməd Səid Ordubadinin 40-dan artıq məqalə, şeir və felyetonu çap olunur, "Sevgilər" mənzum dramı qələmə alınır. Əliqulu Qəmküsarın isə 50-yə yaxın məqalə, şeir və felyetonu bu dövrdə nəşr olunan müxtəlif mətbuat orqanlarında çap olunmuşdur. Belə ki, Ordubadinin əsərlərinin çap olunduğu əsas mətbuat orqanları "Şərqi-Rus", "Molla Nəsrəddin", "İrşad", "Tərəqqi", "Tazə həyat" idisə, Qəmküsarın əsərlərinin çap olunduğu mətbuat orqanlarına isə "Molla Nəsrəddin", "Şərqi-Rus", "İrşad"la bərabər "Yeni Füyuzat", "Günəş", "Kəlniyyət" və başqa qəzet və jurnallar da daxil idi. Bu mənzərə bizə deməyə əsas verir ki, bu dövr hər iki şairin yaradıcılığının ən məhsuldar dövrüdür." (43, s. 133)

Əlbəttə, həyatda bir-birlərindən xəbərsiz, hətta başqa-başqa coğrafi qütblərdə yaşayan insanların da bu cür oxşar nailiyyətlərə imza atmaları mümkündür. Bununla belə, yəqinliklə, Ə.Qəmküsar və M.S.Ordubadiyə məxsus tale və sənət yollarındakı göstərilən oxşarlığın mənbəyi eynidir: Azərbaycan maarifçilk hərəkatı.

M.S.Ordubadinin Naxçıvan şəhərində tanıdığı ilk maarifçi ziyalılardan biri Şürbi Mirzə Cəlil (1886-1935) olmuşdur. Hər halda faktdır ki, M.S.Ordubadi 1944-cü ildə C.Məmmədquluzadə-

nin anadan olmasının 75 illiyi münasibətilə yazdığı "Böyük ədiblə görüş" məqaləsində Mirzə Cəlil Şürbidən əsl xalqçı müəllim, öz mühitində kifayət qədər hörmət qoyulan bir təfəkkür sahibi, həm də C.Məmmədquluzadənin yaxın dostu kimi söz açmışdır. Ümumiyyətlə, "Böyük ədiblə görüş" məqaləsi elmi ictimaiyyətə Azərbaycan məktəb və mətbuatı tarixində mühüm xidmətləri olan Mirzə Cəlil Şürbi ilə ilkin tanışlıq imkanı qazandırır və bu ilkin tanışlıq kifayət qədər cəlbediciliyi baxımından maraq doğurur. M.S.Ordubadi öz məqaləsində Şürbi Mizrə Cəlili aşağıdakı şəkildə təqdim edir: "İkinci Mirzə Cəlil rus dili müəllimi idi. O daima şərab içib, şəhvət və bidətlərin inkişafına çalışan qarınqulu ruhaniləri, əmlakının gəlirini meyxanələrdə xərcləyən mülkədar, bəy və xanları, ikiüzlü, yaltaq ziyalıları tənqid etdiyi üçün adını Şürbi Mirzə Cəlil qoymuşdular.

Heç şübhə yoxdur ki, ədibimiz Məmmədquluzadə öz "Ölülər" pyesini yazdığı zaman Şürbi Mirzə Cəlilin şəxsində kefli İskəndər tipini verməyi düşünmüşdür. Lakin ədibimiz öz dostunu bir səhnə tipi şəklində vermək istəmədiyindən onun rolunu Kəngərlinskilərdən bir sərxoşa vermiş və kefli İskəndər adı ilə səhnəyə çıxarmışdır". (99, s. 296)

Akademik İsa Həbibbəylinin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyasından öyrənirik ki, Cəlil Mirzəyev (Mirzə Cəlil Şürbi) 1888-1892-ci illərdə İrəvan Müəllimlər Seminariyasında təhsil almış, Şərur-Dərələyəz qəzasının Aralıq ibtidai məktəbində, Nehrəm məktəbində, Naxçıvan şəhər məktəbində, Ordubad qəzasının Vənənd kənd ibtidai məktəbində, Şahbuz məktəbində müəllim olaraq fəaliyyət göstərmişdir. Şübhəsiz ki,

onun adi müəllim kimi deyil, əsl maarifpərvər xalqçı səviyyəsində çalışması dövlət orqanlarının diqqətindən yayınmamış, bəzən sıraviləşdirilməsi üçün mükafatlandırılan Cəlil Mirzəyev sonda tamamilə müəllimlik vəzifəsindən azad edilmişdir. Bu fədakar ziyalı qələmə aldığı əsərlərlə milli təfəkkürün yeniləşdirilməsi məqsədilə yorulmadan mücadilə aparmışdır. Görkəmli alim İsa Həbibbəyli ikinci Mirzə Cəlil adını almış Cəlil Mirzəyevin maarifçi əsərlərini belə dəyərləndirmişdir: "Mirzə Cəlil Şürbinin maarifçi şeirlərində yenilik duyğusu, cəhalətin tənqidi, elmə rəğbət ideyaları qələmə alınmışdır. Onun "Elm və cəhalət" şeiri maarifçi ziyalıların ictimai mühitdəki çətinlik və mübarizələrini əks etdirir. Şeirdə elmlə cəhalətin qarşılaşdırılması maarifçilik hərəkaatında yenilikçi, tərəqqipərvər qüvvələrlə köhnəpərəstliyin rəqabətinin mahiyyətini aydınlaşdırmağa imkan verir:

Elm deyir:
Millətİ-islamı tənəvvür etməyə, əfsus, ah,
Paylayıb çıxdımsa da, onlar mənə etmib nigah,
Söylədim, böylə neçin? Dedi, bizə molla demiş:
Millətİ-islamə bəsdir tək tənəvvüc və nikah.

Cəhl deyir:
Hər yerə getdim, qovuldum, tapmadım mən bir pənah,
Millətİ-islamı tapdım kəndimə ancaq sipah.
Afərin, ey aləmi-islam, baz həm afərin,
Dəstbərdar olmayın məndən ölüncə siz təbah." (36, s. 240)

Göründüyü kimi, Mirzə Cəlil Şürbini islam dünyasının gündən-günə zəifləməsi, məhv olma təhlükəsində qalması ciddi

şəkildə düşündürmüş, şair bu məsələyə münasibətdə tamamilə maarifçilk mövqeyində dayanaraq öz din qardaşlarını cəhalətdən əl çəkməyə, emlin güçü ilə tərəqqiyə nail olmağa səsləmişdir. Əslində Mirzə Cəlil Şürbi də digər məslək dostları kimi, hansı təbəqəni təmsil etməsinə baxmayaraq üzünü cəmiyyətin hər bir üzvünə tutaraq demişdir ki, islam ölkələri yalnız cəhalətdən əl çəkdikdən sonra, başqa sözlə, cəhaləti elmlə əvəzlədikdən sonra həqiqi qurtuluş yolunu tapa bilər. Halbuki, bütün dünyanın tamamilə yeniləşdiyi bir dövrdə müsəlmanlar yenə də cəhaləti dəstəkləyir, hətta öz  mühafizəkarlıqları ilə öyünürlər ki, bu da sonunda məhv olmaq deməkdir.

Mirzə Cəlil Şürbi öz maarifçi ideyalarının təbliğində “Molla Nəsrəddin” jurnalının imkanlarından gərəyincə faydalanmış, məcmuənin ən fəal naxçıvanlı əməkdaşı missiyasını ləyaqətlə yerinə yetirmişdir. Akademik İsa Həbibəyli bu fədakar ziyalının maarifçilk hərəkatındakı əzmkarlığını belə qiymətləndirmişdir: “…Mirzə Cəlil Şürbi ictimai-ədəbi və maarifçi mühitdə fəal mövqe tutmuşdur. C.Məmmədquluzadə və müasirlərinin amal və əməllərinin həyata keçirilməsində Şürbinin özünəməxsus xidmətləri vardır.” (36, s. 242)

Əlbəttə ki, yaxın müasirləri olan C.Məmmədquluzadə, Ə.Qəmküsar, M.C.Şürbi ilə dostluqları bir daha təsdiqləyir ki, XIX əsrin II yarısında və XX əsrin əvvəllərində Azərbaycanda doğma xalqın tərəqqisi naminə mübarizə aparan ziyalılar sırasında M.S.Ordubadi özünəməxsus əzmlə fəaliyyət göstərmişdir. Bu fədakar maarifpərvər ziyalı da digər məslək dostları kimi cəmiyyətin çıxış yolunu məhz elmlə tapacağı qənaətinə gəlmişdir.

## 2.4. M.S.Ordubadi məktəb və müəllim haqqında

Azərbaycan maarifçilərini həmişə məktəb və müəllim problemi ciddi şəkildə düşündürmüşdür. Başqa sözlə, maarifçi ziyalılar bu fikirdə olmuşlar ki, yeni məktəb və yeni müəllim problemini həll etmədən mövcud cəmiyyətdə ağlın qələbəsindən danışmaq mümkün deyil. Eyni səbəbdən istisnasız surətdə A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh, M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi kimi Azərbaycan maarifçiləri ya məktəbdarlıq, müəllimlik sahəsində çalışmaqla, ya da əsərlərində yeni insanı formalaşdırmaq baxımından bu sənətin dəyərini tərənnüm etməklə pedaqoji fikir tariximizi zənginləşdirmişlər.

Bütün varlığı ilə maarifçilik hərəkatına bağlı olan M.S.Ordubadi də əsərlərində məktəb və müəllim məsələlərinə geniş yer vermiş, Azərbaycan məktəbi və müəllimi haqqında qiymətli fikirlər söyləmişdir. Vaxtilə M.S.Ordubadinin ustad maarifçi sələfi M.F.Axundzadənin ədəbi-fəlsəfi irsindən bəhs edən Əziz Şərif yazmışdır: “Öz bədii yaradıcılığında M.F.Axundov o zamankı həyatın ictimai xəstəliklərini öz yaradıcılıq nuru ilə işıqlandırmış, öz obrazlarında insan necə olmalıdır sualını qoyaraq həll etmişdir.” ( 32, s.183)

Əlbəttə, Azərbaycan maarifçiləri öz əsərlərində yeni dünyanın yeni insanı məsələsinə dönə-dönə qayıtmış, təhkimçilikdən çıxış yolunu bu məsələnin həllində görmüşlər. Tədii ki, M.S.Ordubadinin və onun maarifçi dostlarının yeni məktəb və təhsil uğrunda mübarizəsi pedaqoji fikrimizin də diqqətindən

yayınmamışdır. Budur, professor Ə.Ağayev "Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz" kitabında yazır: "Əsasən "Molla Nəsrəddin" jurnalı ətrafında cəmləşən C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, M.S.Ordubadi, Ə.Nəzmi kimi inqilabçı-demokratik ziyalılar burjua-demokratik inqilabının əsas məsələlərində yenilik mövqeində dururdular. Onlar kəskin satiraları ilə mürtəce maarif siyasətini, sxolastik təlim metodlarını, köhnə ənənəvi məktəbləri açıqcasına tənqid edirdilər." ( 3, s. 26)

Bəli, XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində ictimai-sosial həyata aid ən ciddi problemin tərkib hissəsi olaraq yeni məktəb və yeni müəllim məsələsi gündəmə gətirilmişdir ki, M.S.Ordubadinin yaradıcılığında da məktəb və müəllim mövzusunun geniş yer tutması izlənilməkdədir. Daha əhəmiyyətlisi isə yazıçının ilk əsərlərindən başlayaraq məktəb və müəllim mövzusuna toxunmasıdır. Belə ki, ilk kitabı olan "Qəflət"də M.S.Ordubadi üzünü köhnə məktəbin molla-müəlliminə tutaraq bildirir ki, onları bu dünyada kimsə sorğu-sual etməsə də, həqiqət başqadır. Köhnə məktəblərin fəaliyyəti onunla nəticələnmişdir ki, insanlar və bütün müsəlman dünyası islam elmindən, islam tarixindən, müqəddəs kitabımız olan Qurandan ayrı düşmüşlər. Çünki dərs deyən müəllimləri Tanrı həqiqəti deyil, öz boğazları düşündürür. Onların mollaxanalarda nə kimi elmlər öyrətməsi heç kəsi maraqlandırmır. Qəti şəkildə demək olar ki, "Qəflət" əsərində M.S.Ordubadi islam ölkələrinin bu dərəcədə tənəzzülə uğramasının günahını elmdən xəbərsiz mollaların müəllimliklə məşğul olmasında görür:

Amandır, ey müəllim, rəhm qıl, Quranı xar etmə!
Nə bilsin kudəki şeş salə təlimi-qiraətdən.
Əzəl şəri məsail öyrədib, ondan sora Quran,
Necə Quran verərsən bir kəsə, bilməz təharətdən.
Özün əbcəd bilib, şagirdə öyrətmə rəsaildən,
Məcaz əhli olan bicadı dəm vursa həqiqətdən...
Aman ol gün peyğşmbər cəm edən bu ümmətin yeksər,
Deyər: Molla, ver ol pulları kim, aldın bu ümmətdən...
Səni həqq, çox müəttəl qoyma bu əbnayi-islamı,
Biz indi bildik elmimiz yox, bu iş bədtərdir sirqətdən.
(101, s. 313)

Məlumdur ki, istər Şərqdə, istərsə də Qərbdə təhkimçilik zülm üzərində bərqərar olmuş, zülm isə müxtəlif cəza üsullarının meydan çıxmasını şərtləndirmişdir. Şərqdə tətbiq edilən ən yumşaq cəza növlərindən biri falaqqa vasitəsilə həyata keçirilmişdir. Əslində hər bir zalımın istifadə etdiyi falaqqa orta əsrlərin məktəb-mollaxanalarına da yol tapmış, molla-müəllimlər təhsildə pedaqoji prinsiplərə deyil, falaqqa qorxusuna əsaslanmışlar. Bu səbəbdəndir ki, bəzi lüğətlərdə bir əşya olaraq falaqqa məhz mollaxanalarla əlaqələndirilmişdir: "Falaqqa, is. Keçmişdə molla məktəblərində şagirdləri cəzalandırmaq üçün alət (bu alət uşaqların ayaqlarına keçirilmək üçün ortasında möhkəm ilmək ağacdan ibarət idi, uşaqların ayaqlarını bu ilməyə keçirərdilər, müəllim (molla) çubuqla bərk-bərk onların altına vurardı)". (14, s. 267 )

Keçmiş təhsil sisteminin, yəni mollaxanaların eybəcərliklərindən bəhs edən mollanəsrəddinçilər yeri gəldikcə falaqqa qor-

xusu ilə dərs keçən mollaların təlim üsuluna gülməyi də zəruri saymışlar. Ardıcıl mollanəsrəddinçi olan M.S.Ordubadini falaqqanın tənqidində "Molla Nəsrəddin" jurnalının səsinə səs verən ilk müəlliflər sırasında görürük. Budur, məcmuənin 23 iyun 1906-cı il tarixli 12-ci sayında getmiş "Etiraz" başlıqlı yazıda Hərdəmxəyal məhz falaqqadan söz açaraq köhnə məktəblərə və müəllimlərə etirazını bildirmişdir. Təbii ki, "Etiraz" yazısı bütövlüklə kinayədən ibarətdir. Guya Molla Şükürün falaqqasını bir nəfər avropalı oğurlamışdır və bu aləti dəyərləndirməkdən ötrü falaqqa bir neçə keşişin üzərində sınaqdan çıxarılmışdır. Əslində isə müəllifin fikrincə, Avropada artıq yalançı din nümayəndələri cəzalandırıldığı halda, bizdə savadsız molla-müəllimlər hələ də uşaqları falaqqa ilə qorxutmaqdadırlar. Bəli, köhnə müəllimin əsas "silahı" olan falaqqa "Etiraz" yazısında artıq gülüş hədəfidir: "Cənab müdiri-möhtərəm! Məcmuənizə etimadımız var isə də Molla Şükürün falaqqası xüsusunda yazılan əracif etimadımızın azalmasına bais oldu. Bunlar isə müxbirlərinizin yalançı olmasından naşidir. Gəncədən yazılan məktuba necə ki qərar idi inanırdıq, lakin Culfadan "Ləbləbi" imzalı yazılan məktub bimərrə yalan çıxdı. Bu saat Parisdə Sorbon darülfününun müdirindən aldığım teleqramda məzkur falaqqanı bir nəfər firəng səyyahı oğurlayıb Parisə aparmışdır və keçən gün nümunədən ötrü bir neçə keşişi falaqqaya qoymuşlar. Təvəqqə edirik bundan sonra Culfadan gələn məktublara diqqət buyurasınınz, çünki orda bir neçə tamahkar kəmsionçular vardır, nə mollaya hörmət qoyurlar, nə dərvişə". (88, s. 111)

Ümumiyyətlə, M.S.Ordubadinin fikrincə, hər bir ölkədə təhsilin səviyyəsi o ölkənin hansı səviyyədə tərəqqiyə nail ol-

masından xəbər verməkdədir. Bu səbəbdəndir ki, yazıçı "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi felyetonlarında bəzən bir cümlə, yaxud bir söz işlətməklə məktəb və müəllim problemini gündəmə gətirmiş, həmin problemə münasibətini bildirmişdir. Yazıçının "Mütərcim Hərdəmxəyal" imzası ilə oxuculara təqdim edilmiş "Məktub" felyetonunda da ("Molla Nəsrəddin", 1 sentyabr 1906, №22) təhsil məsələlərinin çox yığcam şəkildə qələmə alındığını görürük. Bununla belə, həmin yığcam təsvirlərdə də müəllif öz sözünü deməyə müvəffəq ola bilmişdir.

Qeyd edək ki, "Məktub" felyetonu sanki Marağalı Zeynalabdının "İbrahim bəyin səyahətnaməsi" romanının təsiri ilə yazılmıdır. Romanın əvvəlində Misirdə yaşayan Hacı Kərim adlı bir isfahanlı İbrahim bəydən pul almaq məqsədilə guya İrandan ona göndərilmiş bir məktubdan söz açır. Həmin saxta məktubda isə İran dövlətinin güc və qüdrətindən danışılır. (Bax: 69, s. 29-30)

Hərdəmxəyalın "Məktub" felyetonunda da məhz məktub vasitəsilə göz önündə İran dövlətinin tərəqqisi canlandırılır. Bu tərəqqinin göstəricilərindən biri ölkənin təhsilində yüksək nailiyyətlərin əldə olunmasıdır. Daha doğrusu, ölkədə təhsilin səviyyəsi bütün digər sahələrin səviyyəsinə müvafiqdir. Beləliklə, Hərdəmxəyal bu fikirdədir ki, öz ölkəsini qüdrətli görmək istəyən dövlət başçısı əvvəlcə insanlara azadlıq vermәlidir. Azad cəmiyyətin inkişafı isə qanunauyğun prosesdir və bu cəmiyyətin təhsil sahəsində böyük uğurların qazanılması təbiidir. Hər halda M.S.Ordubadinin azad cəmiyyət və azad təhsil haqqında arzuları belədir: "Əziz qardaşım Hərdəmxəyal! Minlərcə

şükürlər, hökumətin sayeyi-mərhəmət-vayəsində hürr və asudə yaşayıb gündən-günə tərəqqi və tədənni aləmilə sarışıb mədəni millətlər, müəzzəm hökumətlər sırasına keçirik!.. Asiya meydanında bir elektrik fanusu kimi qitəati-xəmsədə olan bəni noi-bəşəri işıqlandırıb aləmi-mədəniyyəti birdən-birə təhvir etmişik.

...Gündən-günə ziyadə başlamış olan akademiyalarımız, darülfünunlarımız, teatrlarımız, parklarımız, akvariumlarımız ümumi nəzəri-diqqəti cəlb edir desəm, yenə azdır...

Cahan-mədəniyyətin hər bir guşəsindən tələbələr darülfünunlarımıza yağış kimi yağmağa başlamışlardır." (88, s. 190-191)

M.S.Ordubadinin "Behiştə gedənlər" felyetonu deməyə əsas verir ki, yazıçı gənc nəslin məktəb və təhsillə əhatə olunmasını vacib bilmiş, əslində təhsilə bütöv bir sistem halında baxmışdır. Azərbaycan maarifçiliyinin bu böyük nümayəndəsi belə bir mövqedə dayanmışdır ki, hətta kimsəsiz uşaqların təhsilə cəlb edilməsində də biz Avropa ölkələrinin təcrübəsindən öyrənməliyik. Bizdə özlərini behişt sakinləri bilənlər kimsəsiz uşaqların taleyinə biganədirlər. Halbuki Avropa ölkələrində belə uşaqlar xüsusi məktəblərdə təhsil alır, cəmiyyət üçün gərəkli insanlara çevrilirlər.

Əlbəttə ki, Azərbaycan maarifçi ziyalıları cəmiyyət üçün hansı məktəblərin gərəkliyi məsələsi ətrafında ciddi müzakirələr aparmışlar. Və hətta XX əsrin əvvəllərində "Bizə hansı elmlər lazımdır?" sualı ətrafında geniş müzakirələr keçirilmişdir. Əslində isə "Bizə hansı elmlər lazımdır?" sualı "Bizə hansı məktəblər lazımdır?" sualnın tərkib hissəsi idi. Bu məsələnin həllini M.S.Ordubadi də vacib bilmiş, "Cəfəngiyyat" felyeto-

nunda ("Molla Nəsrəddin", 7 aprel 1907, № 14) bir daha tərəqqipərvər qüvvələrin diqqətinə çatdırmışdır ki, artıq milli məktəblər haqqında düşünməyin vaxtıdır: "Hərdən bir şey gəlir mənim xəyalıma: Qafqaz müsəlmanları uşaqlarını hara göndərsinlər oxumağa? Biri Yevropanı məsləhət görür, biri deyir Misrə göndərmək lazımdır, biri İslambulu tərif eləyir. Amma bu sözlərin heç birisi mənim beynimə batmır. Hazır odur, Qafqaz müsəlmanları üçün bir mədrəsə açıblar, hazır oracığaza göndərsin nə olar? Həmi yavıq, həmi qəşəng, həmi gözəl. Mədrəsəni başlasam vəsf eləməyə, qorxuram uzun çəkə. Amma müxtəsərcə bunu deyə bilərəm ki, bu zalım oğlu zalım Təbrizin bilmirəm ab-havasındandır, nəyindəndirsə, burada oxunan elmləri özgə məmləkətlərdə tapmaq olmaz." (88, s. 438)

M.S.Ordubadinin məktəb və müəllim haqqında düşüncələrini ifadə etmək baxımından yazıçının "İki çocuğun Avropaya səyahəti" əsəri xüsusi əhəmiyyət kəsb etməkdədir. Belə ki, müəllif əsərdə Berlin şəhərinin təsviri zamanı almanların mədəni inkişafının göstəricisi olaraq şəhərdə teatr və məktəb binalarının gözəlliyindən, avropalıların bu sahəyə məxsusi diqqət yetirmələrindən zövqlə söz açmışdır. Əlbəttə ki, bu əsər müəllifin real səfər təəssüratlarına istinadən deyil, oxuduqları, öyrəndikləri əsasında yazıldığından Berlin məktəblərinin təsvirində də bir ümumilik görürük. Bununla belə, M.S.Ordubadi məktəb mövzusundan bəhs edərkən öz vətənindəki real vəziyyəti, yəni məktəb – mollaxanaların daha çox məscid yanındakı binalarda olmasını da yada salır, Berlindəki məktəblərdən söz açmaqla təhsil ocaqlarının müstəqil binalarda yerləşməsinin vacibliyi mövqeyindən çıxış edir.

"İki çocuğun Avropaya səyahəti" əsəri ilə müəllif belə bir ideya irəli sürür ki, ölkədə təhsil sistemi elə qurulmalıdır ki, cəmiyyətin hər bir üzvü təhsil ala bilsin. Budur, almanlar fəxr edirlər ki, Almaniyadakı əhalinin yüzdə səksən hissəsi oxumaq və yazmaq qabiliyyətinə malikdir. Ölkədə nəinki orta, hətta ali təhsilin səviyyəsi də gündən-günə yüksəlməkdədir. Çünki bu sahənin inkişafına hökumət və xalq eyni dərəcədə maraq göstərməkdədir. Müəllifin təsvirinə görə, Almaniyada mövhumat, xurafat və cəhalətə yer yoxdur. Bütün bunların yerini isə dini elmlərin tədrisi tutmuşdur. Berlin şəhərindən söz açan M.S.Ordubadi prinsipcə cəmiyyət və din məsələlərinin həlli istiqamətində arzularını da qələmə almışdır: "Almanların ülumi-əqayidi, elmi-şəriəti o dərəcədə tövsi edilmişdir (inkişaf etmişdir) ki, bir neçə zatın himmət və mərdanəliyi ilə elmi-ədyan (dini elmlər) o dərəcədə nəşr və təşrih edilmişdir ki, yüz yaşında qocalar deyil, səkkiz yaşında təbliqatlı alman balaları da elmi-şəriətin nə olduğunu beşikdən ana qucağına atılan kimi düşünmüşdülər.

Almanların rəy və əqidəsaincə, hər məzhəb öz şəriətini paydar etməyə tərəqqi edir. Həqiqətən, almanların bu sözləri islam millətinə bir ibrət dərsidir. Almanların öz məzhəblərinə deyil, sair məzhəblərə də bələd olmaları buradan anlaşılır ki, hər saatda, – müsəlmanlar bir il şəriətləri ilə rəftar etsələr dünyaya malik olarlar, – söyləməkdədirlər." (101, s. 285)

"İki çocuğun Avropaya səyahəti"ndə Berlin təəssüratları vasitəsilə oxucu yəqinləşdirir ki, ümumiyyətlə, almanlar bütün həyatlatını elmi prinsiplərlə qururlar. Onlar insan hüququnun, müxtəlif dillərin, dünya tarixinin öyrənilməsinə daha çox ma-

raqlıdırlar və əhalinin bu cəhətinə görə Berlin Avropanın London və Paris şəhərlərindən irəlidədir. Müəllifin fikrincə, almanların əsas gücü elmə, məktəbə bağlılıqlarındadır. Daha əhəmiyyətlisi isə, bu xalqın elmin bir çox sahələrində dünyanı heyrətə gətirməsidir. Beləliklə, "İki çocuğun Avropaya səyahəti" əsərində Berlindəki təhsil sisteminə rəğbətini bildirməklə M.S.Ordubadi eyni zamanda məktəb və müəllim haqqında arzularını da ifadə etmişdir: "Berlin Elmi-hüquq Akademiyası, Dillər Darülmaarifi, Elmi-asari-qədimə cəmiyyəti həştad nəfər fərasətli və diyarətli müəllimlərin öhdəsinə verilib. Hökumət və millətin də milyonlarca pulu kamali-məmnuniyətlə bu yollarda sərf edilməkdədir.

Berlinin bu kimi ülumatı nə Londonda, nə Parisdə bu əla dərəcəni ittixaz etməmişdir. Bundan maəda (başqa), məsbuq üz-zikr (adı çəkilən) müəllimlər hər dəqiqə elmin təcdid və təshili barəsində çalışmaqla bütün dünyada əngüştnümayi-iftixar olmuşdular.

Ümumi-tibbə gəldikdə dünyamızda heç bir darülmaarif Almaniyanı təqib edə bilməmişdir (keçə bilməmişdir)." (101, s. 285)

"Molla Nəsrəddin" jurnalı səhifələrində dönə-dönə nəzər nöqtəsinə çəkilən məsələlərdən biri də Azərbaycan məktəblərində müəllim-şagird münasibətlərindəki antipedaqoji halın mövcudluğudur. Mollaxanalarda fiziki cəza olaraq falaqqanın tətbiqi, müəllimlərin öz şagirdləri ilə qəddarcasına, yaxud şəxsi mənfəət gözlənilməklə rəftar etmələri məcmənin səhifələrində daim tənqid atəşinə tutulmuşdur. Mollaxana-məktəblərdə bu kimi qeyri-sağlam mühiti təsvir və tənqid etmək baxımından

jurnalın 19 may 1906-cı il tarixli 7 sayında getmiş "Niyə mən dərsdən qaçdım?" başlıqlı felyetonu xüsusi əhəmiyyətə malikdir. Felyetonda Azərbaycan məktəbinə ictimai münasibət belə qələmə alınmışdır: "Məlumdur ki, dərsdən qaçmağa neçə səbəblər olur. Görürsən on üç yaşında bir uşaq nə qədər ki qəmişdən at qayırıb minib küçələri o tərəf-bu tərəfə kişnəyə-kişnəyə çapır, sağ və səlamətdir, amma dərsə gedən kimi biçarənin Şəki alması kimi qırmızı yanaqları başlayır solmağa. Uşağın atası gedib Hacı Kərim həkimə əhvalatı deyir və həkim uşağın üzünə baxan kimi ona bir dua yazır və uşağın atasına deyir ki, oğluvun heç özgə naxoşluğu yoxdur, məhz falaqqadan qorxub və uşaq bu sözləri eşidəndən sonra dəxi dərsdən qaçır. Ya bu cür olur: uşaq gedir məktəbə və həmişə müəllimindən artıq hörmət, iltifat və mehribançılıq görür: məsələn, müəllim həmişə onu öz yanında oturdur. Bazardan kişmiş-noxud alıb doldurur ciblərinə, dərsini bilməyəndə ayaqlarını falaqqaya qoymur, çətin dərs vermir və hər vaxt ki uşaq dərsini bilmədi müəllim yapışır onun çənəsindən və deyir: mən ölüm, bacı oğlu, mənim ürəyimi sıxma, dərsini yaxşı əzbərlə, yoxsa səndən küsərəm. Amma sonra haman uşaq çiçək çıxardır. Dəxi bilmək olmur ki, bu nə sirdir: müəllim dəxi binəvanı gözdən salıb üzünə də baxmaq istəmir və bunun əvəzində bir özgə gözəl uşağı yanında oturdub dəxi kişmiş-noxudu təzə rəfiqinin ciblərinə doldurur." (88, s. 70)

Berlin məktəblərinin özünəməxsus cəhətlərindən biri isə tələbə-müəllim münasibətlərindəki doğmalıq, səmimiyyət, elmi-pedaqoji prinsiplərə əməl olunmasıdır. Əsas odur ki, almanlar öz övladlarında anaya məhəbbət qədər, məktəbə və elmə də məhəb-

bət aşılayırlar. Müəllimlər isə şagirdlərə valideyin münasibəti göstərsələr də, elmləri tədris etmək ümdə vəzifə olaraq daima diqqətdə saxlanılır.

"İki çocuğun Avropaya səyahəti" əsərində belə bir fikir irəli sürülür ki, təhsilin təşkili baxımından hər bir xalq almanları örnək bilməlidir. Alman xalqının bu qədər inkişaf etməsinin əsasında məhz elm, təhsil dayanır. İbrətamiz haldır ki, ölkədə 7 yaşındakı övladının məktəbə göndərilməsi ilə maraqlanmayan valideyn hökumət tərəfindən məsuliyyətə cəlb edilir.

Əlbəttə, M.S.Ordubadi gənc nəslin təhsil almasında məktəbin və müəllimin rolunu yüksək qiymətləndirmiş, bu nəticəyə gəlmişdir ki, tədris prosesi davamlı olmalı, şagirdlər və tələbələr məktəbdən yayınmadan bütün vaxtlarını biliklərin öyrənilməsinə sərf etməlidirlər. Yazıçı Berlin məktəblərini nümunə göstərərək həmvətənlərinə deyir ki, biliklərin mənimsənilməsi gənc nəslin yaşam tərzinə çevrilməli, həm də bu iş müəlimlərin nəzarəti və rəhbərliyi ilə həyata keçirilməlidir: "Berlinə vüsulumuzda (çatdıqda) küçələrdə, məsirələrdə cavan uşaqlar görməyib, –Xudaya, yalnız belə bir əzəmətli şəhərdə qocalar yaşayırlar?" – söyləyib heyran-heyran gəzməkdə idik. Bu fikir ilə bazar gününə qədər dolanıb Berlində bir başqa aləm gördük. Bulvarlara çıxınca uşaqlar və cavanlar əllərində kitabçalar, övraqi həvadis oxuya-oxuya səyahət etməkdə gördük. Ara-sıra müəllimlər ağaclar kölgəsində beş-on nəfər tələbə yığıb onlar üçün tarixi və coğrafi bəhslər açmışdırlar.

Berlində hər kimsədən, – bu uşaqlar indiyə qədər harada olurdular, – soruşduqda, – uşaqların cümləsi özlərinə məxsus

məktəblərdə olurlar, – cavabını aldıq. Alıb da qüdrəti-cəlilənin (Tanrının) almanlara bəxş etdiyi calal və əzəmətin ikmala yetməsini anladıq.

Müsəlmanların da səfil-səfilanə yaşadıqlarını dərxatir etməklə (yada salmaqla) acı-acı göz yaşları cari etdik (axıtdıq).” (101, s. 287)

Azərbaycan maarifçilik hərəkatının səciyyəvi xüsusiyyətlərindən, ideya istiqamətlərindən, məqsəd və vəzifələrindən bəhs edən Y.Qarayev “Realizm: sənət və həqiqət” kitabında yazır: “Klassik maarifçiliyin mühüm xüsusiyyətləri: “mali” və “hüquqi” bərabərlik (M.F.Axundov) ideyaları, aqil və adil ictimai quruluş axtarışları, kütləvi bir tərbiyə və maarifləndirmə hərəkatı və bütün bu baxımdan feodal təsisatının tənqidi bir əsrdən artıq tarixi inkişafı müddətində, bizim milli maarifçiliyin məzmununda da özünü göstərir.

İnsan-təbiət yox, bilavasitə insan-cəmiyyət münasibətlərini onun birinci dərəcəli problemi kimi görürük. Elmin yox, elmsizliyin – dinin və mövhumatın, bilavasitə despotizmin – korladığı adam onun diqqət hədəfində durur. İctimai ədalətə nail olmaq, həyatı yaxşılaşdırmaq üsulunu o, elmdə və təhsildə, dinə, despotizmə və əcnəbi zülmə qarşı çıxmaqda, demokratiya və bərabərlik ideyaları uğrunda mübarizədə görür.” (62, s. 63)

Maarifçilk hərəkatının qüdrətli nümayəndələrindən biri olmaqla M.S.Ordubadi cəmiyyətin müsbət istiqamətdə yeniləşməsi yolunun elmdən, təhsildən keçməsi qənaətinə gəlmişdir. Yazıçı “İki çocuğun Avropaya səyahəti” əsərində alman xalqının həyat fəlsəfəsində elmin nə qədər mühüm yer tutduğunu

nümunə göstərərək vurğulayır ki, almanların fikrincə, elmsiz insanın vətəninə və millətinə daha çox zərəri dəyə bilər. Başqa sözlə, bir maarifpərvər ziyalı olaraq M.S.Ordubadi müasirlərinə belə bir ideya aşılayır ki, çağdaş zamanda vətənsevərliyin, insansevərliyin dünyagörüşlərə nüfuz etməsindən ötrü ağıl kultu qələbə çalmalıdır. Yazıçının təsvirlərinə əsaslansaq, məhz elmlə tərbiyələnməyin nəticəsidir ki, alman cəmiyyətində elmsiz insan var-dövlət sahibi olsa da, bu hal insanlar tərəfindən heç də müsbət qarşılanmır: "Berlində elmsiz kimsələrin nə qədər sərvəti və nə qədər müknəti olursa-olsun, yenə ziyafətxana, matəmkədələrdə, yainki teatr və muzeylərdə və yainki camaat xeyri üçün qurulmuş darüşşuralarda bir mübtədi biçiz məktəb şagirdi qədər nüfuzu qalmamışdır. Bir az izah edək.

Berlində bir nəfər pul axtaran varsa, yüz nəfər də elm və insaniyyət axtaran vardır ki, gündən-günə insanpərvərlik rəvac tapmaqdadır (yayılmaqdadır).

Almanlarca elmsiz və sənətsiz kişinin millət və vətəninə məzərrətindən (zərərindən) başqa mənfəəti olmaz, deyib elmsizləri görmək, söhbət və laqqırtısına qulaq vermək də istəməzlər." (101, s. 298)

M.S.Ordubadi bir maarifçi olaraq düşünmüşdür ki, hansı səviyyədə yaşamasına baxmayaraq cəmiyyətin hər bir üzvü məktəbə cəlb edilməli, təhsil almalıdır. Yazıçının təsvirlərinə görə almanlarda kimsəsiz, fəqir, yoxsul uşaqlar belə təhsildən kənarda qalmır. Çünki "Salamat cəmiyyəti" adlı qurumlar elə məktəblər açmışlar ki, bu məktəblərin əsas vəzifəsi yoxsul uşaqları pulsuz oxutmaqdır. "İki çocuğun Avropaya səyahəti" əsərindən məlum

olur ki, almanlarda elmin təntənəsinə kilsə də maraqlıdır. Göründüyü kimi, "İki çocuğun Avropaya səyahəti" əsəri ilə M.S.Ordubadi Azərbaycan cəmiyyətinə təhsil, məktəb və müəllimlə əlaqəli mükəmməl bir konsepsiya təqdim etmişdir.

"Molla Nəsrəddin" jurnalının 14 iyul 1908-ci il tarixli 28-ci sayında M.S.Ordubadinin "Qəribə bir iş" başlıqlı və "Hərdəmxəyal" imzalı maraqlı bir felyetonu ilə qarşılaşırıq. Maraqlıdır ki, yazıçının maarif, məktəb və təhsil, müəllim haqqında düşüncələrini ifadə edən felyetonda yeni dünyanın quruluşu birbaşa məktəblərlə, təhsillə əlaqələndirilir. Felyetonda belə bir ideya təbliğ edilir ki, yeni məktəb və təhsilin qələbəsi təmin edilmədən, yəni ictimai fikirdə elmi dünyagörüşə nail olmadan cəmiyyətdə insani və hüquqi azadlıqların gerçəkləşməsi, zülmdən xilas, qadın hüquqsuzluğunun ləğvi, ətalət və köhnəfikirliyin məhvi mümkün deyil: "Doğrudan, bu gecə mən xəyal elərdim ki, ey dili-qafil, neçə yüz ildir ki, bu yazıq müsəlman tələbələri gündüz axşama qədər, gecə sübhə kimi milyon dəfələr "Zərəbə Zeydün əmrən" deyib Öməri öldürürlər, genə görürsən ki, Ömər hali-həyatda gəzir... Hərgah müsəlman tələbələri ciddicəhd edib birdəfəlik Öməri öldürsələr, ümid edirik ki, cəmi işlər düzələr. Hərgah Ömər ölməsə, nə Məhəmmədəli şah məşrutəni verəcək, nə də Naxçıvanda qız məktəbi açmağa Şeyx Kərim razı olacaq. Nə də Danabaş kəndinin mollası Molla Ələsgər qəzetə istəyəcək. Nə də Təbrizdə Məmmədovlar öz kəndlilərini birbirinə qırdırmaqdan əl çəkəcəklər. Nə də Ordubad mədrəsəsinin zibilləri eşiyə tökülmək ilə qurtaracaq. Nə də Bakı cəmiyyətixeyriyyələri iş görəcək." (89, s. 224)

Göründüyü kimi, felyetonda müsəlman tələbələrinin tədris prosesində Öməri öldürmələri simvolik bir təsvirdir. Əslində müəllif demək istəyir ki, köhnə məktəblər tamamilə mövhumat yayan mərkəzlərə çevrilmişlər. O tədris ocaqlarında dünyəvi elmlərdən uzaq düşən gənclərə sadəcə islamla bağlı qeyri-real rəvayətlər öyrədilməkdədir. Bu üsulla tərbiyələnən insanların azadlıq uğrunda mübarizə aparmaları, qadın düşmənlərinə qarşı çıxmaları, islamın, müsəlman qardaşların tərəqqisi üçün fəaliyyət göstərmələri, maarifçi cəbhədə dayanmaları qeyri-mümkündür.

M.S.Ordubadi yeni cəmiyyət uğrunda mübarizədə müəllimlərdən əsl fədakarlıqlar gözləmişdir. Yazıçı qəti şəkildə bildirmişdir ki, dünyada Qərb-Şərq qarşıdurmasının bu qədər aşkarcasına gerçəkləşdirildiyi, islam dövlətlərinin parçalandığı, müsəlman ölkələrinin beynəlxalq müstəmləkəçilik tərəfindən talan olunduğu zamanda şərqli müəllimin yenə də əbcəd hesabı ilə nəyisə yazıya alması, daha doğrusu tüstü içərisində boğulan təfəkkürləri bir az da dumanlandırması yolverilməzdir. Budur, yazıçının "Töhfə" felyetonunda ("Molla Nəsrəddin", 30 noyabr 1908, № 48) tənqid konkret olaraq "ədibi fazil müəllim Feyzi cənabları"na ünvanlanmışdır. Bununla belə, oxucu felyetonda hələ də köhnə təfəkkürdən əl çəkə bilməyən mühafizəkar müəllimin ümumiləşdirilmiş surəti ilə qarşılaşır: "Biz indiyədək elə xəyal eliyirdik ki, əbcəd elmini Naxçıvanda Məşədi Həsəndən savayı heç kəs bilmir. Amma indi İslambuldan gələn "Şəms" ruznaməsində oxuyuruq ki, məktəbi-sultaninin məşhur müəllimlərindən "ədibi fazil müəllim Feyzi cənabları" bir hədisi əbcəd hesabına çəkib yazır:

Əş - 37
Cəmadi - 58
Vərəcəba - 212
Təri - 210
Əcəba - 72

Cəmi elər 1326 ki, bu ildə İran və Osmanlı inqilabı başlayıb. Müəllim cənablarının sözündən bu çıxır ki, hər bir Hacı Həsən Naxçıvanda və Feyzi cənabları İslambulda əgər istəsələr hər bir hədisin kəlmələrini bir-birinə çalıb bilərlər ki, bundan sonra dünyada nə böyük vüquat əmələ gələcək.

...“Şəms” ruznaməsində yazılan əbcəd tapmacası Şeyx Əbdülhüdaya və Danabaş kəndinin prixod mollasına yaraşan şeydir.

Amma indiki zəmanədə Balkan vüquatının müqabilində bu cür pərpuçatı məşğələ etməyi biz müəllim Feyzi cənablarından gözləmirdik.

Doğrudan da, ayıbdır”. (89, s. 387)

M.S.Ordubadi öz maarifçilik mübarizəsini son dərəcədə inamla aparmış, cəmiyyəti avropalaşdırmaq işində Avropa təhsili almış müəllimlərin böyük qüvvə olduqlarını xatırlatmış, onların birliyi ilə mühafizəkar insanların qorxuya düşmələrini qələmə almaqla yenilik tərəfdarlarını ilhamlandırmağı da lazım bilmişdir. Ədibin “Təəccüb” sərlövhəli balaca bir felyetonunda (“Molla Nəsrəddin”, 22 fevral 1909, № 8) məhz mövhumatçıların narahatlığından danışılır. Felyeton həcm etibarilə 7 cümlədən ibarət olmasına baxmayaraq, müəllif həm mövhumaq yayan “Din və məişət” kimi mətbuat orqanlarının mürtəce mövqedə dayandığını gülüş hədəfinə çevirmiş, həm də yeni dünyagö-

rüşün artıq müsəlman dünyasına nüfuz etdiyini nəzər nöqtəsinə çəkmişdir: "Doğrudan, çox təəccüb ki, necə qorxmurlar?

"Din və məşəqqət" məcmuəsi 6-cı nömrəsində yazır ki, "bu Avropa müqəllidləri, bəzi müdərris və müəllimlər ki övrətlərini və qızlarını götürüb teatrlara gedirlər – bunlar yövməl-məhşərdə xuda hüzurunda rüsvayi-aləm olmaqdan necə qorxmurlar?"

Doğrudan, necə qorxmurlar? Mən də həmişə təəccüb eləmişəm ki, bizim Qafqazda da bir para Avropa müqəllidləri və Avropa elmlərini oxuyanlar övrətlərini və qızlarını götürüb teatrlara aparırlar.

Doğrudan, görəsən bunlar məhşər günü rüsvayi-cahan olmaqdan necə qorxmurlar?

Çox-çox və çox təəccüb eliyirəm ki, necə qorxmurlar?" (89, s. 531)

Məlumdur ki, siyasi fəaliyyətinə görə M.S.Ordubadi 1913-cü ildə həbs olunmuş, 1914-1917-ci illərdə sürgün həyatı yaşamışdır. Bununla belə, sürgünlüyün dözülməz şərtləri də yazıçını maarifçilik hərəkatından ayıra bilməmiş, yazıçı yenə də cəmiyyət üçün nicat yolları axtarmış, qətiyyətlə belə bir mövqedə dayanmışdır ki, insanlığın tərəqqisi üçün təhsillə bağlı köhnə düşüncələrdən əl çəkməli, insanlar tamamilə yeni mühitdə, yeni məktəbdə dünyəvi biliklərin öyrənilməsi prosesinə cəlb edilməlidirlər. M.S.Ordubadi onu da nəzərə almışdır ki, cəmiyyətdə köhnə təhsil sisteminin tərəfdarları, yəni həmvətənlərinin elmdən uzaq saxlanılmasından faydalanan mühafizəkar qüvvələr də kifayət qədərdir. Onlar üçün maraqlıdır ki, həyat əvvəlki qaydasında davam etsin, elm və sənətdən bixəbər surətdə yaşamaq,

cəhalət içərisində ömrü başa vurmaq, qadınları kölə bilmək, qızlarla məktəb arasında keçilməz sədd çəkmək insanların həyat fəlsəfəsinə çevrilsin. Maarifpərvər ziyalı satirik əsərlərində mühafizəkar cəbhədə dayanan, elmi, yeni məktəbləri dinsizliklə əlaqələndirən tipin ümumiləşdirilmiş surətini yaratmağa da müvəffəq olmuşdur. Budur, M.S.Ordubadinin qələmindən çıxmış və "Babayi-Əmir" jurnalının 29 yanvar 1916-cı il tarixli 3-cü sayında çap olunmuş felyetonda yeni məktəblərə, qadınların təhsil almasına qənim kəsilmiş satirik tipin portreti belə canlandırılmışdır:

Məktəb nədi, qoy seyri-səfa eyləsin oğlun,
Bikar gəzib nəşvü-nüma eyləsin oğlun,
Düşdükdə yeri səfki-dəm eyləsin oğlun,
Ayda çocuğun etməsə bir qan, nəyə lazım?
Axırda yeri olmasa zindan nəyə lazım?

Xalıq sənə bəxş etsə əgər bir qız əyalı,
Qoy qalsın onu elmü-ədəbdən əli xalı,
Cəhd et ona kəsb eyləməsin vizrü vəbalı,
Nisvanda ədəb, məktəbi-nisvan nəyə lazım?
Biçarə qadın olmasa heyvan nəyə lazım? (87, s. 249)

Bəli, M.S.Ordubadi qəti şəkildə bi fikirdədir ki, yeni nəsli ətalətdən, avara həyatdan, qoçuluq vərdişlərindən uzaq tutmaqdan ötrü uşaqlar məktəbə cəlb edilməli, onlar biliklərə yiyələnməlidirlər. Cəmiyyətin tərəqqisi eyni zamanda qızların təhsil almasından asılıdır.

M.S.Ordubadi bir maarifçi ziyalı olaraq sovetlər dönəmində də yeni məktəb və müəllim problemi ilə yaxından maraqlanmış, ölkədə təhsil sisteminin yüksək səviyyədə qurulmasını vacib və gərəkli sayaraq bu problemi birbaşa hökumət rəhbərlərinin diqqətinə çatdırmışdır. Bununla belə, fədakar maarifçi bir sıra mətbuat orqanlarında, o cümlədən "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi məqalə və felyetonlarla bolşevik rəhbərlərin təhsil məsələlərinə biganə yanaşmalarını tənqid atəşinə tutmuşdur. Bütün varlığı ilə maarifçilik hərəkatına bağlı olan yazıçı yeni cəmiyyətdə müəllimlərin ən az maaş almalarından ("Təərüfə" və ticarət", "Molla Nəsrəddin", 9 noyabr 1922, №2), uşaqların kütləvi çəkildə küçələrdə səfil həyat yaşamalarından ("Küçə uşaqları", "Molla Nəsrəddin", dekabr 1922, №8), məktəblərdə rəhbərlik edənlərin yalnız öz mənfəətləri haqqında düşünmələrindən ("Xoşuna gəlməyən iş", "Molla Nəsrəddin", 4 aprel 1925, №14) ürək ağrısı ilə söz açmışdır.

# III FƏSİL

# MƏMMƏD SƏİD ORDUBADİNİN MAARİFÇİ GÖRÜŞLƏRİ



## 3.1. M.S.Ordubadi və maarifçilik hərəkatı

M.S.Ordubadiyə aid tədqiqat əsərlərində yazıçının maarifçilik hərəkatı ilə bağlılığına dair geniş təhlillərin yer tutduğu söyləmək doğru olmaz. Əksinə, hətta belə demək mümkündür ki, Azərbaycan maarifçiləri sırasında M.S.Ordubadinin adına təsadüfən rast gəlinməkdədir. Halbuki, yazıçının dünyagörüşünün formalaşmasına ciddi təsir göstərmiş müəllimləri – Hacıağa Fəqir Ordubadi və Məhəmməd Tağı Sidqi Azərbaycan maarifçilik hərəkatını irəli aparan fikir və əməl sahibi olaraq tanınmaqdadırlar. Digər tərəfdən, mütləq hakimiyyətə, ictimai zülmə, köləlik fəlsəfəsinə, elmsizliyin doğurduğu hər cür qüsurlara, dini doqmalara qarşı mübarizı aparması baxımından M.S.Ordubadinin nə Rusiya, nə də Avropa maarifçilərindən geri qalmadığını görürük. Doğrudur, Avropaya meyil, cəmiyyəti avropalaşdırmaq düşüncəsinə görə "İki çocuğun Avropaya səyahəti" əsərinin müəllifi əsasən Rusiya maarifçiləri ilə eyni sırada dayanır. Bununla belə, M.S.Ordubadinin maarifçilik görüşləri, ümumiyyətlə, Avropa maarifçilərinin ideyaları ilə səsləşməkdədir. Yazıçı qəti şəkildə bu fikirdə olmuşdur ki, cəmiyyət tamamilə yeniləşməli, ağlın gücü ilə bütün ictimai münasibətlər, o cümlədən təlim-tərbiyə prinsipləri, əxlaq meyarları, insan hüququ ilə əlaqədar baxışlar kökündən dəyişməlidir.

Azərbaycan maarifçilk hərəkatının səciyyəvi xüsusiyyətlərindən bəhs edən N.Vəlixanov "Azərbaycan maarifçi-realist ədəbiyyatı" kitabında yazır: "Rus maarifçiliyi geniş xalq kütlələrinin, əsasən kəndlilərin mənafeyini güdürdü. Bu, Rusiyada

iyrənc şəkil almış, inkişafa buxov olan təhkimçiliyə qarşı mübarizədə də özünü göstərirdi.

Azərbaycan maarifçiliyində isə elm-maarifi yaymaq, şəxsiyyət azadlığının təbliği, mövhumata, despotizmə qarşı mübarizı məsələləri qabarıq şəkildə özünü göstərir. Azərbaycan maarifçiləri belə ümid edirdilər ki, maddi həyat tərzinin yaxşılaşdırılmasının əsas vasitəsi xalq kütlələrinin elmə, maarifə yiyələnməsidir. Elm, maariflə silahlanma yolu ilə ictimai bəlalardan, o cümlədən mədəni gerilikdən xilas olmaq olar. Əgər dövlət başçıları müdrik maarifpərvər adamlar olsalar, sərvətə, vəzifəyə aludə olmasalar, xalqın, millətin istək və arzularını nəzərə alsalar, ədaləri özlərinə şüar etsələr, insan zəkası hər şeydə meyar olsa, ümumi rifaha qovuşmaq olar.” ( 110, s. 9)

İnkaredilməz faktdır ki, bütün bu göstəricilər ayrı-ayrılıqda M.S.Ordubadi yaradıcılığı üçün xarakterik cəhətlərdir. Maarifpərvər qələm sahibinin ilk mətbu əsərinə əsaslansaq, M.S.Ordubadi artıq 1903-cü ildə ictimai həyatın dəyişdirilməsi fikrindədir və bu səbəbdən də hər bir yeniliyi, eləcə də “Şərqi-Rus” qəzetinin nəşrini sevinclə qarşılayır. Şair açıq şəkildə bildirir ki, onun yaşadığı islam dünyası zülmətdədir. Bu zülmətdən xilas olmaq üçün bütünlüklə insanlar elmə üz tutmalıdırlar. M.S.Ordubadi ümid edir ki, türk dilində qəzetlər, o cümlədən “Şərqi-Rus” cəhalətə ağır zərbə vuracaqdır. Bu səbəbdən şair müasiri olduğu hər kəsi qəzet oxumağa səsləyir:

Eşitdim tazə güldür, baş verib bağ nəmədindən,
Keçib əbnayi-islamın xəzali, novbahar oldu...

Bu söz məşhurdur, etməz tərəqqi elmsiz millət,
Hamı elm əhli rahat, elmsizlər xar-zar olduş
Əzizim, mümkün olduqca oxu türkü qəzetlərdən,
Bunun ilə cümlə cəhlin binası tarimar oldu. (71, s. 39-40)

Əlbəttə, ilk mətbu şeiri ilə özünün maarifçilik cəbhəsində dayandığını açıq-aşkar bildirən M.S.Ordubadi "Qəflət" adlı birinci kitabında məsələyə bir qədər də aydınlıq gətirir, islam dünyasını tənəzzülə sürükləyənlər sırasında ilk növbədə guya elm yayan elmsiz mollaları günahlandırır, bununla da köhnə cəmiyyətin dayaqlarından birinə balta vurur, islam pərdəsi altında ictimai zülmə rəvac verən din nümayəndələrini lənətləyir. Bu məqamda M.S.Ordubadi XVIII əsr Avropa maarifçiləri ilə eyni cərgədə dayanır.

Bəllidir ki, Avropa maarifçiləri cəmiyyət üzvlərinin təfəkkürünü elmlə nurlandırmaq yolu ilə ideal həyat yaratmaq arzusunda olmuşlar. Bu böyük amalla yaşayan zəka sahibləri öz əsərlərində insanın insan tərəfindən istismarına, despotizmə, mütləq hakimiyyətin eybəcərliklərinə, ümumiyyətlə, hər cür zülmə qarşı çıxmışlar. Bir maarifçi ziyalı olaraq M.S.Ordubadini feodal təhkimçilik quruluşunun məhvə məhkumluğu, orta əsr geriliyi, Avropa mədəniyyətinə inteqrasiyanın zəruriliyi, insanlar arasında hüquq bərabərliyi ciddi şəkildə düşündürmüşdür. Qeyd etməyə ehtiyac vardır ki, maarifçilk hərəkatına bağlılığında M.S.Ordubadi özünəməxsus mövqe nümayiş etdirmişdir. Fikrimizcə, Azərbaycan milli maarifçiliyində M.S.Ordubadi özünəməxsusluğunu təsdiqləyən ilk mötəbər mənbələrdən biri yazıçının "Qeyrət" poeması-

dır. Bu poema deməyə əsas verir ki, tərəqqipərvər şairin məqsədi ilk növbədə mühitin diqqətini din qardaşlarının, bütövlüklə islam dünyasının geriliyinə, tənəzzülünə yönəltmək olmuşdur. Başqa sözlə, yazıçı heç də Avropa maarifçiləri kimi dinə qarşı çıxmamış, burjuaziyanın nəzəri müdafiəçisi vəzifəsini icra etməmiş, sadəcə öz şəxsində din qardaşlarının düşdüyü acınacaqlı vəziyyətin səbəblərini axtarmış, başqa sözlə, öz lirik qəhrəmanını və eyni zamanda islam dünyasını belə bir axtarışa sövq etmişdir.

Qeyd edək ki, M.S.Ordubadinin "Qəflət" mənzuməsinə dair milli metodologiyaya əsaslanan ilk təhlil akademik İsa Həbibbəyliyə məxsusdur. Görkəmli alim "Böyük ədəbiyyat nəhəngi" kitabında bu poemanın quruluşu və məzmun-ideyası haqqında yeni elmi müddəalar irəli sürmüş, əsərin hər bir hissəsini, o cümlədən "Bismillah Taala" adlanan müqəddiməsini ayrıca dəyərləndirmiş, həmin müqəddimənin ümumi müəllif qayəsi ilə bağlılığına belə aydınlıq gətirmişdir: "Qəflət" kitabı 32 səhifədən ibarət olub, "Bismillah Taala" müqəddiməsindən başqa, "Xabiqəflət" adlı 362 misralıq mənzum bir əsər əsasında hazırlanmışdır. "Bismillah Taala" müqəddiməsi orta əsr klassik Şərq və Azərbaycan poeması ənənəsindən gəlmə bir meyilin ifadəsi kimi daha çox poemaların başlanğıcındakı "əsərin yazılma səbəbi" bölməsinin funksiyasını daşıyır." (35, s. 24)

Bəli, "Qəflət" poemasında müəllif Şərq klassik ədəbiyyatında mühüm yer tutan poema janrının ənənvi struktruna sadiq qaldığından əsəri kişik bir müqəddimə ilə başlamışdır. Digər tərəfdən isə görürük ki, ənənəvi struktur daxilində də M.S.Ordubadi sanki Avropa maarifçiləri kimi aldadıcı gediş etmiş, Alla-

hın adı ilə başladığı müqəddimədə din qardaşlarını özünüdərkə səsləmiş, guya öz vəziyyətini qələmə almaqla əslində qəti şəkildə bildirmişdir ki, elm və təhsildə digər xalqlardan geri qalanlar ölümə layiqdirlər. Bir daha vurğulayaq ki, "Qəflət" poemasının "Bismillah Taala" adlı müqəddiməsi tamamilə aldadıcı xarakterdədir. Budur, guya lirik qəhrəmanın idealı ac-susuz və azad yaşamaq yolun tutmuş sufi sələfidir. Yeni xələf qəflətdə yatmaqdansa insan olmamağı, balsız milçək kimi ömür sürməkdənsə, həyatı boyu ağır zəhmət çəkməyi, düşməndən kömək diləməkdənsə, ac-susuz dolanmağı, xalqı töhmətləməkdənsə tabuta girməyi özünə rəva bilir, eləcə də sirrini gizli saxlamağı məqsədəuyğun sayır:

Mərğ xoş, qəflətara zinəfəs olmaqdansa,
Tairi-ömrə xəbərsiz qəfəs olmaqdansa...
Batasan, xoşdu cəvahir kimi dərya suyuna,
Ləbi-dəryada çıxan xarü-xəs olmaqdansa...
Yaxçıdır taxteyi-tabuta suvar olsa kişi,
Töhməti-xalqa mənləmiş fərəs olmaqdansa.
Sirrini söyləmə məxluqə, apar qəbrə Səid,
Dağ başından yoxa-yox gəlmə səs olmaqdansa. (101, s. 310)

Bəli, "Qəflət" poemasının "Bismillah Taala" adlı müqəddiməsində özünü susmağa səsləyən müəllif az sonra yenə də guya özü-özünə xitabən üzünü gündən-günə tənəzzül etməkdə olan islam ölkələrinə, Şərq dövlətlərinə tutur, islamın şanlı tarixini yada salır, xatırladır ki, zamanında ərəblər elmin güçü ilə beş qitədə hökmran olsalar da, elmdən uzaq düşmələri və aralarındakı nifaq

onları gücsüzləşdirmişdir. Bu gün özünü islan dinindən bilənlər ibrət almalıdırlar ki, vaxtilə ərəblərin Avropada tikdikləri məbəd-lər artıq kilsələrə çevrilmişdir. Şairin fikrincə, elmsizlik islam dünyasına çeşid-çeşid faciələr gətirməkdədir. Hazırda islam ölkələrində gədanı şahdan ayırmaq mümkün deyil. İnsanlar hər an həqarətlə qarşılaşırlar. Təbii ki, elmsizlik saraylara da yol tapmışdır. Elmdən xəbəri olmayanlar saraylarda vəzir məqamına qədər yüksəlirlər ki, bu da xalq üçün fəlakət deməkdir. M.S.Or-dubadi qəti şəkildə bildirir ki, islam dünyasını məhv olmaqdan yalnız elm xilas edə bilər. Fikrinin təsdiqi üçün şair Qərb ölkələrinin tərəqqi yolunu nəzər nöqtəsinə çəkir, elm və sənət vasitəsilə qərblilərin qazandıqları uğurları bir daha xatırladır.

Doğrudur, "Qəflət" poemasında Sədi Şirazinin "Gülüstan" əsərindən gəlmə nəsihətçilik bir qədər qabarıq görsənir. Bunun-la belə, qeyd etməyə ehtiyac vardır ki, M.S.Ordubadi nəsihətçi-liyi bütünlüklə maarifçik ideyaları ilə bağlıdır. "Qəflət" müəllifi bu fikirdədir ki, ictimai təfəkkürdə elmin təntənəsindən ötrü şair və yazıçılar köhnə vərdişlərindən, epiqonçu ədəbiyyat ya-ratmaq işindən əl çəkməli, öz əsərlərində yeni dünyanın prin-siplərini qələmə almalı, cəmiyyəti elmə səsləməlidirlər. Şair zə-ka səltənətinin qurulmasından ötrü tamamilə köhnə düşüncə tərzinin əleyhinə çıxır, göstərir ki, dünyada heç bir millət elm-sizliyi özünə yaxın qoymadığı halda, müsəlmanlar elmdən bixə-bər şəkildə ömürlərini başa vurmaqdadırlar. "Qəflət" poeması ilə köhnə dünyaya ölüm hökmü oxuyan M.S.Ordubadi aydın şəkildə bildirir ki, ictimai münasibətlərin dəyişilməsi, milli təfək-kürün yeniləşməsi ölkə ziyalılarından əsaslı dərəcədə asılıdır.

Maarifçilik hərəkatında əsas göstəricilərdən biri və bəlkə də, birincisi doğma xalqa, əməkçi xalqa sevgidir. “Azərbaycan maarifçi-realist ədəbiyyatı” kitabında N.Vəlixanov maarifçilikdə xəlqilik məsələsinə belə aydınlıq gətirmişdir: “Maarifçilik idealının real bədii təcəssümü maarifçi səciyyəli müsbət qəhrəmanıdır ki, o əməkçi xalqa faydalı olmağa səy edir, onun mənəvi inkişafı barədə düşünür. Heç şübhəsiz, belə bir xüsusiyyət xəlqilik anlayışı ilə əlaqədardır. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərindəki Azərbaycan maarifçilərinin şəxsiyyət azadlığı barədə istər publisistik və istərsə də bədii əsərlərində irəli sürdükləri mütərəqqi fikirlər onların xəlqiliyi ilə bağlıdır. Maarifçilərə görə, xalqın ictimai şüurunun oyanmasına, xoşbəxt yaşamasına çalışmaq xəlqilikdir. Əlbəttə, onlar bu səylərində məhdud çərçivədə fəaliyyət göstərmiş, daha çox islahatçılığa, təkamülə, tərbiyə vasitələrinə istinad etmişlər.” (110, s. 21)

Diqqət edilərsə görərik ki, xəlqilik “Qəflət” poemasında lirik qəhrəmanın bütün varlığına hakim kəsilmişdir. Onun səyləri birbaşa vətən və din qardaşlarının xoşbəxtliyinə, tərəqqisinə hesablanmışdır. Bəli, “islahatçılığa, təkamülə, tərbiyə vasitələrinə istinad edən” M.S.Ordubadi “Qəflət” poeması ilə insanları var-dövlətə deyil, ağıla qul olmağa səsləyir.

Bir marifçi olaraq M.S.Ordubadi mövcud ictimai quruluş şəraitində cəmiyyət həyatının bütün sahələrində zülmün, despotizmin ən müxtəlif formalarda şəriksiz hökmranlığının əleyhinə çıxmışdır. Bununla belə, yazıçı eyni məsələyə münasibətdə müəyyən qədər difər maarifçilərdən fərqli mövqedə dayanmışdır. Məsələn, Marağalı Zeynalabdın bu fikirdə olmuşdur ki, ölkədəki haqsızlıqlar haqqında hökmdara xəbər verilmir. Əgər

şah rəiyyətə qarşı törədilən ədalətsizliklərdən xəbər tutarsa, günahkarlar cəzalanar və bir çox problemlər öz həllini tapar. İlk əsərlərindən çıxış etsək, M.S.Ordubadinin mütləq hakimlə bağlı düşüncələri də özünəməxsusdur. Yəni yazıçı heç də o fikirdə olmamışdır ki, dövlətin birinci adamı ölkədə törədilən zülmlərdən xəbərsizdir. Azərbaycan maarifçilik hərəkatında mübarizliyi ilə tanınan M.S.Ordubadi "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi felyetonlarında birbaşa despotizmi, despotluğun artıq yaşam tərzinə çevrilməsini lənətləmişdir. Maarifpərvər yazıçı göstərmişdir ki, despotluq üçün ən münbit şərait elmsizlikdir və elmsizlikdən qaynaqlanan despotizmin ölkəni, eləcə də dövləti məhvə sürükləməsi mütləqdir. Mübariz mollanəsrəddinçinin ictimai zülmə bağlı düşüncələrini ifadə etmək baxımından məcmuənin 27 yanvar 1908-ci il tarixli 4-cü sayındaa getmiş "Bağ" felyetonu xüsusi dəyərə malik publisitik nümunədir. Başqa sözlə, "Bağ" felyetonu bir daha təsdiqləyir ki, M.S.Ordubadi Azərbaycan maarifçilik hərəkatının nümayəndəsi olmaqla bərabər, öz əsərləri ilə bu fikir və əməl cərəyanını zənginləşdirmiş, Azərbaycan maarifçiliyinə yeni keyfiyyətlər qazandırmışdır.

"Bağ" felyetonunda göstərilir ki, İran təəbələri çörək pulu qazanmaq məqsədilə vətəni tərk edib qonşu ölkələrə üz tutursa da, İran dövlətinin zülmlə idarəetmə sistemi onlardan əl çəkmir. Çünki İran konsulları naiblərin məvacibini mənimsədiyindən, naiblər də vətəndən kənarda fəhləlik edən iranlıları soymaqla məşğuldurlar. Yazıçı göstərir ki, elmsizliyin və zülmün hökm sürdüyü zaman və məkan daxilində insan azadlığından söz gedə bilməz. Budur, "Bağ" felyetonunda müəlliflə kon-

sulun naibi arasındakı söhbət: "Sual: Sizin məvacibiniz dövlətdən nə qədərdir?

Cavab: Ayda yüz manat.

Sual: Bəlkə, siz heç təzkirə xərcə verə bilmədiniz, onda nə yeyəcəksiniz ki, ölməyəsiniz?

Cavab: Vallah, sözün doğrusu, onda hansı iranlıya rast gəlsək, tutub zornan və səbəbsiz dərisini soyacağıq.

Sual: Bə İran məşrutiyyəti necə oldu?

Cavab: Pəh, rəhmətliyin oğlu, elə məşrutiyyət Mirzə Rzaxanları, Mirzə Ələsgər xanları və qeyri konsulları başa verdi, qaldıq biz?" (89, s. 32)

Bəli, M.S.Ordubadi qeyd-şərtsiz bildirir ki, elmsiz insanlara azadlığın verilməsi heç nəyi dəyişdirməz. Yazıçının fikrincə, cəmiyyətlərin inkişafı ictimai düşüncənin təkamülü, yəni dünyəvi elmlərin milli təfəkkürdə təntənəsi yolu ilə gerçəkləşməlidir. Maraqlıdır ki, sovet dövrünün ədəbiyyatşünaslığı inqilabçı demokratlar adlandırsa da, XX əsrin əvvəllərində mollanəsrəddinçilər məhz bu ideyanın ətrafında birləşmişlər.

"Bağ" felyetonunda M.S.Ordubadi hansısa bir məmuru günahlandırmaqla kifayətlənməyib. Yazıçı məsələnin mahiyyətinə nüfuz etmək istiqamətində iş aparıb, oxucunu real vəziyyətlə üz-üzə qoyub. Felyetonda aydın şəkildə göstərilir ki, ictimai zülmün əsas qaynağı dövlət başçısıdır. Dövlət başçısı öz əməllərində azacıq da olsa ədalətsizliyə yol verərsə, ölkədə despotluğun baş alıb gedəcəyi şübhəsizdir. M.S.Ordubadi yenə də maarifçilik yolu tutub, dövlət başçılarını qəflət yuxusundan ayılmağa səsləyib, bildirib ki, ağıllı hökmdarlar öz ölkələrinin

və dövlətlərinin xilası naminə zülmə son qoymalıdırlar. Beləliklə, "Bağ" felyetonunun sonunda "Kimdir günahkar?" sualına qəti cavab verilir: "Bəlkə də, konsullarda da o qədər günah yoxdur. Bəlkə, bunların günahı məhz budur ki, bunlar rəiyyətin bağından ancaq bir alma yeyirlər.

Amma söz burasındadır ki, konsul bir alma yeyəndə naib də alma ağacını birəti kökündən çıxardır.

Və neçə-neçə illərdir ki, İranın alma ağaclarını dibdən çıxarıb yan-yana yıxırlar.

Kimlər? Kimlər?..

Haman bağın bağbanları!" (89, s. 32)

Ümumiyyətlə, despotizm və onun törətdiyi ictimai eybəcərliklər maarifçiləri daim düçündürmüşdür. Öz əsərlərində müntəzəm surətdə elmsizliyi, cəhaləti, fanatizmi, köhnə təhsil sistemini, islam dünyasını məhvə sürükləyən mövhumatı tənqid atəşinə tutan maarifçilər belə bir mövqedən çıxış etmişlər ki, ağıla dəyər verilmədiyi, təfəkkürlərin xoşbəxt axirət dünyası həvəsilə dondurulduğu, insanların çağdaş dünyadan xəbərsiz yaşadığı mühitlərdə fiziki təzyiqə məruz qalmaq cəmiyyət üzvləri üçün adi hala çevrilir, kimsədə təəccüb doğurmur. Əlbəttə, belə bir hal müstəmləkəçilk planlarını həyata keçirənləri, digər xalqları öz əsarətləri altında yaşatmağa çalışan dövlətləri, xalqın mənafeyini tamamilə unutmuş missionerləri, milyonçuları, biganə oxumuşları tamamilə qane edir. Kəskin ideyaları ilə Azərbaycan maarifçilik hərəkatını mübarizləşdirən M.S.Ordubadi heç cür razılaşa bilmir ki, insanların zəkaya düşmən kəsilmələri səbəbindən fiziki güc davranış münasibətlərinin əsas göstəricisinə çevrilmişdir.

Məhz bu göstəricisi ilə tanınan islam dünyası həm də avropalılar üçün gülüş hədəfidir. Yazıçı "Vurhavur" felyetonunda ("Molla Nəsrəddin", 28 aprel 1908, №17) zor dünyasına nifrətini belə qələmə almışdır: "Əgər bir vilayətə yolun düşdü və istəyirsən biləsən ki, bura müsəlman vilayətidi, ya yox - bax gör adam döyürlər, ya yox. Əgər döyürlər - bil ki, müsəlman vilayətidir.

...Ərdəbil şəhərində bazar ilə keçirdim, gördüm bir nəfər adamı hər çatan ağac ilə, daş ilə, təpik ilə döyür. Xülasə, o qədər döydülər ki, ölüm halına düşdü. Xəbər aldım ki, bunun təqsiri nədir, dedilər çörəkçidir, çörəyi yaxşı bişirməyib.

Oradan gəldim Bakıya, bir nəfər rəfiqim ilə Təzəpir məhəlləsi ilə keçirdim, gördüm bir nəfər adamı otuz, bəlkə, qırx müsəlman araya salıb döyürlər...

Sonra yolum düşdü Gəncəyə – döyürlər, vurhavur. Yolum düşdü İrəvana – vurhavur, hər yana – vurhavur.

Müxtəsər, bir yana ki, gedirsən, əgər istəyirsən biləsən ki, bura müsəlman aləmidir – bax gör: əgər iyirmi-otuz müsəlman bir yerə yığışıb bir adamı döyürlər – bil ki, müsəlman vilayətidir." (89, s. 133)

Doğrudur, "Vurhavur" felyetonunda konkret olaraq elmsizlikdən, maarifin gərəkliyindən, insan hüquqlarının yoxluğundan, köləlik fəlsəfəsinin hegemonluğundan, ictimai münasibətlərin eybəcərliyindən söz açılmır, sadəcə müsəlman dünyasındakı cəzalandırma üsulu canlandırılır. Oxucu isə bir daha yəqinləşdirir ki, qanunların olmadığı, insan hüquqlarının qanunla qorunmadığı, ümumiyyətlə, insana dəyər verilməyən cəmiyyətdə zorun tətbiqi, despotluğun tüğyan etməsi tamamilə təbiidir.

Bu halda da ən çox itirən islam ölkələridir. M.S.Ordubadi "İki çocuğun Avropaya səyahəti" əsərində bu məsələyə yenidən qayıtmış, göstərmişdir ki, avropalılar üçün hər bir avropalı, hətta cinayətkarlar belə qiymətlidir. Bu məqamda Qərb-Şərq müqayisəsinə də gərək duyaraq yazmışdır: "Parijdə yoldan çıxanları yola gətirmək, bədəqidə, fəna, məsləksiz və bədrəftarda olanları islahedici cəmiyyətlər vardır ki, hər birisi öz millətlərinə özlərincə böyük xidmətlər əda edirlər. Fransızlar ağacdan, daşdan adam töküb fransız adını verirlər ki, cəmiyətləri (əhalisi) artsın. Bizim mollanümalara gəldikdə bir nəfər elmsizlik, yainki (yaxud) səhv üzərinə bir xəlaf söz danışıb, sonra tövbə edərsə, yenə bir təzə məzhəb ilə adlandırıb, zovrən və cəbrən islamiyyətdən xaric edərlər. Budur ki, biçarə islam milləti, naxələf kimsələr yetmiş yerə bölünmüşlər. Yazıq millət!" ( 101, s. 299)

Maraqlıdır ki, M.S.Ordubadi inqilabdan sonra da əsasən maarifçilik cəbhəsində dayanmış, bu fikirdə olmuşdur ki, yeni cəmiyyət qurmaqdan ötrü elm, təhsil, məktəbdarlıq sahəsində sistemli işlər aparılmalı, insanlar köhnə düşüncə tərzindən xilas olmalı, ictimai təfəkkürdə vətən və xalq mənafeyi önə keçməli, vətən və din qardaşları yüksək amallar uğrunda mübarizə aparmağı bacarmalıdırlar. Məsələn, "Molla Nəsrəddin" jurnalının 9 noyabr 1922-ci il tarixli 2-ci sayında çap olunmuş "Ədəbiyyat" başlıqlı felyetonunda Hərdəmxəyal yenə də cəhalətin donmuş təfəkkürlərə hakim olmasından, mollaların mühafizəkarlıq cəbhəsində qətiyyətlə dayanmalarından, mövhumatın əvvəlki qaydada hökmranlıq etməsindən, gərəksiz dini ayinlərin davamlığından narahatlığını bildirərək məsələlərə yenə də islahatçı mövqeyindən yanaşmışdır:

Mən bilirdim işimiz get-gedə asanlaşacaq,
Bütün aləm gəlib imanə müsəlmanlaşacaq.

Nə otuz övrətə hakim çıxacaq Molla Qəvam,
Çalışıb qoymayacaqdır Xızı kəndində əvam,
Yığacaq mərsiyədə yüzcə cuval buğda tamam,
Satacaq qış başabaş, ruzi firəvanlaşacaq,
Siğənin kursu düşüb mütələr ərzanlaşacaq.

Satacaq zinalara Gülpəri çadırşəbini
Açacaq köhnə müsəlman yeni qız məktəbini,
Kəsəcək maryalara molla müsəlman kəbini,
Fatmalar Lolyalaşıb, Lolya Tükəzbanlaşacaq,
Nina çadırşəbin altında xuramanlaşacaq. (90, s. 285 )

M.S.Ordubadi “Təərüfə və ticarət” felyetonunda (“Molla Nəsrəddin”, 9 noyabr 1922, №2) yeni quruluşda müəllimlərə az maaş verilməsindən, “Küçə uşaqları” felyetonunda (“Molla Nəsrəddin”, 31 dekabr 1922, №8) yeni nəslin küçələrdə oğurluq sənəti öyrənməsindən, “Yavrum” satirasında (“Molla Nəsrəddin”, 27 dekabr 1924, №29) bütün bəşəriyyətin dinə qul olmasından narahatlığını qələmə almaqla bir daha bildirmişdir ki, inqilabın qalib gəlməsinə baxmayaraq, milli təfəkkür yeniləşmədən, elm qələbə çalmadan ictimai həyatda sadəcə zahirən böyük uğurlar əldə etmək mümkündür.

Əsərləri və əməli fəaliyyəti deməyə əsas verir ki, M.S.Ordubadi, sözün həqiqi mənasında maarif fədaisi olmuşdur.

## 3.2. M.S.Ordubadinin vətənpərvərlik baxışları

M.S.Ordubadi həyatı və yaradıcılığının ideya mənbəyində vətən sevgisinin dayandığı müşahidə edilməkdədir. Daha doğrusu, Azərbaycan ədəbiyyatında əsrlər boyu davam edən "gül və bülbül hekayəsi"ni "vətən və millət hekayəsi"nə çevirən qələm sahibləri sırasında M.S.Ordubadinin daha möhtəşəm məqam tutduğunu görürük və bu möhtəşəmliyi şərtləndirən əsas bazis yazıçının monumental əsərləridir.

Elmi fikir bu fikirdədir ki, Azərbaycan maarifçilərinin, eləcə də mollanəsrəddinçilərin hər bir əsəri birbaşa, yaxud dolayısı ilə vətən sevgisini ifadə etməkdədir. A.Məmmədli "Molla Nəsrəddin" ədəbi məktəbində milli varlıq problemləri" kitabında mollanəsrəddinçilərin azərbaycançılıq təlimi ilə bağlılıqlarına xüsusi dəyər verərək yazır: "Ümumiyətlə, Cəlil Məmmədquluzadə başda olmaqla "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndələrinin – Mirzə Ələkbər Sabirin, Əbdürrəhim bəy Haqverdiyevin, Əli Nəzminin, Məmməd Səid Ordubadinin, Mirzə Əli Möcüzün və başqalarının ədəbi-bədii yaradıcılıqları Azərbaycan ədəbiyyatında vətənçilik, azadlıq, müstəqillik, bərabərlik haqqında, bütövlükdə, milli tale və istiqlal haqqında bədii örnəklərdir." (83, s. 21)

Bəlli olduğu kimi, Azərbaycan maarifçiləri ağılın hökmranlıq etdiyi yeni cəmiyyət qurmaq arzusu ilə yaşayırdılar. Bu yeni cəmiyyətin insanı da, təbii ki, yeni şəxsi keyfiyyətlərə malik olmalı idi. M.S.Ordubadinin əsərlərində belə bir ideya tərən-

nüm olunur ki, insanı digər canlılardan fərqləndirən əsas keyfiyyəti vətənə və insanlığa sevgisi olduğu kimi, vətən sevgisi də öz növbəsində bəşər övladının əqli kamilliyinin göstəricisidir. Böyük maarifpərvər "Vətən və hürriyyət" kitabında aydın şəkildə vətən sevgisinin insan zəkasından təcəlla tapması ideasını irəli sürür, həmvətənlərini müqəddəs bir vəzifəni həyata keçirməyə, vətənin səadəti uğrunda mübarizə aparmağa səsləyir. Şair bir daha üzünü müasirlərinə tutur, onlara qəti şəkildə bildirir ki, artıq dünya ilə ayaqlaşmağın, insan hüquqlarından ötrü candan keçməyin, azadlığa qovuşmağın vaxtıdır:

Əshabına bir gün dedi Loğmani-həqiqət:
Etdi məni hübbülvətənim mətlei-hikmət.
Bildim vətənin qədrini, etdim də sədaqət,
Çünki çatar insana sədaqətlə şərafət.
Hübbülvətən övladıma məndəndi vəsiyət,
İnsanlara fərz olmalıdır qerəti-millət.

İnsan oluban bil nədi qüdsiyəti-insan,
Mənsəb haradır, ya ki nədir mənbəyi-iman,
Hübbülvətən olmaz, gedər iman ilə ərkan,
Ondan sora bilməzlər, heyvanmısan, insan,
İnsan olan etsin gərək həmnövünə xidmət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət. (101, s. 322)

Bir maarifçi realist kimi M.S.Ordubadi yeni insanın şəxsi keyfiyyətləri sırasında vətənsevərliyə xüsusi diqqət vermiş, qeyd etmişdir ki, vətənin taleyi cəmiyyətin hər bir üzvünü bütün

digər məsələlərdən daha çox düşündürməlidir. Yazıçının "Vətən və hürriyyət" kitabı da məhz vətən mövzusunun istər ədəbiyyatda, istərsə də ictimai şüurda, milli təfəkkürdə bütün yönləri nəzərə alınmaqla gündəmə gətirilməsi məqsədilə nəşr olunmuşdur.

Əlbəttə, XX əsrin əvvəllərində hansı ədəbi cəbhədə dayanmasına, hansı ədəbi cərəyanı təmsil etməsinə baxmayaraq vətən mövzusu maarifpərvər qələm sahiblərini ciddi şəkildə düşündürmüşdür və bu, təsadüfi deyildi. Məsələ ondadır ki, XIX əsrin əvvəllərində Azərbaycan zorla Rusiyaya birləşdirildikdən sonra "vətən" məfhumunun milli yaddaşdan silinməsi, bu vətən uğrunda canlarından keçən tarixi şəxsiyyətlərin unutdurulması istiqamətində sistemli iş aparılmış, hətta belə demək mümkündür ki, Azərbaycanda mövhumatın, cəhalətin, nadanlığın, ətalətin, biganəliyin, səfalətin daha da qatılaşmasına xüsusi canfəşanlıqla yanaşan Rusiya vətən mövzusunda da müəyyən qədər öz istəyinə nail olmuşdur. Bu mənada 1907-ci ildə "Vətən və hürriyyət" kitabını nəşr etdirmək birbaşa Rusiya imperiyasının məqsədyönlü siyasətinə qarşı çıxmaq demək idi. Öz zamanında "Vətən və hürriyyət" kitabının əhəmiyyəti ədəbiyyatşünas alim, həmçinin yazıçı-pedaqoq Mir Cəlal tərəfindən belə dəyərləndirilmişdir: "Bu əsər ("Vətən və hürriyyət" – R.Ə.) üç mənzumədən ibarətdir. Hər üçü cəhalətdən, gerilikdən və pərişanlıqdan şikayət ruhunda... yazılmışdır. "İfadəyi-məram" adlanan birinci müsəddəsində şair keçmiş qəhrəmanları, xüsusilə Qafqaz tarixinə aid bəzi səhnələri romantikləşdirərək vətəndaşların vətən uğrunda can qoymağa, "əl-ələ verməyə", "müstəbidlərdən ixtiyar almağa", "hürriyyət, qeyrət uğrunda" çalışmağa çağırır.

...Bu kitabçanın birincidən ("Qeyrət"dən – R.Ə.) fərqi ondadır ki, burada tarix yox, yazıldığı dövr tərənnüm olunur:

Baş ver vətən uğrunda ki, əbnayi-vətənsən,
Baş verməsən, insan nə ki, bir zağü-zəğənsən,
Ey ol kişi, sən ki, vətən anlamı çəkənsən,
Əhsən sənə, sən millətə nəzhətli çəmənsən.

Şair oxucunu mübarizəyə çağırır. Vətən yolunda baş verənlər, canlarını əsirgəməyənlər qəhrəman sayılırlar."(84, s. 87)

Çağdaş milli pedaqogika elmi çox doğru olaraq iddia etməkdədir ki, hazırda təlim-tərbiyənin ümdə vəzifələrindən biri xalqına, ölkəsinə, dövlətinə böyük sevgi bəsləyən əsl vətəndaş formalaşdırmaqdan ibarətdir. Bu ali məqsədə çatmaq üçün hazırkı pedaqoji kollektivlər qarşısında konkret vəzifələr də qoyulmuşdur. (Bax: 56, s. 401-405; 38, s. 343-345) Əlbəttə, XX əsrin əvvəllərində hələ yeni üsullu təlim uğrunda mübarizə aparan Azərbaycan məktəbindən vətənsevər gənclər tərbiyə etməyi gözləmək o qədər də düzgün deyildi. Təlabata cavab verəcək dərsliklərin olmaması, vətən məhəbbətinin tərənnümündən ibarət əsərlərin yoxluğu da ciddi problem idi. Bu mənada M.S.Ordubadi "Vətən və hürriyyət" kitabı ilə öz həmvətənlərinə qiymətli bir vətən dərsliyi təqdim etmişdi. Akademik İsa Həbibbəylinin fikrincə, M.S.Ordubadinin simasında Azərbaycan vətəndaşının doğma məmləkəti uğrunda mübarizəyə gedən yolu "Vətən və hürriyyət"dən keçir. Görkəmli alim "Böyük ədəbiyyat nəhəngi" kitabında yazır: "Məmməd Səid Ordubadinin "Vətən və hürriyyət" şeirləri sadəcə tərənnümdən ibarət olmayıb, kitabın adında

ifadə olunduğu kimi, hürriyyət ideyası ilə, istiqlal düşüncəsi ilə bir yerdə vətənnaməyə çevrilmişdir. Xüsusən "Vətən və hürriyyət" poemasını təşkil edən şeirlərdə Vətən anlayışı ədəbiyyatda milli istiqlal cəbhəsinin bayrağı kimi tərənnüm olunur. Bu kitab bütövlükdə Vətənin şeirlə yazılmış hürriyyət andıdır. Bu şeirlər Vətən ağırlıqlı hürriyyət çağırışlarıdır". ( 35, s. 31)

Prinsip etibarilə, M.S.Ordubadinin "Vətən və hürriyyət" kitabı vətənpərvərlik tərbiyəsinin bir neçə istiqamət üzrə gerçəkləşdirilməsinə imkan yaratmaqdadır. Bu kitab oxucuya belə bir fikir təlqin edir ki, vətənin hər bir övladını doğma məmləkətinin tarixi və bu günü ciddi şəkildə düşündürməli, bu zəmində özünü əsl vətəndaş sayan insan bütün ömrünü vətənin azadlığı, xalqının inkişafı və tərəqqisi uğrunda mübarizədə keçirməlidir. Bəli, qüdrətli yazıçı təssüflənir ki, tarixi qəhrəman övladların şanlı mübarizələrindən ibarət olan bir ölkə indi müstəmləkəçilik qanunlarına boyun əyməkdədir. Fədai ziyalının fikrincə, vətənsevərlik insanın ən ali mənəvi keyfiyyətinə çevrilməli, məhz bu müsbət keyfiyyəti ilə vətən övladı gələcək nəsillər üçün də örnək olmalıdır. Yazıçı müstəmləkəçilik şəraitində şərtlərin dəyişdiyini də xatırladır, qələm sahiblərini xalqın şanlı tarixini yenidən göz önündə canlandırmaqla insanlarda vətənpərvərlik hissini alovlandırmağa səsləyir.

Təbii ki, vətənpərvərlik tərbiyəsi bütünlüklə insanın mən dünyasına təsir göstərmək, xalqının və millətinin, dövləti və ölkəsinin tərəqqisi uğrunda mübarizəyə xüsusi əzmkarlıqla qoşulan yeni nəsil formalaşdırmaq missiyasını həyata keçirmək deməkdir. Yəni həqiqi vətənpərvərin öz vətən qardaşlarının tale-

yinə biganə qalması, məmləkətinin gündən-günə tənəzzülə uğraması faktı ilə barışması, ölkədə elmsizliyin tüğyan etməsinə göz yumması mümkün deyil. Vətənpərvərliyin bu qədər geniş anlayış olması elmi ədəbiyyatlarda da təsdiqlənməkdədir. Professor N.Muxtarova yazır: "...Vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir və inkişaf edir. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, təhsil müəssisələrinin ən vacib vəzifələrindən olub. Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlık hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir." (113)

Təqdirəlayiq haldır ki, M.S.Ordubadi öz əsərlərində sadəcə vətən sevgisinin tərənnümü ilə kifayətlənməyib, böyük ədib eyni zamanda ayrı-ayrı əsərlərində vətənə xidmətin konkret modellərini də təqdim edib. Bu baxımdan yazıçının "İki çocuğun Avropaya səyahəti" əsəri Azərbaycan maarifçi realist ədəbiyya-

tının əvəzolunmaz örnəklərindən biridir. Əslində "İki çocuğun Avropaya səyahəti" əsəri ilə tanış olan hər bir oxucu bu qənaətə gəlir ki, Avropanın tərəqqi yolu ilə gündən-günə irəliləməsinin birinci səbəbi avropalıların vətən sevgisidir. Məhz vətənə olan sonsuz məhəbbətləri onunla nəticələnmişdir ki, almanları düşündürən və fikrən məşğul edən ümdə məsələ vətənin taleyidir. Eyni sevgi ilə yaşayan Brüssel əhalisi dünanın hər tərəfinə yayılaraq özgə dövlətlərin var-dövlətini öz ölkələrinə daşımaqdadırlar. M.S.Ordubadi bu fikirdədir ki, Fransanı inkişaf və tərəqqi yolunda irəlilədən qüvvə də fransızların vətən sevgisidir. Digər tərəfdən öz ömürlərini ölkələrinin səadətinə həsr edən vətəndaşların xidmətləri də yüksək qimətləndirilməkdədir. Yazıçı "İki çocuğun Avropaya səyahəti" əsərində məxsusi vurğulayır ki, Fransada bütün həyatlarını vətənə xidmətdə keçirənlər ölməzlik qazanır, xalqın yaddaşında ən ali insanlara çevrilirlər: "Parijdə fransızların ən mühüm, ən əvvəlinci istədikləri "Panteon" deilən məqbəri-məşahirdir. Panteon böyük və cəsim (əzəmətli) bir binadır ki, bura əvvəllər məbədgah olub. Fransanın "İxtilali-Kəbir" zamanında buranı məbədlikdən çıxarıb, vətənə, millətə ən böyük xidmət edən məşahir üçün məqbər ittixaz edilmişdir. Və üzərinə: "Böyük adamlara vətən minnətdardır" yazıldığı İsfəndiyar xan tərəfindən oxundu. Burada gördüyümüz tabut və əşyaların tərifini yazsam, bir ay vaxt istər. Buraları seyr və tamaşa üçün bilet almaq lazım gəlir. Burada dəfn olan zatların (şəxslərin) cümləsindən mərmər tabutlarda Viktor Hüqo, Jan Jak Russo, Volter, Maramirbu, Laqranj kimi böyük kimsələrdir". ( 101, s. 301-302)

Əlbəttə ki, M.S.Ordubadi əsərlərində avropalıların vətənsevərliyi ilə müqayisədə həmvətənlərinin dünya işlərindən əl çəkmələrindən, özlərini həqiqi dindar adlandıranların zülmə rəvac vermələrindən, başqalarının bədbəxtliyi üzərində öz xoşbəxtliyini quranlardan daima nifrətlə söz açmışdır. Yazıçı təkcə satirik şeirlərində, yaxud felyetonlarında deyil, müxtəlif mövzularda qələmə aldığı məqalələrində də vətənpərvərlik məsələlərini nəzər nöqtəsinə çəkmişdir. Faktdır ki, M.S.Ordubadinin "Əski və yeni şeir məktəbləri", "İncəsənət və müharibə", "Azərbaycan xalqının qəhrəmanlıq keçmişindən – Camal", "Böyük dövlət adamları", "Vaqif bir dövlət adamı kimi" məqalələrinə məhz vətənpərvərlik ruhu, bütün ömürlərini doğma məmləkətin azadlığına, istiqlaliyyətinə həsr etmiş insanlara böyük ehtiram hissi hakimdir. Prinsip etibarilə hətta Azərbaycanın Moskva tərəfindən idarə olunduğu, ölkədə bolşevizmin məhvedici və hakim qüvvəyə çevrildiyi və yeni ideoloji sistem daxilində xalqı milli-mənəvi dəyərlərdən uzaqlaşdırmaq istiqamətində əsaslı işlər aparılarkən də qüdrətli yazıçı Azərbaycançılıq təliminə uyğun surətdə öz əsərləri ilə vətənsevərlik ideyalarını tərənnüm etmişdir. Budur, "Vaqif bir dövlət adamı kimi" məqaləsinə bütün varlığı ilə xalqın azadlığı idealına bağlı olan XVIII əsr şairinin fəaliyyəti məhz vətənpərvərlik mövqeyindən belə dəyərləndirilmişdir: "Vaqifi tənqid edənlər, onun xalq arasındakı nüfuzunu düşürmək istəyənlər onun Rusiya ilə dostluq əlaqəsi düzəltməsini Qarabağ xanlığına qarşı siyasi bir xəyanət hesab edirdilər. Lakin məsələ büsbütün bunun əleyhinə idi. Vaqif Cənub və Şimaldakı siyasi vəziyyəti nəzərə alaraq Qarabağ xanlığının müs-

təqilliyini istər cənubdan və istərsə şimaldan axıb gələn işğalçılara qarşı necə müdafiə etmək məsələsi ətrafında düşünürdü. Qarabağ ayaqlar altında qalmasın deyə Vaqif Rusiya ilə dostluq əlaqəsi yaratmağa çalışırdı. Vaqif İran işğalçılarına nifrət etdiyi kimi, rus işğalçılarına da nifrət edirdi. Lakin, bununla bərabər, Vaqif eyni zamanda hər iki düşmənin qüvvətli olduğunu da bilirdi. Azərbaycanda vahid, qüvvətli bir dövlətin olmaması Vaqifin əl-qolunu bağlayırdı". (99, s. 383)

Xatırladaq ki, "Vaqif bir dövlət adamı kimi" məqaləsi 1943-cü ildə "Ədəbiyyat qəzeti"ndə çap olunmuşdur. Başqa sözlə, M.S.Ordubadi hətta Azərbaycanda vətənpərvər ziyalıların "üçlüklər"in hökmü ilə güllələndiyi, ömürlərini sürgünlərdə başa vurduğu illərdə də doğma məmləkətinin şanlı tarixindən söz açmaqla Rusiya işğalı ilə barışmadığını bir daha ifadə etmiş, müasiri olduğu qələm sahiblərini Azərbaycanı, vətənsevərliyi tərənnüm edən əsərlər yazmağa səsləmişdir.

## 3.3. Məmməd Səid Ordubadi və ana dili

Azərbaycan maarifçilərinin yaradıcılığında ana dilinin saflığı, bu dilin yad təsirlərdən qorunması, ana dilli məktəblərinin yaranması, ana dilinin tədrisi kimi məsələlərin mühüm yer tutması izlənilməkdədir və bu, tamamilə təbii hal idi. Çünki maarifpərvər ziyalılar cəmiyyətin inkişafını zəka kultunun qələbəsində, yəni dünyəvi elmlərin insanlara çatdırılması yolu ilə ictimai-milli təfəkkürün yüksəldilməsində görürdülər. Ömürlərini doğma xalqının maariflənməsi işinə, həmvətənlərin elmsizlikdən, cəhalət-

dən xilasına həsr edən bu fədakar zəka sahibləri qəti şəkildə bu fikirdə idilər ki, dünyəvi elmlər xalqa doğma ana dilində çatdırılmadan, məhz bu yolla ağlın qələbəsinə nail olmadan cəmiyyəti təhkimçilik buxovlarından, ictimai zülmdən, mənəvi və fiziki köləlikdən, cəhalət zindanından xilas etmək mümkün deyildir.

Əlbəttə, XX əsrin əvvəllərində ana dilinin saflığı uğrunda mübarizənin önündə mollanəsrəddinçilər getmişlər. Cəlil Məmmədquluzadə və onun mübariz məslək dostları doğma dili yad kəlmələrlə korlayan qələm sahiblərini daim tənqid atəşinə tutmuşlar. Eyni mübarizədə M.S.Ordubadi də yeri gəldikcə öz sözünü demiş, göstərmişdir ki, ana dilini bilməyən ziyalıların xalqına xeyir verməsi inanılası deyil. Maarifpərvər yazıçı ilk əvvəl ictimai diqqəti dövlət tərəfindən açılmış məktəblərdə ana dilinin tədris olunmaması faktına yönəltmiş, göstərmək istəmişdir ki, yeni nəsil ziyalıların doğma dildə təhsil almamaları prinsipcə ruslaşdırma siyasəti ilə bağlıdır. Bu mənada "Molla Nəsrəddin" jurnalının 27 oktyabr 1906-cı il tarixli sayında çap olunmuş "Millətpərvər intelligent" başlıqlı miniatür felyeton ibrətamiz bir səhnənin canlandırılması ilə maraq doğurur. Felyetonda özünü xalqına bağlı bir ziyalı kimi tanıdan şəxsin ana dilində təhsildən kənarda qalması təsvir olunsa da, yazıçı bu vəziyyətin kütləviləşməsinə qarşı çıxaraq yazır: "Qiraətxanada oturmuşdum, onda gördüm, poçtdan qəzetləri gətirdilər. Hər çinovnik, hər rəiyyət bir ruz qəzeti götürüb oxumağa başladılar. Bizim yanımızda bir abrazovannı müsəlman cavanı ilə bir Tamara adlı məhbus qız oturmuşdu. Haman qeyrətmənd müsəlman cavana dedim: Ağazadə, siz nə üçün qəzet oxumursunuz? Buyurdu, rus qəzetlərindən boş yoxdur. Dedim, eyib

deyil, götür "İrşad", "Vəqt", "Vətən xadimi" və qeyri... qəzetlərdən oxu! Buyurdu, bu qəzetləri mən çürük qəpiyə almaram. Dedim, nə üçün? Bu sözə güldü və dedi: - Ay Hərdəmxəyal! Sən necə fitbaz adamsan. Bax, əvvəl budur ki, müsəlman qəzeti oxuyan adamı ruslar dost tutmurlar. İkinci, müsəlman qəzetləri heç bir şey yazmırlar: hey yazırlar, müsəlman belə gəldi, tərəqqi elə getdi. Doğrusu, adamın zəhləsi gedir!..

Mən bir qədər fikir elədim, sonra əyildim cavana tərəf və qulağına dedim: - Mən ölüm, lotuyana de görüm, niyə müsəlman qəzeti oxumursan? Cavan mənə tərəf çönüb qulağıma yavaşcxa pıçıldadı: - Sən ölləsən, müsəlmanca savadım yoxdur". (88, s. 255)

M.S.Ordubadinin "Ana dili" adlı balaca felyetonunda ("Molla Nəsrəddin", 27 yanvar 1907, № 4) üç surət qələmə alınmışdır. Bunlardan biri universitet təhsilini başa vuraraq vətəninə qayıdan gənc, digəri şəhərin qazisi Axund Molla Səbzəli, üçüncüsü isə Anadır. Axund Molla Səbzəli ilə universitet təhsili alaraq vətəninə dönmüş gəncin görüşü əsl faciədir. Çünki axundun nitqi ərəb və fars sözlərindən ibarət olduğu kimi, gəncin də istifadə etdiyi kəlmələr rus dilinə məxsusdur. Beləliklə, bir xalqın iki övladı qeyri-milli məktəblərdə təhsil aldıqlarından bir-birlərini başa düşməkdə acizdirlər. Daha doğrusu, axundun işlətdiyi cümlə "əhval", "şərif", "ənasir", "lətif", "əxəvizadə", "müddət", "müntəzir", "vücud", "zicud", "müştaq", "didar", "məcazi", "mübarək" sözlərindən düzəlmişdir. Bu sözlərin mənasını başa düşməyən universitet məzunu görüşün sonundan belə bəhs edir: "Mən bir şey başa düşməyib dedim: Da.

Cənab qazi bir qədər baxdı mənim üzümə və genə başladı: Əxəvizadə, təhsili-fünununuzu əncama yetiribsiniz, ya dübarə

təkmili-nöqsan üçün darülelmə övdət etməlisiniz?

Mən genə bir şey başa düşməyib dedim ki, cənab axund, yaxşı panimat eləmirəm ki, nə ərz edirsiniz.

Axund soruşdu: necə?

Mən dedim: çto?" (88, s.355)

Faciənin daha kədərli məqamı ondan ibarətdir ki, bir-birlərini başa düşmədən ayrılmaları nə Axund Molla Səbzəlini, nə də universitet məzununu narahat etmir. Əksinə, onlar özlərinin elmli olduqlarını təsdiqləməkdən ötrü nitqlərinə yenə də alınma sözlər əlavə etməyə hazırdırlar. Bu vəziyyətin qeyri-normallığı təhsil görməyən ananı daha çox düşündürür. Ana narahatdır ki, doğma dil bu qədər unudulmuş, yaddan çıxarılmışdır. Budur, axund ilə rus təhsili almış gənc arasındakı danışığın sonu: "Söhbətimiz elə bu cür qurtardı və axund başmaqlarını geyib çıxıb getdi. Anam girdi içəri və mənə dedi: – Balam, mollaynan nə dil danışırdınız ki, mən heç başa düşmədim?

Dedim: – Ana, mollaynan biz ana dili danışırdıq. Anam başını saldı aşağı və bir qədər fikrə gedib dedi: "Yazıq ana dili." (88, s. 355 )

M.S.Ordubadi bu fikirdə olmuşdur ki, hər bir xalq öz doğma dilinə sonsuz məhəbbət bəsləməli, bunun üçün yeni nəsillərdə ana dilinə sevgi hissi aşılamalıdır. Bu ideya ədibin bir çox əsərlərində, o cümlədən "İki çocuğun Avropaya səyahəti" səyahətnamə-povestində aydın şəkildə qələmə alınmışdır. Daha doğrusu, müəllif alman xalqından bəhs edərkən almanların öz doğma dillərinə sonsuz sevgisindən də ayrıca söz açmışdır. Yazıçı öz oxucusuna belə bir ideya təlqin etmişdir ki, insanın ən

üstün mənəvi keyfiyyətlərindən biri də doğma dilə bağlılığıdır. Əlbəttə ki, doğma dilə sevgi özgə dillərə nifrət demək deyildir. Avropanın ən mədəni xalqlarından sayılan almanlar başqa xalqlara məxsus məşhur əsərləri alman dilinə tərcümə ertməklə öz dünyabaxışlarını zənginləşdirməkdədirlər. Lakin bu, onların ana dilinə sevgisinə zərrə qədər də təsir göstərmir. Əslində M.S.Ordubadi "İki çocuğun Avropaya səyahəti" əsərində almanların doğma dillərinə məhəbbətini qələmə almaqla öz həmvətənlərinin də eyni hisslərlə yaşamalarını arzulamışdır: "Yevropalıların, xüsusən almanların böyük bir diqqətini mövcib olacaq yerləri, məşğul olacaq mövqeləri varsa, o da mehmanxanalardır. Almanların milli qeyrət tərəfdarı və vətəndust (vətənpərvər) olmaları buradan qiyas edilsin ki, almanların öz lisanlarından başqa sair dil ilə danışmağa əsla rəğbətləri yoxdur...

"Berlin cəmiyyəti" ayrı bir heyət milli dillərinin ədəbi tərəqqisinə (inkişafına) xidmət üçün mühüm bir vəzifə ilə müvəzzər olurlar." (101, s. 280-288)

M.S.Ordubadinin fikrincə, Avropa xalqları həm də ona görə hörmətə layiqdirlər ki, doğma ana dillərinə hədsiz sevgi bəsləməkdədirlər. Yazıçı "İki çocuğun Avropaya səyahəti" əsərində fransızların öz ana dillərinə xüsusi həssaslıqla yanaşmalarını ehtiramla qələmə almışdır. Bu səyahətnamə-povest ilə müəllif sanki üzünü ana dilinə biganə münasibət bəsləyən həmvətənlərinə tutmuş, onları fransızlardan ibrət almağa səsləmişdir: "Müxtəsər, söylənməlidir ki, bugünkü gündə bir dil, bir kitab yoxdur ki, Parijdə uşaqlara təlim və tədris edilməsin. Beş qitənin şəhərləri deyil, 6-7 evli kəndində də bir nafe (lazımlı)

kitab yazılmışdırsa da, fransızlar onu əldə etməkdə, tərcümə edib övladlarına verməkdədirlər...

Fransa camaatı dillərinə elə asanlıq vermişlər ki, hər yerə gedilsə orada firəng dili söyləməkdə bir çox adamlar görmək olar". (101, s. 297-299)

"Molla Nəsrəddin" jurnalının 27 oktyabr 1908-ci il tarixli 43-cü sayında çap olunmuş "Çox lazımdır" felyetonunda müəllifi düşündürən əsas məsələ bir çox mətbuat orqanlarında mövhumat və cəhalətin daha da güclənməsinə xidmət edən yazıların geniş yer tutmasıdır. Digər tərəfdən, M.S.Ordubadi din nümayəndələrinin öz məqalələrini ərəb dilində yazmalarına da etirazını bildirmişdir. Əslində XX əsrin əvvəllərində bəzi qələm sahibləri guya müsəlmanların birliyinə çalışır, bu səbəbdən din qardaşlarının məhz ərəb dili vasitəsilə birləşəcəkləri arzusu ilə yaşayırdılar. Beləliklə, "Çox lazımdır" felyetonu həm mövhumat və xurafat yayanlara, həm də ana dilini ərəb-fars sözləri ilə korlayanlara qarşı mübarizə aparan yazıçının növbəti etirazlarından biri olaraq qələmə alınmışdır. M.S.Ordubadi Rusiyada yaşayan və ruslaşdırma siyasəti nəticəsində bir-birlərini anlamayan türk-müsəlmanların ərəb dili ətrafında birləşəcəkləri ideyası ilə özlərini və xalqı aldadanları beləcə gülüş hədəfinə çevirmişdir: "Mən hələlik bu qisim qələm sahiblərimizə və xüsusən Hafiz Məhəmmədəmin Şeyxzadə cənablarına belə məsləhət görürəm ki, məsciddə söylədikləri moizəni əgər çap etdirmək istəsələr, genə çarəsizlikdən haman "Məlumat" məcmuəsinə göndərsinlər və heç kəs ehtiyat eləməsin ki, bəlkə Rusiya tatarları bizim dilimizi yaxşı başa düşmədilər. Çünki Şeyxzadə cənablarının və bütün Qafqaz

yazıçılarımızın yazdıqları ərəb dilindədir və məlumdur ki, yer üzündə olan cəmi müsəlmanlar ərəb dilinə aşnadırlar.

Doğrudan, məhz indi mən duyuram ki, bunlar niyə ərəbcə yazırlar. Ondan ötrü yazırlar ki, üç yüz milyon müsəlmanın hamısı oxusun və burada ittihadi-müslimin mülahizəsi də var, yəni "dil birliyi". Doğrudan, nə "zalım"dırlar. Mən heç bunu bilmirdim.

Hələ mətləbdən uzaq düşmüyək.

Bəli, elə sözüm buru ki, ərz elədim." (89, s. 344)

M.S.Ordubadi ana dilinin korlnmasına təsir göstərən amillər haqqında da düşünmüş, bu qərara gəlmişdir ki, müstəmləkəçilik şəraitində azərbaycanlılar çorək pulu qazanmaq məqsədilə Rusiya şəhərlərinə üz tutur, orada məskunlaşırlar ki, bu da ruslaşdırma siyasətinin daha asanlıqla həyata keçirilməsini şərtləndirir. Düşdükləri yeni mühitdə azərbaycanlılar məcburən hətta məişət dilində rus dilinə məxsus sözlərdən artıqlaması ilə istifadə edir, adlarının, övladlarının ruslaşdırılmasına bilərəkdən və könüllükük əsasında göz yumurlar. Görkəmli maarifpərvər "Var" rədifli felyetonunda məhz Rusiya şəhərlərində yaşayaraq azərbaycançılığı unudan, doğma dil haqqında fikirləşməyən azərbaycanlıların tipik surətini yaratmışdır. "Babayi-Əmir" jurnalının 3 iyun 1915-ci il tarixli 7-ci sayında çap olunmuş felyetonda azərbaycançılıqdan uzaqlaşmış vətən övladının həyat fəlsəfəsi belə qələmə alınmışdır:

Pul yoxsa nə qəm, işvəli Polyalarımız var,
Seyrət yox isə, seyri-tamaşalarımız var...
Adı Maşadi, məzhəbi islam, özü şiə,
Evladı Simon, övrəti-Lizalarımız var.

Bəh-bəh, nə gözəl din, nə gözəl məzhəbi-ayin,
Hər qövmlə layiqcə müdaralarımız var
Bir yanda ikon taxçada, bir səmtdə təsbeh,
Bir evdə ikiyanlı müsəllalarımız var. ( 87, s. 234)

M.S.Ordubadi bir qayda olaraq əsərlərində xalqın taleyüklü problemlərindən söz açmış və bu səbəbdən onun əsərləri çap olunduğu andan ədəbi ictimaiyyətin diqqətini səfərbər etmişdir. Yazıçının belə əsərlərindən biri də "Dil birliyi" adlı felyetonudur. Bu felyetonun ədəbi gəncliyə təsirini Cəfər Cabbarlı xüsusi səmimiyyətlə vurğulamışdır. Daha doğrusu, M.S.Ordubadinin "C.Cabbarlı" məqaləsindən oxuyuruq: "Mən 1914-cü ildən başlayaraq 18-ci ilə qədər Saritsın şəhərində sürgündə yaşadığım zaman rəssam Əzimzadənin yazdığı dostanə bir məktubun vasitəsi ilə gənc Cəfər ilə tanış oldum. O Əzimzadənin məktubunun haşiyəsində yazırdı: "Möhtərəm Səid! Bu gün "Tuti" məcmuəsi idarəsinə getmişdim. Orada möhtərəm rəssamımız Əzimzadəni gördüm. O sənə məktub yazırdı. Mən də haşiyəsində bir neçə cümlə yazmağa cəsarət elədim. Mən məcmuədə yazdığınız felyetonları sevə-sevə oxuyuram. Xüsusən öz xalqına yuxarıdan baxan ziyalıların üstünə gülərək yazdığınınz:

"Əlminnətülillah, bizim oğlan radikaldır,
Başdan aşağı fikridir, hər yan idealdır", –

mətləli felyetonunuz çox xoşuma gəldi. Sizin "Əndəlisin son günləri" sərlövhəli teatr əsərinizi oxuduğum zaman ağlamışdım, çünki mən özüm də bu temalar ilə maraqlanıram". (99, s. 291-292)

"Dil birliyi" felyetonu ciddi bir səbəb əsasında qələmə alınmışdır. Məsələ ondadır ki, XX əsrin əvvəllərində Rusiyada yaşayan türk-müsəlman xalqlarının ziyalıları bu xalqlar üçün ortaq ədəbi dilin yaradılması məqsədilə səylər göstərmişlər. Ortaq ədəbi dil məsələsində ziyalılar arasında kəskin fikir ayrılıqları olmuş, bu yeni yaradılacaq ədəbi dildə türk xalqlarından hansına məxsus dilin ağırlıq təşkil etməsi dəqiqləşdirilərkən söz sahibləri əsasən subyektiv mövqe nümayiş etdirmişlər. Müzakirələr zamanı xalqdan uzaq düşmüş bəzi oxumuşlar doğma Azərbaycan dilini bəyənmədən üstünlüyün digər dillərdə olduğunu bildirmiş, bir daha doğma dildən, eləcə də xalq ruhundan uzaq düşdüklərini təsdiqləmişlər. Bu təfəkkürün daşıyıcıları radikallar kimi tanınmışlar. "Azərbaycan dilinin izahlı lüğəti"ndə şəxsin müəyyən partiyada təmsil olunmasını bildirən "radikal" sözünün mənasına belə aydınlıq gətirilmişdir: "Radikal 2 (lat. radicalis). 1. Radikallar partiyasının (sol burjua siyasi partiyalardan biri) üzvü, yaxud onun tərəfdarı olan şəxs (bu partiyanın proqramında burjua dövləti çərçivəsində və onun mənafeyinə uyğun olaraq demokratik islahatlar irəli sürülür). 2. İfrat siyasi görüşlər, qəti hərəkət və tədbirlər tərəfdarı." (14, s. 525)

Azərbaycan radikallarının ən böyük nöqsanı dil probleminə münasibətlərində olmuş, bu isə qabaqcıl dünyagörüşlü ziyalıların haqlı tənqidi ilə nəticələnmişdir. M.S.Ordubadi də "Dil birliyi" felyetonunda doğma dili aşağılayan, ana dilində danışmağı özlərinə ar bilən, digər dillərlə müqayisədə Azərbaycan dilinin kobud olmasını bildirən, bu dilin elmi və ədəbi əsərlər üçün yaramadığı fikrinə tərəfdar çıxanların gülünc surətini yaratmışdır:

Nöqsanını hazırkı dilin qandı cəmaət,
Dərk etdilə, yox türk lisanında fəsahət,
Arif də bilir, yoxdu bizim dildə ləyaqət,
Dama harada olsa, dil ol səmtə miyaldır,
Əlminnətülillah, bizim oğlan radikaldır.

Ən doğrusu, birövnəqi-mənadı bizim dil,
Yox zərrə əhəmiyyəti, rüsvadı bizim dil,
Qanmaz onu kimsə, müəmmadı bizim dil,
Millətdə lisan məsələsi boşca xəyaldır,
Əlminnətülillah, bizim oğlan radikaldır. ( 87, s. 245)

Bütün varlığı ilə maarifçilik hərəkatına bağlı olan M.S.Ordubadi inqilabdan sonra da dil probleminin həllini vacib saymış, "Dil bəlası" məqaləsi ilə Azərbaycan dilinə dair o zaman mətbuatda, eləcə də türkoloji qurultayda aparılan müzakirələrə münasibətini bildirmişdir. Düşünürük ki, "Dil bəlası" məqaləsi müəyyən mənada həm də "Molla Nəsrəddin" jurnalını qorumaq məqsədilə yazılmışdır. Qulam Məmmədlinin "Molla Nəsrəddin" salnaməsindən oxuyuruq: "5 mart (1926-cı il – R.Ə.). "Yeni yol" qəzeti türkoloji qurultayının axşam iclasında çıxış edən H.Terequlovun çıxışından misal gətirib yazır: "...Bakıda çıxan "Kommunist" qəzeti ilə "Molla Nəsrəddin" jurnalını alın. Bunlar xalq ziyalılarına eyni dərəcədə anlaşılmır. Azərbaycan işçi-kəndli kütləsinə "Molla Nəsrəddin" "Kommunist"dən daha yaxşı anlaşılır." (77, s. 437)

Bolşevizmin iç üzünə daha yaxından bələd olan M.S.Ordubadi "Molla Nəsrəddin"lə "Kommunist"in müqayisəsində üstünlüyün birinciyə verilməsinin nə kimi fəsadlarla nəticələnəcəyini də

bilməmiş deyildi. Bu cəhəti nəzərə alan yazıçı "Dil bəlası" məqaləsini çap etdirməklə, demək olar ki, qarşıdurmanı bir qədər söngitmək istəmişdir. Bununla belə, kommunistçilər "Molla Nəsrəddin"i məhv etmək istiqamətində artıq sistemli işə balamışlar. Məsələn, təxminən bir il sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi üzvlüyünə namizəd seçilən Mirzə Cəlilin adı və soyadı "Kommunist" qəzetinin 27 mart 1927-ci il tarixli sayında "Cəlil Məmmədzadə" kimi yazılmışdır. Yaxud eyni mətbuat orqanının 23 noyabr 1927-ci il tarixli sayında Məmməd Zəki adlı müəllif "Ədəbiyyat dərsləri" məqaləsində "Quzu" hekayəsinin dil baxımından bərbad şəkildə qələmə alındığını göstərmişdir və s.

"Yeni yol" qəzetinin 11 mart 1926-cı il tarixli 60-cı sayında dərc olunmuş "Dil bəlası" məqaləsi prinsipcə tənqiddən ibarətdir. Məqalənin əvvəlində göstərilir ki, müəllif Azərbaycan dilinin inkişafı ilə bağlı ölkədə bir o qədər də irəliləyişlərin olmamasından narahatdır. Beləliklə, yazıçı bu sahədəki müvəffəqiyyətsizliklərin səbəbini axtarır, Azərbaycanda dil məsələlərini nizama salacaq təşkilatın yoxluğunu qeyd edərək yazır: "Mətbuat və yazılarımızda mövcud olan bəla yeni deyildir. Bu kimi bir çətinlik çoxdan bəri hiss edilsə də, onun rəf olunması üçün qəti qədəm atılmamışdır. Bu qədəm beş ildən bəri Azərbaycanda atılmış, dilimizdəki çətinlikləri ləğv etmək işlərinə başlanılmış isə də bu yolda qazanılan müvəffəqiyyət başqa cəbhələrdəki müvəffəqiyyətlərə nisbətən o qədər də gözə çarpacaq deyildir. Bu müvəffəqiyyətsizliyin başlıca səbəbi dil məsələlərindəki işlərin təşkilatsızlığıdır." (99, s. 334)

Doğrudur, məqalədə müəllif vurğulayır ki, Azərbaycanda dilin saflığı uğrunda mübarizə əsasən mətbuat vasitəsilə aparıl-

mışdır. Lakin M.S.Ordubadinin fikrincə, bu sahədə mətbuatın istinad edəcəyi vahid prinsiplər olmadığı üçün bütün məsuliyyəti qəzetlərin üstünə atmaq doğru deyil. Yazıçı qəti şəkildə bildirir ki, dil məsələləri ilə məşğul olacaq elmi təşkilat yaradılmalı, həmin təşkilatın çıxardığı qərarlara hər bir mətbu orqan, eləcə də hər bir qələm sahibi əməl etməlidir.

Maraqlıdır ki, M.S.Ordubadi dil məsələsində, bəlkə də, mətbu orqanları məsuliyyətdən uzaqlaşdırmaq üçün cəmiyyətdə cavadsızlığın aradan qaldırılması problemini, yəni savadlı oxucu problemini də gündəmə gətirmişdir. Bu fikrin təsdiqi üçün "Dil bəlası" məqaləsindən aşağıdakı cümlələrə diqqət yetirmək kifayətdir: "Hazırda hər kəs qəzetənin dilinin çətinliyindən şikayət edir. Burası doğrudur. Qəzetələrin dilində çətinlik yox deyildir. Lakin bir dəfə orasını düşünməlidir ki, bu çətinliyin ikinci tərəfi də vardır. O da qəzetə oxucularından bir çoxunun savadsızlığıdır.

Bizcə, bu son ağırlığı, bu son qüsuru da qəzetə və mətbuatın üzərinə qoymaq doğru deyildir. Zira bizim asanlıq vücuda gətirmək təşəbbüsümüz mütəqabil bir surətdə irəliləməlidir. Nə qədər qəzetlərin dili yüngülləşdirilir, bir o qədər də qəzetə oxucularının savadlanması işləri irəli aparılmalıdır. Əksinə olaraq, qəzetəni xalq danışan dildən də xaricə çıxarmaq, onun tərbiyəverici xasiyyətini itirmək deməkdir. Bununla bərabər, qəzetə idarələri dili yüngülləşdirmək işlərindən boyun qaçırmırlar". (99, s. 334)

"Dil bəlası" məqaləsi deməyə əsas verir ki, artıq 1926-cı ildə M.S.Ordubadinin dillə bağlı konkret konsepsiyası olmuşdur. Bütün ömrü boyu ana dilinin saflığı haqqında düşünən yazıçı

artıq müasir dövrdə orijinal əsər yazanların azaldığını, daha çox tərcümə yaradıcılığına üstünlük verildiyini də xatırlatmış, təklif etmişdir ki, mətbuatda dil xətalarını aradan qaldırmaqdan ötrü lüğətlər hazırlanmalı, dil daşıyıcıları vahid qaydalara əməl etməlidirlər. Bu məqamda yazıçı hazırda qələm sahiblərinin faydalandığı Şəmsəddin Sami lüğətinin qüsurlarından da söz açmış, bu lüğətdən istifadə etməklə Azərbaycan ədəbi dilinə gətiriləcək nöqsanların nəzər nöqtəsinə çəkilməsini də gərəkli saymışdır: “Qəzetə işçiləri, kitab mütərcimləri hər bir kəlmənin mənasını tapmaq üçün bir qamusa möhtacdır. Əcaba, dil çətinliyi üzərində qəzetə və mətbuatdan şikayətdə bulunanlar yeni düzəlmiş bir qamusun yerini göstərə bilərlərmi? Şübhəsiz, bunu göstərən olmaz. Zira onu indiyə qədər düzəldən olmamışdır.

Buna görə də qəzetə işçiləri Şəmsəddin Sami bəyin qamusuna müraciət etməli olurlar. İş belə olduqda Şəmsəddin Sami qamusunun düzəldiyi mühiti və onun dilinin vəziyyətini nəzərə almalıdır. O kimi qamuslar bizim içərisində boğulduğumuz İstambul türküsü, İstambul ədəbi şivəsi həyatına uyğun bir surətdə yazılmışdır.

Qəzetə işçilərimiz bir istilahı türkcəyə çevirmək üçün əvvəlcə Şəmsəddin Sami bəyə müraciət edir, sonra Şəmsəddin Sami bəydən aldığı istilaha dəxi xalqımızın anlayacağı qaydada bir qarşılıq tapmaq istər. Bu hal bizdə daha da bir dil və istilah qarşılığı yaratmaqdadır”. (99, s. 335)

Ümumiyyətlə, dil məsələsi M.S.Ordubadini daim məşğul etmişdir. Məsələ ondadır ki, XX əsrin əvvəllərinə qədər azərbaycançı ziyalılar əsasən ana dilimizin gərəksiz fars-ərəb söz-

lərindən təmizlənməsi uğrunda mübarizə aparırdılarsa, yeni yüzildə vəziyyət bir qədər də mürəkkəbləşmişdi. Daha doğrusu, indi qə oxumuşlar öz nitqlərində rus dilinə məxsus sözləri işlətməklə öyünürdülər. Hər iki halda zərər çəkən Azərbaycan xalqı və dili idi. O da var ki, XX əsrin 30-40-cı illərində artıq elmi, yaxud bədii-publisistik əsərlərimizdə rus dilindən alınma sözlərin işlədilməsinə qarşı çıxmaq da bolşevik təqibləri ilə nəticələnə bilərdi. Qüdrətli yazıçı ana dilinin saflığı uğrunda mübarizəsinin bir qədər başqa istiqamətdə aparmış, bəlkə də, diqqətdən yayınmaq üçün irihəcmli əsərləri daxilində yeri gəldikcə ana dili məsələlərindən söz açmış, bu yolla da müasiri olduğu şair və yazıçıları doğma dilə həssaslıqla yanaşmağa səsləmişdir. Budur, yazıçı "Qılınc və qələm" əsərində Əbül-Ülanın və Nizaminin dili ilə deyir: "Hər bir xalqın ruhunun ifadəsini ancaq onun öz dilində vermək olar. Ata və babalarımız: "Şairlər öz xalqının dilidir" sözlərini əbəs yerə deməmişlər. Xalqın içərisindən doğulan şairin hər bir şeiri öz xalqının iradəsini ifadə etməlidir. Şairin şeiri içərisində yaşadığı xalqın simasını göstərən bir güzgü olmalıdır.

...Şair həm şairdir, həm də öz xalqı danışan dilin müdafiəçisidir, dilin varlığını qoruyan əsgərdir". (98, s. 29)

M.S.Ordubadi qəti şəkildə bu fikirdə olmuşdur ki, ana dilinin saflığı uğrunda mübarizədə bütün qələm sahibləri eyni mövqedə dayanmalı, hər bir şair-yazıçı doğma dilin saflaşdırılması işinə öz töhfəsini verməlidir. Yazıçının qənaətincə, dil daima inkişafda olmalı, lakin bu inkişaf doğma dilə bütün varlığı ilə bağlı görkəmli şəxsiyyətlərin əsərləri vasitəsilə gerçəkləşdiril-

məlidir. M.S.Ordubadi dövrün yazıçılarından sadəcə yaradıcılıq proseslərinin qanunauyğunluqlarına deyil, həm də dilin inkişaf qanunauyğunluqlarında vaqif olmağı tələb etmişdir. Beləliklə, "Şeirimiz haqqında bir neçə söz" məqaləsində ("Ədəbiyyat qəzeti", 23 fevral və 9 mart 1946-cı il) yazıçı Azərbaycan şairlərini əsərlərində özünü göstərən dil hərcmərcliyinə, əsər müəlliflərinin ədəbi dil normaları ilə hesablaşmamalarına qarşı çıxmış, göstərmişdir ki, hər bir yeni nəsil yazarın ümdə vəzifələrindən biri də doğma dilin inkişafı naminə çalışmasıdır: "Sənətkarlarımız ədib və şairlərimiz bilməlidir ki, hər bir dilə, öz tarixinin hansı dövründə olursa-olsun, "ikmalə varmışdır" demək olmaz. Dil ümumi qayda üzrə həmən dili danışan xalqın inkişafı ilə bərabər inkişaf edir. Həyatımızda hakim olan inkişaf və tərəqqi qanunları dilimizin çərçivə arasına alınmasına zidd olduğu üçün dil get-gedə zənginləşməli və bədiiləşməlidir. Təəssüf olsun ki, şairlərimiz həyatımızın başqa sahələrində mövcud olan tərəqqi və inkişafın əleyhinə olaraq şeir dilimizə nəzəri cəlb edə biləcək yeni zənginliklər gətirmək işində az işləyirlər." (99, s. 346)

M.S.Ordubadi dil məsələsinə tamamilə kompleks yanaşmış, bu nəticəyə gəlmişdir ki, dil probleminin həllində xalq, ziyalı və dövlət eyni səviyyədə həmrəy və maraqlı olmalıdır. Əlbəttə, bu gün çox sevindirici haldır ki, M.S.Ordubadinin Azərbaycan dili haqqındakı arzuları suveren Azərbaycan Respublikasında tamamilə həyata keçirilmişdir.

## 3.4. Məmməd Səid Ordubadi əxlaq tərbiyəsi haqqında

Azərbaycan pedaqoji fikrinin görkəmli nümayəndələrini insan əxlaqı və onun təkmilləşdirilməsi problemi daim ciddi şəkildə düşündürmüşdür. Diqqət edilərsə, görərik ki, "əxlaq" anlayışı prinsipcə insanın bütün mən dünyasını etiva etməkdədir. Digər tərəfdən, əxlaq min illər boyu xalqın və cəmiyyətin insan və insanlığın tərəqqisi üçün müəyyənləşdirdiyi davranış normalarıdır. Təsadüfi deyildir ki, Şərqin, o cümlədən dünyanın böyük alimi Nəsirəddin Tusi insan mənəviyyatının təkmilləşdirilməsinə həsr edilmiş ən mükəmməl əsərini "Əxlaqi-Nasiri" adlandırmışdır. Nəfsdən, kamillik və naqislikdən, xeyir və səadətdən, xasiyyətdən, əxlaqın saflaşdırılmasından, ədalətdən bəhs edən bu əsərin insan mənəviyyatı ilə bağlılığını müəllif özü belə açıqlamışdır: "Bu kitabın məqsədi hikmətə aid məsələlərdən biri olduğundan ilk növbədə hikmətin mənasını şərh etmək, onun təsnifatlarını vermək lazımdır ki, qarşıya qoyulmuş məqsədi başa düşmək asanlaşsın. Mərifət sahibləri arasında hər şeyi olduğu kimi dərk etməyə, hər işi lazımi kimi yerinə yetirməyə hikmət deyilir; bunun nəticəsində insanın mənəviyyatı mümkün qədər təkmilləşməli, arzuedilən səviyyəyə yüksəlməlidir". ( 51, s. 35)

Əlbəttə, "hər işi lazımi kimi yerinə yetirmək" zamanı əsas meyar cəmiyyət üzvləri tərəfindən birmənalı olaraq qəbul edilmiş əxlaqi prinsiplərdir. Şübhəsiz ki, ictimai-siyasi, sosial-mənəvi həyatla bağlı hər bir amil insan əxlaqına təsir göstərməkdədir. İnsanlığın gələcəyinə hesasblanmış məqsədyönlü tərbiyənin bütün nəticələri həm də əxlaqi səviyyənin yüksəldilməsinə xidmət

deməkdir. A.Həsənov və Ə.Ağayevin "Pedaqogika" dərsliyində "əxlaq" anlayışına belə aydınlıq gətirilmişdir: "İnsanların əməyə, bir-birinə, ailəyə, cəmiyyətə, dövlətə olan münasibətlərini müəyyən edən və tarixən təşəkkül tapmış mənəvi və hüquqi davranış normalarına əxlaq deyilir." (42, s. 334) Eyni mənbədə insan əxlaqı müdiriklik, yaxşılıq etmək, ölməzliyi təmin edən ilahi vəsiyyətlərə bağlılıq, mükəmməl zövq, səadətin tərəfində durmaq, şərəfli yaşamaq, insanlıq borcu, özünüdərk, ədalətsizliklə mübarizə kimi yüksək mənəvi keyfiyyətlərlə əlaqələndirilir. Maraqlıdır ki, qeyd edilən dərslikdə Abbasqulu ağa Bakıxanovun nəsihətləri məhz əxlaqla əlaqələndirilmişdir:

Dünyagörüşü Şərq və Qərb müdriklərinin əsərləri əsasında formalaşan M.S.Ordubadi bir maarifçi ziyalı kimi öz yaradıcılığında əxlaq məsələlərinə geniş yer vermişdir. Maraqlıdır ki, yazıçının ədəbi-publisistik irsində bu problemin əsərdən-əsərə daha da dərinləşdirilməsi izlənilməkdədir. Doğrudur, ilk əsərlərində M.S.Ordubadi heç də gənc nəslə hansı yollarla yüksək əxlaqi keyfiyyətlərin aşılanmasından söz açmamışdır. Bununla belə, maarifpərvər yazıçı bu fikirdə olmuşdur ki, təlimin Mollla Şükrün falaqqası ilə həyata keçirildiyi məktəbdə, yəni pedaqoji prinsiplərdən uzaq, insanlığın yaddan çıxarıldığı bir "təhsil ocağında" əxlaqi keyfiyyətlərin yüksəldilməsindən söz açmaq qeyri-mümkündür. Böyük maarifçinin qənaətincə, gənc nəslə əxlaq tərbiyəsinin aşılanması üçün ilk növbədə münbit şərait olmalıdır. Başqa sözlə, M.S.Ordubadi əxlaq tərbiyəsinin birbaşa ictimai quruluşla əlaqəli olması mövqeyindən çıxış etmişdir. Maraqlıdır ki, eyni fikir çağdaş pedaqoji düşüncə tərəfindən də dəstəklənməkdədir. F.İbrahi-

mov və R.Hüseynzadənin "Pedaqogika" kitabıbda əxlaq və cəmiyyət məsələsinə belə aydınlıq gətirilmişdir: "Qeyd edək ki, ictimai quruluş, iqtisadi şərait dəyişdikcə əxlaq normaları da dəyişir, inkişaf edir, təkmilləşir və daha yüksək əhəmiyyət kəsb edir. Ona görə də əxlaq normalarını erkən yaşlardan uşaqlara aşılamaq lazımdır. Pedaqogika elmi sübut edir ki, uşaqlarda düzgün tərbiyə edilən əxlaqi keyfiyyətlər sonralar insan xarakterinin formalaşmasına təsir göstərir. Bu cəhətdən əxlaq tərbiyəsi ailədən başlayır və sonrakı dövrlərdə davam etdirilir". ( 53, s. 288)

M.S.Ordubadinin fikrincə, o cəmiyyətdə ki müəllim adlanan yalançı molla-alimləri yalnız özlərinin güzəranı düşündürür, o cəmiyyətdə ki fəqirlər daha da müflisləşməkdə, səfillik baş alıb-getməkdədir, o cəmiyətdə ki, xəstələr xəstəlikdən deyil, kədərdən dünyalarını dəyişirlər, o cəmiyyətdə artıq əxlaqa yer yoxdur və belə bir cəmiyyətdə gənclərin əxlaq tərbiyəsindən danışmaq romantikadan başqa bir şey deyil. Bu fikrilərin təsdiqi üçün yazıçının "Hərdəmxəyal" imzası ilə çap olunmuş "Elmi-hücum" əsərinə ("Molla Nəsrəddin", 30 iyun 1906, № 13) diqqət yetirmək kifayətdir: "Hükəmayi-İraniyyənin ülumi-nücumdan çıxardığı məlumatdan belə məlum olur ki, bu ayda bir para yarımmüəllimlərin xürrəm və xoşdil olması, mərsiyəxanlıq bazarının kasadı, əhli-kəsəbənin müsavi surətdə yaşaması, füqəranın müflis olması, saillərin bimərrə dağılması, viranələrin xərabə şəklinə düşməsi, bimarların pərişanlıq mərəzindən vəfar etməsi, bir para xəlayiqin içində sərmazədəlik, başağrısı bəzi şəhərlərdə zühur edəcək." (88, s. 119)

Fədai maarifçi ziyalı ömrü yaşayan M.S.Ordubadi də əxlaqi

dəyərlərin uca tutulduğu cəmiyyət arzusunda olmuş, əsərləri ilə məhz həmin cəmiyyətin gerçəyə çevrilməsi işinə xidmət göstərmişdir. Bununla belə, yazıçının yaşadığı və qələmə aldığı mühitdə tamamilə başqa vəziyyət hökm sürmüşdür. Bildiyimiz kimi, çağdaş pedaqogika elmi əxlaq tərbiyəsi vasitəsilə əməksevərlik, insanpərvərlik, həmrəylik, yoldaşlıq və dostluq, vətənpərvərlik, düzlük və doğruçuluq, halalıq, sadəlik və təvazökarlıq kimi keyfiyyətlərə malik şəxsiyyət formalaşdırmağı nəzərdə tutur (Bax: 58, s. 344-348). Professor İ.Əliyev xalq tərbiəsinin bütünlüklə insanda əxlaqi keyfiyətlərin formalaşdırılmasına hesablanması müddəasından çıxış edərək yazır: “Xalq tərbiyəsinin məzmunu əxlaqi keyfiyyətlərin formalaşdırılması ilə bağlıdır. Ən mühüm əxlaqi kefiyətlərin bəzilərinə nəzər salaq:

- vətənpərvərlik, yurdsevərlik;
- insanpərvərlik, humanizm;
- əməksevərlik, çalışqanlıq;
- dostluq və yoldaşlıq;
- düzlük və doğruçuluq və s.

Bu cür əxlaqi kefiyyətlərin sayı minlərlədir”. (27, s. 199) Təəssüf ki, M.S.Ordubadinin həmvətənləri həmrəylikdən və humanizmdən uzaq, əyriliklər mühitində, cadugərlərin hökmünə inanmaqla, özlərini real həyatdan ayırıb qayğısız yaşamaqla, ətalətə təslim vəziyyətində, bir sözlə, taledən və yalançı başbilənlərdən ümid gözləyə-gözləyə ömür sürməkdədirlər. Hər halda “Qəflət” əsərinin müəllifi razılaşa bilmir ki, yaşadığı cəmiyyətdə müsbət əxlaqi keyfiyyətlərin yerini mənfi xüsusiyyətlər tutmuşdur:

Ol qədr bu viranə evi etmədik islah,
Axırda yetişdi yədi-biganəyə miftah...
Əbnayi-müsəlman hərə bir güşədə qalmış,
Biçarə bu millət iki yüz səmtə bölünmüş...
Bir qismi olub səfhəyi-afaqda bibak,
Bir qisminə nemət yaranıb şirəyi-tiryak.
Bir qisminə rahatdı keçə dəhrdə hər cür,
Bir qisminə həmsöhbət olur həzrəti-vafur...
Bir qismi namaz qılmağa afaqda möhtac,
Söylər nə təriq ilədi keyfiyyəti-merac.
Çox yazma Səid, elədin xalqı pərişan,
Olmaz bu mərəzlər əbədən qabili-dərman.
(101, s. 318-319)

M.S.Ordubadinin öz əsərləri ilə ilk növbədə zülm dünyasının formalaşdırdığı əxlaq kodeksinə qarşı çıxdığını görürük. Yazıçının qənaətincə yeni nəslə ədalətli olmaq, düzlük, doğruçuluq, şərə qarşı mübarizə aparmaq kimi müsbət əxlaqi keyfiyyətlər hələ uşaq yaşlarından aşılanmalıdır və bu işdə əsas tərəflərdən biri valideynlərdir. Əlbəttə, çağdaş pedaqogika elmi də yeni nəsillərin yüksək əxlaqi kefiyətlərə malik olmasında ailənin rolunu məxsusi dəyərləndirməkdədir. Eyni məsələlərdən bəhs edən N.Abbasova yazır: “Ailədə uşaqların əxlaqi cəhətdən tərbiyə olunması onların əxlaqi kefiyyətlərinin formalaşmasına təsir göstərir. Ailədə uşaqların əxlaq tərbiyəsi onların əxlaqi keyfiyyət, davranış və rəftarının formalaşması ilə başlayır. Belə ki, uşaqlarda xeyir-şər, yaxşı-pis, ədalətli-ədalətsiz, vicdanlı-vicdan-

sız, vətənpərvərlik, həmrəylik, yoldaşlıq və dostluq, düzlük və doğruçuluq kimi əxlaqi keyfiyyətlərin formalaşması valideynin onlara verdiyi tərbiyədən asılıdır.” (1, s. 286 )

Müəllif həm də fərqindədir ki, mövcud cəmiyyətdə insanlar, bəlkə də, zülm dünyasının tələblərinə uyğun surətdə tamamilə başqa düşüncədə yaşayırlar. Bu səbəbdən uşaqlar əxlaq tərbiyəsinə zidd keyfiyyətlər qazanaraq böyüyürlər. “Balaca felyeton” əsəri də məhz əxlaq tərbiyəsi ilə bağlı köhnə təfəkkürlərə qarşı yazılmışdır. M.S.Ordubadi övladında tamamilə qeyri-əxlaqi sifətlər görmək istəyən valideyni öz sözləri ilə belə ifşa etmişdir: “Nuri-çeşmim! Yaxınfikirli olub bu gündən oturub sabah işini fikir eləmə...

Ədəbli fərzəndim!.. Məbada məndən sonra düşmənlərmiz səni yaman dil ilə aldadıb sənə qoyub getdiyim bikaraçılıq kimi neməti əlindən çıxaralar. Məndən sonra düşmənlərimiz səni elmə tərğib edəcəklər. Maarifli çocuğum! Olmaya qəbul edəsən. Vəsiyyətimin içində zikr edirəm: insan bir mələkdir, ya bir qitədir. Padşahı iki gözdür. Göz isə bir ləmeyi-nurdur. Bunların cümləsinin düşməni haman üstə dediyim elmdir. Gözəl bala, bir para adamlar deyəcəklər: sənət əxz elə! Məbada qulaq verəsən. Ömrün qayçısı bir də sənətdir...

Oğlum, sənə ümdə vəsiyyətim bir də dövlətli kimsələrin şən və hörmətinin rəayətidir, məbada dünya cifəsindən ötrü onları özündən rəncidə edəsən...” (88, s. 142-143)

L.Qasımova və R.Mahmudovanın “Pedaqogika” kitabında əxlaq ictimai şüur forması olaraq dəyərləndirilmiş, göstərilmişdir ki, insanlar bir-birlərinə, cəmiyyətə, xalqa münasibətdə

məhz əxlaqi prinsiplərə istinad etməlidirlər. Eyni mənbədə çox yığcam şəkildə əxlaqın yaranma tarixi də aydınlaşdırılmış, türk xalqlarında əxlaqi dəyərlərə xüsusi önəm verilməsi məxsusi vurğulanmıdır: "Əxlaqilik xalqların tarixən formalaşmış mentalitetinin əss ünsürlərindəndir. Elə xalqlar var ki, əzəldən təbiətən əxlaqiliyin daşıyıcılarıdır. Belə xalqlardan biri, özü də birincisi türklərdir. Türkçülüyün ideoloqu Ziya Göyalp özünün "Türkçülüyün əsasları" kitabında yazmışdır: "Böyük millətlərdən hər biri mədəniyyətin xüsusi sahəsində birinciliyə çatmışlar. Əski yunanlar estetikada, romalılar hüquqda, israillərlə ərəblər dində, fransızlar ədəbiyyatda, anqlosakslar iqtisadda, almanlar musiqi ilə metafizikada (fəlsəfədə) türklər isə əxlaqda birinciliyi qazanmışlar. Türk tarixi başdan-başa əxlaq üstünlüklərin sərgisidir." (63, s. 416)

M.S.Ordubadi təəssüflənir ki, elmsizlik, təhsilə biganəlik, zülmlə barışıq səbəbindən türk-müsəlman dünyasında yüksək əxlaqi prinsiplərə artıq yer yoxdur. Yazıçının fikrincə, əxlaq qaydaları və normaları cəmiyət tərəfindən könüllülük əsasında formalaşdırıldığı və qəbul edildiyi üçün cəmiyyət özü həmin qayda və normaların gözlənilməsində maraqlı olmalı, bu məsələdə mübariz mövqe nümayış etdirməlidir. Böyük maarifçi həm də nəzərə almışdır ki, müsbət əxlaqi dəyərlərin gözlənilməsi ictimai quruluşun necəliyindən, cəmiyyətin hansı prinsiplərlə idarə olunmasından, hakimiyyəti idarə edənlərin intellektual səviyyəsindən əsaslı dərəcədə asılıdır. Əlbəttə, əxlaq tərbiyəsi və mühit məsələsi bugünkü pedaqogikanı da düşündürməkdədir. N.Kazımovun "Məktəb pedagikası" dərsliyindən

oxuyuruq: "Mühitlə bağlılığı əxlaq tərbiyəsinin əlamətlərinə aiddir. Tərbiyə işi müəyyən mühitdə aparılır. Mühitin necəliyi isə əxlaq tərbiyəsinin gedişinə də, nəticəsinə də xeyli təsir göstərir." (58, s. 349)

M.S.Ordubadinin 1918-ci ilə qədər yazdığı müxtəlif əsərlərdə belə bir fikir təlqin olunur ki, cəmiyyətin hər bir üzvü, xüsusən də hökmdar övladları üçün əxlaq tərbiyəsi son dərəcədə zəruri və gərəklidir. Başqa sözlə, cəmiyyətin idarəetmə strukturlarında məqam sahibi olan şəxslər əxlaqi keyfiyyətləri baxımından digərləri üçün örnəyə çevrilməlidirlər. Yəni əxlaqca nöqsanlı insanların hakimiyyəti şəraitində cəmiyyətin mənəvi deqredasiyaya məruz qalması təbiidir. M.S.Ordubadi bu fikirdədir ki, ictimai həyatda bir sıra problemlərin həlli, o cümlədən ictimai ədalətin səviyyəsi, şəxsiyyət və xalq münasibətlərində tarazllıq, vətəndaş cəmiyyətinin qurulması, humanizmin təntənəsi əsaslı şəkildə əxlaq tərbiyəsindən asılıdır. Bu kimi ideyaların təbliği baxımından yazıçının "Haman adam" felyetonu xüsusi əhəmiyyətə malik bədii-publisistik nümunədir.

"Molla Nəsrəddin" jurnalının 30 iyun 1908-ci il tarixli 26-cı sayında çap olunan "Haman adam" felyetonunun mətni iki hissədən ibarətdir: müəllifə məxsus bir cümlə və guya Məmmədəli şahın Təbriz camaatına göndərdiyi teleqram. Maraqlıdır ki, şahın adından yazılmış teleqramda şaha məxsus, lakin əxlaq normalarına uyğun gələcək bir cümlə də yoxdur. Əksinə, ölkə hökmdarı islam dünyasında əxlaqa ziddi əməlləri törətməkdən, daha doğrusu, Qurana and içsə də vətənə və millətə xəyanət etməkdən çəkinmir: "Ay Təbriz camaatı!

Ay məndən narazı olan Azərbaycan əhalisi! Mən eşidirəm ki, siz məndən rəncidəxatir olmusunuz ki, mən Qurana and içib genə dövlətə və millətə xəyanət edirəm və vətənin düşmənlərini başıma cəm eliyib məmləkəti xarab etmək niyyətindəyəm." (89, s. 208)

"Haman adam" felyetonunda teleqramın mətni bir daha təsdiqləyir ki, əxlaq cəhətdən nöqsanlı tərbiyə olunan şəxsin sonradan mükəmməlləşməsi, cəmiyyət üçün xeyirli insana çevrilməsi çox çətindir. Xüsusən də işıqlı insanlardan, daha doğrusu, Viktor Hüqonun "Səfillər" romanındakı Din şəhərinin yepiskopu cənab Miriel kimi nurlu simalardan uzaq düşmüş mühitlərdə bu, qeyri-mümkündür. Bu mənada hələ Təbrizdə vəliəhd olarkən insanlığa sığmayan hərəkətləri ilə ad çıxarmış Məhəmmədəli şahın hakimiyyətə gəlişindən sonra törətdiyi lənətlənəsi əməllər felyetonun oxucusuna tamamilə təbii görünür. Müəllif haqlı olaraq əxlaq normalarının pozulduğu məqamlarda ictimai qınağın biganəliyini təhqid hədəfinə çevirir: "Ay Təbriz camaatı, bircə yadınıza salın ki, yəni çoxdan da deyil, ancaq iki il bundan irəli mən Təbrizdə vəliəhd olan zaman nə işlərdən çıxırdım və nə əməllər törədirdim. O vədə siz kənardan durub tamaşa eliyirdiniz və heç bir söz demirdiniz.

...Kimdən mən o vaxtlar eşitdim ki, Şahzadə bağında tutduğum işlər yaxşı iş deyillər? Hansı bir müctəhidlərimizdən və qeyri alimlərimizdən mənim hərəkətlərimin pisliyinə bir işarə olundu? Ağalardan ayda bir risalə çıxırdı ki, "neçə dəfə lazımdır öskürmək və neçə dəfə lazımdır sığarlamaq..."

Ay Təbriz camaatı!..

Siz mənim vəliəhdlik tərbiyəmi qurtarandan sonra məni özünüz padşah dikdiniz və nə cəlal ilə Tehrana yola saldınız.

İndi məndən nə istəyirsiniz?" (89, s. 208)

Məlumdur ki, XIX əsr boyu və XX əsrin əvvəllərində Azərbaycan maarifçiləri öz həmvətənlərini Avropa ölkələrinin nümunəsi əsasında inkişaf etməyə səsləyirdilərsə də, mühafizəkar qüvvələr, bir çox din nümayəndələri öz hakimiyyətlərini itirməmək üçün Şərqlə Qərb arasında keçilməz sədd çəkməyə, Avropa sakinini əxlaqi dəyərlərdən uzaq bir insan kimi tanıtmağa çalışırdılar. Əlbəttə ki, köhnəlik tərəfdarlarının bu sahədəki canfəşanlığı qabaqcıl dünyagörüşlü ziyalılarımız, o cümlədən M.S.Ordubadi tərəfindən daim pislənilmiş, əsl həqiqətin nədən ibarət olması müxtəlif janrlı əsərlər vasitəsilə nəzər nöqtəsinə çəkilmişdir. Məhz bu səbəbdəndir ki, "İki çocuğun Avropaya səyahəti" əsərində müəllif əxlaq məsələlərinə dönə-dönə qayıtmış, qəti şəkildə bu mövqedə dayanmışdır ki, inkişaf yolunu elm və təhsildə tapan Avropa əxlaq normalarına əməl etmək baxımından da Şərq ölkələrindən xeyli irəlidədir. Yazıçı hətta əxlaq qaydalarının gözlənilməsi prinsipinə görə Avropa ölkələrini fərqləndirməyi məqsədəuyğun saymış, xüsusən də qadınların davranış qaydalarından ayrıca söz açmışdır. Bununla da M.S.Ordubadi nəzərdə tutmuşdur ki, müsəlman dünyasının Avropa əxlaqı haqqındakı mənfi düşüncəsi kökündən dəyişilməlidir. Başqa sözlə, "İki çocuğun Avropaya səyahəti" əsəri Azərbaycan oxucusunun gözü qarşısında yüksək əxlaqi normalara əməl olunduğu tamamilə yeni bir dünya canlandırmaqdadır: "Səid əfəndim! Almanların bir çox adətləri islamlara (müsəlmanlara) hökm olunduğu kimi çox xoşətvardır. Almanlar gecələri ləhv-ləb ilə (əyyaşlıqla) keçirib, gündüzləri yatmağı sevməzlər.

Bir alman sübh (səhər) durub şəriətləri iqtizasınca ibadət edib, günün ziyası insan gözünü qamaşdırmamış özünəməxsus kəsbikar başına (işinə) getməzsə, alman milləti arasında çox həqirədd olunar (hesab olunar)...

Berlin camaatı çox səngin (ağır), çox mütəkəbbir, amma müsahib olub, nə özgənin üstünə gülüb, nə də başqasını güldürməyi sevərlər...” (101, s. 288-289)

“İki çocuğun Avropaya səyahəti” əsərində müəllif belə bir mövqedən çıxış etmişdir ki, qadınların üzüaçıq, yaxud üzüörtülü gəzmələrinin əxlaqla heç bir əlaqəsi yoxdur. Yazıçının düşüncəsinə görə, azad cəmiyyətlərdə əxlaq normalarından biri də qadınların ictimai həyatın fəal üzvünə çevrilməsi, kölə şəklində yaşamamasıdır. M.S.Ordubadi bu fikirdədir ki, qadın və ictimai həyat məsələsində də biz Avropa ölkələrindən çox şey öyrənməliyik: “Belgiya xanımları Germaniya xanımlarına nisbət ismət və üffət üzrə yaşayırlar ki, çox dirayət və fərasətli balalar doğmuşdular.

Germaniyada Berlin şəhərində ərə getməmiş cavan qızların bağlarda, parklarda tək-tək çıxıb təğənni etmələrini (oxumaqlarını) gördük. Brüsseldə isə bu kimi qızların təğənni etməsi deyil, hətta özlərinə bəzək vurub, başlarını sığallayıb, naz və qınc ilə gəzmələrin də görə bilmədik. Bundan məlum olur ki, Belgiya xanımları alman xanımlarından iffətlisə də, onlardan dilrüba surətdə gəzib, hər baxdıqca insanı səfaya sövq edirlər. Belgiya xanımları ərə getməmiş üstlərinə yaşıl və qızıl nəsb edərsə, yoldaşları yanında çox nöqsanlı və həqir tutulurlar.” (101, s. 293-294)

M.S.Ordubadi həm çar Rusiyası dövründə, həm də bolşevizmin hakimiyyəti illərində qələmə aldığı əsərlərdə əxlaq məsələlə-

rindən eyni ciddiyyətlə söz açmışdır. Yazıçı bu nəticəyə gəlmişdir ki, yüksək əxlaqi keyfiyyətlərin insanlara aşılanmasından ötrü müəyyən bir zaman daxilində sistemli iş aparılmalıdır. Yəni heç bir inqilab birdən-birə cəmiyyətdəki mövcud əxlaq normalarını dəyişmək qüdrətində deyil. Əlbəttə ki, bolşeviklərin qırğınlar hesabına hakimiyyətə gəlişi Rusiyada, eləcə də Azərbaycanda ilk əvvəl ictimai-siyasi həyatın bütün sahələrində ciddi dəyişikliklərlə, xüsusən də dağıntılarla nəticələndi. Yeni cəmiyyətdə zərurət səbəbindən bəzi istiqamətlər üzrə təcili bərpa işləri həyata keçirildisə də, maarif işləri sanki bir müddət yaddan çıxdı, diqqətdən kənarda qaldı. Sosialistlərin məcburiyyət üzündən məktəb və təhsil məsələlərinə bir qədər gecikərək diqqət yetirmələri Azərbaycan maarifçilərini heç də narahat etməyə bilməzdi. Bu səbəbdən 1922-ci ildən başlayaraq Bakıda nəşr olunan "Molla Nəsrəddin"in ilk saylarında maarif məsələləri ilə bağlı ciddi tənqidi yazılarla qarşılaşırıq. Budur, Cəlil Məmmədquluzadənin "Rəndə" felyetonunda ("Molla Nəsrəddin", 9 noyanr 1922, № 22) müəllifi düşündürən əsas məsələ yeni ictimai quruluşda məktəb və təhsil işlərinin tamamilə yaddan çıxmasıdır: "Bir ildən artıqdır ki, mahalları gəzirdim (yəni bir işimdə yox idi, ancaq veyillənirdim). Mahallarda çox şeylər gördüm və bunu da gördüm ki, qızlarımız dəxi oxumurlar. Bunun səbəbini mən çox qurdaoladım və hərə bir cür bəyan etdi: bir paralarından bunu eşitdim ki, qızların oxumamaqlarının səbəbi budur ki, inqilabdan bu yana məktəblərdə heç oğlan uşaqlarını da oxudan yoxdur. Bir neçələri də qızların oxumamaqlarına belə üsəbəb qoyurdular ki, onsuz da dərs kitabları və təlim şeyləri tapılmır; tapılanda da oğlan uşaqlarına heç çatmır ki, hələ qız uşaqlarına da çatsın...

Vallah, billah, ay qardaş, niyə inanmırsan? And olsun yeri-göyü yaradana, and olsun bizləri torpaqdan yaradıb adama oxşadana... O ki qız tərbiyəsini deyirsən, Azərbaycanda tək bircə kənd yoxdu ki, orada qızların oxumağı yada düşsün." (90, s. 83)

Yeni ictimai quruluşda da məktəb məsələləri M.S.Ordubadini də ciddi şəkildə düşündürmüşdür. Öz əsərlərində dönə-dönə təhsillə bağlı problemlərin təhlilini aparan yazıçı bu nəticəyə gəlmişdir ki, yeni cəmiyyətdə əxlaq normaları tamamilə dəyişməlidir. İnsanlarda mütərəqqi əxlaqi keyfiyyətlərin formalaşdırılması isə birbaşa məktəblə bağlıdır. Başqa sözlə, cəmiyyətdə məktəb işi, təlim-tərbiyə prosesləri düzgün, pedaqoji prinsiplərə uyğun, elmi əsaslarla təşkil edilmədən ictimai təfəkkürə yeni əxlaq normaları gətirmək mümkün deyil. Maarifpərvər yazıçı "Bizim qız" felyetonunda yeni təhsil sisteminin yeni əxlaq normaları təlqin etməsindən narahat olan köhnəfikrili insanları belə ifşa etmişdir:

Etməz dəli qız dinə əməl, şeyxə sitayiş,
Çıldırmışam, etməz daha təbim buna saziş,
Bayramda çıəxıb qıldı sokaklarda nümayiş,
Bayraq götürüb küçədə, meydanda bizim qız,
Namus, həya qoymadı nisvanda bizim qız.

Məktəbsiz ikən bir qız idi çox da müəddəb,
Hazırda qızın korlamış əxlaqını məktəb,
Baxmaq sözümə, dinsiz olub cəhl mürəkkəb,
Söylər, - ərə mən getmərəm, - hər yanda bizim qız.
Namus, həya qoymadı nisvanda bizim qız. ( 96, s. 70)

Azərbaycan maarifçilik hərəkatının görkəmli nümayəndələri sırasında özünəməxsus məqam qazanmış M.S.Ordubadi qəti şəkildə bu fukirdə olmuşdur ki, insanlar məktəbə, təhsilə cəlb olunduqca müsbət əxlaqi keyfiyyətlərin cəmiyyətə nüfuzu da güclənəcəkdir. Böyük ədibin əxlaqla bağllı düşüncələri XXI əsrdə də öz dəyərini saxlamaqdadır.

### 3.5. Məmməd Səid Ordubadi ailə tərbiyəsi haqqında

Azərbaycan mütəfəkkirlərini daim düşündürən problemlərdən biri də cəmiyyətdə ailənin rolu olmuşdur. Bu səbəbdən XIX əsrdə və XX əsrin birinci yarısında yaşayıb-yaratmış ziyalılarımız öz əsərlərində dönə-dönə ailə mövzusuna qayıtmış, ictimai həyatda yeniləşmə üçün ciddi maneəyə çevrilmiş köləlik psixologiyasının mərkəz dayaqlarından bəhs edərkən ailədən məxsusi söz açmışlar. Bu problemin “Əkinçi” qəzeti səhifələrində xüsusi həssalıqla gündəmə gətirildiyini görürük. Qəzetin 9 iyun 1877-ci il tarixli 12-ci sayındakı “Daxiliyyə” bölməsində hətta mənəvi eybəcərliklərə səbəb olan köhnəlmiş ailə tərbiyəsi sisteminin nəticələri belə aydınlaşdırılır: “Əgərçi bizim şəriətimizə görə qul azad etmək çox böyük savabdır, amma biz bu barədə həm işi gec qanmışıq. Satınalma qulu azad etməyi savab hesab edə-edə, biz öz xahişimiz ilə bir-birimizə qul olmuşuq. Rəiyyət padşaha, övrət kişiyə, uşaq ataya, nökər ağaya, şagird ustada və qeyrə məgər qul deyil?

...Mətləb uzun olmasın deyibən bu nömrədə oğul atanın qulu olmağından bir az danışacağıq. Həqiqət, bizlərdə oğul atanın quludur. Məlumdur ki, bizlərdə oğul atanın hüzurunda oturmaq,

xörək yemək, danışmaq və qeyrə eybdir. Ondan masəva oğul atadan izinsiz nə ki bir iş görə bilməz, hətta evlənə də bilməz. Xülasə, ata oğulu, bir şey kimi, məsələn, eşşək kimi özünə təəllüq hesab edib, hər nə öz xahişidir ona əməl elədir və dəxi bunu fikir eləmir ki, gələcəkdə bu adam olub, qəyyumsuz iş görəcək. Belədə uşaq nə ki qeyrlərin, hətta özünün ixtiyar və borclarından bixəbər olduğuna atası kimi özündən gücdülərin qabağında ikiqat oluban, özündən zəifləri adam hesab etməməyə adət edər. Xülasə, nə qədər qabiliyyətli uşaq olsa, bizim adətlər ilə oluna təlimdən insan ola bilməz. Biz övladın yağısı olub, onun axırına çıxıb, insaniyyətlikdən uzaq edirik." ( 24, s. 418-419)

M.S.Ordubadi də digər maarifpərvər qələm yoldaşları kimi cəmiyyət quruculuğunda ailənin öhdəsinə mühüm vəzifələrin düşdüyünü bildirmiş, bu fikirdə olmuşdur ki, milli təfəkkürdə yeni ictimai münasibətlərin qərarlaşması əsaslı dərəcədə ailənin bu məsələyə necə münasibət bəsləməsindən asılıdır. Əlbəttə ki, ailə məsələləri müasir pedaqogikanın da əsas tədqiqat obyektlərindəndir. R.Hüseynzadə və M.İsmayılovanın "Tərbiyə işi və onun metodikası" kitabında ailə tərbiyəsinin insan həyatında nə qədər mühüm rol oynaması belə dəyərləndirilmişdir: "Ailə tərbiyəsinin funksiyası xüsusi əhəmiyyət kəsb edir. Burada cəmiyyətin mədəniyyəti bir nəsildən digərinə keçirməsində müvafiq cəmiyyətin üzvü olan uşaqların rəftar davranışını təmin edən proses nəzərdə tutulur. Ailənin məhz bu funksiyası da bu baxımdan prioritet istiqamətlidir. Məlum məsələdir ki, tərbiyə tarixən çətin və lazımlı proses olmuşdur. Bu mənada o təkcə ailənin deyil, eyni zamanda cəmiyyətin funksiyasına çevrilmişdir. Bu mürəkkəb prosesdə

tədqiqatçılar əsas tərbiyə ocağı ailəni hesab etdikləri üçün ağırlıq onun üzərinə düşmüşdür.” (50, s. 340-341)

Əsərləri və əməlləri ilə Azərbaycan maarifçilik hərəkatı tarixinə yeni uğurlar qazandıran M.S.Ordubadi ailədə valideynin nüfuzu məsələsinə xüsusi önəm vermiş, övladlarını qeyri-pedaqoji prinsiplərlə tərbiyə edən, onların təhsil almasına vətən və millət mənafeyi mövqeyindən deyil, yalnız şəxsi mənafe mövqeyindən yanaşan, övladlarını zülmə qarşı müti, imtiyazlılar önündə yaltaq, ictimai ədalətsizliklərə biganə böyüdən valideynlərdən qəzəblə söz açmışdır. Prinsipcə yazıçı bu fikirdə olmuşdur ki, cəmiyyətin inkişafı naminə mövcud ailə münasibətləri kökündən dəyişilməlidir. “Molla Nəsrəddin” jurnalının 21 iyul 1906-cı il tarixli 16-cı sayında çap olunmuş “Balaca felyeton” əsərində M.S.Ordubadi övlad tərbiyəsinə köhnə dünyanın qanunları ilə yanaşan valideynlərin ümumiləşdirilmiş surətini yaratmaqla bərabər, valideynliyin ictimai mahiyyətindən xəbərsiz insanları da qəzəblə lənətləmişdir. Budur, atanın övladına “qiymətli” nəsihətləri: “Bir məclisə dövlətli girəndə ayağa durmaqda heç kəsə macal vermə. Belə ki, Sədi buyurub “Bəni-adəm əzayi-yekdigərənd”, yəni min fəqir yığılıb bir dövlətlinin sandığını doldursun. Millətin fəxri bunlar ilədir. Gözümün işığı, dünyanın dolanışığı bunlar ilədir. Dünya bunlardan ötrü xəlq edilmişdir... Bir məclisdə nə qədər yalan söyləsələr “bəli, bəli” degilən... Dövlətli hər nə söyləsə bil ki onda məsləhət vardır... Mabəda dövlətli balalarını adları ilə çağırasınız, eyb işdir, həmişə “ağa, ağa” çağırın... Hərgah peysərinizə şətil vursalar, şükür eyləyib deyin: bəyzadə, məni bağışla, sənə kiçiyəm.” (88, s. 143)

Maraqlıdır ki, M.S.Ordubadi yalnız necə gördüyü ailədən yazmayıb, həm də necə görmək istədiyi ailəni qələmə alıb. Bu baxımdan "İki çocuğun Avropaya səyahəti" xüsusi dəyərə malik əsərdir. Prinsipcə bu əsərdə ətalət girdabında əzilən müsəlman ailəsinə qarşı daim inkişafda olan Avropa ailəsi qoyulub. Ümumiyyətlə, "İki çocuğun Avropaya səyahəti" əsərində oxucunun tanış olduğu insanlar ilk növbədə övladlarının məktəbə cəlbində, gərəkli bilgilər öyrənmələrində maraqlıdırlar. Müəllif bunun səbəbini elmin Avropa ailəsinə gərəyincə nüfuz etməsində görür. Avropa ailəsinin əsas göstəricilərindən biri uşaqlarda məktəbə, təhsilə rəğbət hissinin aşılanmasıdır. Müəllifin fikrincə, uşaqların həddindən artıq əzizlənməsi alman ailəsinə yaddır.

Məlumdur ki, mövhumat və cəhalət Azərbaycan cəmiyyətində, eləcə də Azərbaycan ailəsində qadın hüququnu tamamilə aradan qaldırmışdı. Azərbaycan maarifçiləri isə bu fikirdə idilər ki, uşaqlar üzərində böyük təsirə mailk olan analar savadlanmalı, ailə tərbiyəsinin düzgün qurulması işində yaxından iştirak etməlidirlər. Beləliklə, "İki çocuğun Avropaya səyahəti" əsərində ailə tərbiyəsində ananın rolu maraqlı bir təsvir vasitəsilə belə verilmişdir: "Dünən gecə ümumun təfərrücgahı olan (gəzinti yeri olan) bir meşədə mən və İsfəndiyar xan bir zeytun ağacı gölgəsində iki nəfərlik bir sandaliya üstə oturub, müsahibi ilə laqqırtı edənlərə tamaşa edirdik. Qarşımızda oturan bir cavan Belgiya xanımı dörd yaşında uşağını iki qıçları arasına alıb uşağına tarixi söhbətlər etməkdə idi. Cavan xanım əvvəlcə Prusiya ilə fransızların davasını uşağına icmalən söyləyib, cavabında uşağından bir söz eşidir kimi nazikanə (incə) surətdə təbəssüm edirdi. Sonra elmli xanım uşağına Misirdə, Hindistanda İngiltərənin istibdadını açınca: Bala:

– Ana, onların uşaqları bəs necə yaşayırlar? – deyincə anası uşağı şirin-şirin ağuşuna (qucağına) çəkincə bizi böht və heyrət içində qoydu.” (101, s. 294)

Göründüyü kimi, M.S.Ordubadinin fikrincə, ailə tərbiyəsinin düzgün qurulması cəmiyyətdaxili ictimai münasibətlərdən əsaslı dərəcədə asılıdır. Başqa sözlə, yazıçı bu qənaətdədir ki, müstəmləkəçilk şəraitində, elmdən uzaq düşmüş, cəhalətin təfəkkürlərə hakim kəsildiyi, bütün münasibətlərin ictimai zülmlə nizamlandığı mühitlərdə həqiqi ailə tərbiyəsindən söhbət gedə bilməz.

L.Qasımova və R.Mahmudovanın “Pedaqogika” kitabından oxuyuruq: “Ailə pedaqogikası konsepsiyası, yəni elmin nəzəriyyəsi və əsas istiqamətləri müxtəlif tarixi dövrlərdə, habelə müxtəlif ictimai quruluşlarda zahirən dəyişməz qalmaqdadır. Onlar ümumbəşəri dəyərlər, düzlük və şərəf, ləyaqət və xeyirxahlıq, insanlara sevgi və əməksevərlik, yaxşılığa görə minnətdar olmaq qabiliyyəti və s. keyfiyyətləri formalaşdırmaq üçün yaranmışlar.” (63, s. 475-476)

Prinzipcə bu konsepsiya Azərbaycan maarifçilərinin ailə və insanla bağlı fikirlərinə tamamilə müvafiqdir. Bununla belə, nəzərə almaq lazımdır ki, maarifçi ziyalılar insanda məhz bu keyfiyyətləri formalaşdırmaq uğrunda mübarizə aparmış, bu mübarizədə, nə qədər çətin olmasına baxmayaraq, köhnə cəmiyyətin əleyhinə çıxmışlar. M.S.Ordubadinin əsərləri oxucuya belə bir fikir təlqin edir ki, sağlam özülə əsaslanmayan ailədə düzgün tərbiyədən söhbət gedə bilməz. Əgər valideynlərin övladlara sevgisi uşaqlar arasında ədalətlə bölünmürsə, bu, yeni nəslin mənəvi dünyasında ciddi fəsadlara yol açır. Yazıçının “Sevgilər” dramında məhz həmin fəsadların qələmə alındığını görürük. Bu dramın tər-

biyəvi xarakter daşıması tədqiqatçıların da diqqətindən yayınmamışdır. Ordubadişünas B.Əsgərov "Məmməd Səid Ordubadinin dramaturgiyası" kitabında yazır: "M.S.Ordubadinin çap olunmuş ikinci dram əsəri "Sevgilər"dir. Dramaturq bu əsər üzərində 1908-ci ildən işləməyə başlamış, bir müddət ara verdikdən sonra, sovet hakimiyyəti dövründə həmin əsərə təkrarən qayıtmış, onun pərdələrə bölünməmiş, dramatik poema kimi yazılan mətni üzərində yenidən işləyərək səhnə əsəri şəklinə salmış və ilk dəfə "Maarif işçisi" jurnalının 1927-ci il 8, 9, 10 və 1928-ci il 1, 2, 5, 6-cı nömrələrində çap etdirmişdir. Pyesin ilk adı "Yusif və Züleyxa" olmuş, sonradan müəllif ona "Sevgilər" adı vermişdir. M.S.Ordubadi əsərin mövzusunu qədim tarixi və dini əfsanələrdən, yaxud tarixi-dini həqiqətlərdən götürmüş, ona dövrü və əsri ilə əlaqədar yeni, müasir məna vermiş, onu tərbiyəvi-didaktik bir şəkildə işləmişdir." ( 30, s. 84)

Şübhəsiz ki, "Sevgilər" pyesində müəllifi düşündürən əsas məsələ insan və cəmiyyət problemidir. Maraqlıdır ki, M.S.Ordubadi bu problemin həllinin məhz ailədən başlanması fikrindədir. Bəli, "Sevgilər" əsərində oxucu ilk növbədə Yusifin qardaşları ilə tanış olur. Qardaşlardan Cad, Həfta, Şəmun, Yəhuda narahatdırlar ki, ataları Yusifi onlardan çox istəyir və bunun səbəbi onların analarının kölə olmasıdır. Beləliklə, digər qardaşlar Yusifi yox etmək haqqında düşünürlər. Qardaşların ümumi fikri Şəmunun dili ilə belə ifadə edilir:

Şəmun

(Arxasında bir dağarcıq yemək şeyləri olduğu halda özözünə danışaraq gəlir)

Daim keçdi çobanlıqda həyat.
Üzümüz gülmədi heyhat-heyhat!
Bu həqarətlərə yox başqa cəhət,
Atamızdır yenə nöqsanlı, əvət.
Bir oğul çox sevilirsə, biri az,
Belə bir ailə xoşbəxt olmaz. (97, s. 50)

M.S.Ordubadi ailəni insan formalaşdıran ilkin tərbiyə ocağı, eləcə də valideyni ilkin tərbiyəçi məqamında görmüş, belə bir mövqedən çıxış etmişdir ki, yeni nəsillərin lazımsız vərdişlərdən əl çəkməsi üçün valideynlər ciddi şəkildə səy göstərməlidirlər. Bu ideyanın təbliğini vacib bilən yazıçı bir çox felyetonlarında hələ də öz övladlarını köhnə qaydalarla tərbiyələndirən, onları mövhumat və cəhalətdə daha sabitqədəm olmağa təşviq edən ataların tipik surətini yaratmağı da gərəkli bilmiş, beləliklə ailə tərbiyəsində valideynlərin, o cümlədən müsəlman dünyasında ataların ciddi nüfuza malik olduqlarını xatırlatmaqla mühafizəkar valideynləri gülüş hədəfinə çevirmişdir. Şairin 1915-ci ildə yazdığı "Məhərrəmdə atanın oğluna vəsiyyəti" satirasında övladının təlim-tərbiyəsi ilə məşğul olmaq əvəzinə onu zərərli adətlərə səsləyən ata surəti ilə qarşılaşırıq:

Zəncirini hazırla oğul, durma, dayanma,
Yar başına, vur sinənə, insanlığı qanma.

Vur başına, tök göz yaşı, ürfanə nə hacət,
Qalmış babamızdan bizə bu sevgili adət,
Bu mətləbə şəkk eyləyənin zatına lənət,
Cəhd eylə cəhənnəmdə, əzizim, oda yanma,
Hər nə bacarırsan elə, vur başa yubanma. (96, s. 47)

M.S.Ordubadinin vaxtı keçmiş ailə münasibətlərinə qarşı barışmaz mövqeyini ifadə edən satirik əsərlərindən biri "Bir söylə görüm..." felyetonudur. İlk dəfə "Babayi-Əmir" jurnalının 1916-cı il tarixli 3-cü sayında dərc olunmuş felyetonun satirik tipi müsəlman ailəsində cəmiyyət üçün gərəkli insan formalaşdırmağın, mübariz vətəndaş tərbiyə etməyin, övladlara elm verməyin, qızları əsarətdən qurtarmağın, qadın hüququndan danışmağın qəti əleyhinədir. Böyük ədibin satirik tipi artıq qorxuya düşmüşdür ki, yeni nəsillər elm və sənətə meyil göstərməkdədir. Şair bir daha xatırladır ki, ağlın hökmranlıq edəcəyi yeni cəmiyyətin qurulması ailədən başlayır. Ailənin düzgün tərbiyə edilməsi isə əsaslı dərəcədə böyük nüfuza malik atadan asılıdır. (Bax: 96, s. 48)

Ailə tərbiyəsində valideyn faktorunu yüksək dəyərləndirən M.S.Ordubadi bu fikirdə olmuşdur ki, ana-atalar uşaqların fərdi keyfiyyətlərini, onların özünəməxsus qabiliyyətlərini mütləq nəzərə almalı, övladlara münasibətlərini bu zəmində nizamlamalıdırlar. Yazıçı "Sabir" məqaləsində övladlarına mütləq hakim mövqeyindən yanaşan ataların nə qədər yanlış olduqlarını Mirzə Ələkbər Sabirin tərcümeyi-halına aid bir hadisəni yada salmaqla belə əsaslandırmışdır: "Sabir bir neçə sənə farsca, türkcə oxuyub isə də, atası onu məktəbdən alıb alış-verişə göndərmişdir. Fəqət bu vaxt yenə də ehtikar-ticarət həvəsləri, alış-veriş sövdaları Sabirdəki fitri qabiliyyətə qələbə çalmayaraq, yenə də kitab və məcmuələr qiraətilə iştiğal etdiyi üçün atasından məzəmmətlər, tən və sərzənişlər alırdı. Buna müqabil dəxi Sabir:

Mən Xəlilüllahi-əsrəm, pədərim çün Azər
Səfər əz Babili-Şirvan günəm inşallah –

əşarı ilə cavab vermiş, əskilərin xətasından bugünkü çocuq atalarına böyük ibrət və təcrübələr buraxmışdır. ” ( 99, s. 313-314)

Göründüyü kimi, M.S.Ordubadinin ailə tərbiyəsi ilə bağlı fikirləri Azərbaycan milli pedaqoji fikir tarixini zənginləşdirməklə bərabər, bu gün də müasirliyi, aktuallığı ilə diqqəti cəlb edir.

## 3.6. Məmməd Səid Ordubadi əmək tərbiyyəsi haqqında

Azərbaycan maarifçiliyinin ideya-estetik prinsipləri sistemində insan əməyinə xüsusi dəyər verildiyi müşahidə edilməkdədir. Əlbəttə, cəmiyyət həyatında əməyin rolu məsələsi maarifçilərdən əvvəl intibah nümayəndələrini də ciddi şəkildə düşündürmüşdür. Məlum həqiqətdir ki, dünyanın böyük söz ustadlarından sayılan Nizami Gəncəvi əməyin tərənnümünə məxsusi diqqət yetirmiş, bir çox məqamlarda zəhmət adamını əsərlərinin baş qəhrəmanları səviyyəsində qələmə almışdır. Fikrimizin təsdiqi naminə “Sirlər xəzinəsi” poemasından kərpickəsən kişini, “Xosrov və Şirin”dən Fərhadı, “Yeddi gözəl”dən Bəhram şaha hikmət anladan çobanı xatırlatmaq kifayətdir. (Bax: 94, s. 62, s. 153-154, s. 379) Bununla belə, öz dövrünü başa vurmaqda olan feodal mütləqiyyəti insan əməyinin nəticələrinin istismarında o dərəcədə ədalətsizliyə yol vermişdir ki, maarifçi fikir sahibləri əməyin mahiyyətini yenidən ictimai təfəkkürün diqqət mərkəzinə çəkmək məcburiyyətində qalmışlar. Məsələn, A.Bakıxanov “Müqəddimə”, 12 fəsil və “Xatimə”dən ibarət “Təkzibi-əxlaq” əsərinin 7-ci fəslində bütünlüklə əməyin faydalarından söz açmışdır. (Bax:16, s. 39-44) Yaxud Cəlil Məmmədquluzadə hələ 1904-cü ildə Lev Tolstoyun “Zəhmət,

ölüm və naxoşluq" əsərini rus dilindən Azərbaycan dilinə çevirərək "Şərqi-Rus" oxucularına təqdim etməklə cəmiyyətin bütün üzvlərini zəhmət ətrafında birləşməyə, əmək nəticəsində insanlığa məhəbbət bəsləməyə çağırmışdır: "Çox müddət keçdi və məxluq bilmədi, nə eləsin xoşbəxt olmaqdan ötrü. Məhz bu yavıq vaxtlarda adamların bəzisi başa düşdü ki, bunun əlacı zəhmətdir və bu zəhmətdən nə qüvvətlilər lazımdır qorxub qaçsınlar, nə də zəif üçün bu zəhmət cəbr və zülm olmalıdır. Bu zəhmət gərək ümumi ola və bais ola insanın dilxoşluğuna və ittihadına." (73, s. 640)

Maraqlıdır ki, M.S.Ordubadinin qələmə aldığı Şərq ölkələrində insanlar mənən və cismən məhvə sürüklənməkdədir və bunun əsas səbəbi cəmiyyət üzvlərinin maddi rifah halını yüksəldəcək sağlam əməkdən ayrı düşmələridir. Budur, yazıçının "Elm-nücum" felyetonunda o cəmiyyətdən danışılır ki, xoşbəxtlik gətirən zəhmətdən uzaq düşmüş bəşər övladı günlərini həna qoymaqla, qoç döyüşdürməklə, əlquşu uçurmaqla, it boğuşdurmaqla, şikara çıxmaqla, bülbül saxlamağı həyat amalına çevirməklə keçirməkdədir. Daha doğrusu, M.S.Ordubadinin təsvir etdiyi cəmiyyət oxucuda belə bir fikir formalaşdırır ki, idarəetməsi mütləq hakimiyyətə əsaslanan, elmi təfəkkürün cahilliklə əvəzləndiyi, insanların adi hüquqlardan məhrum olduğu, zəkaların mövhumat tüstüsü ilə dumanlandırıldığı, bir sözlə, elmə, təhsilə yer olamayan ölkələrdə əməyin dəyərləndirilməsindən, eyni zamanda əmək tərbiyəsindən söhbət gedə bilməz. Hər halda yazıçının reallıqla qələmə aldığı Şərq mühitində əmək tərbiyəsi, ümumiyyətlə, ictimai təfəkkürə yad anlayışdır. Beləliklə, "Elmi-nücum" felyetonu ("Molla Nəsrəddin", 30 iyun 1906, №13 ) bir daha təsdiqləyir ki, zülmün həd-

sizliyi və zülmətin dərinliyi səbəbindən insanlar normal həyat tərzindən, eləcə də normal əməkdən ayrı düşmüşlər və bu vəziyyətin davam edəcəyi də şübhəsizdir: “Bənnab ətrafında saillərin iğtişaşı, Kirmanda, Qəzvində, Təbrizdə şeyxi-üsuli mübahisəsi zühur edəcək, Tiryək əməliyyatının tərəqqisi, tiryəkin xəlayiqə nəfi, İraqi-Əcəm səmtində, xüsusən Azərbaycanda, Əhər səmtində şəbihgərdanların tətil etməsi, Qaracadağ mahalında çubuq başı, çarıq bağının tərəqqisi, xəlayiqin ümdə ehtiyacı oraq və kərəntiyə olacaqdır. Mərənd səmtində dərvişlik elminin intişara başlaması, mübtədi dərvişlərin çoxalması.” (88, s. 119)

M.S.Ordubadiyə görə, insanların əmək həyatı elmi prinsiplər əsasında qurulmalıdır. Başqa sözlə, cəmiyyət üzvlərinin zəhmətsevərlik hissi ilə tərbiyələndirilməsi üçün yenə də ictimai təfəkkürdə ağlın təntənəsi vacibdir. Maarifpərvər ədib Şərq ətalətinə qarşı Avropa çalışqanlığını nümunə göstərərək “Qəflət” əsərində yazır ki, qərblilər məhz elmlə sənəti birləşdirmək yolu ilə dünyanın xəritəsini yenidən çəkirlər. Beləliklə, “Qəflət” kitabında kor-koranə zəhmətlə məşğul olanların öz əməklərini elmlə birləşdirənlərdən fərqləndirildiyini görürük. Şair bu fikirdədir ki, əqli keyfiyyətləri sənətlə vəhdət halına gətirən insanlar ölkə hökmdarlarından daha xoşbəxtdirlər. Bəli, M.S.Ordubadi aydın şəkildə bildirir ki, xaraba çöllər elmlə sənətin birliyi nəticəsində Avropaya çevrilmişdir. Böyük maarifpərvər qələm sahibi üzünü yazışı müasirlərinə tutur, onları yenə də “Leyla”, “Şirin” hekayətlərinə meyl göstərdiklərinə görə günahlandırır, əsrin insanının sənət aşiqi olması ideyasını irəli sürür:

Neçünki elmlə nəqşə çəkiblər kürrəyi-ərzə,
Gəlir çox iş zühura belə elmü-məharətdən.
...Məni biəql bil, biəqldən tək-tək çıxar xoş söz,
Xoş işdir əmri-sənət səltənətdən, bil qənimətdən.
Gedər sənət sən ilə hər məkana, səltənət getməz,
Ola gər sənət ilə səltənət, başla qənaətdən.
Xaraba yerlər elmü sənət ilə oldu Yevropa,
Amerika oldu vəhşilər məkanı, elmə xidmətdən.
(101, s. 311)

M.S.Ordubadinin yeni nəslin formalaşdırılmasından bəhs edən əsərlərindən biri də "Molla Nəsrəddin" jurnalının 22 dekabr 1906-cı il tarixli 38-ci sayında oxuculara təqdim edilmiş "Behiştə gedənlər" felyetonudur. Bu felyetonda müəllif aydın şəkildə belə bir düzgün mövqedən çıxış edir ki, cəmiyyətlərin inkişafını təmin edəcək amillər sırasında təlim-tərbiyə sistemi mühüm əhəmiyyət daşımaqdadır. Bu cəhətdən Avropa ölkələrində kimsəsiz uşaqlar dövlət qayğısı ilə əhatə olunur, onların təlim-tərbiyəsi, o cümlədən əmək tərbiyəsi sistem halında həyata keçirilir. Əlbəttə ki, felyetonun "Behiştə gedənlər" adlandırılması təsadüfi deyil. M.S.Ordubadi göstərir ki, özlərini artıq behiştdə hesab edən müsəlmanlar üçün küçələrdə kimsəsiz yaşayan uşaqların həyatına biganəlik xarakterik haldır. Müsəlmanları öz din qardaşlarının sahibsiz qalmış övladlarının taleyi qətiyyən düşündürmür. Başqa sözlə, islam ölkələrində tərbiyə deyilən bir anlayış tamamilə yaddan çıxmışdır. Çünki müsəlmanlar xoşbəxtliyi məhz axirətdə axtarır, bu məqamda da etdikləri əməllərə deyil, sadəcə islam olduqlarına arxalanır-

lar. Bəli, "Behiştə gedənlər" felyetonunda müəllif məxsusi təəssüflənir ki, islam ölkələrində sağlam əməyə, eyni zamanda əmək tərbiyəsinə yer yoxdur: "Yevropa və Amerika şəhərlərinin hər bir hissəsində yetimxanalar bina eləyiblər. Böyük bir imarət, isti və işıq otaqlar, qulluqçular, aşpazxana. Burada uşaqları əlahiddə yerdə yatırdırlar, məxsusi otaqlarda əyləşdirib xörək yedirdirlər, dərs və sənət öyrədirlər, təmiz hamamda yudurdurlar, xüsusi ibadətxanada dua oxutdururlar, gəzdirirlər və uşaq 21 sinninə yetişən vaxt bir qədər də cibinə xərclik qoyub ötürürlər ki, gedib özünə bir iş tapıb məişət eləsin." (88, s. 319)

Göründüyü kimi, M.S.Ordubadi o fikirdədir ki, yeni nəsillərin tərbiyəsi, o cümlədən əmək tərbiyəsi bütöv bir sistem halında həyata keçirilməlidir.

Professor İ.Əliyev "İbtidai təhsilin pedaqogikası" kitabında yeni nəsillərin əmək tərbiyəsi kompleks halda nəzər nöqtəsinə çəkilmiş, xüsusən də ictimai-faydalı əməyin cəmiyyət həyatı üçün vacibliyi məxsusi dəyərləndirilmişdir. İnsanın əmək tərbiyəsi sistemində ictimai-faydalı əməyin yerindən bəhs edən müəllif yazır: "İctimai-faydalı əmək şagirdlərin əmək tərbiyəsi sisteminin əsasını təşkil edir. İctimai-faydalı əmək təmənnasız, ictimai əhəmiyyət daşıyan, məqsədyönlü, planlı, şüurlu, könüllü fəaliyyətdir. İctimai-faydalı əmək prosesində şagirdlərdə aşağıdakı şəxsi keyfiyyətlər formalaşır:

– xeyirhaxlıq;
– təmənnasız yardım;
– həmrəylik;
– ictimai məsuliyyət;

– yaradıcı fəallıq və müstəqillik;
– başqalarının əməyinə hörmət;
– mütəşəkillik;
– vətəndaşlıq hissi və s.” ( 27, s. 183)

Əlbəttə, M.S.Ordubadinin qələmə aldığı Şərq ölkələrində nəinki ictimai-faydalı əməkdən, eləcə də əmək tərbiyəsindən danışmaq qeyri-mümkündür. Çünki ictimai zülm, islami dəyərlərdən uzaq düşmək, elmsizlik, mütləq hakimiyyət əməyi insanlara yadlaşdırmışdır və bu səbəbdən müsəlman qardaşlar vərdiş etdikləri qeyri-normal əməlləri həyata keçirməklə dünyanın sonunu gözləməkdədirlər. Şübhəsiz ki, yazıçının qələmə aldığı islam dünyasında da insanlar öz dünyabaxışları səviyyəsində aktivdirlər. Lakin bu aktivlikdə tərəqqiyə hesablanmış heç bir nəticə gözlənilmir. Bu mənada yazıçının “Elmi-nücum (Hacı Nəcmüddövlənin təzə təqvimindən)” felyetonu (“Molla Nəsrəddin”, 10 fevral 1907, №6) müsəlman dünyasında əməyə münasibətin vəziyyətini əks etdirmək baxımından olduqca dəyərli bir örnəkdir. Əslində M.S.Ordubadi tamamilə bu qənaətdədir ki, maarifsizlik səbəbindən tənəzzülə sürüklənən islam aləmində hər hansı mütərəqqi məqsədlə gerçəkləşdirilən əməli fəaliyyətə rast gəlmək mümkün deyil. Müsəlman dünyasında ən müsbət hadisə qiraətxanaların açılmasıdırsa da, bu işin də cəmiyyətin ümumi sükunət halına müvafiq sonlanacağı labüddür: “Məhərrəm Müsəlmanlar çox yerdə qiraətxanalar açacaqlar və açandan sonra bir övqat yığışacaqlar qiraətxanaya, bir övqat yığışmayacaqlar, sonra genə yığışacaqlar, sonra genə yığışmayacaqlar və axırda ya yığışacaqlar, ya yığışmayacaqlar. Əgər yığışsalar pul yığışmayacaq, əgər pul yığışsa adam yığışma-

yacaq və lap axırda nə pul yığışacaq, nə adam yığışacaq... Genə həmin ayın içində çox işlər olacaq, Şimali Qafqazdan Aşqabada minlərcə xəncər və qəmə göndəriləcək və hədsiz qanlar axacaq, amma dava olmayacaq... Genə həmin ayın müddətində bir neçə gün qar yağacaq və İrəvan Seminariyasında ağazadələr kasıb yoldaşlar üçün yığılan həştad manatı ciblərinə qoyub "İslabodka" məhəlləsinə kefə gedəcəklər." (88, s. 375)

Bəli, M.S.Ordubadini düşündürən məsələlərdən biri də odur ki, əmək tərbiyəsinin yoxluğu səbəbindən islam dünyasında tənbəllik artıq həyat tərzinə çevrilmişdir. Yazıçı tərəddüd etmədən tənbəlliyi mövhumat və cəhalətin nəticəsi kimi mənalandırır. Bu baxımdan "Molla Nəsrəddin" 9 iyun 1908-ci il tarixli 23-cü sayında getmiş "Təqvim" felyetonunda əmək tərbiyəsi ilə bağlı maraqlı bir mövzunun qələmə alındığını görürük. Əsas odur ki, yazıçının fikrincə, insanların həyat fəlsəfəsi, dünyabaxışları, cəmiyyətdəki köhnəlmiş təlim-tərbiyə sistemi dəyişmədən şəxsiyyətin formalaşdırılması məsələlərindən, o cümlədən əmək tərbiyəsindən söhbət gedə bilməz. "Təqvim" felyetonunda da təsvir olunan mühitdə hamı öz fəaliyyətini normal çalışmaqla deyil, orta əsrlərdə yazılmış təqvimlərlə nizamlamaqdadır. Həmin təqvimlər isə insanları yaradıcı əməyə deyil, ətalətə, ictimai süstlüyə sövq etməkdədir. Beləliklə, M.S.Ordubadi mövcud cəmiyyətdə əmək tərbiyəsinin yoxluğuna, insanların bütün sahələr üzrə normal fəaliyyət göstərmələrinə mane olan vaxtı keçmiş təqvimlərə qəti şəkildə etirazını bildirmişdir.

Çağdaş pedaqoji ədəbiyyatda əməyin bir neçə istiqamət üzrə mənalandırıldığını görürük. Professor N.Kazımov "Məktəb peda-

qogikası" kitabında əməyin iqtisadi, sosial və əxlaqi mənasına aydınlıq gətirərək yazır: "İnsan əməyi cəmiyyətin əsası, onun dayağıdır... İnsan həyatı üçün zəruri olan bütün maddi və mənəvi nemətlər əməyin məhsuludur.

...Adamların yaşayış tərzi, güzəranı, firəvan yaşayıb-yaşaması əhəmiyyətli dərəcədə onların əməyindən, əməyə münasibətindən asılıdır.

... Əmək adamın əxlaqına güclü təsir göstərir, onun əxlaqını saflaşdırır. Zəhmət adamının fikri öz işinin məzmununa, məhsulun keyfiyyətinə yönəlir: belə adam əyri yollardan uzaq olur, əməyə xor baxanlara nifrət edir." (58, s. 353)

Əlbəttə, bu müddəalar ağlın qələbə çaldığı cəmiyyətlər üçün məqbuldur. M.S.Ordubadinin əsərləri ilə tanışlıq oxucuda belə bir fikir formalaşdırır ki, hər hansı cəmiyyətdə elmsizliklə, cəhalətlə mütləq hakimiyyət birləşdikdə əmək nəinki maddi rifah halını yüksəldəcək vasitə olmur, hətta zəhmət özü zülm formasına çevrilir. Budur, yazıçının "Dinçilər" əsərində qələmə alınmış kənd mühitində kəndlilər nə qədər çalışsalar da, mülkədarlara borclu qalaraq yaşamağa məhkumdurlar. Belə kəndlilərdən biri də Nəsrulladır ki, mülkədar Hacı Salehdən cəmi bir manat yarım borc almasına baxmayaraq, bütün il boyu qazandıqlarını ona vermək məcburiyyətindədir. Çünki yaşadığı sistem bütünlüklə istismarı, ictimai zülmü dəstəkləməkdədir və həmin mühitdə insanın əməkdən zövq alması, əməyi sevməsi qeyri-mümkündür. Başqa sözlə, "Dinçilər" əsərində M.S.Ordubadi belə bir mövqedə dayanır ki, insanın zəhməti sevməsindən ötrü sosial zülmə, istismara son qoyulmalı, cəhalətin, mövhumatın yerini elm tutmalı, cəmiyyətin hər

bir üzvü əməyinə görə dəyərləndirilməlidir. Bu isə Nəsrullanın dili ilə təqdim olunan "dinçilər" mühitidir: "Nəsrulla – Axund, mən çarə qılaydım? Var yox bir pud dörd girvənkə mahlıcım olmuşdu ki, ona da igirmi adam barmağın basmışdı. Dəllək bir il başımı qırxıb pul almayıb, Molla Məhərrəm oğluma quranı çıxatdırıb pambıq vaxtını gözləyir. Mir Sadıq ildə bizdən bir nəzir alar, o da öz yerində. Mərsiyəxan orucluqda, məhərrəmlikdə mərsiyə oxuyub pul alacaqdır. Divan pulları da qalır. Ayıb olmasın, hamamçı usta İbadula ki, bir həyasızın birisidir. Müxtəsər dərviş, dilənçi, falçı, oyunçu hamısı gözünü tikib o bircə pud mahlıca." (97, s. 34)

Yeni nəsillərin taleyi, cəmiyyətin gələcək qurucuları olaraq uşaqların zəhmət həyatına alışdırılması həlli vacib bir problem kimi M.S.Ordubadini 1920-ci illərdən sonra da ciddi şəkildə düşündürmüşdür. Yazıçı inqilabi çevrilişdən sonra uşaqların təlim-tərbiyəsinin tamamilə unudulmasından, məktəblərin qeyri-normal fəaliyyətindən, uşaq və gənclərə münasibətdə antipedaqoji üsulların həyata keçirilməsindən ürək ağrısı ilə söz açmışdır. Maarifpərvər ziyalı heç cür barışa bilməmişdir ki, bolşevizmin qırğınları nəticəsində küçələr saysız-hesabsız səfil uşaqların əsas sığınacağına çevrilmişdir. Artıq uşaqlar nəinki kütləvi şəkildə təhsildən yayınır, əmək tərbiyəsindən uzaq düşür, hətta küçələrdə milislərin himayəsi altında cibgirlik, oğurluq kimi zərəli vərdişlər qazanırlar. Bəli, M.S.Ordubadinin 1920-ci illərdən sonra qələmə ictimai-siyasi mühitdə ancaq məktəbyaşlı uşaqların səfillik içərisində yaşamasından, məktəblərin xalqın taleyinə biganə insanlara tapşırılmasından danışıldığını görürük. Bu fikirlərin təsdiqi üçün "Molla

Nəsrəddin" jurnalının dekabr 1922-ci il tarixli 8-ci sayında "Hərdəmxəyal" imzası ilə çap olunmuş "Küçə uşaqları" felyetonuna diqqət yetirmək kifayətdir. Felyetonda gecə teatra gedərkən Hərdəmxəyalın küçələrdə qarşılaşdığı mənzərələr canlandırılmışdır. Küçə həyatında isə əsas yeri məhz uşaqlar tuturlar: "Bir azca da uzağa gedəndə gördüm çiyinlərində həsir parçası bir neçə uşaqlar da düzülüb ağlayır, bunlara yaxınlaşanda yanımdakı milis dedi ki, haman küçədə gəzən uşaqları tərbiyə etmək üçün açılan ev buradadır. Bunların miqdarı çox olduğu üçün böyük bina tapılmadığından mərkəzi aclara ianə komisyonu bütün Bakı küçələrini icarəyə götürübdür. Dedim ki, deyirlər bunlar üçün sənətdən, elmdən öyrədirlər.

Milis dedi ki, bəli, burası da doğrudur. Sabah zəhmət çəkib gələrsən milisə, uçastoklarda oradakı uşaq sənətxanalarını sənə nişan verərəm.

Çünki axırımcı vaxtlar küçə uşaqlarına elə sənət öyrədiblər ki, biçarə böyük oğruların əlini taxtaya bağlayıblar." (90, s. 334)

Göründüyü kimi, uşaqların əmək tərbiyəsinə münasibətdə də M.S.Ordubadi məhz maarifçilik mövqeyindən çıxış etmişdir. Yazıçı qəti şəkildə o fikirdə olmuşdur ki, heç bir inqilabi çevriliş birdən-birə sağlam elmi prinsiplərə əsaslanan pedaqoji prosesləri, uşaqların təlim-tərbiyəsini, o cümlədən onların əmək həyatına alışdırılmasını gerçəkləşdirmək gücündə deyildir. Bunun üçün gərəkli ictimai-sosial mühitin olması, təfəkkürlərin elmlə qüvvətləndirilməsi, cəmiyyət daxilində ağlın qələbəsi mühüm şərtdir.

# NƏTİCƏ

Məmməd Səid Ordubadi ədəbiyyat və mədəniyyət tariximizdə görkəmli yazıçı, qabaqcıl bir maarifçi, elm, təhsil carçısı və mütərəqqi fikirli ictimai xadim kimi tanınmış qüdrətli simalardan olmuşdur. Məmməd Səid Ordubadi ərəb, fars, rus dillərini mükəmməl bildiyindən dünya ədəbiyyatına, elmi-pedaqoji fikrinə bələd olmuş və ondan bəhrələnmişdir. Maarif, məktəb, təlim-tərbiyə məsələlərində qabaqcıl nəzəriyyə və təcrübəyə əsaslanmaqla, başqalarının mədəniyyətini kor-koranə təqlid etməyin heç vaxt tərəfdarı olmamışdır.

Məmməd Səid Ordubadinin ömür və sənət yolu deməyə əsas verir ki, yazıçınn bütün həyatı Azərbaycan maarifçilik hərəkatına xidmətdə keçmişdir və bu təsadüfi deyildir. Prinsip etibarilə M.S.Ordubadi maarifçi bir ailənin övladı olmuş, təhsilini bütün varlıqları ilə ziyalılığa bağlı Mirzə Baxşı, Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi kimi görkəmli məktəbdarlardan almışdır. Xüsusən də Fəqir Ordubadi və Məhəmməd Tağı Sidqi məktəblərində aldığı təlim-tərbiyə gənc Məmməd Səid Ordubadinin vətənsevər bir maarifçi kimi formalaşmasında mühüm rol oynamışdır.

Hələ gənc yaşlarından maarifçilik mühitində yaşaması və fəaliyyət göstərməsi M.S.Ordubadinin ictimai-siyasi görüşlərinin kamilləşməsini şərtləndirmiş, gənc yazıçı da digər maarifçi sələfləri kimi xalqın nicatını elmdə, təhsildə, mətbuatda, məktəbdarlıqda görmüş, bu sahələrin inkişafını vacib və gərəkli saymışdır.

Məmməd Səid Ordubadi cəmiyyətin xilas yolunu elmdə gördüyü kimi, elmin cəmiyyətə gətirilməsində də əsas qüvvə olaraq müəllimlərdən söz açmışdır. Daha əhəmiyyətlisi isə yazıçı istər "Həyatım və mühitim" memuarında, istərsə də müxtəlif əsərlərində həyatında mühüm rol oynayan müəllimlərini, o cümlədən, Mirzə Baxşını, Hacıağa Fəqir Ordubadini, Məhəmməd Tağı Sidqini ehtiramla yad etmişdir. Maraqlıdır ki, M.S.Ordubadinin söz sənəti sahəsindəki ilk uğuru Mirzə Baxış məktəbi ilə bağlı olduğundan mübariz mollanəsrəddinçi hətta "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "sözləşmək-beytləşmək" felyetonunda Mirzə Baxış məktəbində əldə etdiyi qələbə ilə bağlı xatirələrindən də faydalanmışdır.

M.S.Ordubadi müəllimi M.T.Sidqinin ölümünə özünün dərin kədərini "Şərqi Rus" qəzetində çap etdirdiyi şeirdə qələmə almaqla yanaşı, "Əski və yeni şeir məktəbləri" məqaləsində Azərbaycan maarifçilik hərəkatı tarixində Hacıağa Fəqir Ordubadi və Məhəmməd Tağı Sidqinin xidmətlərini dəyərləndirməklə bir daha bütün varlığı ilə maarifçilik hərəkatına bağlılığını təsdiqləmişdir.

Yaşadığı cəmiyyətin elmsizlik, cəhalət, mövhumat ucbatından tənəzzülə sürüklənməsi Məmməd Səid Ordubadini ciddi şəkildə düşündürmüş, yazıçı elmsizliyin, cəhalətin, mövhumatın əsas günahkarları kimi, mövcud məktəblərdə hətta islam tarixindən xəbərsiz dərs deyən mollaları günahlandırmışdır.

Əlbəttə ki, Məmməd Səid Ordubadinin Azərbaycan maarifçilik hərəkatında fədakarcasına mübarizə aparması təsadüfi xarakter daşımamışdır. Əslində yazıçı gənc yaşlarından Əliqulu Qəmküsar, Mirzə Cəlil Məmmdəquluzadə, Mirzə Cəlil Şurbi kimi maarifçi

ziyalıların məslək və əqidə dostu olmuş, vətənlərinin yüksəlişi naminə mübarizə yolları axtarmış, sonda bu nəticəyə gəlmişdir ki, köhnə dünyanı dəyişdirmək işində əsas silah məktəbdir, elmdir, təhsildir, mətbuatdır.

Məmməd Səid Ordubadi inkişaf və tərəqqi ideyasını əsas götürərək, fanatik müsəlman ilahiyyatçılarının, yalançı din vaizlərinin saxtakarlıqlarını və riyakarlıqlarını tənqid atəşinə tutmuşdur. O, ictimai həyatdakı sinifləri və bunlar arasındakı ziddiyyətləri, nadanlığı, geriliyi aydın hiss etmiş, onun əsas köklərini maarifsizlikdə, elmsizlikdə gördüyündən maarifçilik ideyasını geniş təbliğ etmişdir. Məmməd Səid Ordubadi insanları maddiyyata üstünlük verən ruhanilərin caynağından xilas etmək üçün xalqı elmə, maarifə çağırmış və bunun üçün daim yollar axtarmışdır ki, bu da onun maarifçi-demokrat dünyagörüşünə malik olduğundan irəli gəlirdi.

Məmməd Səid Ordubadi xalq kütlələri içərisində maarifçi idealların yayılması üçün geniş təbliğat işi aparmış, elmin, təhsilin böyük əhəmiyyətindən danışmış, bununla əlaqədar mətbuat səhifələrində müntəzəm çıxış etmiş, elm və mədəniyyət naminə görülən bütün tədbirlərin həyata keçirilməsində fəal çalışmışdır.

Məmməd Səid Ordubadi ümumi təhsilə geniş yer vermiş, ümumi icbari təhsilin həyata keçirilməsi, məktəb şəbəkələrinin genişləndirilməsi uğrunda ciddi mübarizə aparmışdır. O, gənc nəslin elmlərə yiyələnməsində, savadsızlığın ləğvində, yeni üsullu, dünyəvi təhsil verən, təlim-tərbiyə işləri düzgün təşkil edilmiş qabaqcıl məktəblərin rolunu yüksək qiymətləndirmiş, şüurları zəhərləyən ideyalarla mexaniki əzbərləmənin tətbiq edildiyi köhnə

sxolastik məktəbləri kəskin tənqid atəşinə tutmuşdur. O, xalqın maarifə qovuşmasının zəruri şərti kimi ana dilli ibtidai məktəblərə xüsusi fikir vermiş, eləcə də ana dilində ibtidai məktəblər açılmasını tələb etmişdir

Məmməd Səid Ordubadi böyük rus pedaqoqu K.D.Uşinskinin və müasiri F.Köçərlinin ideyalarından təsirlənərək təlimin ana dilində aparılmasının tərəfdarı olmuş, onların həm siyasi, həm də pedaqoji-didaktik cəhətdən əhəmiyyətini düzgün qiymətləndirmişdir. O, dərsliklərin də sadə, aydın, saf ana dilində elmi əsaslarla, pedaqoji tələblərə cavab verə biləcək səviyyədə tərtib edilməsini tələb etmişdir.

Məmməd Səid Ordubadi tədris fənləri içərisində ana dilinin rolunu xüsusi qiymətləndirmiş, həmçinin özü də bu fəndən dərs deyərək, onun saflığı, varlığı və tədrisinin yaxşılaşdırılması uğrunda mübarizə aparmışdır. Ordubadi Azərbaycan dilini mükəmməl bildikdən sonra xarici dillərin də öyrənilməsinin tərəfdarı olmuşdur. Belə ki, o, rus, fars, ərəb dillərinin öyrənilməsini tövsiyə etmişdir. Pedaqoq həm də gənc nəslin təhsil və tərbiyəsində ümumitəhsil fənlərinin tədrisinə böyük əhəmiyyət vermişdir.

Təlimin tərbiyəedici prinsipini əsas tutan Məmməd Səid Ordubadi tədris planına elə fənləri daxil etməyin tərəfdarı idi ki, tədris prosesində onlar uşaqlarda elmi dünyagörüşü və nəcib əxlaqi sifətlər tərbiyə edə bilsin. O, təlim prosesində əyaniliyə, şüurluluq və fəallığa, sistematikliyə əsaslanmağı lazım bilirdi. Eyni zamanda şagirdlərdə fikri fəallığı, təşəbbüskarlığı, müstəqil düşünmək bacarığını inkişaf etdirən üsulları, xüsusilə suallar, çalışma və təmrinləri yüksək qiymətləndirirdi.

Məmməd Səid Ordubadi həm də müəllim kadrları hazırlığı sahəsində əməli fəaliyyət göstərmişdir.

Məmməd Səid Ordubadi gənc nəslin təlim və tərbiyəsində yeni tipli məktəblə yanaşı müəllimin roluna da böyük əhəmiyyət vermişdir. O, müəllimlik sənətinin "namuslu", "şərəfli", müqəddəs və məsuliyyətli olduğunu göstərərək, müəllimlərdən yüksək ideyalılıq, prinsipiallıq, nəcib əxlaqi keyfiyyət, hərtərəfli bilik, öz üzərində müntəzəm işləmək, biliyini artırmaq, elmin nailiyyətlərindən xəbərdar olmaq, bilikləri gənc nəslə mənimsətməyi bacarmaqı tələb edirdi.

Məmməd Səid Ordubadi istər məktəbdə və istərsə də başqa ictimai yerlərdə tərbiyə işinə təsir edən mühüm amil kimi müəllimin şəxsi nümunəsini yüksək qiymətləndirmişdir. Ordubadiyə görə müəllim işini məktəblə məhdudlaşdırmamalı, o, həm də geniş ictimaiyyət içərisində fəaliyyət göstərməli, xalqın maariflənməsi naminə təbliğat işi aparmalı, məqsədi ancaq və ancaq xalqa, zəhmətkeş kütlələrə ləyaqətlə xidmət etmək olmalıdır. O, təlim və tərbiyəyə vahid bir proses kimi baxmış, bu işi təkcə müəllimin fəaliyyəti ilə məhdudlaşdırmayıb, şagirdlərdən də fəallıq, müstəqillik, səy və çalışqanlıq tələb etmişdir. O, mətbuatın, kitabın, kitabxananın və teatrın təlim-tərbiyə işinə faydalı təsir göstərdiyini qeyd etmişdir. İstər təlim, istərsə də tərbiyə prosesində uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almağı, təlim zamanı didaktikanın asandan çətinə, sadədən mürəkkəbə, məlumdan məchula və s. prinsip qaydalarını gözləməyi vacib bilmişdir.

Məmməd Səid Ordubadi şəxsiyyətin təşəkkülündə tərbiyənin gücünə böyük əhəmiyyət vermiş və onu geniş mənada başa düşmüşdür. Lakin tərbiyənin rolunu həddən artıq şişirtməmiş, irsiy-

yəti, xüsusən mühiti də şəxsiyyətin formalaşmasına təsir edən mühüm amil kimi qəbul etmişdir. Məmməd Səid Ordubadiyə görə tərbiyənin məqsədi Vətənini, xalqını qəlbən sevən, elmli, təhsilli, saf mənəviyyatlı, sağlam əqidəli, geniş dünyagörüşlü, əməksevər, mərd, mübariz vətənpərvər şəxslər yetişdirməkdən ibarətdir. O, tərbiyənin sinfi xarakterdə olduğunu göstərmiş və sübut etmişdir ki, nəcib əxlaq, saf mənəviyyat məhkum sinifdə, əməkçi xalqda daha parlaq təzahür edir. Əxlaq tərbiyəsindən bəhs edərkən Məmməd Səid Ordubadi haqlı olaraq antaqonist siniflərin olduğu cəmiyyətin mahiyyətindən irəli gələn, adamlarda daha çox özünü göstərən acgözlük, mənsəbpərəstlik, fərdiyyətçilik, xəsislik, tamahkarlıq, lovğalıq, paxıllıq, yaltaqlıq, kobudluq və s. kimi sifətləri kəskin tənqid etmişdir.

Artıq spirtli içkinin insan orqanizminə təsirini, eləcə də ailələrin dağılmasına səbəb olmasını əsərlərində canlandıraraq bu naqis adətləri kəskin tənqid etmişdir.

Məmməd Səid Ordubadi gənc nəslin yüksək əxlaqi keyfiyyətlər ruhunda tərbiyə edilməsi işində əxlaqi, pis sifətləri tənqid etməklə kifayətlənməmiş, onlara vətənpərvərlik, humanizm, dostluq, yoldaşlıq, təvazökarlıq, işgüzarlıq, mərdlik, mübarizlik kimi ən ali hisslər aşılamağı lazım bilmiş, bu işdə məktəbin, ailənin, ictimai mühitin, uşaq ədəbiyyatının roluna böyük əhəmiyyət vermişdir.

Məmməd Səid Ordubadi əmək tərbiyəsini əxlaq tərbiyəsi ilə əlaqədə götürmüşdür. O, əməyin tərbiyəedici xüsusiyyətini göstərərək, gənc nəsildə əməyə və əməkçi insanlara məhəbbət tərbiyə etməyi, vətən, xalq naminə vicdanla, namusla işləməyi, sənət öyrənməyi vacib bilmişdir.

Məmməd Səid Ordubadiyə görə hər bir valideyn övladını sevməli, şəxsiyyətinə hörmət etməlidir. Bu sevgi və hörmət uşağın gələcəyini düşünərək, onun davranış və hərəkətinə müntəzəm nəzarətdə, yüksək tələbkarlıqda, elmə, təhsilə, məktəbə həvəs oyatmaqda, müəllimə və bütün insanlığa hörmət və məhəbbət tərbiyə etməkdə özünü göstərməlidir.

Məmməd Səid Ordubadinin pedaqoji ideyalarına yekun vurarkən aşağıdakı nəticələrə gəlirik:

1. Azərbaycan məktəb və pedaqoji fikir tarixində möhtəşəm yer tutan Məmməd Səid Ordubadi həm də yüksək pedaqoji məharətə malik bir müəllim, mədəniyyət tariximizdə qabaqcıl bir maarifçi, elm, mədəniyyət carçısı və mütərəqqi fikirli ictimai xadim kimi tanınmış, görkəmli simalardan biri olmuşdur.

2. Onun dünyagörüşünün formalaşmasına həm antik, həm Şərq (Əl Fərabi, İbn Sina, C.Rumi, Ö.Xəyyam, Platon, Aristotel), həm də mütərəqqi rus ictimai-siyasi fikri güclü təsir etmişdir. Görkəmli pedaqoqun dünyagörüşündə inkişaf və tərəqqi ideyası mühüm yer tutmuşdur. Ordubadinin xalqı elmə, maarifə çağırışı onun demokratik maarifçi dünyagörüşünə malik olmasından irəli gəlirdi.

3. Məmməd Səid Ordubadinin pedaqoji irsində təlim məsələləri - təlimin funksiyaları, prinsipləri, metodları mühüm yer tutur. O, təlimi vahid bir proses kimi götürürdü.

4. Məmməd Səid Ordubadinin pedaqoji irsində təhsil məsələləri mühüm yer tutur. O, ümumi, icbari və pulsuz dünyəvi təhsil ideyasının tərəfdarı olmuş, köhnə məktəblərdəki sxolastik tədris metodlarını tənqid etmişdir.

5. Məmməd Səid Ordubadi XX əsrin əvvəllərində Azərbaycanda genişlənən təlimin ana dilində aparılması ideyasının tərəfdarı olmuş, onun ictimai-siyasi və pedaqoji əhəmiyyətini şərh etmişdir. Dərsliklərin anlaşıqlı, sadə və aydın ana dilində, elmi və pedaqoji əsaslara uyğun yazılmasını tələb edirdi. O, Azərbaycan dilini mükəmməl bilmədən xarici dilləri öyrənməyi məsləhət bilmirdi.

6. Məmməd Səid Ordubadinin pedaqoji irsində müəllim, ona verilən tələblər və hazırlığı məsələləri də geniş yer tutur.

7. Məmməd Səid Ordubadinin pedaqoji fikir irsində ailə tərbiyəsi məsələləri mühüm yer tutur. O, ailə və məktəbin birgə işini, bunlar arasında vahid tələblərin gözlənilməsini, valideynin nümunəsini uşağın tərbiyəsində mühüm şərt sayırdı.

8. Məmməd Səid Ordubadi yeni nəslin tərbiyəsinin məzmunu, məqsədi, həyata keçirilmə imkanları ilə bağlı dəyərli fikirlərə malikdir.

9. Məmməd Səid Ordubadi əmək tərbiyəsini əxlaq tərbiyəsi ilə əlaqədə götürmüş, əməyin tərbiyəedici xüsusiyyətini önə çəkmiş, böyüyən nəsildə əməyə və əməkçi insanlara məhəbbət tərbiyə etməyi, sənət öyrətməyi vacib bilmişdir.

10. Məmməd Səid Ordubadi gənc nəslin əqli və əxlaqi inkişafında uşaq ədəbiyyatına xüsusi əhəmiyyət vermişdir. Məmməd Səid Ordubadi uşaq ədəbiyyatının yüksək ideallı, dərin məzmunlu olmasını, uşaqların hiss və həyəcanlarını, meyl və marağını əks etdirməsini, onun təxəyyül və fantaziyasına uyğun olmasını, sadə, aydın və səlis ana dilində yazılmasını tələb etmiş, bunun üçün uşaq psixologiyasını bilməyi vacib saymışdır.

# RESULT

Mammad Said Ordubadi had been as prominent writer in our literature and culture history, a leading educator, science and education herald, progressive public and a well-known powerful figure. Mammad Said Ordubadi has been familiar with world literature, scientific-pedagogical idea and has benefited from it because he knows Arabic, Persian and Russian languages perfectly. Based on advanced theory and practice in education, school, training and upbringing issues it never supported the culture of others blindly.

The life and art way of Mammad Said Ordubadi basis for all the life of the writer has passed serving to the Azerbaijani enlightenment movement and this is not accidental. In principle, M.Ordubadi has been a child of an enlightened family, he has get education from outstanding school lovers Mirze Bakshı, Fegir Ordubadi, Mahammad Taghı Sidgi who are intelligent with all his possessions. Particularly, the training-education he received in Fagir Ordubadi and Mahammad Taghi Sidgi schools played an important role in the formation of young Mammad Said Ordubadi as a patriotic educator.

Living and working in an enlightened environment from his early age conditioned the development of public-political views of M.S.Ordubadi, the young writer also saw the prosperity of the people in science, education, press, schooling,

as well as other enlightening predecessors and he considered the development of these areas important and necessary. Mammad Said Ordubadi talked about teachers as the main force in bringing the science into society, as he saw the society's salvation path in science.

More importantly the teachers were remembered who played an important role in the life of "My Life and the Environment" and in his different works, including Mirza Bakhsi, Haciaga Fagir Ordubadi, Mahammad Taghı Sidgi were commemorated with respect by writer. It is interesting that M. Ordubadi's first achievement in the art of speech was associated with the Mirza Bakhish school, and he has also benefited from his memories of victory in the Mirza Bakhish school in the "contract- compete in couplets" feuilleton published in the Molla Nasreddin magazine.

M.S.Ordubadi wrote his poignant pain on death of his teacher M.T.Sidgi in poem in the “Eastern Russian” newspaper also in the article "The Old and New Poetry Schools" he once again confirmed his commitment to the enlightenment movement with all its existence, by evaluating the services of Hajiaga Fagir Ordubadi and Mahammad Taghi Sidgi in the history of the Azerbaijani educational movement.

The society he lives in decay dropping due to the ignorance, lack of education, fanaticism was seriously caused to think Mammad Said Ordubadi, even the mullahs who unaware from islamic history were accused as the main sinners of ignorance, superstition, obscurantism by writer in existing schools.

Of course, fighting selflessly of Mammad Said Ordubadi is not accidental in the Azerbaijan enlightenment movement. In fact, the writer was a persuasion and idea friend with educationist intellectuals from early ages as Aligulu Qamkusar, Mirza Jalil Mammadguluzadeh, Mirzə Jalil Shurbi, sought ways to fight for the sake of the rise of his homeland, finally, came to the conclusion that the main weapon in changing the old world is school, science, education and press.

Based on the idea of development and progress, Mammad Said Ordubadi criticized fraud and hypocrisy of fanatical Muslim theologians, false religious preachers.

He has clearly understood the classes of social life and the contradictions between them, ignorance, backwardness and he saw main roots of it in ignorance, uneducated therefore, he propagated the idea of enlightenment widely.

Mammad Said Ordubadi called people to science and education to save the people from the claw, who preferred the material and always sought ways, because it tells about his educational-democratic outlook.

Mammad Said Ordubadi has made extensive propaganda for spreading enlightenment ideas among the masses, talked about the great importance of education, in this regard he made a regular speech in press pages, has been active in implementing all the measures taken for science and culture.

Mammad Said Ordubadi gave a great attention to general education, struggled for the implementation of general compulsory education and expansion of school networks.

He highly appreciated the role of advanced schools that are properly organized in the younger generation's science-acquisition, the elimination of illiteracy, new-style, giving secular education, properly organized training and bringing up the old scholastic schools where the mechanical memories of poisoning ideas have been used harshly criticized.

He gave special attention to native-speaking primary schools as a necessary condition for the enlightenment of the people and demanded the opening of primary schools in their mother tongue.

Mammad Said Ordubadi was influenced by the ideas of great Russian pedagogue K.D.Ushinskiy and his associate F.Kocharli, has been support the main language of the training in mother tongue, evaluated correctly both politically and pedagogically-didactically.

He also required the textbooks compiled in a simple, clear, pure mother tongue with the scientific bases at the level that can reply the requirements.

Mammad Said Ordubadi specifically assessed the role of mother tongue among in teaching subjects and also taught in this subject, fought for the sake of improving its purity, existence and teaching. Ordubadi also had been supporter learning foreign languages after studying Azerbaijan language perfectly. So that he has recommended learning Russian, Persian and Arabic languages.

The pedagogue also attached great importance to the teaching of general education subjects in the education and upbringing of the younger generation. Based on the educator

principle of training, Mammad Said Ordubadi was supporter to incorporate such subjects into the education plan, so that they could educate children in the scientific outlook and moral values.

He needed was based on systematics, intelligence and activity in the learning process. At the same time, he highly appreciated methods, particularly questions, work and tricks, which developing intellectual activity, initiative, ability to think independently of students. Mammad Said Ordubadi also worked in the field of teacher training.

Mammad Said Ordubadi attached great importance to the role of the teacher in the education and upbringing of the younger generation along with the new school. He saw that teaching art is "honourable", "glorious", sacred and responsible and he demanded a higher idea, principled, noble moral quality, comprehensive knowledge, regular work on self, knowledge enhancement, awareness of science achievements, ability to master knowledge with younger generations from teachers.

Mammad Said Ordubadi highly appreciated the teacher's personal example as an important factor influencing the upbringing work at school and in other public places. According to Ordubadi, teacher should not restrict his work to the school, he also should work in the community he must propagandize for enlighten of people, his goal should be only and only to serve the people and the working masses decently.

He viewed education and upbringing as a unit process, not only restricted the work of a teacher and he demanded students' activity, independence, diligence and assiduity.

He noted that the media, the book, the library and the theatre had a beneficial effect on the training and education work.

Whether it is important to take into consideration the age and personality of the children in the learning process and in the educational process, during the training from easy to harder of didactic, from simple to complex, from known to unknown and so on principal rules. Mammad Said Ordubadi attached great importance to the power of education in the formation of personality and understood it in a broad sense.

However, the role of education has not exaggerated, and inheritance, especially the environment is an important factor influencing the formation of personality. According to Mammad Said Ordubadi, the purpose of education is bringing up educated, intellectual, purely moral, healthy faith, broad-minded, industrious, courageous and patriotic individuals who loves his country and people heartily.

He showed that discipline is in a class character and proved that noble morality, pure spirit are manifested brightly in the convicted class and working people. While talking about moral upbringing, Mammad Said Ordubadi rightly criticized the faces as gluttony, ambitiousness, individualism, stinginess, avidity, stupidity, envy, flattery, rudeness which coming from essence of the society in the antagonist classes and showing more in persons. Already the effects of alcohol on the human body, as well as the disintegration of  families which he has revived in his works and these defective customs has sharply criticized.

Mammad Said Ordubadi was not content with criticizing moral, evil attributes of the younger generation in the spirit of high moral qualities as well as to instil in them the greatest feelings such as patriotism, humanism, friendship, companionship, humility, efficiently, courage, bellicosity in this regard, attached great importance to the role of school, family, social environment and children's literature. Mammad Said Ordubadi has connected labour education with moral upbringing.

He has shown the educative feature of labour and considered important to educate love to labour and labourer people in young generation and to work for homeland, nation conscientiously, honestly and to learn profession. According to Mammad Said Ordubadi, all parents have to love his child and respect their personality.

This love and respect should reflect thinking the future of the child, in regular control of his behaviour and movement, in high demand, motivate science, education and school, to educate respect and love to the teacher and all humanity.

Summing up the pedagogical ideas of Mammad Said Ordubadi, we come to the following conclusions:

1. Mammad Said Ordubadi, who has a great place in the school and pedagogical thought history of Azerbaijan, also has been one of the notable, well-known personalities as a teacher with high pedagogical skills, leading educator in our cultural history, heralds of science, culture and progressive public figure.

2. The formation of his outlook was strongly influenced by both ancient and Eastern (Al Farabi, Ibn Sina, C.Rumi, O.Hay-

yan, Platon, Aristotel), also progressive Russian socio-political views. In the outlook of the prominent educator, the idea of development and progress has taken a major place. Ordubadi's call people to science and education was due to his democratic enlightenment outlook.

3. Teaching issues- teaching functions, principles, methods play an important role in the pedagogical heritage of Mammad Said Ordubadi. He took the training as a single process.

4. The educational issues takes important place in pedagogical heritage of Mammad Said Ordubadi. He has been a supporter of the idea of universal, compulsory and free secular education and criticized the scholastic teaching methods in old schools.

5. Mammad Said Ordubadi was a supporter of the idea of conducting extensive training in the mother tongue in early XX century, commented on its socio-political and pedagogical significance. He required the writing of textbooks in a comprehensive, simple and clear mother tongue, relevant writing on scientific and pedagogical basis. He could not advise to learn foreign languages without to know Azerbaijani language perfectly.

6. The teacher, requirements and preparation issues have wide place in pedagogical heritage of Mammad Said Ordubadi.

7. The family education issues play an important role in pedagogical thought heritage of Mammad Said Ordubadi. He considered the joint work of the family and the school, the expectation of unified demands among them and the parent's example as an important condition in the child's upbringing.

8. Mammad Said Ordubadi has valuable insights on the content, purpose and implementation possibilities for the upbringing of the new generation.

9. Mammad Said Ordubadi has taken in connection labour education with moral upbringing, has promoted the educative feature of labour, considered important educating affection to labour and labourer people and teaching art.

10. Mammad Said Ordubadi attached special importance to children's literature in the mental and moral development of the younger generation. Mammad Said Ordubadi has demanded that children's literature should be of high ideals, deep content, reflecting children's feelings and excitements, tendencies and interests, must relevant to his imagination and fantasy, should be in simple, clear and fluent mother tongue and for this has considered important to know child psychology.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abbasova N. Ailədə uşaqlara əxlaqi keyfiyyətlərin aşılanması yolları // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2011, № 2, s. 286 286-288
2. Ağayev Ə. Fərhad Ağazadənin pedaqoji görüşləri. Bakı: Maarif, 1987
3. Ağayev Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı: Elm, 2000
4. Ağayev İ. Əliqulu Qəmküsar. Bakı: Elm, 1976
5. Ağayev M.N. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı: ADPU, 2011
6. Axundlu Y.İ. Məmməd Səid Ordubadi. Bakı: Sabah, 1997
7. Axundlu Y.İ. Məmməd Səid Ordubadi. Bakı: Elm və təhsil, 2012
8. Axundlu Y.İ. Seçilmiş əsərləri. 3 cilddə, I cild. Naxçıvan – yurdum mənim. Naxçıvan: "Əcəmi" NPB, 2013
9. Axundov Y.İ. Azərbaycan sovet tarixi romanı. Bakı: Yazıçı,1979
10. Axundov Y.İ. Roman və tarix. Bakı: Yazıçı, 1988
11. Axundov Y.İ. Tarixi roman və müasirlik. Bakı: Elm, 1975
12. Arif M. Seçilmiş əsərləri. 3 cilddə. I-III cildlər. Bakı: Azərbaycan EA nəşriyyatı, 1967
13. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, III cild. Bakı: Elm, 1983
14. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, IV cild. Bakı: Elm, 1987
15. Bağırov N. M.S.Ordubadi və tarixi roman janrı. Bakı: Azərnəşr, 1968.
16. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984

17. Bəşirov V.P. Azərbaycan maarifpərvərlərinin mütərəqqi pedaqoji ideyalarının inkişafı (1970-1920-ci illər). Bakı: Oka-Ofset, 2008
18. Camalov K. Böyük mütəfəkkirlərin maarifçilik ideyaları. Naxçıvan: Əcəmi, 2015
19. Camalov K.H. Hüseyn Cavidin pedaqoji ideyaları. Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Naxçıvan: Qeyrət, 2004
20. Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri (müəlliflər kollektivi). Bakı: Azərnəşr, 1967
21. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014
22. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1985
23. Əkbər Məftun. Məmməd Səid Ordubadi. Bakı: Yazıçı, 1987
24. Əkinçi. 1875-1877. Tam mətni. Bakı: Avrasiya Press, 2005
25. Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1959
26. Əliqulu Qəmküsar: taleyi və sənəti. Bakı: Elm və təhsil, 2011
27. Əliyev İ. İbtidai təhsilin pedaqogikası. Naxçıvan: Naxçıvan Özəl Universiteti Dizayn və Poliqrafiya Mərkəzi, 2011
28. Əliyev İ. Pedaqogka. Naxçıvan: Əcəmi, 2017
29. Əsədullayev S. Tarix, sənətkar, müasirlik. Bakı: Gənclik, 1975
30. Əsgərov B. Məmməd Səid Ordubadinin dramaturgiyası. Bakı: “E.L.” NPŞ, 2013
31. Əliyev Y. Böyük yazıçı. Bakı: Gənclik, 1979
32. Əziz Şərif. M.F.Axundov haqqında.
33. Əziz Şərif. Molla Nəsrəddin necə yarandı. Bakı: Azərnəşr, 1986
34. Fikrin karvanı (Müəlliflər kollektivi). Bakı: Yazıçı, 1984
35. Həbibbəyli İ. Böyük ədəbiyyat nəhəngi. Bakı: Elm və təhsil, 2012

36. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997
37. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə və ədəbi mühiti. Bakı: ADPU nəşriyyatı, 1990
38. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007
39. Həbibbəyli İ. Ədəbi şəxsiyyət və zaman. Əsərləri, 10 clddə, II cild. Bakı: Elm və təhsil, 2017
40. Həbibbəyli İ. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. Bakı: Nurlan, 2004
41. Həbibbəyli İ. Nuhçıxandan Naxçıvana. Bakı: Elm və təhsil, 2015
42. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı: "Nasir" nəşriyyatı, 2007, s. 334)
43. Həşimov Ə. Culfadan başlanan yol // Əliqulu Qəmküsar: taleyi cə sənəti. Bakı: Elm və təhsil, 2011
44. Həşimli H. Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2009, s. 93
45. Hüseynov F. Adi əhvalatlarda böyük həqiqətlər. Bakı: Gənclik, 1974
46. Hüseynov F. "Molla Nəsrəddin" və mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986
47. Hüseynov F. Satirik gülüşün qüdrəti. Bakı: Yazıçı, 1982
48. Hüseynzadə L. Görüşlərim. "Ədəbiyyat və incəsənət" qəzeti, 18 noyabr 1972, №47 (1705))
49. Hüseynzadə R.L. M.T.Sidqi dilimiz və məktəbimiz haqqında. Bakı: Müəllim, 2005
50. Hüseynzadə R., İsmayılova M. Tərbiyə işi və onun metodikası. Bakı: ADPU mətbəəsi, 2012

51. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989
52. Xəlilli Q. Azərbaycan romanının inkişaf tarixindən. Bakı: Elm, 1973
53. İbrahimov F., Hüseynzadə R. Pedaqofika. 2 clldə, II cild. Bakı: Mütərcim, 2013
54. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı, Azərnəşr, 1961.
55. İman Cəfər. Azərbaycan ədəbiyyatında səyahətnamə. Bakı: Elm, 2001
56. İsayev İ.N., Rüstəmov F.A. M.V.Vidadinin, M.P.Vaqifin, Q.Zakirin təlim-tərbiyə haqqında fikirləri. Bakı: ADPU-nun nəşri, 1994
57. XX əsr Azərbaycan poeziyası. Bakı: Yazıçı, 1988
58. Kazımov N. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002
59. Kərimova S. Bəxtiyar Vahabzadə yaradıcılığında tərbiyə məsələləri
60. Köçərli F. Seçilmiş əsərləri. Bakı: Elm, 1963
61. Qarayev Y. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988
62. Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980
63. Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003
64. Qədimov Ə. XIX əsr Ordubad ədəbi mühiti. Bakı: ADPU nəşriyyatı, 2010
65. Quliyev Ə. "Şərqi-Rus"da birləşən yollar // Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan: "Əcəmi" NPB, 2015
66. Qurbanov Ş. Ömər Faiq Nemanzadə. Bakı: Gənclik, 1992
67. Qurbanov Ş. Ömrün fikir dünyası. Bakı: Yazıçı, 1991
68. Maqsudov E.S. Azərbaycan dilinin tədqiqi və tədrisi məsələləri. Bakı: Elm və təhsil, 2012

69. Marağayi Z. İbrahim bəyin səyahətnaməsi və ya təəssübkeşliyin bəlası. Bakı: Elm, 1982
70. Məhəmməd Tağı Sidqi. Məktəb hekayələri. Bakı: Sabah, 1996
71. Məhəmməd Tağı Sidqi: taleyi və sənəti. Naxçıvan: "Əcəmi" NPB, 2015
72. Məmməd Cəfər. Cəlil Məmmədquluzadə. Bakı: Azərnəşr, 1966
73. Məmmədquluzadə C. Əsərləri. IV clddə, I cild. Bakı: Öndər, 2004
74. Məmmədquluzadə C. Əsərləri. IV cilddə, II cild. Bakı: Öndər, 2004
75. Məmmədquluzadə C. Əsərləri. IV cilddə, III cild. Bakı: Öndər, 2004
76. Məmmədli Q. İmzalar. Bakı: Azərnəşr, 1977
77. Məmmədli Q. Molla Nəsrəddin. Bakı: Gənclik, 1984
78. Məmmədli Q. Üzeyir Hacıbəyov. 1885-1948. Həyat və yaradıcılığının salnaməsi. Bakı: Yazıçı, 1984
79. Məmmədov A. Nəsrin poetikası. Bakı: Yazıçı, 1990
80. Məmmədov Ə. Azərbaycan bədii nəsri. Bakı: Elm, 1983
81. Məmmədov K. Əbdürrəhimbəy Haqverdiyev. Bakı: Gənclik, 1970
82. Məmmədov K. XX əsr Azərbaycan gülüşü. Bakı: Yazıçı, 1989
83. Məmmədli A. "Molla Nəsrəddin" ədəbi məktəbində milli varlıq problemləri. Bakı: Elm, 2012
84. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan, 2004
85. Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982
86. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. Bakı: Yazıçı, 1980

87. Mollanəsrəddinçi şairlər. Bakı: Yazıçı, 1986
88. Molla Nəsrəddin. 12 cilddə, I cild. Bakı: Elm, 1988
89. Molla Nəsrəddin. 10 cilddə, II cild. Bakı: Azərnəşr, 2002
90. Molla Nəsrəddin. 8 cilddə, V cild. Bakı: Çinar-çap, 2009
91. Molla Nəsrəddin. 8 cilddə, VI cild. Bakı: Çinar-çap, 2010
92. Molla Nəsrəddin. 8 cilddə, VIII cild. Bakı: Çinar-çap, 2010
93. Mollayev İ. Məhəmməd Tağı Sidqinin pedaqoji görüşləri. Bakı: Maarif, 1996
94. Nizami Gəncəvi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. IV cild. Bakı: Elm, 1985
95. Ordubadi Fəqir. Ağlar qələm əlimdə. Bakı: Yazıçı, 1989
96. Ordubadi M.S. Əsərləri. 8 cilddə, I cild. Bakı: 1964
97. Ordubadi M.S. Əsərləri. 8 cilddə, II cild. Bakı: 1964
98. Ordubadi M.S. Əsərləri, 8 cilddə, VII cild. Bakı: Azərnəşr, 1966
99. Ordubadi M.S. Əsərləri, 8 cilddə, VIII cild. Bakı: Azərnəşr, 1967
100. Ordubadi M.S. Həyatım və mühitim. Bakı: Azərnəşr, 1996
101. Ordubadi M.S. Həyatım və mühitim. Naxçıvan: “Əcəmi” NPB, 2012
102. Orucova S.A. Üzeyir Hacıbəyovun pedaqoji görüşləri (Fəlsəfə doktoru dissertasiyası). Bakı: 1978
103. Paşayev A. “Molla Nəsrəddin”: dostları, düşmənləri. Bakı: Gənclik, 1982
104. Rəfiyev C. Ordubadda ilk məktəblər // “Azərbaycan müəllimi” qəzeti, 16 fevral, 1990, №11.
105. Rzayev V. XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr. Naxçıvan: Əcəmi NPB, 2016
106. Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006

107. Sədi Şirazi. Gülüstan. Bakı: Azərnəşr, 1987
108. Sədi Şirazi. Seçilmiş əsərləri. Bakı: Öndər nəşriyyat, 2004
109. Sidqi M.T. Seçilmiş pedaqoji əsərləri. Bakı
110. Vəlixanov N. Azərbaycan maarifçi-realist ədəbiyyatı. Bakı: Elm, 1983
111. Vəzirova F. M.S.Ordubadi. Bakı: Elm, 1972
112. Zamanov A. Əməl dostları. Bakı: Yazıçı, 1979
113. http://tehsil-zaman.blogspot.com/p/milli-vtnprvrlik-trbiysi.html

# MÜNDƏRİCAT

**GİRİŞ** .......................................................................................... **3**

**THE ENLIGHTENER VIEWS OF MAMMAD SAID ORDUBADI**
**Introduction** ............................................................................ **7**

**I FƏSİL**
**GÖRKƏMLİ MAARİFÇİ ƏDİB MƏMMƏD SƏİD ORDUBADİ HAQQINDA** ........................................................ **11**
1.1. Məmməd Səid Ordubadinin həyatı və yaradıcılığı ..............................12
1.2. M.S.Ordubadinin ictimai-siyasi görüşləri ...........................................34

**II FƏSİL**
**MƏMMƏD SƏİD ORDUBADİ VƏ MƏKTƏB** ........................................**53**
2.1. Məmməd Səid Ordubadinin məktəb təhsili və müəllimləri ..................54
2.2. Məmməd Səid Ordubadi və Məhəmməd Tağı Sidqi ............................67
2.3. M.S.Ordubadi və maarifçi ziyalılar ......................................................85
2.4. M.S.Ordubadi məktəb və müəllim haqqında ........................................96

**III FƏSİL**
**MƏMMƏD SƏİD ORDUBADİNİN MAARİFÇİ GÖRÜŞLƏRİ** ............**115**
3.1. M.S.Ordubadi və maarifçilik hərəkatı ...............................................116
3.2. M.S.Ordubadinin vətənpərvərlik baxışları ......................................... 129
3.3. Məmməd Səid Ordubadi və ana dili ...................................................137
3.4. Məmməd Səid Ordubadi əxlaq tərbiyəsi haqqında .............................152
3.5. Məmməd Səid Ordubadi ailə tərbiyəsi haqqında ................................165
3.6. Məmməd Səid Ordubadi əmək tərbiyyəsi haqqında ............................173

**NƏTİCƏ** ......................................................................................**183**

**RESULT** ...................................................................................... **191**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** ..................................................**200**

**RÜHƏNGİZ ƏLİYEVA**

*(Əliyeva Rühəngiz Məmməd qızı)*

# MƏMMƏD SƏİD ORDUBADİNİN MAARİFÇİ GÖRÜŞLƏRİ

Çapa imzalanmışdır: 17.04.2019
Formatı: 60x84 1/16
Həcmi: 13 ç.v.
Sayı:500
Sifariş: 251

---

Kitab «ADİLOĞLU» MMC-nin mətbəəsində
ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəh., Nəsimi ray., Tbilisi pr., 3007-ci məhəllə., 44 C
Tel.: (+994 50) 251-16-01, (+994 50) 593 27 77, (+99455) 339 75 77
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com